# AZƏRBAYCAN DİLİ

DÖVLƏT DİLİ

9




METODİK VƏSAİT

SEVİL CAVADOVA

*Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün*

# AZƏRBAYCAN DİLİ

*(dövlət dili) fənni üzrə dərsliyin*

## METODİK VƏSAİTİ

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

# MÜNDƏRİCAT


Giriş ........................................................... 3
Məzmun xətləri üzrə əsas və alt standartlar ....... 7
Təlimin təşkilinin forma və üsulları barədə tövsiyələr ............................................ 8
Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair nümunələr............................................ 12
İllik planlaşdırma nümunəsi ............................ 13
Təlim məqsədlərinin düzgün reallaşdırılması ilə bağlı tövsiyələr ......................................... 18
Şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınması ......................................... 19
Dərslikdə verilmiş müxtəlif janrlardan olan əsərlərin oxusu ilə bağlı tövsiyələr................. 20
Nitqin inkişaf etdirilməsi üçün oxu modelləri ..... 22
Dərslikdə verilmiş müxtəlif çalışma və yazı işləri ilə bağlı tövsiyələr ......................................... 24
İnteqrativlik prinsipinin nəzərə alınması ............ 25
Reallaşdırılacaq fənlər və standartlar üzrə inteqrasiya cədvəli ................................ 26
Məzmun standartlarının reallaşması cədvəli.......................................................... 29
Qiymətləndirmədən düzgün istifadə ilə bağlı tövsiyələr ......................................... 32

**Məktəb və fərd ............................................... 37**
Hansı peşə daha yaxşıdır?.............................. 38
Hekayət ......................................................... 40
Kərpickəsən qocanın hekayəti (I saat) ............. 43
Kərpickəsən qocanın hekayəti (II saat) ............ 45
Mətn (I saat) ................................................... 47
Mətn (II saat) .................................................. 51
Finlandiyada təhsil və tərbiyə (I saat) ............... 54
Finlandiyada təhsil və tərbiyə (II saat) .............. 57
İnsanlar (I saat)................................................. 59
İnsanlar (II saat)................................................ 62
Seyid Əzim yadigarı (I saat) ............................. 64
Seyid Əzim yadigarı (II saat) ............................ 67
Sağ ol, ana dilim (I saat).................................... 69
Doğma dilim, sən ki varsan dünyada... (II saat).................................... 71
Kiçik Summativ Qiymətləndirmə....................... 74

**Cəmiyyət və mədəniyyət................................ 76**
İncəsənət haqqında əsas anlayışlar (I saat)........... 77
İncəsənət haqqında əsas anlayışlar (II saat).... 80
Bəstəkarın portreti (I saat) ................................ 83
Bəstəkarın portreti (II saat) ............................... 87
Mətn (I saat) ................................................... 89
Mətn (II saat) .................................................. 92
Əbdülbağı Zülalov Bülbülcan............................ 94
Minnətsiz çörək (I saat) .................................... 97
Minnətsiz çörək (II saat) .................................. 99
Unudulmaz xatirə (I saat) ............................... 102
Unudulmaz xatirə (II saat) .............................. 105
Haqqın səsi (I saat) ........................................ 107
Haqqın səsi (II saat) ....................................... 109
Həmrəylik (hesabatın hazırlanması)............... 111
Kiçik Summativ Qiymətləndirmə..................... 114

**Tarixi abidələr – abidələrin tarixi................ 119**
İçərişəhər məhv edilməkdən necə xilas oldu? (I saat)...................................... 119
İçərişəhər məhv edilməkdən necə xilas oldu? (II saat).................................... 122
Bakı–1501 (I saat) .......................................... 124
Bakı–1501 (II saat) ......................................... 127
20 Yanvar ...................................................... 129
"Əbədi məşəl" abidəsi qəhrəmanlıq və rəşadətin əbədiləşən təsviridir................................... 132
Zivərbəy Əhmədbəyov (I saat) ....................... 135
Zivərbəy Əhmədbəyov (II saat) ...................... 137
Osmanlı dövlətinin ilk baş memarı – Təbrizli Memar Əli (I saat) .......................... 139
Osmanlı dövlətinin ilk baş memarı – Təbrizli Memar Əli (II saat) ......................... 142
Fit qalası (I saat)............................................. 144
Fit qalası (II saat)............................................ 146
Tsin Şi Xuandinin məqbərəsi (I saat).............. 148
Tsin Şi Xuandinin məqbərəsi (II saat)............. 150
Büllur piramida............................................... 153
Kiçik Summativ Qiymətləndirmə..................... 155

**Mənəviyyat cəmiyyətin təməlidir................. 158**
Konfutsinin əxlaq nəzəriyyəsi (I saat)............. 159
Konfutsinin əxlaq nəzəriyyəsi (II saat)............ 161
Nəsihət (I saat) ............................................... 163
Nəsihət (II saat) .............................................. 165
Dünyanı yandıran ah (I saat).......................... 167
Dünyanı yandıran ah (II saat)......................... 169
Yenə bir arzu qaldı.......................................... 171
Mətn (I saat) ................................................... 173
Mətn (II saat) .................................................. 176
Düzgün qərar (I saat)...................................... 178
Düzgün qərar (II saat)..................................... 180
Peçenye oğrusu (I saat) ................................. 182
Peçenye oğrusu (II saat) ................................ 184
Körpü .............................................................. 186
Kiçik Summativ Qiymətləndirmə..................... 188

Azərbaycan dilinin orfoqrafiya normaları.................................................... 192
İstifadə olunmuş ədəbiyyat............................. 200

# GİRİŞ

***Hörmətli müəllimlər!***

Təlim digər dillərdə olan ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün Azərbaycan dili dərslik komplekti dərslik və metodik vəsait şəklində, fənnin tədrisi həftədə 2 saat olmaqla 34 həftəyə planlaşdırılmışdır. Hər bölmənin sonunda ümumiləşdirici təkrar, Kiçik Summativ Qiymətləndirmə (KSQ), yarımilin sonunda isə Böyük Summativ Qiymətləndirmə (BSQ) keçirilməsi nəzərdə tutulmuşdur.

Dərslik dörd bölməni əhatə edir:

I bölmə – "Məktəb və fərd" adlanır.

II bölmə – "Cəmiyyət və mədəniyyət" adlanır.

III bölmə – "Tarixi abidələr – abidələrin tarixi" adlanır.

IV bölmə – "Mənəviyyat cəmiyyətin təməlidir" adlanır.

Hər dörd bölmədə mövzular standartlar üzrə qruplaşdırılmışdır. Dörd məzmun xəttinin tələbləri gözlənmiş, standartdan çıxan məqsədlərin özünü doğrultması diqqət mərkəzində saxlanmışdır. Dərslikdə şagirdlərin şifahi və yazılı nitqin formalaşması, dünyagörüşünün zənginləşdirilməsi məqsədilə verilmiş mətnlər məzmun baxımından bənzər seçilmiş, ahəngdarlıq gözlənmişdir. Tədris vahidləri və mövzular arasındakı məntiqi, xronoloji və sadədən mürəkkəbə ardıcıllığı əsas prinsip seçilmişdir.

Seçilmiş mətnlər nitq bacarığını – dinləmə, oxu, danışma, yazı inkişaf etdirməyə birbaşa xidmət edir. Hər mətnə uyğun şəkildə tapşırıqlar verilmiş və bu tapşırıqlar vasitəsilə qrammatik qaydaların mənimsənilməsi nəzərdə tutulmuşdur. Bu baxımdan mətnlərin üslubi imkanları nəzərə alınmış, müxtəlif üslublarda olmasına diqqət yetirilmişdir.

Vəsaitdə əsas istiqamət mətn üzrə işdir. Bunun üçün müxtəlif xarakterli tapşırıqlar, çalışmalar seçilmişdir. Bütün tapşırıqlar prosedural və kontekstual xarakterlidir. Şagirdlərə müstəqil çalışma üçün istiqamət verilmiş, layihələrə cəlb edilmələrinə, sərbəst şəkildə işləmələrinə şərait yaradılmışdır. Müstəqil təqdimatlar, sərbəst mövzuda mətnqurmalar, yaradıcı layihələr seçilərək şagird təfəkkürünün formalaşması üçün zəmin hazırlanmışdır.

Dərslikdə **məntiqi təfəkkürün** inkişafı üçün *təsvir et, müqayisə et, oxşarlıqları və fərqləri tap, təsnif et, dəyişdir, müəyyən et, əlaqəni aşkar et, sxem, qrafik, cədvəl düzəlt, tərtib et, davam et, təhlil et, izah et, şərh et, nəticə çıxar, səbəbi tap* kimi tapşırıqlar nəzərdə tutulub.

**Tənqidi təfəkkürün** inkişafı üçün müxtəlif baxış nöqtələrindən *qiymətləndir, əhəmiyyətini, rolunu qiymətləndir, səhvləri tap, mübahisəli məqamları aşkar et, tənqidi yanaş, düzgün olanı seç, öz ideyanı əsaslandır, sübut et* tapşırıqları nəzərdə tutulmuşdur.

**Yaradıcı təfəkkürün** inkişafı üçün *mətn qur, tətbiq et, problemi müəyyən et, fərziyyələr irəli sür, dəyişikliklər et, yarat, yenidən tərtib et, proqnoz ver, müqayisə et və analoqu tap, yarat, tərtib et* tapşırıqları seçilmişdir.

Şagirdlərə debatlar aparmaq, müzakirələrdə iştirak etmək, mühakimələr irəli sürmək, fikrini sərbəst ifadə etmək üçün tapşırıq nümunələri təklif olunmuşdur. Bütün mətn, qrammatik qayda və tapşırıqlar fənnin məqsədinə, standartların tələblərinə yönəlmişdir.

İnklüzivliyi təmin etmək üçün tapşırıqlar müxtəlif çətinlikdə seçilmişdir. Peşəkar müəllim diferensiallığı qoruyaraq tapşırıqları səviyyələrə uyğun qruplaşdırmaqda çətinlik çəkməyəcək. Dərslikdə xüsusi istedadlı şagirdlərin təkrar çalışmalardan və dərslərin onlar üçün artıq maraqsız olmasından darıxaraq fəndən uzaqlaşmaması üçün bu tip şagirdlərin potensiallarını düzgün istiqamətə yönəltmək üçün xüsusi yanaşmalar müəyyən edilmişdir. Belə şagirdlərin istedadından nitq, sosial, psixomotor bacarıqların formalaşması üçün istifadə etmək tövsiyə edilir. Bu şagirdlər daha çox fikirlərini izah etmək məqsədilə “Nə üçün?”, “Nə səbəbə?” kimi suallara cavab verməyi xoşlayır. Dərslikdə verilmiş məsələlərin oxşarını qurmaq, bu tapşırıqları onların özü tərəfindən çətinləşdirmək kimi tapşırıqları yerinə yetirməyi tapşırmaq, onların informasiya texnologiyalarından daha geniş və düzgün istifadə etməsini reallaşdırmaq istedadlı müəllim üçün çətin olmamalıdır.

Dərslikdə verilmiş “Benin Meri barədə xatirələri” şagirdlərdə fiziki qüsurlu insanlara qarşı diqqət formalaşdırmağa, onlar üçün incəsənətin, təhsilin, idmanın müyəssərliyinin artırılmasına xidmət edir. Bu mətn nikbin sonluqla bitir. Bu isə uşaqlarda gələcəyə inam, həyatda əzmlə hər şeyin mümkünlüyünü göstərir.

Mətnlər seçilərkən irqi, dini ayrı-seçkiliyin yolverilməzliyi önəmli hesab olunub. “Finlandiyada təhsil və tərbiyə”, “Tsin Şi Xuandinin məqbərəsi”, “Konfutsinin əxlaq nəzəriyyəsi” mövzuları müxtəlif millətlərin nümayəndələrinin nümunəvi cəhətlərinin vurğulanmasına həsr olunmuşdur.

“İnsanlar”, “Yenə bir arzu qaldı” mətnlərində qadına, anaya hörmət aşılanmış, “Zivərbəy Əhmədbəyov” mətnində Nabat Aşurbəyovanın ölkəmiz üçün etdiyi əvəzsiz xidmətlər sadalanmışdır. Gender bərabərliyinə həssas yanaşmanı təmin

etmək üçün mətnlərdə və şəkillərdəki obrazlar arasında oğlan və qızların bərabər verilməsinə, qadının cəmiyyətdəki roluna diqqət yetirilmişdir.

Milli-mənəvi dəyərlərə həssas yanaşma məqsədilə dərslikdə xüsusi tədris vahidləri nəzərdə tutulmuşdur. Xalqımızın milli-mənəvi dəyərləri xüsusi diqqət mərkəzində saxlanmışdır. "Mədəniyyət", "Tarixi abidələr" tədris vahidləri bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Bu bölmələrdə şagirdlər milli-mənəvi dəyərlərin daşıyıcısı olan insanlar, məkanlarla tanış olur, soy-kökümüzə yaxından bələd olurlar.

Milli qürur tariximizin şanlı səhifələrinə həsr olunan "Əbədi məşəl" abidəsi qəhrəmanlıq və rəşadətin əbədiləşən təsviridir", "Dünyanı yandıran ah" mövzuları vətənpərvərlik hissinin aşılanması üçün əvəzsizdir.

Mətnlər şagirdləri əlavə vəsaitlərdən istifadəyə yönləndirir. İKT – kompüter texnologiyalarından istifadə etməklə təqdimatların hazırlanması buna misaldır. Müəllim "Ağıllı lövhə"dən istifadə ilə dərsi daha da maraqlı edə bilər. "Mimio XI", "SMART", "PROMETAN" qurğularından istifadə ilə dərsin interaktivləşdirilməsi tövsiyə olunur. Təqdimatların hazırlanması ilə bağlı qaydalar vəsaitdə geniş şərh olunub.

**Təlim rus dilində olan ümumtəhsil məktəblərinin**
**9-cu sinfi üçün Azərbaycan dili fənni üzrə**

## MƏZMUN STANDARTLARI

*9-cu sinfin sonunda şagird:*

- dinlədiyi mətnin məzmununu şərh edir, fikirlərlə bağlı mühakimə yürüdür;
- mürəkkəb cümlələri qrammatik normalara uyğun tələffüz edir;
- nitq etiketlərindən məqamında istifadə edir;
- müzakirədəki ümumiləşmiş fikirlərə münasibətini bildirir, fikirlərini məntiqi ardıcıllıqla ifadə edir;
- mətndəki söz və ifadələrin kontekstə uyğun mənasını izah edir, məqsəd və intonasiyaya görə cümlələri düzgün oxuyur;
- mətndəki fikirlərə münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır;
- mənbələrdən istifadə etməklə rabitəli mətnlər yazır, özünün və başqasının yazısını təkmilləşdirir;
- mürəkkəb cümlədə, vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir;
- müxtəlif əməli yazılar (hesabat, akt) yazır.

## Məzmun xətləri üzrə əsas və alt standartlar

**1. Dinləyib-anlama**

*Şagird:*

1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.
1.1.1. Dinlədiyi mətnin məzmununu şərh edir.
1.1.2. Dinlədiyi mətndəki fikirlərlə bağlı mühakimə yürüdür.

**2. Danışma**

*Şagird:*

2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.
2.1.1. Mürəkkəb cümlələri qrammatik normalara uyğun tələffüz edir.
2.1.2. Nitq etiketlərindən məqamında istifadə edir.
2.1.3. Müzakirədəki ümumiləşmiş fikirlərə münasibətini bildirir.
2.1.4. Fikirlərini məntiqi ardıcıllıqla ifadə edir.

**3. Oxu**

*Şagird:*

3.1. Mətni mənimsədiyini nümayiş etdirir.
3.1.1. Mətndəki söz və ifadələrin kontekstə uyğun mənasını izah edir.
3.1.2. Məqsəd və intonasiyaya görə cümlələri düzgün oxuyur.
3.1.3. Mətndəki fikirlərə münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır.

**4. Yazı**

*Şagird:*

4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.
4.1.1. Mənbələrdən istifadə etməklə rabitəli mətnlər yazır.
4.1.2. Məntiqi ardıcıllığı gözləməklə özünün və başqasının yazısını təkmilləşdirir.
4.1.3. Mürəkkəb cümlədə, vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir.
4.1.4. Müxtəlif əməli yazılar (hesabat, akt) yazır.

## Təlimin təşkilinin forma və üsulları barədə tövsiyələr

Şagirdin öyrənməyə və həyati bacarıqlara yiyələnməyə marağını şərtləndirən fəal təlim prosesində aşağıdakı mərhələlər mühüm didaktik əhəmiyyət daşıyır:

- Düşünməyə yönəltmə mərhələsi;
- Dərketmə mərhələsi;
- Düşünmə mərhələsi.

Düşünməyə yönəltmə mərhələsində şagirdlər öyrəndikləri bilikləri təhlil etməyə və araşdıracaqları mövzu ətrafında düşünməyə sövq edilir. Şagird ilk olaraq mövzu ilə əlaqədar biliklərinin səviyyəsini müəyyənləşdirir və bəzi hallarda bunlara yeni əlavələr edir. Dərketmə mərhələsində şagirdlər yeni informasiya və ideyalarla təmasda olurlar. Əsas məsələ ondan ibarətdir ki, əvvəlki mərhələdə yaranmış fəallıq və maraq inkişaf etdirilir, şagirdlər yeni anlayışları müəyyən edib mənimsəmək üçün keçmiş və yeni biliklər arasında əlaqə yaradırlar.

Düşünmə mərhələsində şagirdlər yeni qazandıqları bilikləri möhkəmləndirməklə yanaşı, bir neçə mühüm məqsədə nail olmaq istiqamətində də fəaliyyət göstərirlər. Birincisi, şagirdlər yeni ideya və informasiyaları öz sözləri ilə ifadə etməyə çalışırlar. İkincisi, şagirdlər arasında canlı fikir mübadiləsi yaranır, onlar öz ekspressiv (təsirli) söz ehtiyatını genişləndirməyə, həmçinin digər şagirdlərin təsəvvürləri ilə tanış olmağa imkan tapırlar.

Azərbaycan dili təlimində şagirdlərin fəallığını, dərslərin maraqlı və məzmunlu olmasını qeyri-standart dərs formalarından (dərs-müzakirə, dərs-ekskursiya, dərs-oyun, dərs-seminar, dərs-səyahət, dərs-iclas və s.) istifadə yolu ilə də təmin etmək mümkün olur. Bu dərslərdə müəllim və şagirdlərin fəaliyyəti qoyulmuş problemlərin həllinə yönəlir, sinifdə canlı və münbit təlim şəraiti yaranır. Belə dərslər, əsasən, motivasiya, problemin həlli, təqdimetmə, qiymətləndirmə mərhələlərindən ibarət olur.

Təlim qeyri dildə olan məktəblərdə Azərbaycan dili dərsləri bütün təlim formalarında keçirilə bilər. Dərslikdə kollektiv, qrup, cütlərlə, fərdi iş formalarından geniş istifadə olunmuşdur. Təlim formaları seçilərkən üsullarla vəhdət təşkil etməsi gözlənilmiş, uzlaşmaya diqqət yetirilmişdir. Seçilmiş təlim formalarının istifadəsi zamanı aşağıdakı bacarıqların formalaşması nəzərdə tutulmuşdur:

- Şagirdlərin vəzifələrini düzgün müəyyənləşdirməsini təmin etmək;
- Birgə fəaliyyəti təmin etmək;
- Bir-birinin fikrinə hörmətlə yanaşılmasına nail olmaq;
- Müstəqil fikirlər söylənməsi üçün imkan yaratmaq;
- Mübahisəyə yol vermədən sağlam rəqabət aparmaq;
- Problemin həllində kompromis yollar axtarmaq.

Azərbaycan dilinin təlimi prosesində müxtəlif üsullardan istifadə etmək mümkündür. Dərslikdə aşağıdakı interaktiv üsulların istifadə olunması faydalı bilinib:

- Klaster
- Venn diaqramı
- İnsert
- Rollu oyunlar

- Müzakirə
- BİBÖ
- Beyin həmləsi
- Söz assosiasiyası
- Sorğu
- Layihə
- İnteraktiv mühazirə
- Auksion
- Təqdimat

**Klaster** (şaxələnmə) şagirdləri mövzu ilə bağlı sərbəst düşünməyə, axtarış aparmağa sövq edir. Onların idraki fəallığına imkan yaradır. Şaxələnmə üsulundan istifadə ilə dərslikdə nəticəçıxarma mərhələləri yekunlaşdırılıb. Məsələn, Azərbaycan bəstəkarlarının, onların əsərlərinin adları şaxələndirilib.

**Venn diaqramı.** Venn diaqramı nisbətən kəsişən iki və ya daha artıq çevrə üzərində qurulur. Çevrələrin üst-üstə düşdüyü hissədə nə isə yazmaq üçün kifayət qədər yer olur. Həmin yerdə fərqli, yaxud ümumi cəhətlər qeyd edilir. Məsələn, şagirdlər "Vasitəli və vasitəsiz nitq" mövzusunu müqayisəli şəkildə yekunlaşdıra bilərlər.

**İnsert** üsulundan dərsin dərketmə mərhələsində istifadə olunur. Oxu zamanı şagirdlərin öz qavrayışını yoxlamasına imkan yaradır. Bu üsuldan istifadə iki mərhələdə həyata keçirilir. Birinci, üzərində əməliyyat aparılacaq mətn, istifadə olunacaq zəruri işarələr (bu işarələr şagirdlərin yaşına və hazırlıq səviyyəsinə görə müxtəlif ola bilər) müəyyən olunur. İkinci, şagirdlər tapşırığın məzmunu ilə tanış olur və onu yerinə yetirirlər. Məsələn,

✓ Əvvəldən bildiyiniz bir məlumatı təsdiq edən əlavə məlumatlara rast gəlmisinizsə, yoxlama işarəsi (✓) qoyun.

– Oxuduğunuz məlumatlar əvvəllər bildiyinizi rədd edirsə, yaxud ona ziddirsə, mənfi (–) işarəsi qoyun.

\+ Müsbət (+) işarəsi o zaman qoyulur ki, rast gəldiyiniz məlumat sizin üçün təzə olsun.

**Rollu oyunlar.** Rollu oyunlar təlim qeyri dildə olan məktəblərdə Azərbaycan dili tədrisinin səmərəliliyini yüksəldir. Şagirdlərə özləri və ətrafdakılar haqqında şifahi məlumat əldə etməyə, danışıq səslərini, sözləri düzgün tələffüz etməyə imkan verir. İfadəli nitq bacarıqlarının formalaşması və inkişafına təsir göstərir. Dialoq qurmaq tapşırıqları bura aid edilə bilər.

**Müzakirə.** Təlim diskussiyası konkret problem üzrə fikirləri mübadilə etməkdir. Bu metodun köməyi ilə şagirdlər Azərbaycan dili üzrə yeni biliklərə yiyələnir, öz mövqelərini müdafiə edirlər. Təlim diskussiyasının başlıca funksiyası şagirdlərin idraki marağını stimullaşdırmaqdır. O həm də təhsilverici, inkişafetdirici, tərbiyəedici və nəzarətedici-təshihedici kimi köməkçi funksiyaları da yerinə yetirir.

**BİBÖ**-də müəllim lövhədə 3 sütundan ibarət cədvəl qurur və aşağıdakı bölmələri qeyd edir: Bilirəm/İstəyirəm bilim/Öyrəndim. Şagirdlər problemlə bağlı bildiklərini söyləyir və cavablar birinci sütunda qeyd olunur. Həmin məsələ ilə bağlı bilmək istədikləri isə ikinci sütuna yazılır. Dərsin sonunda bir daha həmin cədvələ diqqət yetirilir və mövzu ilə bağlı öyrəndikləri üçüncü sütunda qeyd edilir.

**Beyin həmləsi** üsulu "əqli hücum" da adlandırılır. Şagirdlərdə yeni mövzuya maraq oyatmaq, habelə onların nəyi yaxşı (və ya zəif) bildiklərini aydınlaşdırmaq məqsədilə bu üsuldan istifadə olunur. Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər suallara əsasən fikirlərini bildirirlər. Bütün ideyalar şərhsiz və müzakirəsiz yazıya alınır. Yalnız bundan sonra söylənilmiş ideyaların müzakirəsi, şərhi və təsnifatı başlayır. Aparıcı ideyalar yekunlaşdırılır, şagirdlər söylənmiş fikirləri təhlil edir, qiymətləndirirlər.

**Söz assosiasiyasından** istifadə edilərkən öyrəniləcək mövzuya aid əsas söz (və ya söz birləşməsi) lövhəyə yazılır. Şagirdlər həmin sözlə bağlı ilk xatırladıqları fikirləri söyləyirlər və həmin fikirlər müəllim tərəfindən lövhəyə yazılır. Mövzu ilə bağlı olan sözlər deyilən fikirlərin arasından seçilir və əlaqələndirilir, onlardan anlayış və yaxud ideya çıxarılır. Bu anlayış əsasında yeni materialın öyrənilməsinə başlanır. Bu üsul həm də şifahi formada tətbiq edilə bilər.

**Sorğu** üsulu araşdırılan məsələ ilə bağlı fakt və hadisələr haqqında müəyyən qrupların ictimai rəyini öyrənmək məqsədilə aparılır. Sorğu vərəqi araşdırılan məsələ ilə bağlı tərtib edilir və burada suallar qoyulur. Sorğuda iştirak edənlər bu vərəqi müstəqil doldururlar.

**Layihələrin** hazırlanması müxtəlif mövzuların müstəqil şəkildə tədqiq edilməsidir. Şagirdlər öz layihələrini təqdim etməzdən əvvəl uzun müddət onun üzərində işləyirlər. Layihələr hazırlayarkən müəllim mövzu və ya problemi müəyyən edir və sinfə bunlardan birini seçmək imkanı verir. Problem konkret olmalıdır. Müəllim və şagirdlər birlikdə layihə üzərində işin başlama və başa çatma müddətini, istifadə olunacaq əyani vasitələri (ədəbiyyatlar, mənbələr, təsviri vasitələr və s.) bunları əldə etmək yollarını, iş formalarını (fərdi, yoxsa qrup şəklində) müəyyən edirlər. İş prosesində müəllim suallara cavab verə və ya yol göstərə bilər. İşin icrasına isə şagirdlər özləri cavabdehdirlər. Tədqiqatın nəticəsi hesabat, xəritə, illüstrasiya, fotoşəkillər, cədvəllər, qrafiklər formasında ifadə oluna bilər.

**İnteraktiv mühazirə** məlumatın müəllimdən şagirdə ötürülmə üsuludur. Bu üsuldan mövzu ilə bağlı məzmunun zənginləşdirilməsi, tamamlanması məqsədilə istifadə etmək məqsədəuyğundur. Belə qısa mühazirələr 10-15 dəqiqə ərzində aparılır. Mühazirənin məqsəd və vəzifələri dəqiq olmalı, əyani və texniki vasitələrdən istifadə olunmalı, mühazirə prosesi verbal (suallar vermək) və vizual (şagirdlərin sifətlərinin ifadəsini və jestlərini müşahidə etmək) tənzimləməlidir.

**Auksionda** öyrənilən əşya və ya hadısənin xüsusiyyətləri ardıcıl şəkildə adlandırılır. Hamı növbə ilə əşya və ya hadisə haqqında fikir söyləyir: hər bir fikirdən sonra müəllim sayır. "Bir, iki". Bu zaman başqa iştirakçı tez təklif verə bilər. Sonuncu təklif verən qalib sayılır. Fikirlər bir-birini təkrarlamamalıdır. Bunun üçün hamı bir-birini dinləyir.

**Təqdimat** şagird fəaliyyətinin mühüm mərhələsidir. Nəzəri və təcrübi biliklərin vəhdətini əhatə edir. Vəsaitdə müxtəlif mövzuları əhatə edən təqdimat tapşırıqlarından istifadə olunmuşdur. Müəllim bu təqdimatları qiymətləndirmək üçün aşağıdakı cədvəldən istifadə edə bilər.

| Təqdimatın meyarları | Nail olunan meyarların sayı |
|---|---|
| Təqdimatın məqsədlərinin qoyuluşu | |
| Vəzifələrin müəyyən olunması | |
| Təqdimatın məzmunu | |
| Təqdimatın strukturu | |
| Təqdimatın texniki hazırlığı | |
| Vizual vasitələrin istifadəsi | |
| Slaydların yaradılması | |
| Flipçartla, audio və videoavadanlıqlarla iş | |
| Şrift, fon, slaydların düzülüşü, tərtibat | |
| Təqdimatın inandırıcılığı | |
| Effektiv başlanma və sona çatdırılma | |
| Auditoriya ilə qarşılıqlı əlaqə | |
| Səsin gücü, tembral çaları, intonasiya | |
| Məlumatın qeyri-verbal vasitə ilə ötürülməsi | |
| Stilistika üsulları, mətndə və nitqdə fiqurlar | |
| Nitqin bədiiliyi və məcaziliyi | |
| Təqdimatda kreativlik | |
| Mübahisə yaradan, çoxmənalı, anlaşılmaz məfhum və terminlərin istifadəsi | |
| Öz emosional vəziyyətinə yiyələnmək və onu idarə etməyi bacarmaq | |
| Cəmi: | |

## Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair NÜMUNƏLƏR

Dərslikdə müəllimin həm gündəlik, həm də illik planlaşmasını aparmaq üçün kifayət qədər material və resurs verilmişdir. Planlaşdırma müəllimlərin qarşısında duran ən mühüm vəzifədir. Planlaşdırma əsas məqsədləri müəyyənləşdirmək və onlara nail olmaq üçün müəllimlərin fəaliyyət istiqamətidir. İllik planlaşdırmada tədris vahidinin nə zaman və hansı ardıcıllıqla tədris ediləcəyi göstərilir. Eyni zamanda hər fəslə ayrılacaq vaxtı göstərilir. Müəllimlər üçün perspektiv plan nümunəsi vəsaitdə verilsə də, onun müstəqil tutulma qaydası ilə tanış olmaq üçün fənnin planlaşdırılması ardıcıllığı da bura daxil edilmişdir. Bu ardıcıllıq aşağıdakı kimidir:

1. *Tədris vahidlərini dəqiqləşdirmək, ardıcıllıq prinsiplərini müəyyənləşdirmək. Məzmunun ardıcıllığı (asandan çətinə doğru), xronoloji ardıcıllıq (zaman ardıcıllığı), məntiqi ardıcıllıq (əvvəlcə o anlayışlar öyrədilir ki, onlar növbəti anlayışların açılmasında mühüm əhəmiyyət daşıyır) nəzərdə tutulur.*

2. *Hər tədris vahidi üçün tədris planına əsasən vaxt bölgüsü aparmaq. (Tədris vahidləri üçün vaxt bölgüsünü müəyyənləşdirərkən fənn üzrə illik dərs saatlarının ümumi sayı nəzərə alınır. Hər tədris vahidinə onun əhəmiyyətliliyi və mürəkkəbliyi baxımından vaxt ayrılır.)*

3. *İnteqrasiya imkanları, əlavə resurslar seçmək.*

İllik planlaşdırma apararkən müəllim mütləq məzmun standartları, qiymətləndirmə standartları, tədris planı, dərslik (istifadə olunacaq mətnlər və digər materiallar), müəllim üçün vəsaitə istinad etməlidir. Dərs ilinin həftələri, tədris ilində baş verəcək mühüm hadisələr (tarixi günlər), tədris vahidlərinin və onlara daxil olan mövzuların adı müəyyən edilməlidir.

## İllik planlaşdırma nümunəsi

| I BÖLMƏ | | | | | |
|---|---|---|---|---|---|
| **Mövzular** | **Standartlar** | **İnteqrasiya** | **Resurslar** | **Saat** | **Tarix** |
| Hansı peşə daha yaxşıdır? | 2.1.3., 3.1.2. | Həyat bilgisi – 2.1.1., Azərbaycan tarixi – 1.3.1., Ədəbiyyat – 2.2.1. | Müxtəlif peşə şəkilləri, peşə ilə bağlı atalar sözlərindən ibarət plakat, iş vərəqləri | 1 | |
| Hekayət | 2.1.1., 3.1.1., 3.1.3. | Azərbaycan tarixi – 2.1.1. | Lüğət, iş vərəqləri | 1 | |
| Kərpickəsən qocanın hekayəti (I saat) | 3.1.1., 3.1.2., 4.1.1. | Ədəbiyyat – 2.1.2., Həyat bilgisi – 2.1.2. | Freska nümunələri, Nizaminin seçilmiş əsərləri, hikmətli sözlər kitabı | 1 | |
| Kərpickəsən qocanın hekayəti (II saat) | 2.1.3., 2.1.4., 3.1.3. | Xarici dil – 3.1.1., İnformatika – 3.3.3. | Lüğət, iş vərəqləri, təqdimat nümunələri | 1 | |
| Mətn (I saat) | 1.1.2., 4.1.2. | Coğrafiya – 3.2.2., Ümumi tarix – 5.1.1., Həyat bilgisi – 1.1.1., Xarici dil – 4.1.3. | Xəritə, lüğət, əlifba nümunələri, iş vərəqləri, sxemlər | 1 | |
| Mətn (II saat) | 3.1.1., 3.1.2., 4.1.3. | Ədəbiyyat – 2.1.2., Riyaziyyat – 1.1.3., Azərbaycan tarixi – 5.1.1. | Lüğət, iş vərəqləri, sxemlər | 1 | |
| Finlandiyada təhsil və tərbiyə (I saat) | 1.1.1., 1.1.2., 2.1.3. | Coğrafiya – 1.1.1., 3.2.1. Həyat bilgisi – 2.1.2., Ümumi tarix – 1.1.2., İnformatika – 3.3.3. | Xəritə, lüğət, iş vərəqləri, Finlandiya təhsilini əks etdirən slaydlar | 1 | |
| Finlandiyada təhsil və tərbiyə (II saat) | 3.1.1., 4.1.1., 4.1.2. | Ədəbiyyat – 2.1.2., Xarici dil – 3.1.1. | Lüğət, iş vərəqləri, təqdimat nümunələri | 1 | |
| İnsanlar (I saat) | 2.1.2., 3.1.1., 3.1.2., 3.1.3. | Həyat bilgisi – 2.1.1., Ədəbiyyat – 2.2.1. | S.Tahirin portreti, H.Z.Tağıyevin "Qızlar məktəbi"nə aid tarixi şəkillər, iş vərəqləri | 1 | |
| İnsanlar (II saat) | 1.1.1., 2.1.1., 4.1.3. | Azərbaycan dili – 1.1.1., Ədəbiyyat – 3.1.3. | Sual cümlələrinin müxtəlif konstruksiyalarına aid sxemlər, dialoq nümunələri, iş vərəqləri | 1 | |
| Seyid Əzim yadigarı (I saat) | 2.1.3., 3.1.3., 4.1.1. | Azərbaycan tarixi – 1.3.1., Ədəbiyyat – 2.2.1. | Sabirin seçilmiş əsərləri, Səriyyə Tahirzadənin Sabirə dair məqalələrindən xülasələr, iş vərəqləri | 1 | |
| Seyid Əzim yadigarı (II saat) | 3.1.1., 3.1.2., 4.1.3. | Azərbaycan dili – 2.2.2.; 2.2.3., Həyat bilgisi – 3.2.1. | İş vərəqləri, əmr cümləsinin qrammatik izahına dair plakat | 1 | |
| Sağ ol, ana dilim | 1.1.1., 1.1.2., 2.1.2., 2.1.3. | Azərbaycan tarixi – 3.1.1., Ümumi tarix – 1.1.2. | Xəritə, lüğət, iş vərəqləri, dilimizin tarixinə aid nəzəri nümunələr, dil haqqında qəbul olunmuş qanun, sərəncam və qərarlar | 1 | |
| Doğma dilim, sən ki varsan dünyada | 1.1.1., 2.1.3., 4.1.1. | Azərbaycan dili – 2.2.3., Ədəbiyyat – 1.1.2. | Nida cümləsinin qrammatik izahına dair plakat, "Molla Nəsrəddin" jurnalının bir neçə nüsxəsi | 1 | |
| **Ümumiləşdirici təkrar** | | | | **1** | |
| **KSQ** | | | | **1** | |

| II BÖLMƏ | | | | | |
|---|---|---|---|---|---|
| **Mövzular** | **Standartlar** | **İnteqrasiya** | **Resurslar** | **Saat** | **Tarix** |
| İncəsənət haqqında əsas anlayışlar (I saat) | 1.1.1., 1.1.2., 2.1.3. | Coğrafiya – 3.2.1., Ümumi tarix – 1.1.2., Təsviri incəsənət – 3.1.1. | Boyakarlıq, qrafika və heykəltəraşlıq nümunələri, freska və mozaika şəkilləri | 1 | |
| İncəsənət haqqında əsas anlayışlar (II saat) | 3.1.1., 4.1.1., 4.1.2. | Ədəbiyyat – 2.1.2., Xarici dil – 3.1.1. | Lüğət, iş vərəqləri, söz birləşməsi və cümlə ilə bağlı sxemlər | 1 | |
| Bəstəkarın portreti (I saat) | 2.1.1., 2.1.4., 3.1.3., 4.1.1. | Musiqi – 1.1.1., Azərbaycan tarixi – 1.2.1., Təsviri incəsənət – 3.1.2. | Bəstəkarın portretlərindən nümunələr, ilk riyaziyyat kitabının üz qabığı, əsərlərindən audio və videolentlər, himn barədə məlumat, lüğət, iş vərəqləri | 1 | |
| Bəstəkarın portreti (II saat) | 3.1.1., 4.1.1., 4.1.2. | Təsviri incəsənət – 1.3.1., İnformatika – 3.3.3., Xarici dil – 3.1.1. | Cabbar Qaryağdıoğluna aid audio və videolentlər, Qarabağ tarixini əks etdirən şəkillər, lüğət, iş vərəqləri | 1 | |
| Mətn (I saat) | 1.1.1., 1.1.2., 2.1.2., 4.1.2. | Musiqi – 2.1.1., Azərbaycan tarixi – 5.1.3. | M.Maqomayevin “Şah İsmayıl” operasından epizod, Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” əsərindən şəkillər, nitq etiketi nümunələri | 1 | |
| Mətn (II saat) | 3.1.1., 4.1.1. | Xarici dil – 3.1.1.; 4.1.2. | Lüğət, iş vərəqləri, dialoq nümunələri | 1 | |
| Əbdülbağı Zülalov Bülbülcan | 1.1.1., 2.1.3., 3.1.1. | Musiqi – 1.1.1., Azərbaycan tarixi – 1.2.1. | Lüğət, iş vərəqləri, muğamın tarixinə aid nümunələr, muğam haqqında qəbul olunmuş qanun, sərəncam və qərarlar | 1 | |
| Minnətsiz çörək (I saat) | 1.1.1., 3.1.1., 4.1.1. | Ədəbiyyat – 2.1.2., Xarici dil – 3.1.1. | Süleyman Rəhimovun seçilmiş əsərləri, lüğət, iş vərəqləri | 1 | |
| Minnətsiz çörək (II saat) | 2.1.1., 4.1.1., 4.1.3. | Azərbaycan dili – 1.1.1., İnformatika – 3.3.3. | Mürəkkəb cümlələrin müxtəlif konstruksiyalarına aid sxemlər, iş vərəqləri | 1 | |
| Unudulmaz xatirə (I saat) | 2.1.2., 3.1.3., 4.1.3. | Ədəbiyyat – 2.1.2., Xarici dil – 3.1.1. | C.Cabbarlının seçilmiş əsərləri, məqalələrdən xülasələr, iş vərəqləri | 1 | |
| Unudulmaz xatirə (II saat) | 3.1.1., 3.1.2., 4.1.3. | Azərbaycan dili – 2.2.2.; 2.2.3. | İş vərəqləri, mürəkkəb cümlənin qrammatik izahına dair plakat | 1 | |
| Haqqın səsi (I saat) | 1.1.1., 1.1.2. | Həyat bilgisi – 2.2.2., Ədəbiyyat – 1.1.2. | Xəritə, lüğət, iş vərəqləri, Məhəmmədhüseyn Şəhriyarın seçilmiş əsərləri | 1 | |
| Haqqın səsi (II saat) | 3.1.1., 3.1.2. | Azərbaycan dili – 2.2.3. | UNESKO-nun fəaliyyətinə aid faktlar, maddi-mənəvi dəyərlər siyahısı, sxemlər | 1 | |
| Həmrəylik (Hesabatın hazırlanması) | 2.1.3., 4.1.3., 4.1.4. | Həyat bilgisi – 2.1.1., Azərbaycan tarixi – 1.3.1. | Müxtəlif hesabat formaları, əməli yazı nümunələri kitabı | 1 | |
| **Ümumiləşdirici təkrar** | | | | **1** | |
| **KSQ** | | | | **1** | |
| **BSQ** | | | | **1** | |

| III BÖLMƏ | | | | | |
|---|---|---|---|---|---|
| **Mövzular** | **Standartlar** | **İnteqrasiya** | **Resurslar** | **Saat** | **Tarix** |
| İçərişəhər məhv edilməkdən necə xilas oldu? (I saat) | 2.1.4., 3.1.1., 4.1.1., 4.1.2. | Azərbaycan tarixi – 1.1.1.; 3.1.2., Ümumi tarix – 1.1.2. | "İçərişəhər Azərbaycan tarixində" kitabı, E.A.Paxomov, İ.M.Cəfərzadənin İçərişəhərə dair tədqiqatlarından nümunələr, iş vərəqləri, lüğət | 1 | |
| İçərişəhər məhv edilməkdən necə xilas oldu? (II saat) | 2.1.1., 2.1.4., 3.1.3. | Azərbaycan tarixi – 1.2.1., Təsviri incəsənət – 3.1.2. | Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin strukturuna daxil olan Elmi-mədəni mərkəzin əsasnaməsi, audio və videolentlər, iş vərəqləri | 1 | |
| Bakı–1501 (I saat) | 2.1.2., 3.1.1., 4.1.1. | Ədəbiyyat – 1.2.2., Coğrafiya – 3.2.1., Xarici dil – 3.1.1. | Əzizə Cəfərzadənin seçilmiş əsərləri, Şah İsmayıla aid tarixi faktlar, Bakının tarixini əks etdirən şəkillər, lüğət, iş vərəqləri | 1 | |
| Bakı–1501 (II saat) | 3.1.2., 4.1.3. | Azərbaycan dili – 3.1.2.; 4.1.1. | Tabeli mürəkkəb cümlələrin müxtəlif konstruksiyalarına aid sxemlər, iş vərəqləri | 1 | |
| 20 Yanvar | 1.1.1., 2.1.3. | Ədəbiyyat – 1.1.2., Azərbaycan tarixi – 3.1.1., Həyat bilgisi – 2.2.1., Xarici dil – 4.1.2. | Qanlı Yanvar faciəsinə həsr olunmuş sənədli film, şəkillər və məqalələrdən parçalar | 1 | |
| "Əbədi məşəl" abidəsi qəhrəmanlıq və rəşadətin əbədiləşən təsviridir | 2.1.1., 2.1.4., 3.1.3. | Azərbaycan tarixi – 4.1.2.; 5.1.3., Təsviri incəsənət – 3.1.1., 3.1.2. | Elbay Qasımzadənin sənət əsərləri toplusu, lüğət, iş vərəqləri, monumental abidələrə aid nümunələr | 1 | |
| Zivərbəy Əhmədbəyov (I saat) | 1.1.1., 1.1.2., 3.1.1. | Azərbaycan tarixi – 1.1.1., Həyat bilgisi – 2.2.2.; 3.2.1., Təsviri incəsənət – 1.1.1. | Zivərbəy Əhmədbəyovun sənət əsərlərindən nümunələr, Aşurbəyovlar şəcərəsi barədə məlumat, lüğət, iş vərəqləri | 1 | |
| Zivərbəy Əhmədbəyov (II saat) | 2.1.1., 4.1.1., 4.1.3. | Azərbaycan dili – 1.1.1., İnformatika – 3.3.3. | Mürəkkəb cümlələrin müxtəlif konstruksiyalarına aid sxemlər, iş vərəqləri | | |
| Osmanlı dövlətinin ilk baş memarı: Təbrizli Memar Əli (I saat) | 1.1.1., 3.1.2., 3.1.3. | Ədəbiyyat – 2.1.2., Təsviri incəsənət – 1.3.1. | B.Dədəyevin memarlarımız barədə qeydləri, Türkiyə memarlığına dair nümunələr | 1 | |
| Osmanlı dövlətinin ilk baş memarı: Təbrizli Memar Əli (II saat) | 2.1.4., 3.1.2., 4.1.3. | Azərbaycan dili – 3.1.2.; 4.1.1. | Tabeli mürəkkəb cümlələrin tərkib hissələrinə aid müxtəlif sxemlər, iş vərəqləri | 1 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| Fit qalası (I saat) | 1.1.1., 1.1.2., 2.1.4. | Coğrafiya – 2.1.8.; 3.2.2., Azərbaycan tarixi – 3.1.1. Riyaziyyat – 4.1.1., | Xəritə, lüğət, iş vərəqləri, müstəmləkə siyasətinin nəticələrini əks etdirən şəkillər, sənədli film | 1 | |
| Fit qalası (II saat) | 2.1.2., 3.1.2., 4.1.3. | Azərbaycan dili – 2.2.3., Xarici dil – 3.1.1.; 4.1.2. | Dialoq nümunələri, tabeli mürəkkəb cümlələrin tərkib hissələrinin bağlanmasına aid sxemlər, iş vərəqləri | 1 | |
| Tsin Şi Xuandinin məqbərəsi (I saat) | 1.1.1., 1.1.2., 2.1.3. | Coğrafiya – 3.2.1., Ümumi tarix – 1.1.2., Təsviri incəsənət – 3.1.1. | Tsin Şi Xuandinin həyat və fəaliyyətinə, qəbul etdiyi qanunlara aid məlumatlar, heykəltəraşlıqda gillə işə dair məlumatlar, gil fiqurlardan nümunələr | 1 | |
| Tsin Şi Xuandinin məqbərəsi (II saat) | 3.1.1., 4.1.1., 4.1.3. | Ədəbiyyat – 2.1.2., Xarici dil – 3.1.1. | Lüğət, iş vərəqləri, sual ədatı ilə bağlanan tabeli mürəkkəb cümlə ilə bağlı sxemlər | 1 | |
| Büllur piramida | 2.1.1., 2.1.4., 3.1.3., 4.1.1. | Təsviri incəsənət – 3.1.2., Riyaziyyat – 3.2.1.; 3.2.2., Azərbaycan tarixi – 1.2.1. | Həndəsi fiqurlardan nümunələr, Luvr muzeyi haqqında məlumat, videolent, lüğət, iş vərəqləri | 1 | |
| **Ümumiləşdirici təkrar** | | | | **1** | |
| **KSQ** | | | | **1** | |

| **IV BÖLMƏ** | | | | | |
|---|---|---|---|---|---|
| **Mövzular** | **Standartlar** | **İnteqrasiya** | **Resurslar** | **Saat** | **Tarix** |
| Konfutsinin əxlaq nəzəriyyəsi (I saat) | 1.1.1., 1.1.2., 2.1.3. | Həyat bilgisi – 2.1.1., Ədəbiyyat – 2.2.1. | Konfutsi nəzəriyyəsi, “Ulu ata” Çin hikmətləri kitabı, iş vərəqləri və dövrə aid şəkillər | 1 | |
| Konfutsinin əxlaq nəzəriyyəsi (II saat) | 3.1.1., 4.1.2., 4.1.3. | Azərbaycan dili – 3.1.2., İnformatika – 3.3.3. | Lüğət, iş vərəqləri, vasitəsiz nitqlə bağlı sxemlər | 1 | |
| Nəsihət (I saat) | 2.1.2., 3.1.3., 4.1.3. | Həyat bilgisi – 2.2.1.; 3.2.2., Azərbaycan dili – 1.2.4., Ədəbiyyat – 3.1.3. | “Mehman” filmi, vicdan azadlığını tərənnüm edən beynəlxalq konvensiyalar və qanunlarımız, lüğət, iş vərəqləri | 1 | |
| Nəsihət (II saat) | 2.1.1., 4.1.1., 4.1.3. | Azərbaycan dili – 1.1.1. | Vasitəsiz nitqin müxtəlif konstruksiyalarına aid sxemlər, iş vərəqləri | 1 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| Dünyanı yandıran ah (I saat) | 1.1.1., 1.1.2., 2.1.3., 3.1.3. | Azərbaycan dili – 1.2.4.; 2.2.3., Azərbaycan tarixi – 1.1.1. | “Fəryad”, “Xoca” bədii filmləri, müqayisəli cədvəl, iş vərəqləri, Qarabağ müharibəsindən faktlar, şəkillər | 1 | |
| Dünyanı yandıran ah (II saat) | 3.1.1., 3.1.2., 3.1.3., 4.1.3. | Xarici dil – 3.1.1.; 4.1.2. | Lüğət, iş vərəqləri, tarixi faktlardan nümunələr | 1 | |
| Yenə bir arzu qaldı | 1.1.1., 2.1.3., 4.1.1. | Ədəbiyyat – 2.1.2., Xarici dil – 3.1.1. | Lüğət, iş vərəqləri, Mikayıl Müşfiq, Bəxtiyar Vahabzadə, Cabir Novruzun seçilmiş əsərləri | 1 | |
| Mətn (I saat) | 1.1.1., 1.1.2., 3.1.1. | Həyat bilgisi – 3.2.1., Azərbaycan dili – 2.2.3., Ümumi tarix – 4.1.2. | Uinston Çörçill və atası haqqında faktlar, Nobel mükafatçıları kitabı, Vinston Çörçillin seçilmiş əsərləri, lüğət, iş vərəqləri | 1 | |
| Mətn (II saat) | 2.1.1., 4.1.1., 4.1.3. | Azərbaycan dili – 1.1.1.; 4.1.4. | Vasitəsiz nitqin müxtəlif konstruksiyalarına aid sxemlər, dialoq nümunələri, iş vərəqləri | 1 | |
| Düzgün qərar (I saat) | 1.1.1., 1.1.2., 2.1.4. | Həyat bilgisi – 2.1.1., Ədəbiyyat – 1.1.2. | “Molla Nəsrəddin” jurnallarından seçmələr, lətifələr kitabı, lüğət, iş vərəqləri | 1 | |
| Düzgün qərar (II saat) | 3.1.1., 3.1.2., 4.1.3. | Azərbaycan dili – 2.2.3.; 4.1.4. | Sorğu, iş vərəqləri, lüğət | 1 | |
| Peçenye oğrusu (I saat) | 2.1.1., 3.1.1. | Həyat bilgisi – 3.2.1., Azərbaycan dili – 2.2.3., Xarici dil – 3.1.1 | Valeri Koksun seçilmiş əsərləri, nitq etiketinə dair nümunələr, lüğət, iş vərəqləri | 1 | |
| Peçenye oğrusu (II saat) | 3.1.2., 4.1.3. | Azərbaycan dili – 3.1.2. | Vasitəli nitqə aid nümunələr, sxemlər, iş vərəqləri | 1 | |
| Körpü | 1.1.1., 1.1.2., 3.1.1. | Həyat bilgisi – 2.2.2.; 3.2.1. | “Füyuzat” jurnalından nümunələr, lüğət, iş vərəqləri | 1 | |
| **İl ərzində keçilənlərin şifahi təkrarı** | | | | **1** | |
| **Ümumiləşdirici təkrar** | | | | **1** | |
| **KSQ** | | | | **1** | |
| **BSQ** | | | | **1** | |

**Təlim məqsədlərinin düzgün reallaşdırılması ilə bağlı tövsiyələr**

Məzmun standartlarının düzgün və vaxtında reallaşmasını təmin etmək üçün birinci şərt təlim məqsədlərinin düzgün yazılmasıdır. Yaxın və uzaq hədəfləri özündə birləşdirən məqsədlərin yazılması müəllimdən böyük istedad tələb edir. Bunun üçün müəllim tənqidi düşüncəyə, yaradıcı təfəkkürə, məntiqi əsaslanmaya, planlaşdırma bacarığına, perspektivi görmə istedadına malik olmalıdır. Təlim məqsədlərinin düzgün yazılmasının şərtləri aşağıdakılardır:

– Təlim məqsədinin məzmun standartının tələblərinə uyğunluğu;

– Məqsəd çıxararkən məzmun standartlarının qismən və ya bütövlükdə reallaşdırılacağının müəyyən edilməsi;

– Məzmun standartlarındakı ümumi məsələlərin mövzu baxımından xüsusiləşdirilməsi;

– Məzmun standartında biliyin kateqoriyalarının müəyyən edilməsi (deklarativ, prosedural, kontekstual);

– Məzmun standartında bacarığın xüsusiyyətinin müəyyən edilməsi (idraki, emosional, psixomotor);

– Hər məqsədin yalnız bir fəaliyyəti əks etdirməsi və ölçüləbilən olması;

– Təlim məqsədlərinə uyğun şagird nailiyyətinin qiymətləndirilməsinin üsul və vasitələrinin seçilməsi.

Təlim məqsədləri yazılarkən mərhələlilik və əlaqəlilik mütləq nəzərə alınmalıdır. Məqsədlər taksonomiya – sadədən mürəkkəbə doğru zəncirvari, iyerarxiya üzrə inkişafı əks etdirən şəkildə yazılmalıdır. Təlim məqsədlərinin taksonomik quruluşu tədris prosesini planlaşdırmaq və onun nəticəsini ölçmək imkanı verir. Məqsədləri sinifləndirilən zaman asandan çətinə prinsipi nəzərə alınır. Təlim məqsədlərinin, standartların (məzmun və qiymətləndirmə) və şagird fəaliyyətinin səviyyələndirilməsi zamanı hər üç taksonomiyadan istifadə etmək faydalı olardı:

– İdraki (təfəkkür, koqnitiv);

– Emosional (hissi, affektiv);

– Psixomotor (hərəki).

Vəsaitdə məqsədlər yazılan zaman standartların ardıcıllığı əsasında iyerarxiya, pillələlik, əlaqəlilik və taksonomiyanın mərhələlərinə uyğunluq gözlənilmişdir. Misal üçün aşağıdakı nümunəyə diqqət yetirək:

"**Standartlar:** 1.1.1., 1.1.2., 2.1.3.

**Məqsəd:** Mətnin məzmununu şərh edir.

Verilmiş mətndəki fikirlərlə əlaqədar olaraq öz mühakimələrini yürüdür.

Müzakirədəki ümumiləşmiş fikirlərə münasibətini bildirir".

Birinci məqsəddəki şərhetmə ünsiyyət fəaliyyətini əhatə edir və anlama mərhələsindədir. İkinci məqsəddəki mühakiməyürütmə ünsiyyət fəaliyyətini əhatə edir, lakin təhlil mərhələsindədir. Üçüncü məqsədin fəaliyyəti olan münasibət bildirmək isə ən sonuncu mərhələnin – qiymətləndirmə, dəyərləndirmənin nümunəsidir. Göründüyü kimi, eyni fəaliyyət bir neçə mərhələni əhatə edə bilər.

## Şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınması

Təlim metodları seçilərkən şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınması prinsipinə istinad olunmuşdur. Hərçənd ki bu yaş qrupunda daha mürəkkəb metodlarla işləmək problem deyil, amma fərqli qavrama tiplərini nəzərə alaraq metodlar sadədən mürəkkəbə doğru çətinləşdirilmişdir. Metodlar seçilərkən və tapşırıqlar hazırlanarkən Hovard Qardner nəzəriyyəsi əsas götürülmüşdür. Bu nəzəriyyəyə görə, dərketmənin 8 üsulu var:

1. Linqvistik/söz;
2. Məntiqi/riyazi;
3. Vizual/məkan;
4. Bədən/kinestik;
5. Musiqi/səs;
6. Fərdlərarası;
7. Fərddaxili;
8. Naturalistik/təbiət.

İstifadə olunan təlim texnologiyaları idrak (Blum) taksonomiyasının mərhələlərinə uyğun şəkildə seçilmiş və təsnif edilmişdir. Aşağıdakı cədvələ uyğun olaraq fəaliyyətlər təsbit olunmuş və mərhələlərə uyğun texnologiyalarla müşayiət edilmişdir.

| **Bilmə** | **Şagird** |
|---|---|
| öyrənilmiş tədris materialının yadda saxlanılması və yenidən əks etdirilməsi, yada salınmasıdır. Bu kateqoriyanın tədris məqsədi lazımi məlumatların yada salınmasıdır. | - istifadə olunan terminləri bilir;<br>- konkret faktları bilir;<br>- proseduru və metodları bilir;<br>- əsas anlayışları bilir;<br>- prinsipləri və qaydaları bilir. |
| **Anlama** | **Şagird** |
| öyrənilmiş biliyin əhəmiyyətini başa düşməsi mərhələsidir. Onun göstərişi öyrənilmiş materialın bir formadan başqasına, bir dildən başqasına və ya yığcam izahata (nəticənin izahı) keçməkdir. Tədrisin belə nəticələri dərs materialının sadə yadda saxlanılmasından üstündür. | - prinsipləri, qaydaları və faktları başa düşür;<br>- materialı öz sözləri ilə izah edir;<br>- sxemləri, diaqramları izah edir;<br>- materialın sözlərlə izahını başqa anlayışlarla əvəz edə bilir;<br>- əldə edilmiş biliklərdən gələcəkdə əldə edilə bilən nəticəni təsvir edir. |

| Tətbiq | Şagird |
|---|---|
| öyrənilmiş materialı yeni situasiyalarda, konkret şəraitdə tətbiq etmək bacarığıdır. Bura daxildir: prinsiplərin, qanunların, metod və üsulların tətbiqi. Tədris nəticələrinin, sadəcə, başa düşülməsi yox, onun daha yüksək səviyyədə nəticələrindən istifadə etmək qabiliyyətidir. | - yeni şəraitdə prinsiplərdən və anlayışlardan istifadə edə bilir;<br>- konkret praktiki situasiyalarda qanunları, nəzəriyyələri tətbiq edir;<br>- prosedur və metodların düzgün tətbiqini nümayiş etdirir. |
| **Təhlil** | **Şagird** |
| tədris materialını əsas hissələrə ayırmaq, onun strukturunu müəyyənləşdirmək bacarığıdır. Bura bütövün hissələrə bölünməsi, onların arasında əlaqələrin üzə çıxarılması daxildir. Bu zaman tədrisin nəticələri daha yüksək intellektual səviyyəyə uyğun olur, nəinki, sadəcə, başadüşmə və tətbiq | - gizli, gözə görünməyən təsəvvürləri açıqlayır;<br>- məntiqi izahatda səhvləri və unudulmuşları görür;<br>- fakt və nəticə arasında fərqi üzə çıxarır; dəlillərin əhəmiyyətini qiymətləndirir. |
| **Sintez** | **Şagird** |
| elementləri, hissələri birləşdirmək, yeniliyə malik bütövün əldə edilməsi bacarığıdır. Bu yolla müəyyən çıxış, məruzələrin hazırlanması və ya sxemlərin təşkili mümkündür. Beləliklə, təhsil nəticələri yaradıcı xarakter daşıyaraq yeni sxem və strukturların formalaşmasına imkan yaradır. | - kiçik yaradıcı xarakterli inşa yazır;<br>- eksperimentin həyata keçirilmə planını təklif edir;<br>- müəyyən problemin həlli üçün plan hazırlamaq üçün müxtəlif bilik sahələrindən istifadə edir. |
| **Qiymətləndirmə** | **Şagird** |
| bu və ya digər materialın (bədii əsər, tətqiqi materialı və s.) əhəmiyyətini qiymətləndirmə və onun izahı bacarığıdır. Şagirdin mühakiməsi dəqiq müəyyənləşmiş meyarlara əsaslanmalıdır. Meyarlar daxili və xarici struktura, məntiqi xüsusiyyətlərə malik ola bilər. Bu kriteriyalar şagirdin özü tərəfindən və ya kənardan (müəllim tərəfindən) müəyyənləşə bilər. | - materialın məntiqi quruluşunu qiymətləndirir;<br>- nəticələrin faktlara əsaslanmasını qiymətləndirir;<br>- bu və ya digər fəaliyyətin nəticəsində əldə edilmiş məhsulun keyfiyyətini meyarlar əsasında qiymətləndirir. |

## Dərslikdə verilmiş müxtəlif janrlardan olan əsərlərin oxusu ilə bağlı tövsiyələr

Bədii əsərlər janr etibarilə müxtəlifdir. Dərslikdə oxu prosesində müxtəlif ədəbi janrlardan istifadə edilir. Bunların tədrisində müəyyən sistem gözlənilməlidir. Tədris prosesində janrların xarakterik xüsusiyyətləri nəzərə alınmalıdır. Povest, roman, hekayə, məsnəvi və s. janrlarda əsərlərdən istifadə olunub. Lakin bunlar bütövlükdə deyil, verilmiş kiçik parçalar halında şagirdlərə çatdırılır.

**Hekayənin oxunması.** Hekayədə hadisələr müəyyən ardıcıllıqla davam edir. Hekayənin öyrənilməsinə həsr olunmuş məşğələlər hekayənin məzmunundan, həcmindən və şagirdlərin yaşından asılı olaraq müxtəlif cür olur. Hekayənin oxunmasına həsr olunmuş dərs, əsasən, aşağıdakı mərhələlərdə aparılır:

– Müəllimin giriş müsahibəsi; oxuya hazırlıq;
– Hekayənin müəllim və ya yaxşı oxuyan şagird tərəfindən bütöv, ucadan, ifadəli oxunması;
– Hekayənin qavranılmasının yoxlanılması;
– Hekayənin şagirdlər tərəfindən bütöv və ya hissə-hissə ucadan oxunması və təhlili;
– Hekayənin planının tərtibi;
– Hekayənin məzmununun nəql edilməsi;
– Hekayənin təkrarən ifadəli oxunması və ya səhnələşdirilməsi.

**Şeirlərin oxunması.** Şeir ucadan, ifadəli oxunmalıdır. Çünki bu zaman şeirin ölçüləri, heca, vəzn, ritm və s. anlayışlar aydın qavranılır. Şagirdlərə şeiri ifadəli oxumağı başa salmaq üçün müəllim ifadəli oxu nümunəsi ilə şagirdləri özü kimi oxumağa deyil, oxu prosesində fasiləni, sürəti, məntiqi vurğunu, intonasiyanı gözləməyə dəvət etməlidir. Müəllim şeirin oxusuna əvvəldən hazırlaşmalı, onun əsas ideyasını, tonunu, sürəti müəyyənləşdirməli və məşq etməlidir.

Şeirlər epik və lirik xarakter daşıyır. Epik şeirlərdə müəyyən əşya, təbiətin bir guşəsi, əsasən, həyat hadisələri təhkiyə yolu ilə verilir. Epik şeirlər üzərində aparılan iş hekayə üzərində aparılan işə bənzəyir. Epik şeirlər sintaktik quruluşuna görə hekayələrdən fərqləndiyindən onlar obrazlı və lakonik olur. Buna görə də onların oxunmasına və təhlilinə diqqətlə yanaşmaq lazımdır. Müəllim hər hansı bir şeiri oxumamışdan əvvəl onun məzmunu ilə əlaqədar müsahibə aparmalı, sonra şeiri ucadan və ifadəli oxumalıdır.

Lirik şeirlərin digər növləri üzrə iş aparılarkən şagirdlərə öz fəaliyyətləri, psixi prosesləri üzərində müşahidə aparmağa, düşünməyə, mühakimə yürütməyə yönəldən sualların verilməsi vacibdir. Bu məzmunun başa düşülməsini təmin edir. Şeirlərin oxunmasına həsr olunmuş dərsin sxemi aşağıdakı mərhələlərdən ibarətdir:

– Giriş müsahibəsi;
– Şeirin müəllim tərəfindən ifadəli oxunması;
– Şeirin ideya məzmununun necə mənimsənildiyinin aşkara çıxarılması;
– Şeirin şagirdlər tərəfindən hissə-hissə oxunması;
– Yekunlaşdırıcı müsahibə;
– Şeirin şagirdlər tərəfindən bütöv oxunması.

**Elmi-kütləvi mətnlərin oxunması.** Belə mətnlərin köməyi ilə onların elmi-nəzəri mücərrəd təfəkkürü haqqında yaranmış təsəvvürlərə istinadən uşaqlara elmi məlumat verilir. Elmi-kütləvi məqalələr şagirdləri təbiətdəki əşya və hadisələri, qanunları və qanunauyğunluqları, həmçinin ölkəmizdə baş verən ictimai-siyasi

hadisələri başa düşməyə doğru aparır. Elmi-kütləvi materiallardan təbiət və cəmiyyət haqqında əldə edilən məlumatlar şagirdlərə elmi dünyagörüşün, təbiətin tamlığı, bütövlüyü haqqında təsəvvürün yaranmasını təmin edir. Elmi-kütləvi mətnin məzmunundan, xarakterindən, dərsin quruluşundan asılı olaraq dərsin gedişi dəyişə bilər.

1. *Giriş müsahibəsi.* Şagirdləri mətnin məzmununu şüurlu mənimsəməyə hazırlamaq məqsədilə giriş müsahibəsində müəllim onların həmin mövzu ilə əlaqədar əldə etdikləri bilik və bacarığı aşkara çıxarır, onları həmin təsəvvürlər və anlayışlar aləminə daxil edir. Şagirdlər dərsdə nələrdən söhbət gedəcəyini öyrənirlər.

2. *Mətnin ilk oxusu.* Mətn ilk dəfə şagirdlər tərəfindən hissə-hissə oxunur. Şagirdlərin oxusunun şüurluluğunu təmin etmək üçün müəllim onlara o qədər də çətin olmayan tapşırıq verir. Mətn bir qədər böyük və çətin olduqda onun şagirdlər tərəfindən hissə-hissə oxunması məsləhət görülür.

3. *Mətnin hissələrinin təhlili.* Hər bir hissə oxunduqdan sonra onun məzmununu nəql edən şagird çətin söz və ifadələri aydınlaşdırır.

4. *Planın tərtib olunması.* Planın tərtibi mətnin ayrı-ayrı hissələrinin düzgün əlaqələndirilməsi, şagirdlərin məntiqi təfəkkürünün inkişafını təmin edir. Elmi-kütləvi mətnlərin planının tərtib edilməsi üzrə işə kiçik sinifdən başlamaq mümkündür.

5. *Ümumiləşdirici müsahibə.* Müəllim dərsdə şagirdlərin nələri öyrəndiklərini, ümumiyyətlə, mövzu ilə əlaqədar nələri bildiklərini, onları həyata necə tətbiq edəcəklərini müəyyənləşdirmək məqsədilə müsahibə aparır.

6. *Evə tapşırıq.* Öyrənilən mövzu üzrə məlumatın daha da genişləndirilməsi və dərinləşdirilməsi üçün evə yaradıcı fəaliyyət tələb edən tapşırıq verilir.

## Nitqin inkişaf etdirilməsi üçün oxu modelləri

Oxu şagirdlərin öz oxu fəaliyyətini təşkil və idarə etməsidir. Yəni şagirdlər oxu üçün təqdim edilən mətnin mənasını dərk etməyi problem, mətnin oxusunu isə problem həll etmə forması kimi dəyərləndirərək məqsədə nail olmaq üçün fəaliyyətini düşünülmüş şəkildə təşkil edir, yəni strategiyasını qurur. Oxuya strategiyalı yanaşma ona xidmət edir ki, şagird gözlənilən nəticəni mətnin oxusuna başlamazdan əvvəl aydın təsəvvür edir. O, dəqiq bilir:

- Hansı suallar cavablandırılmalıdır?
- Hansı plana əsasən oxu təşkil edilməlidir?
- Bu haqda artıq nələri bilir?
- Uğura nail olmaq üçün nələr etmək lazımdır?

Nitqin inkişaf etdirilməsi üçün aşağıdakı oxu modellərindən istifadə oluna bilər:

**Səsli oxu.** Məqsəd şagirdlərin oxunan mətndəki sözlərin necə tələffüz edildiyini və hansı mənada işləndiyini anlamalarına nail olmaqdır. Səsli oxu şagirdlərin oxu səviyyəsini müəyyənləşdirməklə bərabər, dinləyənlərin zehni fəaliyyətlərinin inkişa-

fına da kömək edər. Şagirdlərin düzgün danışmaq bacarıqlarını artırır. Səsli və gözəl oxu dinləyənlərin mövzuya marağını oyadır və oxumağa həvəsləndirir. Səsli oxu dərsi müxtəlif üsullarla keçirilə bilər.

**Sürətli oxu** sürətli oxu texnikasının sonradan təkmilləşməsinin nəticəsidir. Stereo cədvəllərlə xüsusi məşq terminlərindən istifadə etməklə şagird əməli görüş sahəsinin əsaslı şəkildə artırılmasına nail olur. Bu zaman fuziya divergensiyası adlandırılan bir effekt, daha doğrusu, gözün görmə oxlarının ayrılması meydana çıxır. Bunun hesabına da oxunun sürəti və oxunuşların mənimsənilməsinin keyfiyyəti artır.

**Diqqətli oxu** zamanı bütün təfərrüatlara diqqət yetirilir, onların təhlili və qiymətləndirilməsi həyata keçirilir. Bəzi pedaqoqlar dərinləşdirilmiş oxunu analitik, tənqidi və yaradıcı adlandırırlar. Bu üsul tədris fənlərinin öyrənilməsində ən yaxşısı hesab olunur. Siz, sadəcə, mətni oxumur və anlaşılmayan yerləri aydınlaşdırmırsınız, həm də öz biliklərinizə, təcrübənizə əsaslanaraq məsələni tənqidi, yaradıcı şəkildə nəzərdən keçirir, izahlarda güclü və zəif yerləri tapır, fikir və qənaətləri müstəqil şəkildə təfsir edirsiniz. Bu da oxunmuş materialı asanlıqla yadda saxlamağa imkan verir, məşğələlərdə fəallığı yüksəldir. Bu yolla tanış olmayan, həmçinin çətin mövzuda olan dərsliklər, mətnlər oxunur.

**Proqnozlaşdırılmış oxu.** Mətnin təqdim olunan hissəsini şagirdlər oxuyur. Müəllim şagirdlərdən "Mətndə inkişaf edən və inkişaf edə biləcək olan hadisələri" iki ayrı-ayrı sütunda yazmalarını tələb edir. Mətnin qalan hissəsini müəllim oxuduqdan sonra mətndəki hadisələrin necə nəticələnə biləcəyi başqa bir sütunda yazılır. Buna görə şagirdlərə hər hissə ilə bağlı düşüncələrini yazmaları üçün üç sütundan ibarət tapşırıq vərəqləri paylanılır.

Müəllim mətnin bir hissəsini səsli oxuyur. Şagirdlərdə maraq oyandıran ifadələr və onlarla bağlı suallar yazı taxtasına yazılır. Mətnin davamında sualların cavabları tapıldıqca üstlərindən xətt çəkilir.

Müəllim şagirdlərdən mətni oxumağa başlamazdan əvvəl mətnin başlığı və əyani vasitələrdən istifadə etməklə mətnin məzmunu ilə bağlı fərziyyələr irəli sürmələrini tələb edir.

Səsli oxu əsnasında oxu prosesini dayandırmaqla "Sizin fikrinizcə, bundan sonra nə ola bilər?", "Mətnin davamında hadisələrin fərz etdiyiniz kimi inkişaf etməsinin səbəbi nədir?" tipli suallar verməklə şagirdlərin diqqətinin mətn ətrafında daha çox cəmlənməsinə nail olur.

**Sual verərək oxu**. Oxudan əvvəl və oxu prosesində şagirdlərə suallar hazırlamaq tapşırılır. Məqsəd şagirdlərin mətn üzərində düşünmələrinə nail olmaqdır. Bu metodun tətbiqi iki formada həyata keçirilir.

Mətn səsli və ya səssiz oxunduqdan sonra şagirdlər oxu prosesində (beyinlərində) zehinlərində yaranan sualları yazırlar. Qruplara ayrılaraq həmin suallara cavab axtarırlar. Hər qrupdan, yaxud sinifdən bir şagird yoldaşına sual verir.

Şagirdlər mətni oxumazdan əvvəl və oxuyarkən mətnin başlığını və beyinlərində yaranmış sualları yazı taxtasına yazırlar. Cavabları verilmiş sualların üstündən xətt çəkilir.

**Rollar üzrə oxu.** Məqsəd şagirdlərin mətnin quruluşunu, dilini və mətndə iştirak edən obraz və personajların xarakterlərini anlamalarına nail olmaqdır. Mətn oxunduqdan sonra dialoqlara çevrilərək teatr ssenarisi düzəldilir. Mətnin məzmununda heç bir dəyişiklik edilmir, adi danışıq cümlələri və hadisələr nəzərə alınmaqla dialoqlar düzəlir. Hər bir şagird oxuyacağı hissəni hazırlayır. Eyni zamanda mətnin qavranılmasına da nail olmaq lazımdır. Şagirdlər oxuduqları hissədə nəzərə çatdıracaqları hissələri mətnin məzmunundan asılı olaraq izah etməyi bacarmalıdırlar.

**Tənqidi oxu.** Məqsəd şagirdlərə oxuduqları haqqında sual vermək vərdişləri qazandırmaqla mövzu haqqında düşünmələrinə imkan yaratmaq, mövzunu müsbət və mənfi tərəfləri ilə və bitərəflilik nöqteyi-nəzərindən dəyərləndirərək şəxsi fikirlərini bildirməkdir. Mətn oxunarkən şagirdlər iştirak edib-etmədikləri yerləri müəyyənləşdirir və beyinlərində yaranan suallara cavab axtarırlar. Hiss, düşüncə və hadisələr arasında səbəb-nəticə əlaqəsi qurmağa çalışırlar. Fərdi təcrübələrindən istifadə etməklə oxuduqlarına məna verirlər.

**Müzakirə edərək oxu.** Məqsəd şagirdlərin mətnin mövzusu ilə bağlı bilik, hiss və düşüncələrini başqaları ilə bölüşmələrinə və onların bilik və düşüncələrindən istifadə etməklə fərqli baxışlar qazanmalarına nail olamaqdır. Bu metod mətn hissələrə ayrılaraq tətbiq oluna bildiyi kimi, həm də bütünlüklə tətbiq edilə bilər. Müzakirə bütün sinif, yaxud qruplar halında keçirilə bilər. Müzakirənin sonunda əldə olunan müştərək düşüncələr qeyd olunaraq mətn kimi təqdim olunur. Bütün şagirdlərin müzakirədə iştirakına və bir-birinin fikrinə hörmət etməsinə nail olunur.

## Dərslikdə verilmiş müxtəlif çalışma və yazı işləri ilə bağlı tövsiyələr

Yazılı çalışmaların əksəriyyəti dil dərsinin bir hissəsində tək-tək hallarda bütöv dərs ərzində yerinə yetirilməlidir. Yazılı çalışmaları nəzərdən keçirək: İmlalar orfoqrafik çalışmaların məktəb təcrübəsində sınaqdan çıxarılmış ən əlverişli növüdür. İmlalar iki qrupa ayrılır: öyrədici imlalar; yoxlama imlalar. Görmə, xəbərdarlıqlı, izahlı, seçmə, lüğət üzrə, yaradıcı, sərbəst imlalar öyrədici xarakter daşıyır. Adından məlum olduğu kimi, imlanın bu növləri müəyyən orfoqrafik qaydaların şagirdlərə öyrənilməsinə xidmət edir. Öyrədici imlaların yazıldığı prosesdə müəllim bütün vasitələrdən istifadə edərək şagirdlərin səhvsiz yazmalarını təmin etməyə çalışır.

Öyrədici imlalara xüsusi dərs ayırmağa ehtiyac yoxdur. Dərsin ən çoxu 20-25 dəqiqəsini bu işə həsr etmək kifayətdir. Tək-tək hallarda öyrədilən orfoqramın mürəkkəbliyini nəzərə alaraq dərsi bütövlükdə onunla əlaqədar öyrədici imlaya həsr etmək olar. Öyrədici imlaların mətnləri rabitəli mətnlərdən, bir mövzu ətrafında dövr edən cümlələrdən, tam rabitəsiz cümlələrdən və ayrı-ayrı sözlərdən ibarət ola bilər. Orfoqrafiya təlimi baxımından rəbitəsiz mətnlər daha əlverişlidir. Bu zaman müəllim şagirdlərin səviyyəsini, yerli şivənin xüsusiyyətlərini nəzərə almaqla mətnə istədiyi orfoqramları daxil edə bilir.

Lüğət üzrə imla, adından məlum olduğu kimi, ayrı-ayrı sözlərin diktə edilib yazdırılması şəklində aparılır. Lüğət üzrə imla həm orfoqrafiya təlimi, həm də nitq inkişafı ilə – lüğət üzrə işlə əlaqədar olduğundan xüsusi əhəmiyyət kəsb edir. İmlanın bu növündə diktə üçün proqramdakı yazılışı çətin sözlər və yeni keçilmiş qaydaya dair orfoqramın olduğu sözlər seçilir. Lüğət üzrə imla müxtəlif sayda sözdən ibarət ola bilər. Bəzən şagirdlərin əvvəllər öyrəndikləri sözləri necə yaza bildiklərini yoxlamaq məqsədilə sözlərin sayını artırmaq mümkündür.

## İnteqrativlik prinsipinin nəzərə alınması

İnteqrasiya təlim prosesini təkmilləşdirir, fənlər arasında qarşılıqlı əlaqə və asılılığı dərinləşdirməyə xidmət edir. İnteqrasiyanın köməyi ilə şagirdlər biliklər arasında qarşılıqlı əlaqəni başa düşür və həmin bilikləri şəxsi və ictimai problemlərin həllində istifadə edirlər.

Ümumiyyətlə, fənlərin inteqrasiyasının dörd yolu var:

1. *İki fənni elə uyğunlaşdırmalı* ki, uyğun mövzular eyni zamanda tədris edilsin. Məsələn, təbiət haqqında mövzular həm Azərbaycan dili, həm də Həyat bilgisi fənni üzrə elə planlaşdırılmalıdır ki, onların tədrisi eyni vaxta təsadüf etsin.

2. *Bacarıqların inteqrasiyası* (oxu, yazı, anlama, düşünmə). Bir çox ekspertlər bunu *tamamlama* adlandırırlar. Buna nail olmaq üçün müxtəlif kurikulumları təhlil etmək və bacarıqların bir fənn çərçivəsində tamamlanması yollarını aşkar etmək lazımdır.

3. *Bir fənn çərçivəsində inteqrasiya (Ana dili).* Yazı bacarıqlarını oxu bacarıqlarından ayrı tədris etmək əvəzinə müəllim bu iki bacarığı inteqrasiya edir.

4. *Sərbəst inteqrasiya.* Bir fənnin tədrisi zamanı başqa fənnin mövzusuna keçid alınır.

İnteqrasiya müxtəlif səviyyələr üzrə bir neçə istiqamətdə aparılır. ***Fəndaxili inteqrasiya*** səviyyəsi:

1. Anlayışların qarşılıqlı şəkildə əlaqəli olmasına. Bununla fənnin şagirdlər üçün daha maraqlı olmasını təmin etmək asanlaşır;

2. İctimai və təbiət fənlərinin, eləcə də riyaziyyatın tədrisi zamanı oxu və yazı kimi bacarıqların təliminə xüsusi fikir vermək lazımdır. Bu bacarıqların tədrisi yalnız Ana dili fənni ilə məhdudlaşdırılmamalıdır.

***Fənlərarası inteqrasiya*** səviyyəsi. İnteqrativ təlimin təşkili zamanı fənlərarası inteqrasiyaya xüsusi əhəmiyyət verilir. Fənlərarası inteqrasiya təlim materiallarının digər fənlərin imkanları hesabına məzmun etibarilə genişlənməsinə, məsələlərin dərin təhlilinə və ümumiləşdirilməsinə xidmət edir. Müəllimlər üçün aşağıdakı inteqrasiya cədvəli tövsiyə edilir:

## Reallaşdırılacaq fənlər və standartlar üzrə inteqrasiya cədvəli

| Mövzular | Standartlar | Fənlər | | |
|---|---|---|---|---|
| Hansı peşə daha yaxşıdır? | 2.1.3., 3.1.2. | Həyat bilgisi – 2.1.1. | Azərbaycan tarixi – 1.3.1. | Ədəbiyyat – 2.2.1. |
| Hekayət | 2.1.1., 3.1.1., 3.1.3. | Azərbaycan tarixi – 2.1.1. | | |
| Kərpickəsən qocanın hekayəti (I saat) | 3.1.1., 3.1.2., 4.1.1. | Ədəbiyyat – 2.1.2. | Həyat bilgisi – 2.1.2. | |
| Kərpickəsən qocanın hekayəti (II saat) | 2.1.3., 2.1.4., 3.1.3. | Xarici dil – 3.1.1. | İnformatika – 3.3.3. | |
| Mətn (I saat) | 1.1.2., 4.1.2. | Coğrafiya – 3.2.2. | Ümumi tarix – 5.1.1. | Həyat bilgisi – 1.1.1., Xarici dil – 4.1.3. |
| Mətn (II saat) | 3.1.1., 3.1.2., 4.1.3. | Ədəbiyyat – 2.1.2. | Riyaziyyat – 1.1.3. | Azərbaycan tarixi – 5.1.1. |
| Finlandiyada təhsil və tərbiyə (I saat) | 1.1.1., 1.1.2., 2.1.3. | Coğrafiya – 1.1.1. | Həyat bilgisi – 2.1.2. | Ümumi tarix – 1.1.2., İnformatika – 3.3.3. |
| Finlandiyada təhsil və tərbiyə (II saat) | 3.1.1., 4.1.1., 4.1.2. | Ədəbiyyat – 2.1.2. | Xarici dil – 3.1.1. | |
| İnsanlar (I saat) | 2.1.2., 3.1.1., 3.1.2., 3.1.3. | Həyat bilgisi – 2.1.1. | Ədəbiyyat – 2.2.1. | |
| İnsanlar (II saat) | 1.1.1., 2.1.1., 4.1.3. | Azərbaycan dili – 1.1.1. | Ədəbiyyat – 3.1.3. | |
| Seyid Əzim yadigarı (I saat) | 2.1.3., 3.1.3., 4.1.1. | Azərbaycan tarixi – 1.3.1. | Ədəbiyyat – 2.2.1. | |
| Seyid Əzim yadigarı (II saat) | 3.1.1., 3.1.2., 4.1.3. | Azərbaycan dili – 2.2.2. | Azərbaycan dili – 2.2.3. | Həyat bilgisi – 3.2.1. |
| Sağ ol, ana dilim (I saat) | 1.1.1., 1.1.2., 2.1.2., 2.1.3. | Azərbaycan tarixi – 3.1.1. | Ümumi tarix – 1.1.2. | |
| Doğma dilim, sən ki varsan dünyada (II saat) | 1.1.1., 2.1.3., 4.1.1. | Azərbaycan dili – 2.2.3. | Ədəbiyyat – 1.1.2. | |
| İncəsənət haqqında əsas anlayışlar (I saat) | 1.1.1., 1.1.2., 2.1.3. | Coğrafiya – 3.2.1. | Ümumi tarix – 1.1.2. | Təsviri incəsənət – 3.1.1. |
| İncəsənət haqqında əsas anlayışlar (II saat) | 3.1.1., 4.1.1., 4.1.2. | Ədəbiyyat – 2.1.2. | Xarici dil – 3.1.1. | |
| Bəstəkarın portreti (I saat) | 2.1.1., 2.1.4., 3.1.3., 4.1.1. | Musiqi – 1.1.1. | Azərbaycan tarixi – 1.2.1. | Təsviri incəsənət – 3.1.2. |
| Bəstəkarın portreti (II saat) | 3.1.1., 4.1.1., 4.1.2. | Təsviri incəsənət – 1.3.1. | İnformatika – 3.3.3. | Xarici dil – 3.1.1. |

| | | | | |
|---|---|---|---|---|
| Mətn (I saat) | 1.1.1., 1.1.2., 2.1.2., 4.1.2. | Musiqi – 2.1.1. | Azərbaycan tarixi – 5.1.3. | |
| Mətn (II saat) | 3.1.1., 4.1.1. | Xarici dil – 3.1.1. | Xarici dil – 4.1.2. | |
| Əbdülbağı Zülalov Bülbülcan | 1.1.1., 2.1.3., 3.1.1. | Musiqi – 1.1.1. | Azərbaycan tarixi – 1.2.1. | |
| Minnətsiz çörək (I saat) | 1.1.1., 3.1.1., 4.1.1. | Ədəbiyyat – 2.1.2. | Xarici dil – 3.1.1. | |
| Minnətsiz çörək (II saat) | 2.1.1., 4.1.1., 4.1.3. | Azərbaycan dili – 1.1.1. | İnformatika – 3.3.3. | |
| Unudulmaz xatirə (I saat) | 2.1.2., 3.1.3., 4.1.3. | Ədəbiyyat – 2.1.2. | Xarici dil – 3.1.1. | |
| Unudulmaz xatirə (II saat) | 3.1.1., 3.1.2., 4.1.3. | Azərbaycan dili – 2.2.2. | Azərbaycan dili – 2.2.3. | |
| Haqqın səsi (I saat) | 1.1.1., 1.1.2. | Həyat bilgisi – 2.2.2. | Ədəbiyyat – 1.1.2. | |
| Haqqın səsi (II saat) | 3.1.1., 3.1.2. | Azərbaycan dili – 2.2.3. | | |
| Həmrəylik (Hesabatın hazırlanması) | 2.1.3., 4.1.3., 4.1.4. | Həyat bilgisi – 2.1.1. | Azərbaycan tarixi – 1.3.1. | |
| İçərişəhər məhv edilməkdən necə xilas oldu? (I saat) | 2.1.4., 3.1.1., 4.1.1, 4.1.2. | Azərbaycan tarixi – 1.1.1. | Azərbaycan tarixi – 3.1.2. | Ümumi tarix – 1.1.2. |
| İçərişəhər məhv edilməkdən necə xilas oldu? (II saat) | 2.1.1., 2.1.4., 3.1.3. | Azərbaycan tarixi – 1.2.1. | Təsviri incəsənət – 3.1.2. | |
| Bakı–1501 (I saat) | 2.1.2., 3.1.1., 4.1.1. | Ədəbiyyat – 1.2.2. | Coğrafiya – 3.2.1. | Xarici dil – 3.1.1. |
| Bakı–1501 (II saat) | 3.1.2., 4.1.3. | Azərbaycan dili – 4.1.1. | Azərbaycan dili – 3.1.2. | |
| 20 Yanvar | 1.1.1., 2.1.3. | Ədəbiyyat – 1.1.2. | Azərbaycan tarixi – 3.1.1. | Həyat bilgisi – 2.2.1., Xarici dil – 4.1.2. |
| “Əbədi məşəl” abidəsi qəhrəmanlıq və rəşadətin əbədiləşən təsviridir | 2.1.1., 2.1.4., 3.1.3. | Azərbaycan tarixi – 4.1.2. | Azərbaycan tarixi – 5.1.3. | Təsviri incəsənət – 3.1.1., 3.1.2. |
| Zivərbəy Əhmədbəyov (I saat) | 1.1.1., 1.1.2., 3.1.1. | Azərbaycan tarixi – 1.1.1. | Həyat bilgisi – 2.2.2., 3.2.1. | Təsviri incəsənət – 1.1.1. |
| Zivərbəy Əhmədbəyov (II saat) | 2.1.1., 4.1.1., 4.1.3. | Azərbaycan dili – 1.1.1. | İnformatika – 3.3.3. | |
| Osmanlı dövlətinin ilk baş memarı (I saat) | 1.1.1., 3.1.2., 3.1.3. | Ədəbiyyat – 2.1.2. | Təsviri incəsənət – 1.3.1. | |

| | | | | |
|---|---|---|---|---|
| Osmanlı dövlətinin ilk baş memarı (II saat) | 2.1.4., 3.1.2., 4.1.3. | Azərbaycan dili – 4.1.1. | Azərbaycan dili – 3.1.2. | |
| Fit qalası (I saat) | 1.1.1., 1.1.2., 2.1.4. | Coğrafiya – 2.1.8., 3.2.2. | Azərbaycan tarixi – 3.1.1. | Riyaziyyat – 4.1.1. |
| Fit qalası (II saat) | 2.1.2., 3.1.2., 4.1.3. | Azərbaycan dili – 2.2.3. | Xarici dil – 3.1.1. | Xarici dil – 4.1.2. |
| Tsin Şi Xuandinin məqbərəsi (I saat) | 1.1.1., 1.1.2., 2.1.3. | Coğrafiya – 3.2.1. | Ümumi tarix – 1.1.2. | Təsviri incəsənət – 3.1.1. |
| Tsin Şi Xuandinin məqbərəsi (II saat) | 3.1.1., 4.1.1., 4.1.3. | Ədəbiyyat – 2.1.2. | Xarici dil – 3.1.1. | |
| Büllur piramida | 2.1.1., 2.1.4., 3.1.3., 4.1.1. | Riyaziyyat – 3.2.1., 3.2.2. | Azərbaycan tarixi – 1.2.1. | Təsviri incəsənət – 3.1.2. |
| Konfutsinin əxlaq nəzəriyyəsi (I saat) | 1.1.1., 1.1.2., 2.1.3. | Həyat bilgisi – 2.1.1. | Ədəbiyyat – 2.2.1. | |
| Konfutsinin əxlaq nəzəriyyəsi (II saat) | 3.1.1., 4.1.2., 4.1.3. | Azərbaycan dili – 3.1.2. | İnformatika – 3.3.3. | |
| Nəsihət (I saat) | 2.1.2., 3.1.3., 4.1.3. | Həyat bilgisi – 2.2.1., 3.2.2. | Azərbaycan dili – 1.2.4. | Ədəbiyyat – 3.1.3. |
| Nəsihət (II saat) | 2.1.1., 4.1.1., 4.1.3. | Azərbaycan dili – 1.1.1. | | |
| Dünyanı yandıran ah (I saat) | 1.1.1., 1.1.2., 2.1.3., 3.1.3. | Azərbaycan dili – 1.2.4. | Azərbaycan dili – 2.2.3. | Azərbaycan tarixi – 1.1.1. |
| Dünyanı yandıran ah (II saat) | 3.1.1., 3.1.2., 3.1.3., 4.1.3. | Xarici dil – 3.1.1. | Xarici dil – 4.1.2. | |
| Yenə bir arzu qaldı | 1.1.1., 2.1.3., 4.1.1. | Ədəbiyyat – 2.1.2. | Xarici dil – 3.1.1. | |
| Mətn (I saat) | 1.1.1., 1.1.2., 3.1.1. | Həyat bilgisi – 3.2.1. | Azərbaycan dili – 2.2.3. | Ümumi tarix – 4.1.2. |
| Mətn (II saat) | 2.1.1., 4.1.1., 4.1.3. | Azərbaycan dili – 1.1.1. | Azərbaycan dili – 4.1.4. | |
| Düzgün qərar (I saat) | 1.1.1., 1.1.2., 2.1.4. | Həyat bilgisi – 2.1.1. | Ədəbiyyat – 1.1.2. | |
| Düzgün qərar (II saat) | 3.1.1., 3.1.2., 4.1.3. | Azərbaycan dili – 2.2.3. | Azərbaycan dili – 4.1.4. | |
| Peçenye oğrusu (I saat) | 2.1.1., 3.1.1. | Həyat bilgisi – 3.2.1. | Azərbaycan dili – 2.2.3. | Xarici dil – 3.1.1. |
| Peçenye oğrusu (II saat) | 3.1.2., 4.1.3. | Azərbaycan dili – 3.1.2. | | |
| Körpü | 1.1.1., 1.1.2., 3.1.1. | Həyat bilgisi – 2.2.2. | Həyat bilgisi – 3.2.1. | |

## Məzmun standartlarının reallaşması cədvəli

| Standartlar / Mövzular | 1.1.1. | 1.1.2. | 2.1.1. | 2.1.2. | 2.1.3. | 2.1.4. | 3.1.1. | 3.1.2. | 3.1.3. | 4.1.1. | 4.1.2. | 4.1.3. | 4.1.4. |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Hansı peşə daha yaxşıdır? | | | | | • | | | • | | | | | |
| Hekayət | | | • | | | | • | | • | | | | |
| Kərpickəsən qocanın hekayəti (I saat) | | | | | | | • | • | | • | | | |
| Kərpickəsən qocanın hekayəti (II saat) | | | | | • | • | | | • | | | | |
| Mətn (I saat) | | • | | | | | | | | | • | | |
| Mətn (II saat) | | | | | | | • | • | | | | • | |
| Finlandiyada təhsil və tərbiyə (I saat) | • | • | | | • | | | | | | | | |
| Finlandiyada təhsil və tərbiyə (II saat) | | | | | | | • | | | • | • | | |
| İnsanlar (I saat) | | | | • | | | • | • | • | | | | |
| İnsanlar (II saat) | • | | • | | | | | | | | | • | |
| Seyid Əzim yadigarı (I saat) | | | | | • | | | | • | • | | | |
| Seyid Əzim yadigarı (II saat) | | | | | | | • | • | | | | • | |
| Sağ ol, ana dilim (I saat) | • | • | | • | • | | | | | | | | |
| Doğma dilim, sən ki varsan dünyada (II saat) | | • | | | • | | • | | | • | | | |
| İncəsənət haqqında əsas anlayışlar (I saat) | • | • | | | • | | | | | | | | |
| İncəsənət haqqında əsas anlayışlar (II saat) | | | | | | | • | | | • | • | | |
| Bəstəkarın portreti (I saat) | | | • | | | • | | | • | • | | | |

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bəstəkarın portreti (II saat) | | | | | | | • | | | • | • | | |
| Mətn (I saat) | • | • | | • | | | | | | | • | | |
| Mətn (II saat) | | | | | | | • | | | • | | | |
| Əbdülbağı Zülalov Bülbülcan | • | | | | • | | • | | | | | | |
| Minnətsiz çörək (I saat) | • | | | | | | • | | | • | | | |
| Minnətsiz çörək (II saat) | | | • | | | | | | | • | | • | |
| Unudulmaz xatirə (I saat) | | | | • | | | | | • | | | • | |
| Unudulmaz xatirə (II saat) | | | | | | | • | • | | | | • | |
| Haqqın səsi (I saat) | • | • | | | | | | | | | | | |
| Haqqın səsi (II saat) | | | | | | | • | • | | | | | |
| Həmrəylik | | | | | • | | | | | | | • | • |
| İçərişəhər məhv edilməkdən necə xilas oldu? (I saat) | | | | | | • | • | | | • | • | | |
| İçərişəhər məhv edilməkdən necə xilas oldu? (II saat) | | | • | | | • | | | • | | | | |
| Bakı–1501 (I saat) | | | | • | | | • | | | • | | | |
| Bakı–1501 (II saat) | | | | | | | | • | | | | • | |
| 20 Yanvar | • | | | | • | | | | | | | | |
| “Əbədi məşəl” abidəsi qəhrəmanlıq və rəşadətin əbədiləşən təsviridir | | | • | | | • | | | • | | | | |
| Zivər bəy Əhmədbəyov (I saat) | • | • | | | | | • | | | | | | |
| Zivər bəy Əhmədbəyov (II saat) | | | • | | | | | | | • | | • | |

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Osmanlı dövlətinin ilk baş memarı (I saat) | • | | | | | | | • | • | | | | |
| Osmanlı dövlətinin ilk baş memarı (II saat) | | | | | | • | | • | | | | • | |
| Fit qalası (I saat) | • | • | | | | • | | | | | | | |
| Fit qalası (II saat) | | | | • | | | | • | | | | • | |
| Tsin Şi Xuandinin məqbərəsi (I saat) | • | • | | | • | | | | | | | | |
| Tsin Şi Xuandinin məqbərəsi (II saat) | | | | | | | • | | | • | | • | |
| Büllur piramida | | | • | | | • | | | • | • | | | |
| Konfutsinin əxlaq nəzəriyyəsi (I saat) | • | • | | | • | | | | | | | | |
| Konfutsinin əxlaq nəzəriyyəsi (II saat) | | | | | | | • | | | | • | • | |
| Nəsihət (I saat) | | | | • | | | | | • | | | • | |
| Nəsihət (II saat) | | | • | | | | | | | • | | • | |
| Dünyanı yandıran ah (I saat) | • | • | | | • | | | | • | | | | |
| Dünyanı yandıran ah (II saat) | | | | | | | • | • | • | | | • | |
| Yenə bir arzu qaldı | • | | | | • | | | | | • | | | |
| Mətn (I saat) | • | • | | | | | • | | | | | | |
| Mətn (II saat) | | | • | | | | | | | • | | • | |
| Düzgün qərar (I saat) | • | • | | | | • | | | | | | | |
| Düzgün qərar (II saat) | | | | | | | • | • | | | | • | |
| Peçenye oğrusu (I saat) | | | • | | | | • | | | | | | |
| Peçenye oğrusu (II saat) | | | | | | | | • | | | | • | |
| Körpü | • | • | | | | | • | | | | | | |

## Qiymətləndirmədən düzgün istifadə ilə bağlı tövsiyələr

Müəllim standartın necə mənimsənilməsi haqqında mütəmadi məlumat əldə etmədən şagirdlərin bilik, bacarıq və vərdişlərindəki çatışmazlığı, təlimdəki irəliləmə və geriləmələrini vaxtında aradan qaldıra bilməz.

Qiymətləndirmənin dəqiq və ədalətli aparılması onun pedaqoji təsirini artıran amillərdən biridir. Qiymətin yersiz artırılması, liberallıq şagirdi arxayınlaşdırdığı, onun hazırlıq səviyyəsini aşağı saldığı kimi, azaldılması, ondan cəzalandırma vasitəsi kimi istifadə edilməsi isə təlimə marağı azaldır, müəllimin ədalətsizliyinə qarşı narazılıq yaradır.

Bilik, bacarıq və vərdişlərin yoxlanması və qiymətləndirilməsində bütün şagirdlərin əhatə olunması və onlardan hər birinin hazırlığının müntəzəm aşkara çıxarılması son dərəcə vacibdir. Məlum olduğu kimi, yoxlama şifahi və yazılı ola bilər. Yazılı yoxlama işləri sinifdəki bütün şagirdlərin biliyi haqqında qərar verməyə imkan yaradır. Şifahi sorğu çox vaxt tələb edir. Həm də şifahi sorğu prosesində birinci cavab verəndən başqa hamı təsirə qapılır, əvvəlkilərdən eşitdiklərini təkrarlayır.

Adətən, ən yaxşı müəllimin sinfində şagirdlərin hər biri vaxtaşırı sorğuda iştirak edir və müvafiq qiymət alır. Təlimin ənənəvi formasında işlədikdə müəllim hər dərsdə ən çox yalnız 3-4 şagirdlə işləyir və onlardan hazırlıq səviyyəsini öyrənə bilirdi. O, materialın hər bir şagird tərəfindən və həmişə necə mənimsənildiyini görə bilmirdi. Ona görə də indi yoxlama məqsədilə əks-əlaqədən geniş istifadə edilir.

Qiymətləndirmə müxtəlif üsul və vasitələrin seçilməsi və tətbiqi ilə müşayiət olunan prosesdir. Vasitələrinin hazırlanması planlaşdırılmış proses olmalıdır. Bu zaman aşağıdakı prinsiplərə riayət olunur:

- Seçilmiş üsul və vasitənin məqsədəuyğun olması;
- Hazırlanan materialların keyfiyyətəmüvafiq və etibarlı olması;
- Qiymətləndirmə zamanı şəffaflıq, ədalətlilik və əməkdaşlıq gözlənilməsi;
- Qiymətləndirmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması.

Qiymətləndirmə müxtəlif tipli suallar nəzərdə tutula bilər. İmtahan üçün suallar yazılarkən dörd məqama hər zaman diqqət yetirilməlidir:

- Həqiqilik – tapşırıq və suallar reallığı əks etdirməli, cəfəngiyyatdan kənar olmalıdır.
- Səmərəlilik – verilən sualların şagird təfəkkürünün formalaşmasındakı rolu mühümdür. Bu baxımdan onlar yararsız olmamalıdır.
- Obyektivlik – qiymətləndirmə obyektiv aparılmalı, qərəzli mövqe əks etdirməməlidir.
- Spesifiklik – fənnin məqsəd və vəzifəsinə uyğunluq mütləq nəzərə alınmalıdır.

Qiymətləndirmə üçün seçilmiş sual və tapşırıqlar müxtəlif məzmunda olduğu kimi, formaca da rəngarəng olmalıdır. Müxtəlif sual tiplərinin işlənməsi imtahan prosesini və nəticələri daha uğurlu etmək üçün vacibdir. Ən çox istifadə olunan sual tipləri aşağıdakılardır:

– Çoxseçimli qruplaşdırma;
– Düz/səhv;

– Sıralama;
– Standart çoxseçimli;
– Uzlaşdırma;
– Ən yaxşı cavab.

Çoxseçimli suallardan istifadə edilən zaman məzmuna dair seçimlər etmək daha asan olur. Yüksək etibarlılıq və səmərəlilik bu tipin əsas göstəriciləridir. Bu tapşırıqların obyektiv və ölçüləbilən olması onu daha çox seçilən edir. Mexaniki qiymətləndirmə aparmağa bir çox sualı eyni vaxtda soruşmağa imkan verir. Etibarlılığı yüksəkdir. Hazırlanması uzun zaman və peşəkarlıq tələb edir. Qiymətləndirilməsi az vaxt tələb edir və asandır. Cavabın qiymətləndirilməsində obyektivlik təmin edilir. Tapşırığın çətinlik dərəcəsini təyin etmək asandır.

Lakin bu tapşırıq tipinin çatışmazlıqları da var. Təsadüfi nailiyyət ehtimalı yüksəkdir. Mövzu haqqında heç anlayışı olmayan şagird bilmədən doğru cavabı tapa bilər. Cavablandıranın fikirlərini ifadəetmə xüsusiyyətini ölçə bilmir.

Sualın formalaşdırılması zamanı bir neçə məqam nəzərə alınmalıdır:

- Dəqiq suallardan istifadə edilməli;
- İnkardan mümkün qədər az istifadə edilməli;
- Düzgün cavabın səhv fikrə əsaslanmamasına diqqət yetirilməli.

Hər tapşırıq mütləq əhəmiyyətli bir bacarığı ölçməlidir. Tapşırığın mətni, variantları nəzərə almadan, tək və əsas bir fikri ifadə etməlidir.

– Mətn problemin mümkün qədər az sayda amillərini əhatə etməlidir.
– Aydın və sadə dillə yazılmalıdır.
– Şərhə ehtiyacı olan ifadələr olmamalıdır.
– Bir tapşırıq başqasına açar olmamalıdır.
– Variantlar ifadə, qrammatika və mövzu baxımından müvafiq olmalıdır.

Uyğunlaşdırma tapşırıqları geniş vüsət alan tapşırıq tiplərindən biridir. Bu tip tapşırıqlar çoxseçimli və doğru-yanlış tipli tapşırıqların sintezidir. Cavablandırma prosesi iki dəst halında olan soruşulanlar və cavablar arasında doğruluq əlaqəsinin qurulmasına əsaslanar. Qısa zamanda daha çox tapşırığın cavablandırılması mümkündür. Cavablar konkret olduğundan bal vermə obyektivdir, tətbiqi asandır.

Nailiyyəti ölçmək üçün qapalı və çoxseçimli suallardan daha maraqlı vasitələr açıq sual növləridir. Bu suallar müxtəlif cür olur.

- Qapalı və ya tamamlayıcı suallar

Vasitəsiz nitq … .

- Qısa cavablı suallar

Hansı növ cümlələrdə nida işarəsi qoyulur?

- Geniş cavablı suallar

Nə üçün … olduğunu izah edin.

- İnşa tipli suallar

“Düzgün qərar” əsərində qərarı şərh edin.

Açıq sualların yazılması üçün məsləhətlər aşağıdakılardır:

- Sualı yoxlamaq üçün standart cavabdan istifadə edin.

- Cavabı gizlədən strukturdan uzaq qaçın.
- Sualı məlumat və sual hissələrinə bölün.
- Konkret sual formasından istifadə edin.
- Şagird özü fikirləşib yazmalıdır.

Qısa cavablı tapşırıqlar hər hansı bir mövzu ilə bağlı faktoloji bilikləri qiymətləndirmək üçün istifadə edilir. Cavablar "cümləni tamamlamaq, təsvir etmək, qısa şəkildə şərhlər, ya da cədvəl/qrafik" şəklində göstərilə bilər. Daha çox xatırlama qabiliyyətini (hafizəni) ölçür. Qısa müddətdə daha çox sual soruşmaq mümkündür.

## Şifahi cavabların qiymətləndirilməsi

Şifahi sorğu şagirdlərin bilik, bacarıq və vərdişlərinin hesaba alınmasının mühüm qaydasıdır. Şifahi cavablar qiymətləndirilərkən aşağıdakı meyarlar diqqət mərkəzinə qoyulur: 1) cavabın tamlığı və düzgünlüyü; 2) ifadə olunan biliklərin mənimsənilməsinin şüurluluq dərəcəsi; 3) ifadənin ardıcıllığı və nitq mədəniyyəti.

Şagirdin tam cavabı müəllimin verdiyi mövzuda rabitəli çıxış təsəvvürü verməli və öyrənilmiş materialın onlar tərəfindən şüurlu mənimsənilməsini bildirməlidir. Cavabı (qaydanı, tərifi) öz misalları ilə təsdiq etmək, müəllimin tapşırığı ilə mətndə bu və ya digər qrammatik kateqoriyanı (cümlə üzvləri, nitq hissələri, sözün hissələri, hal, cins, şəxs və s.) dərk etmək, müəyyən qaydaya aid sözü tapmaq, onların yazılışını izah etmək bacarığı, praktik çalışmaları müstəqil yerinə yetirmək bacarığı nəzərə alınmalıdır.

Şagirdlərin nitqinin formalaşmasının ilkin mərhələsində onların şifahi cavabları sübutlu, kifayət qədər müstəqil və nitq tərtibi cəhətdən – fikrin ifadə olunmasının ardıcıllığının gözlənməsi, sözlərin işlənməsində, cümlələrin və söz birləşmələrinin qurulmasında ədəbi dil normalarının qorunması düzgün olmalıdır. Şifahi nitq bacarıqlarının səviyyələndirilməsini aşağıdakı cədvəldə müşahidə etmək mümkündür:

| Səviyyələr | Şifahi nitq bacarıqları |
|---|---|
| IV | Tam və düzgün cavab verir.<br>Materialı şüurlu mənimsəyir.<br>Cavabı öz misalları ilə təsdiq edir.<br>Mətndə öyrənilmiş qrammatik kateqoriyaları dərk edir.<br>Sözlərin yazılışını və durğu işarələrinin işlənməsini izah edir.<br>Rabitəli, ardıcıl, nitq qüsurları olmadan cavab verir. |
| III | Cavabın nitq cəhətdən tərtibində səhvlərə yol vermir.<br>Qaydanı misallarla təsdiq edir.<br>Mətn üzərində işdə səhvlərə yol verir.<br>Sözlərin və cümlələrin tələffüzündə 1-2 qeyri-dəqiqliyə yol verir.<br>Səhvləri müstəqil və ya müəllimin köməyi ilə asanlıqla düzəldir. |

| | |
|---|---|
| II | Yönəldici suallarına yarımçıq cavab verir.<br>Qaydanı öz misalları ilə müstəqil təsdiq etməkdə çətinlik çəkir.<br>Mətnlə iş zamanı səhvlər buraxır.<br>Materialı rabitəsiz, bir qədər qeyri-ardıcıl ifadə edir.<br>Sözlərin, söz birləşmələri və ya cümlələrin işlədilməsində qeyri-dəqiqliklərə yol verir. |
| I | Öyrənilmiş materialın mahiyyətini bilmir.<br>Qaydanın, tərifin formalaşdırılmasında onların mənasını təhrif edən səhvlərə yol verir.<br>Sözlərin və cümlələrin tələffüzündə səhvlər buraxır, onları hətta müəllimin yönəldici suallarının köməyi ilə də düzəldə bilmir.<br>Nitqi qeyri-ardıcıl və nöqsanlıdır. |
| Şagirdin adı, soyadı və atasının adı: Ramiz İbrahimov Rəşadət oğlu | |

Lüğət üzrə imla cari yoxlama işi kimi aparılır. Onun məzmununu heç bir qayda ilə yoxlanmayan sözlər (belə sözlərin siyahısı hər bir sinfin proqramında verilmişdir) təşkil edir. Lüğət üzrə imlaların həcmi sinfin səviyyəsinə uyğun müəyyənləşdirilir. Buraxılmış səhvlər aşağıda verilmiş cədvələ əsasən səviyyələndirilə bilər:

| İmlada buraxılmış səhvlər | | Səhvlərin sayı |
|---|---|---|
| 1 | Söz kökündə cingiltili samitlərin yazılışında | |
| 2 | Sözün axırında cingiltili samitlərin yazılışında | |
| 3 | Söz kökündə kar samitin yazılışında | |
| 4 | Sözün axırında kar samitin yazılışında | |
| 5 | İsimlərin hal şəkilçilərinin yazılışında | |
| 6 | Sifətlərin şəkilçilərinin yazılışında | |
| 7 | Feillərin zaman şəkilçilərinin yazılışında | |
| 8 | Məsdər şəkilçilərinin yazılışında | |
| 9 | Hərfartımı | |
| 10 | Hərfdüşümü | |
| 11 | Hərflərin əvəzlənməsi, yerdəyişməsi | |
| 12 | Sözlərin sətirdən sətrə keçirilməsi | |
| 13 | Durğu işarəsi səhvləri | |
| 14 | Başqa səhvlər | |
| Cəmi: | | |

İmlalar yoxlanarkən səhvlərin sayına görə işlər aşağıdakı cədvəl əsasında qiymətləndirilə bilər.

| Səviyyələr | Buraxılmış səhvlər |
|---|---|
| IV | Səhvsiz yerinə yetirilən iş |
| III | 1 səhvlə yerinə yetirilən iş |
| II | 2 səhvlə yerinə yetirilən iş |
| I | 3 və daha artıq səhvlə yerinə yetirilən iş |

## Lügət üzrə imlalara nümunələr.

Nümunə 1.

*h*, yoxsa *x*?

xətt, hadisə, xalis, hafizə, xalça, haqlı, xeyir, hazır, xəbər, ixtisas, kəhrəba, mahir, hədəf, mehriban, mexanik, məhdud, məxfi, paxlava, cihaz

Nümunə 1.

*a*, yoxsa *ə*

tələb, bəyan, adət, peşə, təbaşir, əhatə, qəhrəman, həyəcan, iştaha, bərabər, qərar, bəyanat, tələbat, xəstə, ərik, böyürtkən, təyyarə, nəhəng, qəbul, kərpic, sərəncam

## MƏKTƏB VƏ FƏRD

- ❑ Hansı peşə daha yaxşıdır?
- ❑ Hekayət
- ❑ Kərpickəsən qocanın hekayəti
- ❑ Mətn
- ❑ Finlandiyada təhsil və tərbiyə
- ❑ İnsanlar
- ❑ Seyid Əzim yadigarı
- ❑ Sağ ol, ana dilim

## Mövzu: HANSI PEŞƏ DAHA YAXŞIDIR?

**Standartlar:** 2.1.3., 3.1.2.

**Məqsəd:** Müzakirədəki ümumiləşmiş fikirlərə münasibətini bildirir.

Məqsəd və intonasiyaya görə cümlələri düzgün oxuyur.

**İnteqrasiya:**

Həyat bilgisi – 2.1.1. İnsanın sosial proseslərdə iştirakını dəyərləndirir.

Azərbaycan tarixi – 1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.

Ədəbiyyat – 2.2.1. Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** müzakirə, Venn diaqramı, sorğu, rollar üzrə oxu

**Resurslar:** müxtəlif peşə sahələrinə aid şəkillər, peşə ilə bağlı atalar sözlərindən ibarət plakat, iş vərəqləri

**Motivasiya** dərslikdə verilmiş 1-ci tapşırıq (səh. 8) əsasında qurulur. “Qabusnamə”dən İran şahı Keykavusun oğlu Gilanşaha yazdığı məktub şagirdlərlə birlikdə oxunub müzakirə olunur. Şagirdlərə tarixdən ilk insan peşələri, peşə sayəsində insanların sosiallaşması ilə bağlı məlumat verilir. Daha sonra dərslikdəki 2-ci tapşırıq üzərində iş aparılır. Şagirdlərin dilindən verilmiş fikirlər (Yunis, Rauf) tamamlanır. Yunisin nitqində sözlərin yerinə *istedad, yaradıcı* sözləri olmalıdır. Müəllim müxtəlif peşələrdən söhbət açmaqla, şagirdləri bu istiqamətdə müzakirəyə cəlb edir, söhbəti müəllim peşəsinin vacibliyinə yönəldir. Dərslikdə Lətifənin “Mən gələcəkdə ... .” cümləsi bu istiqamətə yönləndirilməlidir. Şagirdlərin fikirləri Keykavusun oğluna söylədiyi fikirlərlə müqayisə olunur.

**Tədqiqat sualı.**

*Peşələr arasında hansı oxşar və fərqli cəhətlər var? Hansı peşə daha vacibdir?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 4 qrupa bölünür və onlara iş vərəqləri paylanılır. İş vərəqlərində bütün qruplara Venn diaqramında iki peşə seçərək oxşar və fərqli cəhətlərini müqayisə etmək tapşırılır.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri asılaraq təqdimata başlanılır. Peşələrin oxşar və fərqli cəhətləri müqayisə olunur, insan həyatında peşənin əhəmiyyətini vurğulamaq məqsədilə 9-cu səhifədəki suallar üzərində iş aparılır. Cavablar müzakirə edilərək nəticə çıxarılır.

**Nəticənin çıxarılması.**

Şagirdlər müəyyənləşdirirlər ki, peşələr arasında müxtəlif oxşarlıqlar və fərqliliklər mövcuddur. Onların hamısı üçün ümumi cəhət isə məsuliyyət, təəssübkeşlik, peşəkarlığın olmasıdır. Cəmiyyətin tərəqqisi üçün bütün peşələr özünəməxsus rol oynayır. Hər gülün öz ətri olduğu kimi, hər peşənin də öz rəngarəngliyi və dəyəri var.

**Yaradıcı tətbiqetmə.**

Şagirdlərə Lətifənin arzuları ilə bağlı olan tapşırığı (səh. 8) tamamlamaq tapşırılır.

**Ev tapşırığı.**

"Kim hansı peşənin sahibi olmaq istəyir?" adlı sorğu hazırlanması tapşırılır. Sorğu hazırlamaq və keçirmək üçün dərslikdəki 11-ci tapşırıqdan istifadə edilir.

**Qiymətləndirmə** təlim məqsədlərinə uyğun olaraq sonda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Meyar cədvəlinə əsaslanmaq olar. Düzgünoxuma, münasibətbildirmə meyarlarına əsaslanmaq olar.

| I | II | III | IV |
|---|---|---|---|
| Müzakirədə iştirakda çətinlik çəkir. | Müzakirədə ətrafın dəstəyi ilə fikir bildirir. | Müzakirədə fikir bildirir. | Müzakirədəki ümumiləşmiş fikirlərə sərbəst münasibət bildirir. |
| Cümlələri çətinliklə oxuyur. | Cümlələri düzgün oxuyur. | İntonasiyaya görə cümlələri düzgün oxuyur. | Məqsədinə və intonasiyasına görə cümlələri düzgün oxuyur. |

## Mövzu: HEKAYƏT

**Standartlar:** 2.1.1., 3.1.1., 3.1.3.

**Məqsəd:** Mürəkkəb cümlələrə bağlayıcılar əlavə edərək qrammatik normalara uyğun tələffüz edir.

Mətndə fərqləndirilmiş söz və ifadələrin mənasını izah edir.

Münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır.

**İnteqrasiya:**

Azərbaycan tarixi – 2.1.1. Azərbaycanın coğrafi mövqeyi və təbii amilləri ilə müxtəlif təsərrüfat sahələri və istehsal münasibətlərinin inkişafı arasında əlaqələri dəyərləndirir.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** söz assosiasiyası, müzakirə, təqdimat

**Resurslar:** lüğət, iş vərəqləri

**Motivasiya.** Dərs evə verilmiş 11-ci tapşırığın müzakirəsi ilə başlanır. Şagirdlərin fikirləri müzakirə olunur. Sonra dərslikdəki mətn (səh. 9) oxudulduqdan sonra lüğət üzrə iş aparılır və 3–6-cı tapşırıqlar birlikdə işlənir. Tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**

*Dərslikdəki 9-cu tapşırıq tədqiqat sualı kimi işlənə bilər. (Müəllim yaradıcı yanaşaraq fərqli tədqiqat suallarından da istifadə edə bilər.)*

**Tədqiqatın aparılması.**

Şagirdlər 3 qrupa bölünür və onlara aşağıdakı iş vərəqləri paylanır:

**I qrup**

I abzasdan çıxan əsas fikri müəyyən edin.

**II qrup**

II abzasdan çıxan əsas fikri müəyyən edin.

**III qrup**

III abzasdan çıxan əsas fikri müəyyən edin.

**Qeyd.** Hər abzasdan çıxan əsas fikir ideyanın müəyyənləşdirilməsinə xidmət edir. Mətnin sonundakı pazl ideyanın açılması üçün bir açardır (pazlın cavabı: 5, 1, 7, 3, 6, 2, 8, 4).

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri asılaraq təqdimata başlanılır. İnsanların rahatlığa meyiletmə səbəbləri araşdırılır. Müzakirə üçün aşağıdakı suallar və 8-9-cu tapşırıqlar verilir.

– Nə üçün insanlar 30 dəqiqəlik yolu 3 saata qət edirdilər?
– İnsanlar yolun narahat olmasına baxmayaraq, niyə məhz o yoldan istifadə edirdilər?

Pazldan alınan cavab – "Onlar başqasının yolunu kor-koranə təqlid edir, daha rahat bir yol axtarmağa heç də səy göstərmirdilər" bu mərhələdə müzakirə olunur. Verilmiş suallar auditoriya tərəfindən müzakirə edilərək nəticə çıxarılır.

**Nəticənin çıxarılması.**

Dərslikdəki 7-ci tapşırıq yerinə yetirilir (səh. 10).

Şagirdlər belə qənaətə gəlir ki, insanlar daim rahat yaşayış axtarışındadırlar. Başqalarının açdığı cığırlarla hərəkət etmək daha asandır. Lakin bu hər zaman əmniyyətli və müvəffəqiyyətli olmur. İnsan daha asan yaşamaq üçün daim çalışmalı, təkamülə nail olmalı, yolunu düzgün müəyyənləşdirməlidir.

**İdeyası:** Düzgün seçilmiş yol (peşə, sənət) insanın gələcək həyatının təmin olunmasında, eyni zamanda cəmiyyətin rifahında müstəsna əhəmiyyətə malikdir.

**Yaradıcı tətbiqetmə.**

10-cu tapşırıq icra edilir. Müəllim tərəfindən şagirdlərin rəsmə daha yaradıcı yanaşaraq fərqli şəkil çəkmələri tövsiyə edilə bilər.

**Ev tapşırığı** kimi “Yollar dünyada çoxdur...” adlı təqdimat hazırlamaq verilir. Təqdimatda şagirdlərin insanın seçdiyi yol, peşə və sənətə münasibət kimi fikirləri öz əksini tapmalıdır. Bu təqdimatlardan növbəti dərs üçün motivasiyanın yaradılmasında istifadə etmək olar. Təqdimatın yoxlanılması ilə bağlı müəllim vəsaitdə daha əvvəl verilmiş “Təqdimatın hazırlanması və qiymətləndirilməsi” ilə əlaqədar metodik göstərişlərdən (səh. 11) yararlana bilər.

**Qiymətləndirmə** təlim məqsədlərinə uyğun olaraq sonda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Meyar cədvəlinə əsaslanmaq olar. Tələffüzetmə, izahetmə, əsaslandırma meyarları diqqətdə saxlanmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Mürəkkəb cümlələrə bağlayıcılar əlavə edərkən düzgün tələffüz etməkdə çətinlik çəkir. | Mürəkkəb cümlələrə bağlayıcılar əlavə etdikdən sonra qrammatik normalara uyğun tələffüz etməkdə çətinlik çəkir. | Mürəkkəb cümlələrə bağlayıcılar əlavə etdikdən sonra tələffüzünü qrammatik normalara uyğunlaşdırmağa çalışır. | Mürəkkəb cümlələrə bağlayıcılar əlavə etdikdən sonra qrammatik normalara uyğun tələffüz edir. |
| Mətndə fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Mətndə fərqləndirilmiş sözlərin mənasını izah edir. | Mətndə fərqləndirilmiş ifadələrin mənasını izah edir. | Mətndə fərqləndirilmiş söz və ifadələrin kontekstə uyğun mənasını izah edir. |
| Münasibətini çətinliklə əsaslandırır. | Münasibətini əlavə faktlarla əsaslandırır. | Münasibətini həyati nümunələrlə əsaslandırır. | Münasibətini əlavə fakt və mövzuya uyğun nümunələrlə əsaslandırır. |

## Mövzu: KƏRPİCKƏSƏN QOCANIN HEKAYƏTİ (I saat)

**Standartlar:** 3.1.1., 3.1.2., 4.1.1.

**Məqsəd:** Sözlərin kontekstə uyğun mənasını izah edir.
İntonasiyaya riayət etməklə cümlələri düzgün oxuyur.
Mənzum hekayə əsasında mətn yazır.

**İnteqrasiya:**

Ədəbiyyat – 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

Həyat bilgisi – 2.1.2. Vətəndaş cəmiyyətinin formalaşması və inkişafında demokratik dəyərlərin rolunu qiymətləndirir.

**İş forması:** böyük və kiçik qruplarla iş

**Üsullar:** səsli oxu, proqnozlaşdırılmış oxu, rollar üzrə oxu

**Resurslar:** freska nümunələri, Nizaminin seçilmiş əsərləri, hikmətli sözlər kitabı

**Motivasiya.** Evə verilmiş tapşırıq seçmə yolla 1-2 şagirdə oxudulur. Şagirdlərin yazıları yığcam şəkildə təhlil olunur, onların fikirləri dinlənilir. Müəllim yönəldici suallar vasitəsilə yeni mövzuya ("Kərpickəsən qocanın hekayəti") giriş edir.

Yaxud "Nizami" metro stansiyasının interyerinə aid freskalar nümayiş olunur. Kərpickəsən qoca ilə cavanın dialoqu səhnəsini əks etdirən freska üzərində təhlil aparılır. Şagirdlərdən şəkillə bağlı fərziyyələr alındıqdan sonra mövzu oxunur və tədqiqat sualı formalaşdırılır.

Bu dərsdə əsas məqsəd mətnin oxusunu düzgün təşkil etmək, mətnin məzmununu mənimsətmək və mətnin lüğət tərkibi üzərində iş aparmaqdır.

**Tədqiqat sualı.**

*Əsərdə nədən bəhs olunur?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 2 qrupa bölünüb dərslikdə verilmiş 1-ci tapşırığı icra edirlər. Hər iki tərəf öz arqumentlərini əsaslandırmağa çalışır. 8-ci tapşırığa əsasən Venn

diaqramı çəkilərək zəhmətkeş qoca ilə cavan müqayisə olunur. Sonra şagirdlər qruplara bölünür və I qrupa 2-ci, II qrupa 3-cü, III qrupa 4-cü, IV qrupa 5-ci tapşırıq verilir.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri asılaraq təqdimata başlanılır. Əsərin mövzusu müəyyənləşdirilir və nəticə çıxarılır.

**Nəticənin çıxarılması.**

Şagirdlər müəyyənləşdirirlər ki, əsər zəhmətin təbliğinə, müftəxorluğun pislənməsinə həsr olunub. 7-ci tapşırıq icra olunur.

**Yaradıcı tətbiqetmə.**

Əsərdəki hadisələri III şəxsin dilindən yazmaq tapşırıla bilər (tapşırıq 17, səh. 13). 6-cı tapşırıq fərdi qaydada verilə bilər.

**Ev tapşırığı.**

14-cü tapşırıq verilir.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. İzahetmə, düzgünoxuma, mətn yazma kimi meyarlar diqqətdə saxlanmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Sözlərin mənasını izah etməkdə çətinlik çəkir. | Sözlərin mənasını izah etməkdə yoldaşlarının köməyinə istinad edir. | Sözlərin mənasını izah edir. | Sözlərin mənasını kontekstə uyğun ətraflı izah edir. |
| İntonasiyaya riayət etmədiyi üçün düzgün oxumaqda çətinlik çəkir. | İntonasiyaya riayət etmədiyi üçün düzgün oxuda müəyyən səhvlərə yol verir. | İntonasiyaya riayət etdiyi üçün düzgün oxuyur. | İntonasiyanın tələblərinə riayət etdiyi üçün düzgün oxuyur. |
| Mətn yazmaqda çətinlik çəkir. | Mətn yazarkən yoldaşlarının köməyindən istifadə edir. | Mətn yazır. | Mətni fikirlərini əsaslandırmaqla yazır. |

## Mövzu: KƏRPİCKƏSƏN QOCANIN HEKAYƏTİ (II saat)

**Standartlar:** 2.1.3., 2.1.4., 3.1.3.

**Məqsəd:** Müzakirədəki ümumiləşdirilmiş fikirlərə münasibət bildirir.
Fikirlərini ardıcıl ifadə edir.
Əlavə faktlar əsasında fikirlərə münasibət bildirir.

**İnteqrasiya:**

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

İnformatika – 3.3.3. Multimedia təqdimatları hazırlayır.

**İş forması:** qrupla və fərdi iş

**Üsullar:** müzakirə, təqdimat, Venn diaqramı

**Resurslar:** lüğət, iş vərəqləri, təqdimat nümunələri

**Motivasiya.** Dərsə təqdimatlardan (14-cü tapşırıq) bir neçəsinin oxusu ilə başlamaq mümkündür. Mətnlərdə fikirlərin ardıcıllığına, sözlərdən düzgün və yerində istifadəyə diqqət yetirmək lazımdır. Mətnlər dil baxımından da təhlil olunur. Hazırladıqları mətnlə tədris olunan mətn arasındakı fərqi aydınlaşdırdıqdan sonra keçilən mətnin ideyasını müəyyənləşdirmək üçün tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**

*Mətndə təbliğ olunan əsas fikir hansıdır?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 3 qrupa bölünərək aşağıdakı tapşırıqları həll edirlər: I qrupa dərslikdəki 8, 9, II qrupa 10, 11, III qrupa 12, 13-cü tapşırıqlar verilə bilər.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri asılaraq təqdimata başlanılır. 15, 16-cı tapşırıqlar bu mərhələdə icra olunur. Müəllim əsas fikri müəyyənləşdirmək üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Təhlilin nəticəsində mətnin ideyası müəyyənləşdirilir.

**Nəticənin çıxarılması.**

Şagirdlər müəyyənləşdirirlər ki, əsl xoşbəxtlik insanın peşəsinə mükəmməl yiyələnməsi, özünün və xalqının rifahı üçün çalışmasıdır. N.Gəncəvinin "Kamil bir palançı olsa da insan, Yaxşıdır yarımçılıq papaqçılıqdan" aforizminin xatırladılması məqsədəmüvafiq hesab olunur.

**Yaradıcı tətbiqetmə** 10-cu tapşırıq əsasında aparılır.

**Ev tapşırığı.**

18-ci tapşırıq verilir.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. İzahetmə, mətnqurma, mətni təkmilləşdirmə meyarları nəzərə alınmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Mühakimə yürütməkdə çətinlik çəkir. | Mühakimələrində qeyri-dəqiqliyə yol verir. | Mətndəki fikirlərlə əlaqəli mühakimə yürüdür. | Mətndəki fikirlərlə əlaqəli sərbəst şəkildə şəxsi mühakimələrini yürüdür. |
| Fikirlərini ardıcıl ifadə etməkdə çətinlik çəkir. | Fikirlərini ifadə etsə də, ardıcıllığa riayət edə bilmir. | Fikirlərini sərbəst ifadə edir. | Fikirlərində məntiqi ardıcıllığa riayət edir. |
| Fikirlərini faktlarla əsaslandırmır. | Əlavə faktları fikirləri ilə əlaqələndirə bilmir. | Fikirlərə münasibət bildirir. | Fikirlərini əlavə faktlarla əsaslandırır. |

**Mövzu: MƏTN (dərslik səh. 14–15) (I saat)**

**Standartlar:** 1.1.2., 4.1.2.

**Məqsəd:** Verilmiş mətndəki fikirlərlə əlaqədar olaraq öz mühakimələrini yürüdür.

Mətnin abzaslarını ardıcıllığı gözləməklə dəyişikliklər edərək təkmilləşdirir.

**İnteqrasiya:**

Coğrafiya – 3.2.2. Tarixi-coğrafi regionları kontur xəritədə qeyd edir.

Ümumi tarix – 5.1.1. Mədəniyyətlərin inkişafına təsir edən amilləri izah edir.

Həyat bilgisi – 1.1.1. Dünyanın dərk olunmasında elmi və dini dünyagörüşləri şərh edir.

Xarici dil – 4.1.3. Müxtəlif konstruksiyalı cümlələri düzgün yazır.

**İş forması:** qrupla və fərdi iş

**Üsullar:** anlayışın çıxarılması, məzmunun xəritələşməsi, Venn diaqramı

**Resurslar:** xəritə, lüğət, əlifba nümunələri, iş vərəqləri, sxemlər

**Motivasiya.** Anlayışın çıxarılması üsuluna əsasən mövzu aydınlaşdırılır. Mərkəzi anlayışın tapılması üçün şagirdlərə köməkçi anlayışlar verilir. İdraki fəallıq yaratmaq üçün aşağıdakı sxemdən istifadə etmək məqsədəuyğundur:



Mövzunun “Təhsilin inkişafı” olması aydınlaşdırıldıqdan sonra mətn şagirdlərdən biri tərəfindən oxunur, 1-ci tapşırıq yerinə yetirilir. “Avesta”da müəllimə verilən dəyər, dini və dünyəvi dünyagörüşləri arasındakı fərq aydınlaşdırılır. Sonra məzmunun necə qavranılmasını aydınlaşdırmaq üçün lövhədə tədqiqat sualı qeyd olunur.

**Tədqiqat sualı.**

*Mətndə nədən bəhs olunur?*

**Tədqiqatın aparılması.**

Mətnin oxusundan sonra şagirdlər 3 qrupa bölünür və onlara aşağıdakı iş vərəqləri paylanır:

**I qrup**

Mətnin birinci abzasına əsasən xəritə hazırlayın.

**Qeyd**. Bu tapşırığın yoxlanılması zamanı çətinlik yaranmaması üçün müəllim sinfə əvvəlcədən bu əraziləri əhatə edən kartoqrafik proyeksiyaların və ya xəritələrin əks olunduğu plakatlar və ya xəritə nümunələrini gətirə bilər.

**II qrup**

1. III abzasda verilmiş məzmuna uyğun olmayan cümləni müəyyənləşdirərək düzgün abzasa yerləşdirin.

***Qeyd***. *III abzasda “yad” cümlə “Məktəbdə tibb, ... tədris olunurdu” cümlədir. Həmin cümlə V abzasda II cümlədən sonra yerləşdirilməlidir.*

2. Hansı abzası çıxaran zaman məzmuna xələl gəlməyəcəyini müəyyənləşdirin (tapşırıq 14).

**III qrup**

1. Sinifli cəmiyyətin yaranmasının müxtəlif peşələrin yaranması ilə hansı əlaqəsi olmasını izah edin.
2. Mətnin məzmununu xarakterizə edən 5 açar söz müəyyənləşdirin (tapşırıq 3).

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri asılaraq təqdimata başlanılır. Təhsilin inkişaf xüsusiyyətləri və mərhələləri araşdırılmış təqdimatlar dinlənilir. Müzakirənin sonunda nəticə çıxarılır.

**Nəticənin çıxarılması.**

Şagirdlər müəyyənləşdirirlər ki, təhsilin inkişaf tarixi şərti olaraq 3 mərhələyə – qədim, orta və yeni dövrlərə bölünür. Hər dövrün özünəxas xüsusiyyətləri geniş təhlil olunur. Təhsil insanın inkişafının təminatçısı olan dinamik bir proses kimi dəyərləndirilir. 2-ci tapşırıq icra olunur. Müəllim mətni tamamlamaq üçün yönəldici suallar vasitəsilə şagirdləri məktəbin, müəllimin fərdin və cəmiyyətin formalaşmasındakı rolunu dəyərləndirən fikirlərlə tamamlamağa sövq etməlidir. Mətnlərarası əlaqə yaradaraq Lətifənin müəllim olmaq arzusu ilə (səh. 8) şagirdlərin müəllim haqqında fikirlərini ümumiləşdirə bilər.

**Yaradıcı tətbiqetmə.** Dərslikdəki 17-ci tapşırığı qruplar şəklində icra etmək məqsədəmüvafiq olar. Yəni hər qrup müəyyən abzasları icra edə bilər. Tapşırıq fərdi qaydada da icra oluna bilər.

**Ev tapşırığı.**

Dərslikdəki 21-ci tapşırıq (səh.17) evə verilir. Tapşırığı qruplar şəklində də icra etmək olar. I qrupa mətnin giriş hissəsinin, II qrupa əsas hissəsinin, III qrupa sonluğunun yazılması tapşırıla bilər. Bu, şagirdlərdə həm komandada işləmək, birgəfəaliyyət və fikirlərinin bölüşdürülməsi və ümumiləşdirilməsi kimi bacarıqlar formalaşdıra bilər.

**Qiymətləndirmə** təlim məqsədlərinə uyğun olaraq sonda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Qrup işinin qiymətləndirilməsinə xidmət edən, təlim məqsədlərini özündə əks etdirən meyarlar əsasında qiymətləndirmə aparılmalıdır. Verilmiş meyar cədvəlinə əsaslanmaq olar. Mühakiməyürütmə, ardıcıllığı gözləmə meyarları nəzərdən qaçmamalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Mühakimə yürütməkdə çətinlik çəkir. | Mühakimələrində qeyri-dəqiqliyə yol verir. | Mətndəki fikirlərlə əlaqəli mühakimə bildirir. | Verilmiş mətndəki fikirlərlə əlaqəli sərbəst şəkildə şəxsi mühakimələrini yürüdür. |
| Abzaslara dəyişiklik etməkdə çətinlik çəkir. | Dəyişikliklər zamanı qeyri-dəqiqliyə yol verir. | Mətnin abzaslarına dəyişikliklər edir. | Mətnin abzaslarına dəyişikliklər edərkən ardıcıllığı gözləyir. |

17-ci tapşırığın qiymətləndirilməsi fərdi qaydada aparılarsa, bu tapşırığın qiymətləndirilməsi də fərdi şəkildə aparılmalıdır. Bunun üçün tapşırığın icrasına

uyğun meyarlar əks olunmuş aşağıdakı rubrikdən istifadə etmək məqsədəuyğundur. Bu zaman müəllim şagirdin tapşırığı icra səviyyəsinə uyğun gələn xananın qarşısında qeyd işarəsi qoya bilər.

| **Səviyyələr** / **Meyarlar** | **Şagirdin adı, soyadı, atasının adı** | | | |
|---|---|---|---|---|
| | **I** | **II** | **III** | **IV** |
| Əsas fikri müəyyənləşdirmə | | | | |
| Fikri yığcam ifadə etmə | | | | |

## Mövzu: MƏTN (dərslik səh. 14–15) (II saat)

**Standartlar:** 3.1.1., 3.1.2., 4.1.3.

**Məqsəd:** Mətndə fərqləndirilmiş söz və ifadələrin mənasını izah edir.

Nəqli cümlənin xüsusiyyətlərini müəyyənləşdirir.

Nəqli cümlələrdə durğu işarələrindən düzgün istifadə edir.

**İnteqrasiya:**

Ədəbiyyat – 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

Riyaziyyat – 1.1.3. Həqiqi ədədə uyğun olan nöqtəni koordinat düz xətti üzərində təxmini göstərir.

Azərbaycan tarixi – 5.1.1. Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini şərh edir.

**İş forması:** cütlərlə iş

**Üsullar:** müzakirə, Venn diaqramı, interaktiv mühazirə

**Resurslar:** lüğət, iş vərəqləri, sxemlər

**Motivasiya.** Şagirdlərdən nöqtə ilə hansı sahələrdə rastlaşmaları soruşulur. Daha sonra riyaziyyatdan nöqtə anlayışı şagirdlərə izah olunur. Venn diaqramında riyaziyyat və dildə nöqtə anlayışlarının oxşar və fərqli cəhətləri qeyd edilir. Dildə nöqtənin nə məqsədlə istifadə olunması aydınlaşdırılır və nəqli cümlə haqqında dərslikdə verilmiş qrammatik qayda izah olunur.

**Tədqiqat sualı.**

*Mətnin dil quruluşunun hansı özünəməxsus cəhətləri var?*

**Tədqiqatın aparılması.**

Şagirdlər cütlərə bölünür və onlara tədqiqat xarakterli suallar ünvanlanır. I cütə dərslikdəki 4-cü, II cütə 5-ci, III cütə 6-cı, IV cütə 7-ci, V cütə 8-ci,

VI cütə 10-cu, VII cütə 12-ci, VIII cütə 13-cü, IX cütə 15-ci, X cütə 18-ci, XI cütə 19-cu tapşırıq verilərək birlikdə işləmələri tapşırılır.

10-cu tapşırığın cavabı: *mərhələ – dönəm (neologizm). Mərhələ və dönəm dil paraleli hesab edilir, sinonim sözlərdir.*

**Qeyd.** Bu təlim formasında işləmək şagirdlərə təlim tapşırıqlarını birgə yerinə yetirmək, daha yaxından əməkdaşlıq etmək, ünsiyyət qurmaq, məsuliyyəti bölüşmək imkanı yaradacaq. Müəllim cütlərlə işdə hər dəfə fərqli şagirdləri cütlərdə birləşdirməlidir. Hər dəfə eyni cütdə birləşən şagirdlərdə psixoloji asılılıq, bəzən öz potensialına inanmamaq, bəzən isə özündən müştəbehlik kimi xüsusiyyətlər ortaya çıxa bilər.

**Məlumat mübadiləsi və müzakirə.**

Cütlər iş vərəqlərini asaraq təqdimata başlayır. Təhsilin inkişaf xüsusiyyətləri və mərhələləri araşdırılmış təqdimatlar dinlənilir. Müzakirənin sonunda nəticə çıxarılır. 20-ci tapşırıq bu mərhələdə icra olunur.

**Nəticənin çıxarılması.**

Tədqiqat nəticəsində müəyyənləşir ki, mətn kifayət qədər rəngarəngdir. Mətn dəyişikliklər etməyə, fikir mübadiləsi aparmağa, nəticə çıxarmağa şərait yaradır. Sözlər kontekstə uyğun olaraq mənalarını dəyişir, sinonimlərdən geniş istifadə olunur.

**Yaradıcı tətbiqetmə.**

Dərslikdəki 16-cı tapşırıq verilə bilər. Lüğət üzrə iş (səh. 17) unudulmamalıdır. Bu, nəzərdə tutulan layihənin yerinə yetirilməsində növbəti addım hesab olunur.

**Ev tapşırığı.**

Dərslikdəki 22-ci tapşırığın hazırlanma qaydası və yoxlama meyarları şagirdlərə izah olunduqdan sonra "Məktəbimizin inkişaf yolu" adlı təqdimat hazırlamaq tapşırılır. Müəllim bunun üçün vəsaitdə daha əvvəl verilmiş təlimatlardan istifadə edə bilər.

**Qiymətləndirmə** təlim məqsədlərinə uyğun olaraq sonda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Cütlərlə işin qiymətləndirilməsinə xidmət edən, təlim məqsədlərini özündə əks etdirən meyarlar əsasında qiymətləndirmə aparılmalıdır. Verilmiş meyar cədvəlinə əsaslanaraq şagirdləri simvol və ballarla qiymətləndirmək tövsiyə olunur.

| Cütlər / Meyarlar | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Mətndəki söz və ifadələrin kontekstə uyğun mənasını izah edir. | | | | | | | | | | | | |
| Məqsəd və intonasiyaya görə cümlələri düzgün oxuyur. | | | | | | | | | | | | |
| Mürəkkəb cümlədə, vasitəsiz nitqdə durğu işarələrindən düzgün şəkildə istifadə edir. | | | | | | | | | | | | |
| Cəmi: | | | | | | | | | | | | |

## Mövzu: FİNLANDİYADA TƏHSİL VƏ TƏRBİYƏ (I saat)

**Standartlar:** 1.1.1., 1.1.2., 2.1.3.

**Məqsəd:** Mətnin məzmununu şərh edir.

Verilmiş mətndəki fikirlərlə əlaqədar olaraq öz mühakimələrini yürüdür.

Müzakirədəki ümumiləşmiş fikirlərə münasibətini bildirir.

**İnteqrasiya:**

Coğrafiya – 1.1.1. Sivilizasiyaları coğrafi baxımdan təhlil edir. 3.2.1. Ölkələrin inkişafını tarixi-coğrafi baxımdan təhlil edir.

Həyat bilgisi – 2.1.2. Vətəndaş cəmiyyətinin formalaşması və inkişafında demokratik dəyərlərin rolunu qiymətləndirir.

Ümumi tarix – 1.1.2. Oxşar tarixi faktların baş verdiyi tarixi şərait arasındakı fərqi müəyyən edir.

İnformatika – 3.3.3. Multimedia təqdimatları hazırlayır.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** anlayışın çıxarılması, müzakirə, təqdimat, səsli oxu

**Resurslar:** xəritə, lüğət, iş vərəqləri, Finlandiya təhsilini əks etdirən slaydlar

**Motivasiya.** Müəllim dərsə evə verilmiş təqdimatın ("Məktəbimizin inkişaf yolu") seçmə yolla oxudulması ilə başlaya bilər. Şagirdlərin məktəb haqqında fikirləri ümumiləşdirilir. Daha sonra anlayışın çıxarılması üsulundan istifadə etməklə dərs davam etdirilir. Aşağıdakı sxemin göstərilməsi məqsədəuyğundur:




Finlandiya anlayışı alındıqdan sonra şagirdlərdən birinin xəritədə Finlandiyanın ərazisini göstərməsi məqsədəuyğundur. Bu həm şagirdlərin əvvəlki siniflərdə öyrəndiklərinin təkrarına nail olmağa, həm də fənlərarası inteqrasiyanın uğurla reallaşmasına şərait yaradacaq. Daha sonra müəllim şagirdlərdən ümumi şəkildə tarixdən bu respublika barədə biliklərinin nə dərəcədə olması ilə bağlı suallar verərək dərsi davam edə bilər. Mətn oxunduqdan və mətndaxili suallar cavablandırıldıqdan sonra dünyəvi dəyərlərdən çıxış edərək təhsilə yönəlib tədqiqat sualı formalaşdırmaq mümkündür.

**Qeyd.** III abzasda yerinə düşməyən cümlələr 4 və 5-ci cümlələrdir.

**Tədqiqat sualı.**

*Finlandiya təhsil sisteminin özünəməxsusluğu nədədir?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 4 qrupa bölünərək I qrupa dərslikdəki 1, 6-cı, II qrupa 5, 7-ci, III qrupa 8-ci, IV qrupa 9-cu tapşırıq verilə bilər.

**Qeyd.** 5-ci tapşırığın cavabı: zəfər, qələbə, uğur, müvəffəqiyyət, nailiyyət.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Müzakirənin sonunda dərsin nəticəsi formalaşır.

**Nəticənin çıxarılması.**

Şagirdlər müəyyənləşdirirlər ki, Finlandiya təhsil sisteminin dünya təhsil sistemində önəmli yer tutmasına səbəb təlim və tərbiyənin vəhdət təşkil etməsidir. Müəllim və şagirdə şəxsiyyət kimi yanaşılır. İnsanlar normal şəraitdə təhsil alaraq gələcək həyata hazırlanırlar.

**Qeyd.** Yaxşı olar ki, müəllim təlim, tərbiyə, tədris sözlərinin leksik mənalarını şagirdlərə izah etsin. Yaxud həmin suallarla şagirdlərə müraciət edib, həmin sözlər haqqında fikirlərini öyrənsin.

**Yaradıcı tətbiqetmə** kimi təhsil sistemimizi fin şagirdlərinə tanıtmaq üçün qısa məlumat hazırlanması tapşırıla bilər (səh. 20).

**Ev tapşırığı.**

Şagirdlərə cütlər şəklində (müəllimin seçiminə uyğun olaraq qruplar şəklində də ola bilər) 15-ci tapşırığı hazırlamaq tapşırılır. Bunun üçün dərslikdə verilmiş plan şagirdlərin nəzərinə çatdırılır.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Şərhetmə, mühakiməyürütmə, münasibətbildirmə meyarları diqqətdə saxlanmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Məzmunun şərhində çətinlik çəkir. | Məzmunu ətrafın köməkliyi ilə şərh edir. | Məzmunu şərh edir. | Məzmunu öz kontekstindən yanaşaraq şərh edir. |
| Mühakimə yürütməkdə çətinlik çəkir. | Mühakimələrində qeyri-dəqiqliyə yol verir. | Mətndəki fikirlərlə əlaqəli mühakimə bildirir. | Verilmiş mətndəki fikirlərlə əlaqəli sərbəst şəkildə şəxsi mühakimələrini yürüdür. |
| Müzakirədə iştirakda çətinlik çəkir. | Müzakirədə ətrafın dəstəyi ilə fikir bildirir. | Müzakirədə fikir bildirir. | Müzakirədəki ümumiləşmiş fikirlərə sərbəst münasibət bildirir. |

## Mövzu: FİNLANDİYADA TƏHSİL VƏ TƏRBİYƏ (II saat)

**Standartlar:** 3.1.1., 4.1.1., 4.1.2.

**Məqsəd:** Mətndə fərqləndirilmiş söz və ifadələrin mənasını izah edir.

Topladığı materiallar əsasında rabitəli mətnlər yazır.

Ardıcıllığı gözləməklə dəyişikliklər edərək mətni təkmilləşdirir.

**İnteqrasiya:**

Ədəbiyyat – 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

**İş forması:** cütlərlə və qrupla iş

**Üsullar:** müzakirə, təqdimat, Venn diaqramı

**Resurslar:** lüğət, iş vərəqləri, təqdimat nümunələri

**Motivasiya.** Dərsə qabaqlayıcı tapşırıq əsasında başlamaq mümkündür. Şagirdlər evdə hazırladıqları təqdimatları cütlər şəklində təqdim edirlər. Daha sonra mətnin semantikasını aydınlaşdırmaq məqsədilə tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**

*Mətnin hansı xarakterik cəhətləri var?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 3 qrupa bölünərək verilmiş tapşırıqları həll edirlər. I qrupa dərslikdəki 2, 3, 4-cü, II qrupa 10-cu, III qrupa 11, 12-ci tapşırıqlar verilə bilər.
10-cu tapşırıq şəklin altındakı sözlərdən istifadə edilməklə yerinə yetirilməlidir. Bu tapşırığın verilməsində əsas məqsəd Azərbaycan xalqının maarifpərvər ziyalılarının, öz şəxsi vəsaiti hesabına mənsub olduğu xalqın balalarını oxudan qadınların fəaliyyətini ön plana çəkməkdir.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri asılaraq təqdimata başlanılır. Mətnin xarakterik cəhətlərini vurğulamaq üçün əlavə yönəldici suallardan da istifadə etmək olar. Müzakirə üçün 13-cü tapşırıq istifadə oluna bilər. Venn diaqramına əsasən iki ölkənin təhsillərinin müqayisəsi aparıla bilər. Təhlil nəticəsində mətnin strukturu və məzmunu ilə bağlı nəticə çıxarılır.

**Nəticənin çıxarılması.**

Mətn şagirdlərin söz ehtiyatının artırılması baxımından əlverişlidir. Sinonim, antonimlərin işlənməsi mətni daha da zənginləşdirir. Mətn orfoqrafiya lüğəti ilə işləməyə geniş imkanlar yaradır.

**Yaradıcı tətbiqetmə.**

6-cı tapşırıqda ifadə olunan "Hər şeyin ibtidası tərbiyədir" fikrinin mətnə uyğunluğu və düzgünlüyü araşdırılır.

**Ev tapşırığı.**

14-cü tapşırığa əsasən "Ölkəmizə dəvət" adlı mətn qurmaq tapşırılır.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. İzahetmə, mətnqurma, mətni təkmilləşdirmə meyarları nəzərə alınmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Mətndə fərqləndirilmiş sözlərin mənasını izah edir. | Mətndə fərqləndirilmiş ifadələrin mənasını izah edir. | Mətndə fərqləndirilmiş söz və ifadələrin kontekstə uyğun mənasını izah edir. |
| Topladığı materiallardan mətn qura bilmir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazmaqda çətinlik çəkir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazır. | Topladığı əlavə materiallar əsasında rabitəli mətnlər yazır. |
| Abzaslara dəyişiklik etməkdə çətinlik çəkir. | Dəyişikliklər zamanı qeyri-dəqiqliyə yol verir. | Mətnin abzaslarına dəyişikliklər edir. | Mətnin abzaslarına dəyişikliklər edərkən ardıcıllığı gözləyir. |

## Mövzu: İNSANLAR (I saat)

**Standartlar:** 2.1.2., 3.1.1., 3.1.2., 3.1.3.

**Məqsəd:** Nitq etiketlərindən istifadə edir.
Qeyd olunmuş söz və ifadələrin kontekstə uyğun mənasını izah edir.
Cümlələri məqsəd və intonasiyasına görə düzgün oxuyur.
Münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır.

**İnteqrasiya:**

Həyat bilgisi – 2.1.1. İnsanın sosial proseslərdə iştirakını dəyərləndirir.

Ədəbiyyat – 2.2.1. Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir.

**İş forması:** qrupla və fərdi iş

**Üsullar:** klaster, rollu oyunlar, müzakirə, fərdi oxu

**Resurslar:** S.Tahirin portreti, iş vərəqləri

**Motivasiya.** Klaster üsulu ilə S.Tahir haqqında şagirdlərdən məlumat alınır. Müəllim aşağıda verilən nümunədən istifadə edə bilər:



Daha sonra S.Tahirin insanlara verdiyi dəyər şagirdlərin diqqətinə çatdırılır. Şairin vətən, vətənpərvərlik mövzusunda yazdığı əsərlər xüsusi vurğulanmalıdır. Mövzuya keçid alan müəllim mətnin fərdi oxusunu həyata keçirə bilər. Bu zaman şagirdlərin mətni 1-ci tapşırığa uyğun olaraq tələffüz qaydalarına və intonasiyaya uyğun oxumasına diqqət yetirilməlidir. Bunun üçün dərslikdəki 1-ci tapşırıq mətnin oxusuna başlamazdan əvvəl şagirdlərin nəzərinə çatdırılır. Oxudan sonra 7-ci tapşırıq icra olunur, müraciət etiketlərinə diqqəti yönəldərək dərslikdəki qayda şagirdlərə izah edilir. 8-ci tapşırıq icra olunur. Mətnin əsas ideyasını anlamaq üçün tədqiqat sualı aşağıdakı kimi formalaşdırılmalıdır.

**Tədqiqat sualı.**

*Nə üçün şair insanları bir-birini sevməyə çağırır? (Tədqiqat sualı kimi “Yer üzərində sevgi olmasa, nə baş verər?” sualından da istifadə etmək olar.)*

**Tədqiqatın aparılması.**

Şagirdlər 4 qrupa bölünür və onlara iş vərəqləri paylanır. İş vərəqlərində dərslikdə verilmiş tapşırıqlar əks olunub: **I** qrupa 3, 9, 10, **II** qrupa 2, 11, **III** qrupa 4, 5, 12, **IV** qrupa 6, 13, 15-ci tapşırıqlar verilir. Sözlərin leksik mənalarının müəyyənləşdirilməsi məzmun suallar ilə uzlaşdırılmışdır. Leksik mənaların düzgün müəyyənləşdirilməsi məzmunun daha dərindən mənimsənilməsinə xidmət edir.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri asılaraq tapşırıqlara əsasən hazırlanan təqdimatlar dinlənilir. Məlumat müzakirəsi üçün 16-cı tapşırıqdan istifadə olunur. Müraciət formasının kimlərə ünvanlanması şagirdlərlə müzakirə olunur. Daha sonra 26-cı tapşırıq icra edilir. Tapşırıqla bağlı müəllim tərəfindən şagirdlərə şəxsi mülahizələrini yazmaları üçün istiqamət verilir.

**Nəticənin çıxarılması.**

Şagirdlər belə qənaətə gəlir ki, insanlar arasında qarşılıqlı sevgi olmasa, onlarda bir-birinə hörmət, xeyirxahlıq, mərhəmət, yardım etmək, sədaqət kimi insani dəyərlər ola bilməz. İnsan insana düşmən kimi baxar. Yer üzündə rahatlıq, dinclik və s. olmaz.

Dərslikdəki 24-cü tapşırıq icra edilir, hər iki mətnin məzmunu (“İnsanlar”, “Sultan Məhəmməd”) qarşılaşdırılır və müqayisə edilir. Mətndən çıxış edərək görüşmə və nitq etiketləri haqqında məlumat verilir (səh. 26).

Dərslikdəki 16 və 24-cü tapşırıqlar şagirdlərdə sual tərtibetmə bacarığını formalaşdıracaq.

**Yaradıcı tətbiqetmə.**

21-ci tapşırıq icra olunur.

**Ev tapşırığı.**

Səh. 25-də verilmiş tapşırıq (hər hansı bir mövzu ətrafında sual və cavabın hazırlanması) evə verilir. Bu tapşırıq növbəti dərs üçün motivasiya xarakterli ola bilər.

**Qiymətləndirmə** təlim məqsədlərinə uyğun olaraq sonda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Meyar cədvəlinə əsaslanmaq olar. İstifadəetmə, düzgünoxuma, əsaslandırma meyarlarının səviyyələri üzrə qiymətləndirmə aparıla bilər.

| I | II | III | IV |
|---|---|---|---|
| Nitq etiketlərindən istifadə etməkdə çətinlik çəkir. | Nitq etiketlərindən istifadə edərkən səhvlərə yol verir. | Nitq etiketlərindən istifadə edir. | Nitq etiketlərindən məqamına uyğun şəkildə istifadə edir. |
| Fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Fərqləndirilmiş sözlərin mənasını lüğətin köməyi ilə izah edir. | Fərqləndirilmiş sözlərin mənasını cümlə qurmaqla izah edir. | Fərqləndirilmiş sözlərin kontekstə uyğun mənasını izah edir. |
| Cümlələri çətinliklə oxuyur. | Cümlələri düzgün oxuyur. | İntonasiyaya görə cümlələri düzgün oxuyur. | Məqsədinə və intonasiyasına görə cümlələri düzgün oxuyur. |
| Münasibətini çətinliklə əsaslandırır. | Münasibətini əlavə faktlarla əsaslandırır. | Münasibətini həyati nümunələrlə əsaslandırır. | Münasibətini əlavə fakt və mövzuya uyğun nümunələrlə əsaslandırır. |

## Mövzu: İNSANLAR (II saat)

**Standartlar:** 1.1.1., 2.1.1., 4.1.3.

**Məqsəd:** Mətnin məzmununu şərh edir.

Sual cümlələrini qrammatik normalara uyğun tələffüz edir.

Sual cümlələrində durğu işarələrindən istifadə edir.

**İnteqrasiya:**

Azərbaycan dili – 1.1.1. Danışanın mövzuya münasibətini müəyyən etmək üçün tədqiqat xarakterli suallar verir.

Ədəbiyyat – 3.1.3. 2,5 səhifə həcmində təsvir xarakterli esse yazır.

**İş forması:** Kollektivlə iş

**Üsullar:** interaktiv mühazirə, müzakirə

**Resurslar:** sual cümlələrinin müxtəlif konstruksiyalarına aid sxemlər, dialoq nümunələri, iş vərəqləri

**Motivasiya.** Dərsə ev tapşırığının yoxlanması ilə başlamaq məqsədəuyğundur. Şagirdlərin fikirlərini dinlədikdən sonra müəllim mövzu ilə bağlı suallarla şagirdlərə müraciət edilir. Bu prosesə çox vaxt ayırmaq lazım deyil. Daha sonra müəllim dərsi 23-cü tapşırığın icrası ilə davam etdirə bilər. Bunun üçün müəllim özü əvvəlcədən YouTube kanalından dərsə uyğun hər hansı bir verilişin 5-6 dəqiqəsini nümayiş etdirə bilər. Həmin veriliş haqqında şagirdlərin fikirləri dinlənilir, 25-ci səhifədəki 22-ci tapşırıq icra edilir, hökmlər oxunur.

**Tədqiqat sualı.**

*Sual cümlələrinin rolu nədir?*

**Tədqiqatın aparılması.**

**Qeyd.** 22-ci tapşırıq tədqiqat sualı kimi də istifadə oluna bilər.

17–20-ci tapşırıqlar şifahi şəkildə sinif tərəfindən icra olunur. Müəllimin köməyi ilə şagirdlər sual cümlələri haqqında məlumatı sistemləşdirirlər.

**Məlumat mübadiləsi və müzakirə.**

Sual cümləsinin mətndə oynadığı rol, onun yaranma yolları barədə şagirdlərin fikirləri dinlənilir. Yekun müzakirədən sonra nəticəyə gəlinir.

**Nəticənin çıxarılması.**

Şagirdlər belə qənaətə gəlirlər ki, mətn sual cümlələrinin çoxçeşidliyi baxımından olduqca maraqlıdır. Burada işlənən sual cümlələri həm sual intonasiyası, həm sual əvəzlikləri, həm də sual ədatlarının köməyi ilə yaranmışdır. Sual cümlələri hər hansı anlayış, obyekt və ya hadisə haqqında ətraflı məlumat almaq, müzakirə, diskussiya və s. təşkil etmək üçün geniş praktik əhəmiyyətə malikdir.

**Yaradıcı tətbiqetmə** kimi dərslikdəki 25-ci tapşırıq verilə bilər.

**Ev tapşırığı** kimi 27-ci tapşırıq verilə bilər.

**Qiymətləndirmə** təlim məqsədlərinə uyğun olaraq sonda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Meyar cədvəlinə əsaslanmaq olar. Tələffüzetmə, izahetmə, istifadəetmə meyarlarının səviyyələri üzrə qiymətləndirmə aparıla bilər.

| I | II | III | IV |
|---|---|---|---|
| Mətnin məzmununu çətinliklə şərh edir. | Mətnin məzmununu şərh edərkən köməkdən istifadə edir. | Mətnin məzmununu yardımçı suallardan istifadə etməklə şərh edir. | Mətnin məzmununu ətraflı şərh edir. |
| Sual cümlələrini düzgün tələffüz etmir. | Sual cümlələrini qrammatik normalara uyğun tələffüz etməkdə çətinlik çəkir. | Sual cümlələrini tələffüz edərkən qrammatik normalara riayət etməyə çalışır. | Sual cümlələrini qrammatik normalara uyğun tələffüz edir. |
| Sual cümlələrində durğu işarələrindən istifadə etməyi bacarmır. | Sual cümlələrində durğu işarələrindən bəzən istifadə edir. | Sual cümlələrində durğu işarələrindən istifadə edir. | Sual cümlələrində məqsəd və intonasiyaya görə durğu işarələrindən istifadə edir. |

## Mövzu: SEYİD ƏZİM YADİGARI (I saat)

**Standartlar:** 2.1.3., 3.1.3., 4.1.1.

**Məqsəd:** Müzakirə zamanı ümumiləşmiş fikirlərə münasibət bildirir.
Mətnə münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır.
Mənbələr əsasında rabitəli mətnlər yazır.

**İnteqrasiya:**

Azərbaycan tarixi – 1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.

Ədəbiyyat – 2.2.1. Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** söz assosiasiyası, İnsert, müzakirə

**Resurslar:** Sabirin seçilmiş əsərləri, Səriyyə Tahirzadənin Sabirə dair məqalələrindən xülasələr, iş vərəqləri

**Motivasiya** söz assosiasiyası əsasında aparılır. Sabirin adı mərkəzdə qeyd olunur. Şagirdlər bu adla bağlı ilk xatırladıqları fikirləri söyləyir və həmin fikirlər müəllim tərəfindən lövhəyə yazılır. Mövzu ilə bağlı olan sözlər deyilən fikirlərin arasından seçilir və əlaqələndirilir, onlardan ideya çıxarılır. Bu yolla yeni materialın öyrənilməsinə başlanır. Bu üsul həm də şifahi formada tətbiq edilə bilər. Müəllim Sabirin təəssübkeşliyindən söz açaraq yeni mövzuya keçid ala bilər. Mövzu aydınlaşdıqdan sonra İnsert üsulu ilə oxudulması və qeydlərin götürülməsi məqsədəuyğundur. Bu zaman şagirdlərin mətni tələffüz qaydalarına və intonasiyaya uyğun oxumasına diqqət yetirilməlidir. Bunun üçün mətnin oxusuna başlamazdan əvvəl dərslikdəki birinci tapşırıq şagirdlərin nəzərinə çatdırılır. Mətnin oxusu zamanı 2-ci tapşırıq icra edilir. Oxudan sonra tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**

*Mətnin əsas ideyası nədir?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 4 qrupa bölünür və onlara iş vərəqləri paylanır. İş vərəqlərində aşağıdakı mövzularda tapşırıqlar verilə bilər:

**I qrup**

Mətnin hansı abzas və cümlələri Sabiri təqdim olunan kimi xarakterizə edir? Sabir qürurlu şair kimi

**II qrup**

Mətnin hansı abzas və cümlələri Sabiri təqdim olunan kimi xarakterizə edir? Sabir vətənə sadiq insan kimi

**III qrup**

Mətnin hansı abzas və cümlələri Sabiri təqdim olunan kimi xarakterizə edir? Sabir təəssübkeş ailə başçısı kimi

**IV qrup**

Mətnin hansı abzas və cümlələri Sabiri təqdim olunan kimi xarakterizə edir? Sabir milli-mənəvi dəyərlərin qoruyucusu kimi

Mətnin abzaslarına əsasən xarakterik xüsusiyyətlərinin müəyyənləşdirilməsi üçün mətnin ideyasının tapılması bir istiqamət ola bilər.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri asılaraq təqdimata başlanılır. Mətnin məzmununu daha dərindən mənimsəmək üçün 6–11-ci tapşırıqlar kollektiv şəkildə işlənə bilər. Tapşırıq müzakirə edildikdən sonra ümumi nəticə çıxarılmalıdır.

**Nəticənin çıxarılması.**

Tədqiqat nəticəsində müəyyənləşir ki, mətn şairin böyüklüyünü vurğulamaqda əvəzsizdir. Sabirin dahiliyi onun təkcə qələmində deyil, həm də insanlara yanaşmasında və ehtiramındadır. Müəllimə qarşı hörmət və izzəti, onun hədiyyəsinə verdiyi dəyər şairin sənətinə və şəxsiyyətinə məhəbbəti daha da artırır.

**Yaradıcı tətbiqetmə.**
13-cü tapşırıqdan istifadə edilə bilər.

**Ev tapşırığı** kimi dərslikdəki 12-ci tapşırıq verilə bilər. Şagirdlərin hazırlayacaqları təqdimatlarla bağlı göstərişlər metodik vəsaitdə əvvəlcədən verildiyi üçün müəllim artıq bu meyarlarla tanışdır.

**Qiymətləndirmə** təlim məqsədlərinə uyğun olaraq sonda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Münasibətbildirmə, əsaslandırma, mətnqurma meyarlarına əsaslanmaq olar.

| I | II | III | IV |
|---|---|---|---|
| Müzakirədə iştirakda çətinlik çəkir. | Müzakirədə ətrafın dəstəyi ilə fikir bildirir. | Müzakirədə fikir bildirir. | Müzakirədəki ümumiləşmiş fikirlərə sərbəst münasibət bildirir. |
| Münasibətini çətinliklə əsaslandırır. | Münasibətini əlavə faktlarla əsaslandırır. | Münasibətini həyati nümunələrlə əsaslandırır. | Münasibətini əlavə fakt və mövzuya uyğun nümunələrlə əsaslandırır. |
| Topladığı materiallardan mətn qura bilmir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazmaqda çətinlik çəkir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazır. | Topladığı əlavə materiallar əsasında rabitəli mətnlər yazır. |

## Mövzu: SEYİD ƏZİM YADİGARI (II saat)

**Standartlar:** 3.1.1., 3.1.2., 4.1.3.

**Məqsəd:** Mətndən seçilmiş sözlərin kontekstə uyğun mənasını izah edir.

Əmr cümlələrində və vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir.

Əmr cümlələrini məqsəd və intonasiyaya görə düzgün oxuyur.

**İnteqrasiya:**

Azərbaycan dili – 2.2.2. Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirir. 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.

Həyat bilgisi – 3.2.1. Mədəniyyətlərarası münasibətlərdə əxlaq və davranış normalarının ümumbəşəri əhəmiyyətini dəyərləndirir.

**İş forması:** qruplarla iş

**Üsullar:** İnsert, müzakirə

**Resurslar:** iş vərəqləri, əmr cümləsinin qrammatik izahına dair plakat

**Motivasiya.** Ötən dərsə əsasən şagirdlərin hazırladıqları təqdimatlar dinlənilir. Daha sonra 14-cü tapşırıq şagirdlərlə işlənir. Cümlə formalarına diqqət yönəldikdən sonra əmr cümlələri ilə bağlı qrammatik qayda şagirdlərə izah olunur və tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı.**

*Əmr cümlələrinin praktik əhəmiyyəti nədir?*

**Tədqiqatın aparılması.**

Mətn oxunur. Müəllim yönəldici suallar vermədən şagirdlərə tapşırıqlar verir. I qrupa 32-ci səhifədəki 1-ci sual, II qrupa 2-ci sual, III qrupa 3-cü sual, IV qrupa 4-cü sual verilir. Şagirdlərə cütlər şəklində 15-ci tapşırıq verilir və üzərində iş aparılır. Əsas diqqət insandakı yaxşı və pis xüsusiyyətlərin qruplaşdırılmasına yönəldilir.

**Məlumat mübadiləsi və müzakirə.**

Qrupların təqdimatından sonra müəllim "Nə üçün A.Linkoln bu müraciəti məhz müəllimə ünvanlayır" sualı ilə şagirdlərə müraciət edir, şagirdlərin mühakimə yürütməsinə şərait yaradır, onları istiqamətləndirir. Daha sonra şagirdlərdən həmin məktubun məzmununda əmr, nəsihət, yoxsa xahiş motivlərinin daha çox olduğu soruşulur. Təbii ki, burada daha çox nəsihət və arzu müşahidə olunur.

**Nəticənin çıxarılması.**

Qrupların təqdimatı nəticəsində müəyyənləşir ki, əmr cümləsi məsləhət, xahiş, istək, nəsihət, əmr bildirir. Sonunda nöqtə və ya informasiyadan asılı olaraq nida qoyulur.

**Yaradıcı tətbiqetmə.**

Dərslikdəki 16-cı və 17-ci tapşırıqlar fərdi şəkildə verilə bilər. Kollektivlə şifahi şəkildə də yerinə yetirilə bilər.

**Ev tapşırığı** kimi 18-ci tapşırıq verilə bilər.

**Qiymətləndirmə** təlim məqsədlərinə uyğun olaraq sonda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. İzahetmə, durğu işarələrindən istifadə və düzgünoxuma meyarlarına əsaslanmaq olar.

| I | II | III | IV |
|---|---|---|---|
| Fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Mətndə fərqləndirilmiş sözlərin mənasını izah edir. | Mətndə fərqləndirilmiş ifadələrin mənasını izah edir. | Mətndə fərqləndirilmiş söz və ifadələrin kontekstə uyğun mənasını izah edir. |
| Əmr cümlələrində durğu işarələrindən istifadə etməyi bacarmır. | Əmr cümlələrində durğu işarələrindən bəzən istifadə edir. | Əmr cümlələrində durğu işarələrindən istifadə edir. | Əmr cümlələrində məqsəd və intonasiyaya görə durğu işarələrindən istifadə edir. |
| Məqsəd və intonasiyaya görə əmr cümlələrini çətinliklə oxuyur. | Əmr cümlələrini məqsədinə görə düzgün oxuyur. | Əmr cümlələrini intonasiyaya görə düzgün oxuyur. | Əmr cümlələrini məqsəd və intonasiyaya görə düzgün oxuyur. |

## Mövzu: SAĞ OL, ANA DİLİM

**Standartlar:** 1.1.1., 1.1.2., 2.1.2., 2.1.3.

**Məqsəd:** Mətnin məzmununu şərh edir.

Verilmiş mətndəki fikirlərlə əlaqədar olaraq öz mühakimələrini yürüdür.

Nitq etiketlərindən istifadə edir.

Müzakirədəki ümumiləşmiş fikirlərə münasibətini bildirir.

**İnteqrasiya:**

Azərbaycan tarixi – 3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

Ümumi tarix – 1.1.2. Oxşar tarixi faktların baş verdiyi tarixi şərait arasındakı fərqi müəyyən edir.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** auksion, müzakirə, təqdimat

**Resurslar:** xəritə, lüğət, iş vərəqləri, dilimizin tarixinə aid nəzəri nümunələr, dil haqqında qəbul olunmuş qanun, sərəncam və qərarlar

**Motivasiya.** Müəllim dərsə auksion üsulu ilə başlaya bilər. Dünyada hansı dillərin olmasını soruşaraq, auksionu açıq elan edə bilər. Sonra diqqəti öz dilimizə yönəldib mövzuya keçid almaq, dilimizin tarixi kökləri, yaranma və inkişafı barədə müzakirə aparmaq mümkündür.

**Tədqiqat sualı.**

*Şeirin əsas ideyası nədən ibarətdir?*

**Tədqiqatın aparılması.**

Şagirdləri 4 qrupa bölərək I qrupa dərslikdəki 1, 2, 7-ci, II qrupa 3, 4, 8-ci, III qrupa 5, 9, 10-cu, IV qrupa 6, 11, 14-cü tapşırıqları verə bilər.

**Qeyd.** Yaxşı olar ki, 15-ci və 16-cı tapşırıqlar ayrıca bir qrupa (hər qrupdan bir şagird seçib əlavə qrup yaratmaq olar) verilsin. Digər qruplar mətnin məzmunu və lüğət tərkibi üzərində tədqiqat aparan zaman IV qrup (şərti olaraq “Dilçilər” adlandırıla bilər) mətnin qrammatikası üzərində işləyə və ümumi müzakirədə fikir mübadiləsi apara bilər.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Müzakirə üçün 12-ci və 13-cü tapşırıqlar verilə bilər. Müəllim nida cümlələri haqqında soruşa, yaxud yönəldici suallar vasitəsilə həmin məlumatı şagirdlərdən ala bilər. 20-ci tapşırıq icra edilir.

**Nəticənin çıxarılması.**

Şagirdlər müəyyənləşdirirlər ki, dil insanlar arasında ən mühüm ünsiyyət vasitəsi olmaqla yanaşı, insanın özünüifadə formasıdır. Dilimizin saflığını qorumaq hər bir vətəndaşın vəzifə borcudur. Dilimizin tarixi çox qədimdir. O, böyük çətinliklərdən, sınaqlardan keçib bu günümüzə gəlib çıxıb.

**Yaradıcı tətbiqetmə.**

17-ci və19-cu tapşırıqlar verilir. Bu tapşırıqlar fərdi qaydada verilə bilər.

**Ev tapşırığı.**

18-ci tapşırıq verilir.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Şərhetmə, mühakiməyürütmə, istifadəetmə, münasibətbildirmə meyarları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Məzmunun şərhində çətinlik çəkir. | Məzmunu ətrafın köməkliyi ilə şərh edir. | Məzmunu şərh edir. | Məzmuna öz konteks-tindən yanaşaraq şərh edir. |
| Mühakimə yürüt-məkdə çətinlik çəkir. | Mühakimələrində qeyri-dəqiqliyə yol verir. | Mətndəki fikirlərlə əlaqəli mühakimə bildirir. | Verilmiş mətndəki fikirlərlə əlaqəli sərbəst şəkildə şəxsi mühakimələrini yürüdür. |
| Nitq etiketlərindən istifadə etməkdə çətinlik çəkir. | Nitq etiketlərindən istifadə edərkən səhvlərə yol verir. | Nitq etiketlərindən istifadə edir. | Nitq etiketlərindən məqamına uyğun şəkildə istifadə edir. |
| Müzakirədə iştirakda çətinlik çəkir. | Müzakirədə ətrafın dəstəyi ilə fikir bildirir. | Müzakirədə fikir bildirir. | Müzakirədəki ümumi-ləşmiş fikirlərə sərbəst münasibət bildirir. |

## Mövzu: DOĞMA DİLİM, SƏN Kİ VARSAN DÜNYADA...

**Standartlar:** 1.1.1., 2.1.3., 4.1.1.

**Məqsəd:** Eşitdiyi fikirlərlə bağlı mühakimə yürüdür.
Ümumi fikirlərə münasibət bildirir.
Topladığı məlumatlar əsasında rabitəli mətn yazır.

**İnteqrasiya:**

Azərbaycan dili – 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.

Ədəbiyyat – 1.1.2. Müxtəlif vəznli süjetli bədii nümunələri ideya-məzmununa uyğun ifadəli oxuyur.

**İş forması:** cütlərlə iş

**Üsullar:** Venn diaqramı, müzakirə

**Resurslar:** nida cümləsinin qrammatik izahına dair plakat, “Molla Nəsrəddin” jurnalının bir neçə nüsxəsi

**Motivasiya.** Müəllim “Dil və nitq nədir?” sualı ilə sinfə müraciət etməklə şagirdlərin həmin anlayışlar haqqında ilkin fikirlərini öyrənə bilər. Fikirlər lövhəyə yazılmaqla müzakirə davam etdirilir, tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**

*Düzgün və ifadəli nitq nəyə xidmət edir?*

**Tədqiqatın aparılması.**

Tədqiqat 1-ci və 2-ci tapşırıqların icrası ilə aparıla bilər. Abzasların ardıcıllığı cütlər vasitəsilə həyata keçirilə bilər.

Abzasların ardıcıllığı: 3, 6, 2, 4, 5, 1.

Mətn (səh. 36) oxunur, məzmuna münasibət bildirilir, 3-cü tapşırıq icra edilir.

Müəllim düzgün və ifadəli nitq üçün vacib olan meyarları şagirdlərin diqqətinə çatdırır. Sədi Şirazinin şeiri oxunur, müəllimin yönəldici sualları əsasında şagirdlər tərəfindən əsas fikir müəyyənləşdirilir, Demosfenin gözəl nitq haqqında fikirləri ilə müqayisə aparılır.

Daha sonra 38-ci səhifədə verilmiş "Ana dili" mətni rollar üzrə oxudulur, suallar ətrafında müzakirə aparılır. 39-cu səhifədə verilmiş materiallar üzərində iş aparılır. Şagirdlərin fikirləri ümumiləşdirilir.

**Məlumat mübadiləsi və müzakirə.**

Qrupların təqdimatından sonra müzakirə üçün 38-ci səhifədəki mətn oxudulur. Şagirdlərin nəzərinə çatdırılır ki, bir çox vətənpərvər ədiblər ana dilinin saflığının qorunması uğrunda mübarizə aparmış, mətbuatda müxtəlif yazılarla çıxış etmişlər. Şagirdlər ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq fərmanları ilə tanış edilir, fikirlər ümumiləşdirilir.

**Nəticənin çıxarılması.**

Düzgün və ifadəli nitq hər bir şəxsdən tələb olunan vacib xüsusiyyətdir. Hər kəs öz doğma dilinin, müstəqilliyin rəmzi olan dilin qoruyucusudur. Dilimiz fikirlərimizin ifadəçisi, bizim kimliyimizi, mənəviyyatımızı tanıdan müqəddəs və zəngin vasitədir. Biz düzgün danışarıqsa, fikirlərimizi düzgün və ifadəli söyləyəriksə, fikrimiz bir o qədər aydın, nitqimiz bir o qədər səlis olar.

**Yaradıcı tətbiqetmə.**

5-ci tapşırıq icra edilir. Şagirdlər verilmiş fikirlərdən (səh. 39) birini seçməklə (Məsələn, "Mən jurnalist olsaydım, maarifçi qadınlar mövzusunda yazardım") yığcam mətn hazırlayırlar.

**Ev tapşırığı** kimi 4-cü tapşırıq verilə bilər.

**Qiymətləndirmə** təlim məqsədlərinə uyğun olaraq sonda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. İzahetmə, durğu işarələrindən istifadə və düzgünoxuma meyarlarına əsaslanmaq olar.

| I | II | III | IV |
|---|---|---|---|
| Dinlədiyi fikirlərlə bağlı mühakimə yürütməkdə çətinlik çəkir. | Mühakimə yürüdərkən yoldaşlarının köməyindən istifadə edir. | Fikirlərlə bağlı mühakimə yürüdür. | Dinlədiyi mətndəki fikirlərlə bağlı əsaslandırılmış mühakimə yürüdür. |
| Sadə fikirlərə münasibət bildirir. | Fikirlərə münasibəti yardımçı sualların köməyi ilə bildirir. | Yoldaşlarının fikirlərinə münasibət bildirir. | Ümumiləşdirilmiş fikirlərə münasibət bildirir. |
| Sadə mətn yazır. | Sadə rabitəli mətn yazır. | Rabitəli mətn yazır. | Mənbələrə istinadən dolğun rabitəli mətn yazır. |

**Qeyd.** *Müəllim KSQ hazırlayarkən bölmədə reallaşdırdığı alt standartlara istinad etməlidir.*

**Kiçik Summativ Qiymətləndirmə**

Şagirdin soyadı və adı: ______________________________

Tarix:___________ Sinif: ___________

Hər şeydən şikayət edən bir qız var idi. Həyatın dözülməz olduğunu düşünürdü. (Mübarizə, müharibə, dava) aparmaqdan yorulmuşdu. Bir problem qurtarmamış başqası ilə üzləşirdi. Atası qızının bu vəziyyətini görüb ona dərs verməyi qərara aldı. Qızın atası aşpaz idi. Bir gün qızını mətbəxə apardı. Üç qab götürüb qaz sobasının üstünə qoydu. Su ilə doldurduqdan sonra altını yandırdı. Su qaynamağa başlayanda birinə yerkökü, o birinə yumurta, üçüncüsünə isə qəhvə tumları qoydu. Qızına bir kəlmə də demədən gözləməyə başladı. Qızı heç bir şey anlamadığı üçün sakitcə baxır və bu işin nə ilə qurtaracağını bilmək istəyirdi. Ancaq səbirsiz olduğundan bir az keçməmiş sual verməyə başladı. Atası dinmədi. İyirmi dəqiqə sonra ata qabların altını söndürdü. Əvvəl yerkökünü, sonra yumurtanı çıxardı. Nəhayət, üçüncü qabdakı qəhvəni götürüb bir (fincana, stəkana) tökdü. Üzünü qızına tutub soruşdu:

– Nə görürsən?

– Yerkökü, yumurta, qəhvə, – qızı dedi.

– Daha yaxından bax, – dedi atası. – Yerkökünə toxun.

Qız deyiləni etdi. Yerkökü yumşalmışdı.

– İndi də yumurtaya bax. – Yumurtanın qabığı əvvəlkindən də bərk idi.

– İndi də qəhvənin dadına bax.

Qızı qəhvədən bir qurtum aldı, çox gözəl dadı var idi. Qızın üzünə xoş (təbəssüm, qəhqəhə, gülüş) yayıldı. Amma yenə də heç nə anlamadı.

– Bütün bunlar nə deməkdir, ata?

Ata belə izah etdi.

– Yerkökü, yumurta və qəhvə – hər üçü də eyni təsirə məruz qaldı. Ancaq hər birinin də "münasibəti" fərqli oldu. Yerkökü əvvəlcə (bərk, möhkəm, sərt, güclü) və amansız görünsə də, qaynar suyun içərisində yumşaldı. Yumurta nazik qabığı ilə içindəki mayeni qoruyurdu. Ancaq qaynar suda bərkləşdi. Amma qəhvə (qaynar, isti, ılıq) suda həm özü dəyişdi, həm də suyu dəyişdirdi. Sən bunlardan hansısan? Həyatda bir problemlə qarşılaşdıqda necə "münasibət" göstərəcəksən? Yerkökü kimi yumşalıb, əziləcəksənmi? Yumurta kimi bərkiyəcəksənmi? Yoxsa qəhvə kimi başına gələn bir hadisənin həyatına yeni bir "dad verməsinə"mi çalışacaqsan? Qız artıq atasının nə demək istədiyini başa düşmüşdü.

**1. Mətn xarakterinə görə:**

a) İstiqamətvericidir
b) Nəsihətamizdir
c) Maarifləndiricidir
d) Məlumatvericidir

**2. Mətn vasitəsilə çatdırılan əsas fikri yazın.**

______________________________________________

**3. Hansı atalar sözü mətnin məzmununa uyğun gəlir?**

a) Ağıl yaşda deyil, başdadır.
b) Güc birlikdədir.
c) Tək əldən səs çıxmaz.
d) Hər işdə bir xeyir var.

**4. Atası qızına dərs vermək üçün hansı yolu seçdi?**

a) Atası onu məzəmmət etdi.
b) Əyani sübut yolunu seçdi.
c) Sözlə başa saldı.
d) Qızının bu vəziyyətinə aciz qaldı.

**5. Ata nə üçün qızına dərs verməyi qərara aldı?**

a) Qızı azyaşlı olduğu üçün
b) Qızına yemək bişirməyi öyrətmək üçün
c) Qızı xudbin olduğu üçün
d) Qızının xoşbəxt olması üçün

**6. Mətni təxəyyülünüzə uyğun davam etdirin.**

Qız qərara aldı ki, ... .

______________________________________________

______________________________________________

**7. Mətni adlandırın.**

______________________________________________

**8. Mətndə altından xətt çəkilmiş sözləri frazeoloji qarşılığı ilə əvəz edin.**

______________________________________________

**9. Mətndə mötərizədə verilmiş sözlərdən hansı seçilsə, fikir düzgün ifadə edilər?** ______________________________________________

**10. Mətnə əsasən cədvəli tamamlayın (hər birinə aid 1-2 nümunə kifayətdir).**

| Nəqli cümlələr | Sual cümlələri | Əmr cümlələri |
|---|---|---|
| | | |

## CƏMİYYƏT VƏ MƏDƏNİYYƏT

- İncəsənət haqqında əsas anlayışlar
- Bəstəkarın portreti
- Mətn
- Əbdülbağı Zülalov Bülbülcan
- Minnətsiz çörək
- Unudulmaz xatirə
- Haqqın səsi
- Həmrəylik

## Mövzu: İNCƏSƏNƏT HAQQINDA ƏSAS ANLAYIŞLAR (I saat)

**Standartlar:** 1.1.1., 1.1.2., 2.1.3.

**Məqsəd:** Mətnin məzmununu şərh edir.

Mətndəki fikirlərlə əlaqədar öz mühakimələrini yürüdür.

Müzakirədəki ümumiləşmiş fikirlərə münasibətini bildirir.

**İnteqrasiya:**

Coğrafiya – 3.2.1. Ölkələrin inkişafını tarixi-coğrafi baxımdan təhlil edir.

Ümumi tarix – 1.1.2. Oxşar tarixi faktların baş verdiyi tarixi şərait arasındakı fərqi müəyyən edir.

Təsviri incəsənət – 3.1.1. Bədii sənət əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** anlayışın çıxarılması, İnsert, müzakirə

**Resurslar:** boyakarlıq, qrafika və heykəltəraşlıq nümunələri, freska və mozaika şəkilləri

**Motivasiya.** Mətnin dərslikdə verilməsinə səbəb I bölmədə peşə, sənətlə bağlı müzakirələrin davam etdirilməsi, incəsənətin müxtəlif sahələrinə şagirdlərin marağının artırılmasıdır. Müəllim dərsə anlayışın çıxarılması üsulu ilə başlaya bilər. Verilmiş sxemdən (səh. 78) istifadə etmək məqsədəuyğundur.

**Qeyd.** Müəllim mövzuya uyğun hər hansı bir sənədli filmin (hər hansı bir muzeyin, şagirdlərin rəsm sərgilərini və s. nümayiş etdirən) nümayişi ilə də dərsə başlaya bilər.




*İncəsənətin növləri* anlayışı alındıqdan sonra mətnin İnsert üsulu əsasında oxudulması məqsədəuyğundur. Mətnin oxusundan sonra müəllim şagirdlərdən ümumi şəkildə tarix və təsviri incəsənətlə bağlı biliklərinin səviyyəsini öyrənmək üçün sorğu keçirə bilər. Bu, şagirdlərin əvvəlki siniflərdə öyrəndiklərinin təkrarına nail olmaqla yanaşı, fənlərarası inteqrasiyanın uğurla reallaşmasına şərait yaradacaq. Tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**

*Mətn necə qurulmuşdur?*

**Tədqiqatda əsas məqsəd mətnin strukturunu, məzmununu və əsas fikri şagirdə mənimsətməkdir.**

**Tədqiqatın aparılması.**

I qrupa 7-ci, II qrupa 15-ci, III qrupa 10 və 11-ci, IV qrupa 8 və 9-cu tapşırıqlar verilir. 8-ci tapşırıqda verilmiş cümlə “Bunların arasında tematik tablo janrı mühüm yer tutur” (səh. 45) cümləsindən sonra olmalıdır. Qruplara verilən tapşırıqların icrası şagirdlərdən mətni diqqətlə oxumağı tələb edir.

**Məlumat mübadiləsi və müzakirə.**

Şagirdlərin cavabları dinlənilir. Qruplararası müzakirələrin aparılması məzmunun mənimsədilməsi üçün əlverişli şərait yarada bilər. Müzakirələr zamanı 12 və 14-cü tapşırıqlardan istifadə olunur.

**Qeyd.** Mətndə çərçivəyə alınmış cümlədə nöqtələrin yerinə “Nizami və Xəmsə” sözləri olmalıdır.

**Nəticənin çıxarılması.**

Nəticədə müəyyən olunur ki, mətndə incəsənətin müxtəlif növləri barədə təfərrüatlı məlumat verilir. Hər janrın öz görkəmli nümayəndələri olmuşdur. Ölkəmizdə də incəsənət sahəsində tanınmış şəxslər var. Mətn bitkin fikir ifadə edən abzaslardan təşkil olunmuşdur. Mətn daxilində həm terminlər, həm də ümumişlək sözlər vardır. Daha çox nəqli cümlələrdən istifadə olunmuşdur.

**Yaradıcı tətbiqetmə.**

13-cü tapşırıq verilir.

**Ev tapşırığı:**

Şagirdlərə cütlər şəklində 22-ci tapşırıq verilir. 22-ci tapşırığın düzgün cavabı.

a) natürmort
b) qrafika
c) freska
d) mozaika

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Şərhetmə, mühakiməyürütmə, münasibətbildirmə meyarları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Məzmunun şərhində çətinlik çəkir. | Məzmunu ətrafın köməkliyi ilə şərh edir. | Məzmunu şərh edir. | Məzmunu öz kontekstindən yanaşaraq şərh edir. |
| Mühakimə yürütməkdə çətinlik çəkir. | Mühakimələrində qeyri-dəqiqliyə yol verir. | Mətndəki fikirlərlə əlaqəli mühakimə bildirir. | Mətndə fikirlərlə əlaqəli sərbəst şəkildə şəxsi mühakimələrini yürüdür. |
| Müzakirədə iştirakda çətinlik çəkir. | Müzakirədə ətrafın dəstəyi ilə fikir bildirir. | Müzakirədə fikir bildirir. | Müzakirədəki ümumiləşmiş fikirlərə sərbəst münasibət bildirir. |

## Mövzu: İNCƏSƏNƏT HAQQINDA ƏSAS ANLAYIŞLAR (II saat)

**Standartlar:** 3.1.1., 4.1.1., 4.1.2.

**Məqsəd:** Mətndə fərqləndirilmiş söz və ifadələrin mənasını izah edir.

Topladığı materiallar əsasında rabitəli mətnlər yazır.

Ardıcıllığı gözləməklə dəyişikliklər edərək mətni təkmilləşdirir.

**İnteqrasiya:**

Ədəbiyyat – 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

**İş forması:** qrupla, cütlərlə və fərdi iş

**Üsullar:** müzakirə, klaster, təqdimat

**Resurslar:** lüğət, iş vərəqləri, söz birləşməsi və cümlə ilə bağlı sxemlər

**Motivasiya.**

Şagirdlər evdə hazırladıqları videoçarxı və ya təqdimatı cütlər şəklində təqdim edirlər. Şagirdlərdən daha çox hansı cümlə növlərindən istifadə olunması soruşulur. Buradakı cümlə quruluşları ilə mətndəki cümlə quruluşları müqayisə olunaraq tədqiqat sualı çıxarılır.

**Tədqiqat.**

*Tədqiqat mətnin lüğət tərkibi və sintaksisi üzərində aparılır. Müəllim məqsəddən asılı olaraq müxtəlif tədqiqat suallarından istifadə edə bilər.*

**Tədqiqatın aparılması.**

Tədqiqatın aparılmasından əvvəl mətnin düzgün, ifadəli oxusu icra olunsa, daha məqsədəuyğun olar. Müəllim mətni 4 hissəyə bölüb hər qrupa bir

hissəni təqdim etməklə şagirdlərə terminləri, ümumişlək sözləri müəyyənləşdirməyi, mətndə nə üçün məhz bu sözlərdən istifadə edilməsinin səbəbini araşdırmağı tapşıra bilər. Müəllim tərəfindən seçilmiş sözlərin kontekstə uyğun leksik mənalarının tapılması şagirdləri həm mətn üzərində daha dəqiq araşdırma aparmağa sövq edər, həm də şagirdlərin lüğət ehtiyatının zənginləşməsinə, sözdən, onun məna çalarlarından yerində və düzgün istifadə etməni öyrətməyə istiqamət verər.

Dərslikdəki 1–6-cı tapşırıqlar cütlər vasitəsilə icra edilə bilər. 6-cı tapşırığın cavabı: sifət, zərf, feil, ədat

21-ci tapşırığın fərdi qaydada aparılması məqsədəuyğundur. Müəllim bu məqsədlə mətndən 3 cümlə seçir və icrasını hər qrupdan bir şagirdə tapşırır. Mətnin sintaksisi üzərində iş aparmaq üçün əlverişli tapşırıqdır.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəllim mətnin xarakterik cəhətlərini vurğulamaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Nəticəni asan çıxarmaq üçün klasterdən istifadə məqsədəuyğundur. 16–19-cu tapşırıqlar şifahi şəkildə icra edilir.

**Nəticənin çıxarılması.**

Mətndə cümlənin müxtəlif növlərindən istifadə olunmuşdur. Bu isə şagirdlərin söz ehtiyatının artırılması baxımından əlverişlidir. Sinonimlərin, antonimlərin işlənməsi mətni daha da zənginləşdirir. Mətn orfoqrafiya lüğəti ilə işləməyə geniş imkanlar yaradır.

**Yaradıcı tətbiqetmə.**

23 və 24-cü tapşırıqlar verilir. 20-ci tapşırıq fərdi qaydada verilə bilər. Bu tapşırıq daha çox hazırlığı III səviyyəyə uyğun olan şagirdlər üçün nəzərdə tutulmuşdur. Belə ki söz və söz birləşmələrinin fərqləndirilməsi, uyğun cümlələrin daxilinə yerləşdirilməsi, müvafiq şəkilçilərdən istifadə edilməklə sözlər arasında əlaqələrin yaradılması, orfoqrafiya lüğətinin köməyi ilə sözlərin düzgün yazılışının müəyyənləşdirilməsinin hər biri qiymətləndirmə üçün kifayət qədər əsas verir.

**Ev tapşırığı** 25-ci tapşırıq əsasında aparılır.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. İzahetmə, mətnqurma, mətni təkmilləşdirmə meyarları nəzərə alınmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Mətndə fərqləndirilmiş sözlərin mənasını izah edir. | Mətndə fərqləndirilmiş ifadələrin mənasını izah edir. | Mətndə fərqləndirilmiş söz və ifadələrin kontekstə uyğun mənasını izah edir. |
| Topladığı materiallardan mətn qura bilmir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazmaqda çətinlik çəkir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazır. | Topladığı əlavə materiallar əsasında rabitəli mətnlər yazır. |
| Abzaslara dəyişiklik etməkdə çətinlik çəkir. | Dəyişikliklər zamanı qeyri-dəqiqliyə yol verir. | Mətnin abzaslarına dəyişikliklər edir. | Mətnin abzaslarına dəyişikliklər edərkən ardıcıllığı gözləyir. |

## Mövzu: BƏSTƏKARIN PORTRETİ (I saat)

**Standartlar:** 2.1.1., 2.1.4., 3.1.3., 4.1.1.

**Məqsəd:** Mətndən seçilmiş sözləri normalara uyğun tələffüz edir.

Fikirlərini məntiqi cəhətdən ardıcıl ifadə edir.

Münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır.

Müxtəlif mənbələrdən istifadə əsasında mətn qurur.

**İnteqrasiya:**

Musiqi – 1.1.1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndəsi Ü.Hacıbəylinin əsərləri haqqında biliklərini müqayisəli şəkildə izah edir.

Azərbaycan tarixi – 1.2.1. Eyni hadisəyə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir.

Təsviri incəsənət – 3.1.2. Təsviri sənətin növ və janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir.

**İş forması:** fərdi və qrupla iş

**Üsullar:** beyin həmləsi, anlayışın çıxarılması, auksion

**Resurslar:** bəstəkarın və rəssamın portretlərindən nümunələr, əsərlərindən audio və videolentlər, himn barədə məlumat, lüğət, iş vərəqləri

**Motivasiya.**

Müəllim dərsə anlayışın çıxarılması üsulundan istifadə etməklə başlaya bilər.




Şagirdlərin cavabları dinlənilir, müzakirə edilir. Sual işarəsinin yerinə “incəsənət” sözünün yazılması müəyyənləşdirilir. Daha sonra şifahi şəkildə bəstəkarın yaradıcılığı ilə bağlı auksion keçirilir. Mətn oxudulur, sonluğun tamamlanması və müvafiq cümlənin seçilməsi üçün izahat verilir, şagirdlərlə birgə müzakirə aparılır. İlk baxışdan hər 3 cümlə sonluğa uyğundur. Lakin mətnin məzmununa diqqət yetirən şagird 2-ci cümlənin sonluq üçün daha məqsədəuyğun olduğunu dərk edə bilər. Çünki həmin cavabda həm bəs-

təkarın, həm rəssamın peşəkarlığına yüksək qiymət verilir. 1-ci tapşırıq kollektiv şəkildə yerinə yetirilir və tədqiqat sualı çıxarılır.

### Tədqiqat sualı.

*Əsl sənətkarlıq nədir?*

### Tədqiqatın aparılması.

Şagirdlər 4 qrupa bölünür və onlara aşağıdakı iş vərəqləri paylanır: I qrupa 2, 7-ci, II qrupa 3, 8-ci, III qrupa 4, 9-cu, IV qrupa 5 və 10-cu tapşırıqlar verilir.

### Məlumat mübadiləsi və müzakirə.

İş vərəqləri asılaraq fikir mübadiləsi və müzakirə aparılır. Müzakirə zamanı 11-ci tapşırıq icra edilir. Bu tapşırıqla bağlı, ilk növbədə, şagirdlərin fikirləri dinlənilir. Müəllim yönəldici suallardan (Muzey nədir?, Muzeydə nə saxlanılır?, Muzeydə nə üçün ... (şagird cavablarından asılı olaraq) saxlanılır? və s.) istifadə edə bilər. Sonra müəllim tərəfindən ümumiləşdirmə aparılır: Mətn hər iki şəxsin sənətkarlığı, peşəkarlığı haqqında məlumat verir. Teatr muzeyinin bəstəkarın portretinin çəkilməsi üçün sifariş verməsi Üzeyir Hacıbəylinin sənəti və sənətkarlığı, onun sənətinə yüksək dəyər verilməsinin bariz nümunəsidir. Eyni zamanda portretin çəkilməsinin M.Abdullayevə həvalə edilməsi rəssamın istedad və peşəkarlığından xəbər verir. Deməli, mətndə, əslində, hər iki sənətkarın sənətkarlığından söhbət açılır.

### Nəticənin çıxarılması.

Təqdimatlardan sonra məlum olur ki, mətn bəstəkarın və rəssamın həyatının bir epizodunu əhatə edir. Bu epizod onun xarakterinin açılmasına istiqamət verir.

Sənətkarlıq, əsl sənətkarlıq ifadələrinin leksik mənası açılır və mətnlə əlaqələndirilir.

### Yaradıcı tətbiqetmə.

Mətnin sonluğunun fərqli şəkildə tamamlanması tapşırığı verilə bilər. Bu, şagirdin yaradıcı təfəkkürünün inkişafına kömək edə bilər.

**Ev tapşırığı** kimi dərslikdəki 12-ci tapşırığa əsasən təqdimat hazırlamaq tapşırılır.

**Qiymətləndirmə** təlim məqsədlərinə uyğun olaraq sonda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Tələffüzetmə, ardıcıllıq, əsaslandırma, mətnqurma.

| I | II | III | IV |
|---|---|---|---|
| Mətndən seçilmiş sözləri normalara uyğun tələffüz etmir. | Mətndən seçilmiş sözləri normalara uyğun tələffüz etməkdə çətinlik çəkir. | Seçilmiş sözləri tələffüz edərkən normalara uyğunlaşmağa çalışır. | Mətndən seçilmiş sözləri normalara tam uyğun şəkildə tələffüz edir. |
| Fikirlərini məntiqi cəhətdən ardıcıl ifadə etmir. | Fikirlərində məntiqi cəhətdən ardıcıllıq pozulur. | Fikirləri məntiqi cəhətdən ardıcıldır. | Fikirlərində məntiqi cəhətdən ardıcıllığa tam riayət edir. |
| Münasibətini çətinliklə əsaslandırır. | Münasibətini əlavə faktlarla əsaslandırır. | Münasibətini həyati nümunələrlə əsaslandırır. | Münasibətini əlavə fakt və mövzuya uyğun nümunələrlə əsaslandırır. |
| Topladığı materiallardan mətn qura bilmir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazmaqda çətinlik çəkir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazır. | Topladığı əlavə materiallar əsasında rabitəli mətnlər yazır. |

## Mövzu: BƏSTƏKARIN PORTRETİ (II saat)

**Standartlar:** 3.1.1., 4.1.1., 4.1.2.

**Məqsəd:** Mətndə fərqləndirilmiş söz və ifadələrin mənasını izah edir.

Topladığı materiallar əsasında rabitəli mətnlər yazır.

Ardıcıllığı gözləməklə dəyişikliklər edərək mətni təkmilləşdirir.

**İnteqrasiya:**

Təsviri incəsənət – 1.3.1. Azərbaycanın görkəmli təsviri incəsənət nümayəndələri və onların əsərləri haqqında təqdimatlar edir.

İnformatika – 3.3.3. Multimedia təqdimatları hazırlayır.

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

**İş forması:** fərdi və qrupla iş

**Üsullar:** təqdimat, müzakirə

**Resurslar:** Cabbar Qaryağdıoğluna aid audio-videolentlər, Qarabağ tarixini əks etdirən şəkillər, lüğət, iş vərəqləri

**Motivasiya.** Dərs şagird təqdimatlarının dinlənilməsi ilə başlanır (seçmə yolla). Şagirdlər evdə hazırladıqları təqdimatları təqdim edir. Mətnin semantikasını aydınlaşdırmaq məqsədilə tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**

*Mətnin hansı xarakterik cəhətləri var?*

**Tədqiqatın aparılması.**

17-ci tapşırıqdakı mətn oxunur. Mətnlər məzmun baxımından (səh. 51 və 53) müqayisə olunur və əsas faktlar seçilir. İş qruplarda davam etdirilir. I qrupa 13-cü, II qrupa 14-cü, III qrupa 15-ci, IV qrupa 16-cı tapşırıq verilir. 15-ci

tapşırıqda məqsəd cümlələri qrammatik əsaslarına görə fərqləndirməkdir. Bu tapşırıq növbəti mərhələlərdə mürəkkəb cümlənin öyrədilməsi üçün zəmin rolunu oynayır.

**Məlumat mübadiləsi və müzakirə.**

Müəllim mətnin xarakterik cəhətlərini vurğulamaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər.

**Nəticənin çıxarılması.**

Mətn faktlarla zəngindir. Birinci mətndə olduğu kimi, bu mətndə də dahi bir insandan bəhs olunur. Onların hər ikisi Azərbaycan musiqi tarixinin korifeyləri kimi dəyərləndirilir.

**Yaradıcı tətbiqetmə zamanı** 54-cü səhifədə verilmiş "Mətnlə tanış olduqdan sonra bu nəticəyə gəlmək olar ki, ..." tapşırığı üzərində iş aparılır.

**Ev tapşırığı.**

Dahi bəstəkarımız haqqında təqdimat hazırlamaq tapşırılır.

Lüğət üzərində iş (səh. 54) təlimdə nisbətən zəif nəticə göstərən şagirdlərə tapşırıla bilər.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır.

İzahetmə, mətnqurma, mətni təkmilləşdirmə meyarları nəzərə alınmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Mətndə fərqləndirilmiş sözlərin mənasını izah edir. | Mətndə fərqləndirilmiş ifadələrin mənasını izah edir. | Mətndə fərqləndirilmiş söz və ifadələrin kontekstə uyğun mənasını izah edir. |
| Topladığı materiallardan mətn qura bilmir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazmaqda çətinlik çəkir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazır. | Topladığı əlavə materiallar əsasında rabitəli mətnlər yazır. |
| Abzaslara dəyişiklik etməkdə çətinlik çəkir. | Dəyişikliklər zamanı qeyri-dəqiqliyə yol verir. | Mətnin abzaslarına dəyişikliklər edir. | Mətnin abzaslarına dəyişikliklər edərkən ardıcıllığı gözləyir. |

## Mövzu: MƏTN (I saat)

**Standartlar:** 1.1.1., 1.1.2., 2.1.2., 4.1.2.

**Məqsəd:** Mətnin məzmununu şərh edir.

Mətndəki fikirlərlə əlaqədar olaraq öz mühakimələrini yürüdür.

Nitq etiketlərindən istifadə edir.

Ardıcıllığı gözləməklə dəyişikliklər edərək mətni təkmilləşdirir.

**İnteqrasiya:**

Musiqi – 2.1.1. Azərbaycan və dünya bəstəkarlarının musiqili səhnə əsərlərində istifadə olunmuş bədii nümunələr haqqında təqdimat edir.

Azərbaycan tarixi – 5.1.3. Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, nəticələrini təqdim edir.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** Venn diaqramı, anlayışın çıxarılması, diskussiyalı oxu

**Resurslar:** M.Maqomayevin "Şah İsmayıl" operasından epizod, Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" əsərindən şəkillər, nitq etiketi nümunələri

**Motivasiya.**

Ötən dərs evə verilən təqdimat dinlənilir. Daha sonra M.Maqomayevin "Şah İsmayıl" operasından epizod şagirdlərə nümayiş olunur. Şagirdlərdən slaydla bağlı fərziyyələr alındıqdan sonra mövzu oxunur. Bəstəkarlar haqqında məlumatlar müqayisə olunur və tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**

*Müəllimin seçimindən asılı olaraq tədqiqat sualı mətnin ideyasının və ya strukturunun (giriş, əsas, nəticə hissələrinin, abzasların ardıcıllığının) müəyyənləşdirilməsi ilə bağlı formalaşdırıla bilər.*

**Tədqiqatın aparılması.**

Əvvəlcə mətn "... adı ilə tanınır" hissəsi daxil olmaqla oxunur. "O zaman heç kəs təsəvvür edə bilməzdi ki, ..." cümləsi qarşısında 3 rəqəmi yazılmış abzasın sonuna artırılmalıdır. Növbəti abzas (22 dekabr ...) şagirdin oxuduğunu anlamasına xidmət edir. Cavab məktubdur. Cavabın tapılması üçün müəllim yönəldici suallardan istifadə (Niyə teleqram, ərizə yox, məhz məktub hesab edirsiniz? və s.) edə bilər. Şagirdlər 4 qrupa bölünüb dərslikdə verilmiş tapşırıqlar əsasında işləyirlər. I qrupa 7, 8-ci, II qrupa 10-cu, III qrupa 11-ci, IV qrupa 12-ci tapşırıq verilir.

Çərçivələrin (səh. 56–57) ardıcıllığı: 4, 2, 1, 3

6-cı tapşırıq kollektiv şəkildə icra olunur.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri asılaraq təqdimata başlanılır. Təqdimatların xarakterinin açılması üçün 13-cü tapşırıq müzakirə olunur.

**Nəticənin çıxarılması.**

Nəticə tədqiqat sualına əsasən əldə edilir.

**Yaradıcı tətbiqetmə** 14-cü tapşırığa əsasən aparılır.

14-cü tapşırığın yerinə yetirilməsi üçün nümunə: 25 oktyabr 1913-cü ildə Üzeyir Hacıbəylinin "Arşın mal alan" komediyası Bakıda, Hacı Zeynalabdin Tağıyevin teatrında ilk dəfə tamaşaya qoyulmuşdur.

**Dialoq**.

1-ci şagird:
– "Arşın mal alan" komediyasının müəllifi kimdir?
2-ci şagird:
– Üzeyir Hacıbəyli.
1-ci şagird:
– Komediya nə zaman tamaşaya qoyulmuşdur?
2-ci şagird:
– 25 oktyabr 1913-cü ildə
...

**Ev tapşırığı.**

15-ci tapşırıq verilir. Tapşırıq 2 böyük qrupa verilə bilər. I qrupa sualları, II qrupa cavabları hazırlamaq tapşırıla bilər. Bu, şagirdlərdə həm birgəfəaliy-

yət, həm də müzakirə əsasında mükəmməl bir proqramın hazırlanmasına yardım edər.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Şərhetmə, mühakiməyürütmə, istifadəetmə, ardıcıllığı müəyyənetmə meyarları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Məzmunun şərhində çətinlik çəkir. | Məzmunu ətrafın köməkliyi ilə şərh edir. | Məzmunu şərh edir. | Məzmunu öz kontekstindən yanaşaraq şərh edir. |
| Mühakimə yürütməkdə çətinlik çəkir. | Mühakimələrində qeyri-dəqiqliyə yol verir. | Mətndəki fikirlərlə əlaqəli mühakimə bildirir. | Verilmiş mətndəki fikirlərlə əlaqəli sərbəst şəkildə şəxsi mühakimələrini yürüdür. |
| Nitq etiketlərindən istifadə etməkdə çətinlik çəkir. | Nitq etiketlərindən istifadə edərkən səhvlərə yol verir. | Nitq etiketlərindən istifadə edir. | Nitq etiketlərindən məqamına uyğun şəkildə istifadə edir. |
| Abzaslara dəyişiklik etməkdə çətinlik çəkir. | Dəyişikliklər zamanı qeyri-dəqiqliyə yol verir. | Mətnin abzaslarına dəyişikliklər edir. | Mətnin abzaslarına dəyişikliklər edərkən ardıcıllığı gözləyir. |

## Mövzu: MƏTN (II saat)

**Standartlar:** 3.1.1., 4.1.1.

**Məqsəd:** Mətndə fərqləndirilmiş söz və ifadələrin mənasını izah edir.

Topladığı materiallar əsasında rabitəli mətnlər yazır.

**İnteqrasiya:**

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir. 4.1.2. Fakt və hadisələrə yazılı münasibət bildirir.

**İş forması:** fərdi və cütlərlə iş

**Üsullar:** BİBÖ, müzakirə, təqdimat

**Resurslar:** lüğət, iş vərəqləri, dialoq nümunələri

**Motivasiya.** Şagirdlər evdə hazırladıqları proqramı qrup şəklində təqdim edirlər. 1–5-ci tapşırıqlar üzrə frontal sorğu aparmaq mümkündür. Tədqiqatda daha çox hansı tip cümlələrdən istifadə olunması şagirdlərdən soruşulur. Diqqət mürəkkəb cümlələrə yönəldilir, dərslikdəki mürəkkəb cümlələrlə bağlı qayda izah olunur və BİBÖ cədvəli doldurulur. “İstəyirəm bilim” xanasına uyğun olaraq tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**

*Mətndə mürəkkəb cümlələrin rolu nədən ibarətdir? Onların yaranma yolları hansılardır?*

**Tədqiqatın aparılması.**

Şagirdlərə sadə cümlələr təqdim olunur və bu cümlələrdən istifadə etməklə mürəkkəb cümlələr yaratmaq tapşırığı verilir. Tapşırığın cütlərlə icrası məqsədəmüvafiqdir.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəllim mətnin xarakterik cəhətlərini vurğulamaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Təhlilin nəticəsində mətnin xarakterik cəhətləri ilə bağlı nəticə çıxarılır.

**Nəticənin çıxarılması.**

Mətn şagirdlərin söz ehtiyatının artırılması baxımından əlverişlidir. Sinonimlərin, antonimlərin işlənməsi mətni daha da zənginləşdirir. Cümlə anlayışının tədrisi üçün zəmin yaradır. BİBÖ cədvəlinin sonuncu xanası doldurulur.

**Yaradıcı tətbiqetmə kimi** 16-cı tapşırıq verilə bilər.

**Ev tapşırığı** kimi 17-ci tapşırıq verilir. Nisbətən zəif təlim nəticələri olan şagirdlərə muğam ifaçılarımız haqqında məlumat toplamaq tapşırılır.

**Qiymətləndirmə.**

Özünüqiymətləndirmədən istifadə məqsədəuyğundur. Şagirdlər meyarlar əsasında özlərini qiymətləndirə bilərlər.

| Ballar / Meyarlar | 5 | 4 | 3 | 2 |
|---|---|---|---|---|
| Mətndə fərqləndirilmiş söz və ifadələrin kontekstə uyğun mənasını izah etdim. | | | | |
| Topladığım əlavə materiallar əsasında rabitəli mətnlər yazdım. | | | | |

## **Mövzu:** ƏBDÜLBAĞI ZÜLALOV BÜLBÜLCAN

**Standartlar:** 1.1.1., 2.1.3., 3.1.1.

**Məqsəd:** Mətnin məzmununu şərh edir.

Müzakirədəki ümumiləşmiş fikirlərə münasibətini bildirir.

Mətndə fərqləndirilmiş ifadələrin mənasını izah edir.

**İnteqrasiya:**

Musiqi – 1.1.1. Azərbaycan və dünya musiqi mədəniyyətinin görkəmli nümayəndəsi Ü.Hacıbəylinin əsərləri haqqında biliklərini müqayisəli şəkildə izah edir.

Azərbaycan tarixi – 1.2.1. Eyni hadisəyə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** anlayışın çıxarılması, auksion, müzakirə, səsli oxu

**Resurslar:** lüğət, iş vərəqləri, muğamın tarixinə aid nümunələr, muğam haqqında qəbul olunmuş qanun, sərəncam və qərarlar

**Motivasiya.**

Muğamlarımız haqqında toplanılan məlumatlar oxunduqdan sonra yeni dərsə keçid oluna bilər. Müəllim dərsə anlayışın çıxarılması üsulu ilə başlaya bilər. Aşağıdakı sxemin göstərilməsi məqsədəuyğundur:




Muğam anlayışı alındıqdan sonra şagirdlərdən auksion üsulu ilə hansı muğam ifaçılarını tanımaları soruşulur. Daha sonra mətn oxunur və suallar cavablandırılır. Tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**

*Mətnin özünəməxsus xüsusiyyətləri hansılardır?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 4 qrupa bölünür. I qrupa dərslikdəki 1, 7-ci, II qrupa 2 və 8-ci, III qrupa 3, 9-cu, IV qrupa 4, 5, 6-cı tapşırıqlar verilə bilər.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər.

**Nəticənin çıxarılması.**

Şagirdlər müəyyənləşdirirlər ki, muğam bizim mənəvi dəyərimizdir. Onun təbliğatçıları milli musiqimizin keşikçiləridir. Muğamımız böyük çətinliklərdən, sınaqdan keçib bu günlərə gəlib çıxıb. Onu qorumaq bizim vəzifəmizdir. Mətn mənəvi dəyərlərin təbliği baxımından olduqca dəyərlidir. Lüğətlə işləyən zaman şagirdlər kifayət qədər yeni sözlərlə tanış olurlar.

**Yaradıcı tətbiqetmə.**

Şagirdlərə muğamın qorunması ilə bağlı tövsiyələr hazırlamaq tapşırıla bilər.

**Ev tapşırığı.**

10-cu tapşırıq yerinə yetirilir.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Şərhetmə, mühakiməyürütmə, istifadəetmə, münasibətbildirmə meyarları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Məzmunun şərhində çətinlik çəkir. | Məzmunu ətrafın köməkliyi ilə şərh edir. | Məzmunu şərh edir. | Məzmunu öz kontekstindən yanaşaraq şərh edir. |
| Müzakirədə iştirakda çətinlik çəkir. | Müzakirədə ətrafın dəstəyi ilə fikir bildirir. | Müzakirədə fikir bildirir. | Müzakirədəki ümumiləşmiş fikirlərə sərbəst münasibət bildirir. |
| Fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Mətndə fərqləndirilmiş sözlərin mənasını izah edir. | Mətndə fərqləndirilmiş ifadələrin mənasını izah edir. | Mətndə fərqləndirilmiş söz və ifadələrin kontekstə uyğun mənasını izah edir. |

## Mövzu: MİNNƏTSİZ ÇÖRƏK (I saat)

**Standartlar:** 1.1.1., 3.1.1., 4.1.1.

**Məqsəd:** Mətnin məzmununu şərh edir.

Mətndə fərqləndirilmiş ifadələrin mənasını izah edir.

Verilmiş sözlərdən istifadə edərək mətn yazır.

**İnteqrasiya:**

Ədəbiyyat – 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

**İş forması:** kollektiv iş

**Üsullar:** debat, tənqidi oxu

**Resurslar:** Süleyman Rəhimovun seçilmiş əsərləri, lüğət, iş vərəqləri

**Motivasiya.** Müəllim dərsə cədvəlin doldurulması ilə başlaya bilər. Cədvəl üçün 4 açar söz verilir:

1. Ən böyük milli sayımız
2. Peyğəmbərin tərifi verilən qəsidə növü
3. *-lı*[4] şəkilçisinin antonimi
4. Əsas ana qidamız

| | | | |
|---|---|---|---|
| MİN | NƏT | SİZ | ÇÖRƏK |

Daha sonra mətn 11.1-ci tapşırığa uyğun şəkildə oxunur və tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**

*Nə üçün əsər "Minnətsiz çörək" adlandırılıb?*

**Tədqiqatın aparılması.**

Şagirdlər verilmiş mövzu üzrə müzakirə (11.9) aparır (səh. 64).

**Məlumat mübadiləsi və müzakirə.**

Müzakirə üçün dərslikdə verilmiş arqumentlərdən istifadə oluna bilər. Daha sonra 11.3–11.5-ci tapşırıqlar icra olunur.

**Nəticənin çıxarılması.**

Əsərin mövzu və ideyasının aktuallığı təsdiqlənir. Debatın sonunda müxtəlif fikirlər ortaya çıxır. Lakin mənəvi azadlığın labüdlüyü hər iki qrup tərəfindən təsdiqlənir.

**Yaradıcı tətbiqetmə.**

12-ci tapşırıq verilə bilər.

**Ev tapşırığı.**

Mənəvi azadlıqla bağlı atalar sözləri toplamaq tapşırıla bilər.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Şərhetmə, izahetmə, mətnqurma meyarları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Məzmunun şərhində çətinlik çəkir. | Məzmunu ətrafın köməkliyi ilə şərh edir. | Məzmunu şərh edir. | Məzmunu öz kon-tekstindən yanaşa-raq şərh edir. |
| Fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Mətndə fərqləndiril-miş sözlərin məna-sını izah edir. | Mətndə fərqləndiril-miş ifadələrin mə-nasını izah edir. | Mətndə fərqləndiril-miş söz və ifadələrin kontekstə uyğun mənasını izah edir. |
| Verilmiş sözlərdən mətn qura bilmir. | Verilmiş sözlər əsa-sında rabitəli mətnlər yazmaqda çətinlik çəkir. | Verilmiş sözlər əsa-sında rabitəli mətnlər yazır. | Verilmiş sözlərdən yaradıcı şəkildə rabitəli mətnlər yazır. |

**Mövzu:** **MİNNƏTSİZ ÇÖRƏK (II saat)**

**Standartlar:** 2.1.1., 4.1.1., 4.1.3.

**Məqsəd:** Mürəkkəb cümlələri qrammatik normalara uyğun tələffüz edir.

Müxtəlif mənbələrdən istifadə əsasında mətn qurur.

Mürəkkəb cümlələrdə durğu işarələrindən istifadə edir.

**İnteqrasiya:**

Azərbaycan dili – 1.1.1. Danışanın mövzuya münasibətini müəyyən etmək üçün tədqiqat xarakterli suallar verir.

İnformatika – 3.3.3. Multimedia təqdimatları hazırlayır.

**İş forması:** kollektiv, cütlərlə və qrupla iş

**Üsullar:** interaktiv mühazirə, klaster

**Resurslar:** mürəkkəb cümlələrin müxtəlif konstruksiyalarına aid sxemlər, iş vərəqləri

**Motivasiya.**

Şagirdlərin ötən dərsdən topladıqları atalar sözləri cümlə quruluşu baxımından təhlil olunur. Diqqət mürəkkəb cümlələrin növlərinə yönəldilir və dərslikdə bununla bağlı qayda izah olunur. Tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**

*Mürəkkəb cümlələrin dildəki rolu nədən ibarətdir?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 4 qrupa bölünür və onlara iş vərəqləri paylanır. İş vərəqlərində dərslikdə verilmiş tapşırıqlar əks olunub: I qrupa 11.6-cı, II qrupa 11.7–11.8-ci, III qrupa 12-ci, IV qrupa 14-cü tapşırıq verilir. 13-cü tapşırıq kollektiv şəkildə yerinə yetirilir.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri asılaraq mürəkkəb cümlələrin növləri, onun yaranma yolları barədə təqdimatlar dinlənilir. Yekun müzakirədən sonra nəticəyə gəlinir.

**Nəticənin çıxarılması.**

Mürəkkəb cümlələrin iki növü var – tabesiz və tabeli mürəkkəb cümlələr. Tabesiz mürəkkəb cümlələr tabesizlik bağlayıcıları və intonasiyanın köməyi ilə yaranır.

**Yaradıcı tətbiqetmə** verilmiş testlərin düzgün cavablarının tapılması əsasında aparıla bilər.

***1) Hansı cümlə mürəkkəbdir?***

*a) Yazın gəlməsinə baxmayaraq, havalar soyuq keçirdi.*
*b) Gülzar başını qaldırmırdı, ancaq anasının dediklərini eşidirdi.*
*c) İstəsən, deyərəm.*
*d) Piri baba bağçadakı ağaclara baxıb sevinirdi.*
*e) İstəyəndə gələrəm.*

***2) Biri mürəkkəb cümlədir.***

*a) Əsən külək onun qəlbinə doldu və elə bil bədəninə yeni qüvvət gətirdi.*
*b) Gecə keçir, otaq soyuyurdu.*
*c) O, atasının əsəbi halda dediklərini diqqətlə dinlədi, amma ona cavab qaytarmadı.*
*d) Fərhadın yalvarışlarına baxmayaraq, ana ona icazə vermədi.*
*e) Biz onu nə evdə, nə də iş yerində tapa bildik.*

**Ev tapşırığı.**

16-cı tapşırıq verilə bilər.

**Qiymətləndirmə.**

Meyar cədvəlinə əsaslanmaq olar. Tələffüzetmə, istifadəetmə, mətnqurma meyarlarının səviyyələri üzrə qiymətləndirmə aparıla bilər.

| I | II | III | IV |
|---|---|---|---|
| Mürəkkəb cümlələri düzgün tələffüz etmir. | Mürəkkəb cümlələri qrammatik normalara uyğun tələffüz etməkdə çətinlik çəkir. | Mürəkkəb cümlələri tələffüz edərkən qrammatik normalara riayət etməyə çalışır. | Mürəkkəb cümlələri qrammatik normalara uyğun tələffüz edir. |
| Topladığı materiallardan mətn qura bilmir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazmaqda çətinlik çəkir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazır. | Topladığı əlavə materiallar əsasında rabitəli mətnlər yazır. |
| Mürəkkəb cümlələrdə durğu işarələrindən istifadə etməyi bacarmır. | Mürəkkəb cümlələrdə durğu işarələrindən bəzən istifadə edir. | Mürəkkəb cümlələrdə durğu işarələrindən istifadə edir. | Mürəkkəb cümlələrdə məqsəd və intonasiyaya görə durğu işarələrindən istifadə edir. |

## Mövzu: UNUDULMAZ XATİRƏ (I saat)

**Standartlar:** 2.1.2., 3.1.3., 4.1.3.

**Məqsəd:** Nitq etiketlərindən istifadə edir.

Mətnə münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır.

Durğu işarələrindən düzgün istifadə edir.

**İnteqrasiya:**

Ədəbiyyat – 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

**İş forması:** cütlərlə iş

**Üsullar:** anlayışın çıxarılması, müzakirə, proqnozlaşdırılmış oxu

**Resurslar:** C.Cabbarlının seçilmiş əsərləri, məqalələrdən xülasələr, iş vərəqləri

**Motivasiya.**

Müəllim dərsə anlayışın çıxarılması üsulu ilə başlaya bilər. Aşağıdakı sxemin göstərilməsi məqsədəuyğundur:




C.Cabbarlı adı alındıqdan sonra mətnin İnsert üsulu əsasında oxudulması fayda verə bilər. Mətnin oxusundan sonra müəllim şagirdlərdən ümumi şəkildə ədəbiyyatdan bu barədə biliklərinin nə dərəcədə olması ilə maraqlanır.

**Tədqiqat sualı.**

*Mətndə nədən bəhs olunur?*

**Tədqiqatın aparılması.**

Şagirdlər cütlərə bölünür və onlara iş vərəqləri paylanır. İş vərəqlərində cütlərə dərslikdən tapşırıqlar verilir. I cütə 1-ci, II cütə 2-ci, III cütə 3-cü, IV cütə 4-cü, V cütə 5-ci, VI cütə 6-cı, VII cütə 7-ci, VIII cütə 8-ci tapşırıq verilir.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri asılaraq təqdimata başlanılır. Mətnin məzmununu vurğulamaq üçün 9-cu tapşırıq kollektiv şəkildə işlənə bilər. Tapşırıq müzakirə edildikdən sonra ümumi nəticə çıxarılır.

**Nəticənin çıxarılması.**

Tədqiqat nəticəsində müəyyənləşir ki, mətn C.Cabbarlının böyüklüyünü vurğulamaqda əvəzsizdir. C.Cabbarlının dahiliyi onun təkcə qələmində deyil, həm də insanlara yanaşmasında, hörmət və ehtiramındadır.

**Yaradıcı tətbiqetmə.**
10-cu tapşırıq şagirdlərə verilə bilər.

**Ev tapşırığı** kimi 11-ci tapşırıq verilir. C.Cabbarlı haqqında məlumat toplayıb təqdimat hazırlamaq tapşırığı da verilə bilər.

**Qiymətləndirmə** təlim məqsədlərinə uyğun olaraq cütlərlə aparıla bilər. Nitq etiketini bilmə, əsaslandırma, istifadəetmə meyarlarına əsaslanmaq olar.

| **Cütlər** / **Meyarlar** | **I** | **II** | **III** | **IV** | **V** | **VI** | **VII** | **VIII** | **IX** | **X** | **XI** | **XII** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Nitq etiketindən istifadə edir. | | | | | | | | | | | | |
| Mətnə münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır. | | | | | | | | | | | | |
| Durğu işarələrindən düzgün istifadə edir. | | | | | | | | | | | | |
| Cəmi: | | | | | | | | | | | | |

## Mövzu: UNUDULMAZ XATİRƏ (II saat)

**Standartlar:** 3.1.1., 3.1.2., 4.1.3.

**Məqsəd:** Mətndən seçilmiş sözlərin kontekstə uyğun mənasını izah edir.
Durğu işarələrindən istifadə edir.
Cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyur.

**İnteqrasiya:**

Azərbaycan dili – 2.2.2. Tərkib hissələri arasında əlaqəni gözləməklə mətni genişləndirir. 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.

**İş forması:** qrupla iş

**Üsullar:** beyin həmləsi, müzakirə

**Resurslar:** iş vərəqləri, mürəkkəb cümlənin qrammatik izahına dair plakat

**Motivasiya.** Ötən dərsə əsasən şagirdlərin hazırladığı təqdimat dinlənilir. 11-ci tapşırıq üzərində iş aparılır. Məlumatlarda daha çox hansı cümlələrdən istifadə olunması (tapşırıq 12) vurğulanır. Daha sonra keçilmiş mətnə aid 13-cü tapşırıq şagirdlərlə işlənir və tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı.**

*Mətndə durğu işarələrinin işlədilməsində məqsəd nədir?*

**Tədqiqatın aparılması:**

Şagirdlər 4 qrupa bölünərək I qrupa dərslikdəki 14, 16-cı, II qrupa 15, 17-ci, III qrupa 18-ci, IV qrupa 19-cu tapşırıq verilə bilər.
17-ci tapşırığın cavabı *C* variantıdır. 20-ci tapşırıq fərdi qaydada verilə bilər.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri asılaraq fikir mübadiləsi və müzakirə aparılır.

**Nəticənin çıxarılması.**

Mətndə sadə və mürəkkəb cümlənin müxtəlif növlərindən istifadə olunmuşdur. Mətn məqsəd və intonasiyaya görə müxtəlif cümlələrdən ibarətdir. Durğu işarələrinin işlənməsi mətndə intonasiyanın, pauzanın yaranmasına, hər hansı bir fikrin müxtəlif məqsədlərlə ifadə edilməsinə imkan verir.

**Yaradıcı tətbiqetmə.**

Dərslikdəki 21-ci tapşırıq işlənir. Bu tapşırığın verilməsində əsas məqsəd şagirdlərin özlərinin şəxsi keyfiyyətlərinin özləri tərəfindən müəyyənləşdirilməsi, bir-birlərinə olan münasibətlərini öyrənmək, şagirdlərə mənəvi və əxlaqi dəyərləri aşılamaqdır.

**Ev tapşırığı.**

Sonuncu tapşırıq (səh. 73) verilə bilər. Şagirdlərə gələcək planları barədə mətn qurmaq tapşırılır.

**Qiymətləndirmə** təlim məqsədlərinə uyğun olaraq sonda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. İzahetmə, durğu işarələrindən istifadə və düzgünoxuma meyarlarına əsaslanmaq olar.

| I | II | III | IV |
|---|---|---|---|
| Fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Mətndə fərqləndirilmiş sözlərin mənasını izah edir. | Mətndə fərqləndirilmiş ifadələrin mənasını izah edir. | Mətndə fərqləndirilmiş söz və ifadələrin kontekstə uyğun mənasını izah edir. |
| Durğu işarələrindən istifadə etməyi bacarmır. | Durğu işarələrindən bəzən istifadə edir. | Durğu işarələrindən istifadə edir. | Məqsəd və intonasiyaya görə durğu işarələrindən istifadə edir. |
| Məqsəd və intonasiyaya görə cümlələri çətinliklə oxuyur. | Cümlələri məqsədinə görə düzgün oxuyur. | Cümlələri intonasiyaya görə düzgün oxuyur. | Cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyur. |

## Mövzu: HAQQIN SƏSİ (I saat)

**Standartlar:** 1.1.1., 1.1.2.

**Məqsəd:** Mətnin məzmununu şərh edir.

Mətndə verilmiş fikirlərlə əlaqədar olaraq öz mühakimələrini yürüdür.

**İnteqrasiya:**

Həyat bilgisi – 2.2.2. Bəşəriyyət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir.

Ədəbiyyat – 1.1.2. Müxtəlif vəznli, süjetli bədii nümunələri ideya-məzmununa uyğun ifadəli oxuyur.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** BİBÖ, müzakirə, sual ünvanlayaraq oxu

**Resurslar:** xəritə, lüğət, iş vərəqləri, Məhəmmədhüseyn Şəhriyarın seçilmiş əsərləri

**Motivasiya.** Müəllim dərsə şeirlə başlaya bilər:

*Fələk, mən ... bil,*
*Gəl etmə bunca namərdlik.*
*Mənəm həm eşqin Allahı,*
*Həm İran şeirinin şahı.*

Nöqtələrin yerinə "Şəhriyaram" sözü yönəldici suallar vasitəsilə alındıqdan sonra BİBÖ üsulu ilə Şəhriyar və onun yaradıcılığı barədə məlumat lövhədə qeyd olunur. "İstəyirəm bilim" xanasına uyğun dərs davam etdirilir və tədqiqat sualı çıxarılır:

**Tədqiqat sualı.**

*Şeirin fəlsəfəsi nədən ibarətdir? Şair insanlara hansı fikri çatdırmaq istəyir?*

**Tədqiqatın aparılması.**

Şeir oxunur. 4-cü tapşırıq icra olunur. Şagirdlər 3 qrupa bölünərək I qrupa dərslikdəki 1 və 5-ci, II qrupa 3 və 6-cı tapşırıqları yerinə yetirmək, III qrupa 7-ci bəndi nəsrə çevirmək tapşırılır. Qruplar tapşırılmış bənddə deyilən fikirlərə münasibət bildirir.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri asılaraq təqdimata başlanılır. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. 4 və 7-ci tapşırıqlar icra edilir.

**Nəticənin çıxarılması.**

Şagirdlər müəyyənləşdirirlər ki, şeirdə insana sevgi, məhəbbət, birlik, həmrəylik fikirləri aşılanır. İnsan üçün ən böyük dəyər onu sevmək, ona diqqət yetirməkdir. Bəşəriyyət insanların sevgi ocağıdır. BİBÖ-nün son xanası doldurulur.

**Yaradıcı tətbiqetmə.**

8-ci tapşırıqda təkliflərin hazırlanması tapşırılır. Mətnlərin müqayisəsi əsasında tətbiqetmə aparıla bilər.

**Ev tapşırığı.**

"İnsan insanın dostudur" mövzusunda inşa yazı verilə bilər.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Şərhetmə, mühakiməyürütmə meyarları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Məzmunun şərhində çətinlik çəkir. | Məzmunu ətrafın köməkliyi ilə şərh edir. | Məzmunu şərh edir. | Məzmunu öz kontekstindən yanaşaraq şərh edir. |
| Mühakimə yürütməkdə çətinlik çəkir. | Mühakimələrində qeyri-dəqiqliyə yol verir. | Mətndəki fikirlərlə əlaqəli mühakimə bildirir. | Mətndəki fikirlərlə əlaqəli sərbəst şəkildə şəxsi mühakimələrini yürüdür. |

## Mövzu: HAQQIN SƏSİ (II saat)

**Standartlar:** 3.1.1., 3.1.2.

**Məqsəd:** Mətndən seçilmiş sözlərin kontekstə uyğun mənasını izah edir.
Cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyur.

**İnteqrasiya:**
Azərbaycan dili – 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.

**İş forması:** qrupla iş

**Üsullar:** beyin həmləsi, Venn diaqramı, müzakirə

**Resurslar:** UNESKO-nun fəaliyyətinə aid faktlar, maddi-mənəvi dəyərlərin siyahısı, sxemlər

**Motivasiya.** Müəllim “Birlik və həmrəylik nədir?” sualı ilə sinfə müraciət etməklə şagirdlərdən alınan cavabları lövhəyə yazır. Hər iki sözün ifadə etdiyi məna yükü şagirdlərlə müzakirə edilir. Yaxud müəllim Venn diaqramından istifadə etməklə birlik və həmrəylik sözlərinin ehtiva etdiyi əsas mənaları lövhəyə yazdıra bilər. Müzakirələr əsasında tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**
*Festivalların hansı əhəmiyyəti vardır?*

**Tədqiqatın aparılması.**
76–77-ci səhifələrdəki materiallar oxunur (müəllim bu materialları qruplar arasında bölüb oxutdura bilər). Bu zaman hər qrup mətndə ifadə olunan əsas fikirləri müəyyən etməlidir.

**Məlumat mübadiləsi və müzakirə.**
Mehriban Əliyevanın olimpiya oyunlarındakı çıxışının dinlədilməsi məqsədəmüvafiqdir. Çıxış dinlənildikdən, fikirlərə münasibət bildirildikdən sonra

“Sizcə, bu oyunların keçirilməsində məqsəd nə idi?”, “Müxtəlif ölkələrdən olan insanların həmrəyliyi nəyin qarşısını ala bilər?” sualları ətrafında fikir mübadiləsi aparılır.

**Nəticənin çıxarılması.**

Nəticə müzakirələrin əsasında çıxarılır. Həmrəyliyin izahını verən sxem (səh. 78) şərh olunur, fikirlərə münasibət bildirilir.

**Yaradıcı tətbiqetmə.**

78-ci səhifədəki şəkil üzərində iş aparılır.

**Ev tapşırığı.**

Həmrəylik Günü ilə bağlı material toplamaq, mətn qurmaq, ssenari yazmaq və ya təqdimat hazırlamaq tapşırığı verilə bilər. Şagird seçimində sərbəst buraxılır.

**Qiymətləndirmə** təlim məqsədlərinə uyğun olaraq sonda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. İzahetmə, düzgünoxuma meyarlarına əsaslanmaq olar.

| I | II | III | IV |
|---|---|---|---|
| Fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Mətndə fərqləndirilmiş sözlərin mənasını izah edir. | Mətndə fərqləndirilmiş ifadələrin mənasını izah edir. | Mətndə fərqləndirilmiş söz və ifadələrin kontekstə uyğun mənasını izah edir. |
| Məqsəd və intonasiyaya görə cümlələri çətinliklə oxuyur. | Cümlələri məqsədinə görə düzgün oxuyur. | Cümlələri intonasiyaya görə düzgün oxuyur. | Cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyur. |

## Mövzu: HƏMRƏYLİK (HESABATIN HAZIRLANMASI)

**Standartlar:** 2.1.3., 4.1.3., 4.1.4.

**Məqsəd:** Müzakirədəki ümumiləşmiş fikirlərə münasibətini bildirir.

Durğu işarələrindən düzgün istifadə edir.

Müxtəlif mövzularda hesabatlar yazır.

**İnteqrasiya:**

Həyat bilgisi – 2.1.1. İnsanın sosial proseslərdə iştirakını dəyərləndirir.

Azərbaycan tarixi – 1.3.1. Azərbaycan ərazisində yaşamış insanların həyat tərzindəki dəyişiklikləri dövrün xüsusiyyətləri ilə əlaqələndirir.

**İş forması:** fərdi iş

**Üsullar:** beyin həmləsi, müzakirə

**Resurslar:** müxtəlif hesabat formaları, əməli yazı nümunələri kitabı

**Motivasiya.** Aşağıdakı yazı nümunəsi şagirdlərə nümayiş olunur:

*Xətai rayonu 88 saylı körpələr evi – uşaq bağçasının valideyn komitəsinin sədri Sevil Cavadova tərəfindən*

***Hesabat***

*22.X.2014-cü il tarixdən yekdilliklə valideyn komitəsinin sədri vəzifəsinə seçilmişəm. Fəaliyyətdə olduğum müddətdə "2-3 yaşlı uşaqların yaş xüsusiyyətləri, onların psixi və fiziki inkişafı", "Kiçikyaşlı uşaqlarda milli qürur hissinin formalaşması" istiqamətlərində aparılan işlərdə valideynlərin mütəşəkkil iştirakını təmin etmişəm.*

*Valideynlərlə övladlarının maraq dairələri, dərketmə istiqaməti, motivasiyalılıq dərəcəsi, temperament tipi, qavrama üsulları, psixomotor qabiliyyətləri ilə bağlı sorğular keçirmiş, nəticələri ümumiləşdirərək fəaliyyət*

*planında nəzərə alınmaq üçün tövsiyə məqsədilə qrup tərbiyəçilərinə vermişəm.*

*Cari məsələlərlə bağlı ilboyu valideynlərlə aşağıdakı məsələləri müzakirə etmişəm:*

*1. Məşğələ cədvəllərinin müzakirəsi*

*2. Uşaqlar üçün dövlət və qeyri-dövlət əhəmiyyətli bayramların təşkili*

*3. Bayramların təşkili üçün texniki bazanın dəstəklənməsi*

*Birinci məsələ ilə bağlı valideynlərə məşğələlərin $9^{00}$-da başlamasını xatırlatmış, qrafikin "I gün bədii ədəbiyyatla tanışlıq və nitq inkişafı, II gün sensor tərbiyə, III gün musiqi, IV gün təsviri sənət, gil işi, fiziki tərbiyə, V gün sensor musiqi" şəklində olmasını izah etmişəm.*

*İkinci məsələ ilə bağlı "9 Noyabr", "Yeni il", "Novruz", "28 May", "1 İyun" və s. bayramların qeyd olunacağı ilə bağlı məlumat vermişəm.*

*III məsələ ilə bağlı bayram tədbirləri üçün "Maşa və Ayı", "Qar adamı və Küpəgirən qarı", "Əsgər", "Aşpaz", "Dovşan" və milli geyimlərin, səhnəciklər üçün "Ağac ev" maketinin, bir neçə şüar və plakatların hazırlanacağını vurğulamışam.*

*İmza: 15.07.2015*

Verilmiş yazının hansı xarakterdə olması, yazıda nədən bəhs olunması şagirdlərdən soruşulur. Yazının adı alındıqdan sonra qrammatik qayda izah olunur.

**Tədqiqat sualı.**

*Birinci Avropa oyunlarında könüllü olsa idiniz, hesabatınızı necə hazırlayardınız?*

**Tədqiqatın aparılması.**

Şagirdlər fərdi şəkildə hesabatlar hazırlayırlar.

**Məlumat mübadiləsi və müzakirə.**

Müxtəlif işlərə özlərini məsul bilən şagirdlər gördükləri işlərin hesabatını verirlər. Hesabatın xarakterik xüsusiyyətləri müzakirə olunur.

**Nəticənin çıxarılması.**

Şagirdlər hesabatın özünəməxsus cəhətlərinin olmasını aydınlaşdırırlar.

**Yaradıcı tətbiqetmə.**

"Bakıda ilk Avropa oyunlarının keçirilməsində məqsəd nədən ibarət idi?" tapşırığı verilir.

**Ev tapşırığı.**

Dekabr ayı ərzində şagirdlərin məktəbin ictimai həyatındakı fəaliyyəti haqqında (və yaxud görülən işlər barədə) hesabat hazırlamaq tapşırılır.

**Qiymətləndirmə** şagird özünüqiymətləndirməsi ilə aparıla bilər. Şagird uyğun xanada qeyd işarəsini qoymalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Müzakirədə iştirakda çətinlik çəkdim. | Müzakirədə ətrafın dəstəyi ilə fikir bildirdim. | Müzakirədə fikir bildirdim. | Müzakirədəki ümumiləşmiş fikirlərə sərbəst münasibət bildirdim. |
| | | | ★ |
| Durğu işarələrindən istifadə etməyi bacarmıram. | Durğu işarələrindən bəzən düzgün istifadə edirəm. | Durğu işarələrindən istifadə edirəm. | Məqsəd və intonasiyaya görə durğu işarə lərindən düzgün istifadə edirəm. |
| | | | ★ |
| Natamam hesabatlar yazıram. | Hesabatda fikirlərimi ümumiləşdirməkdə çətinlik çəkirəm. | Hesabatlar hazırlayan zaman səhvlərə yol verirəm. | Müxtəlif mövzularda hesabatlar yazıram. |
| | | | ★ |
| Şagirdin adı, soyadı, ata adı: ***İmran Cavadov İlham oğlu*** | | | |

**Kiçik Summativ Qiymətləndirmə**
**(nümunə)**

Şagirdin soyadı və adı:___________________________

Tarix:_____________ Sinif: _______________

## Torpağım

Göydən elə bil ağ-ağ, xırda-xırda ulduzlar, çiçəklər, ləçəklər tökülürdü. Dağlara, dərələrə, yollara tökülürdü. Çöllərə, çəmənlərə, kollara tökülürdü. Bir qaratoyuq balası məəttəl qalmışdı buna. Heyrətlə gah sağına baxırdı, gah da soluna. Nə idi bu ağ-ağ, xırda-xırda ulduzlar? Axı o, hələ qar görməmişdi. Yağış görmüşdü, amma qar görməmişdi. Qaratoyuğu maraq bürümüşdü. Budaqdan yellənib qar üstə düşdü: "Oyy! Bu ağ ulduzlar, bu ağ çiçəklər nə soyuqdu? Ayaqlarım üşüdü. Amma xoşu gəldi qaratoyuğun. Qar üstə atlandı-düşdü. Hələ ayağı da sürüşdü. Ay aman! Az qalmışdı, yıxılsın. Tezcə qanadını oynadıb tarazladı özünü. Sonra "pırr" eləyib yenə havaya qalxdı. Bu koldan o kola, o koldan bu kola uçdu. Havada buz ulduzlara toxundu. Amma nə üşüdü nə də ki dondu. Nəhayət, yorulub qanad saxladı. Gördü, ağaclar, kollar lopa-lopa qar tutub. İstər o yana bax istər bu yana bax. Hər yan ağappaq. Bəs hanı torpaq?

Quşcuğaz darıxdı. Bir parça torpaq üçün darıxdı onun lap bir tikə torpaq üçün burnunun ucu göynədi. Qığıldayıb ucadan səsləndi: Haradasan torpaq. Qar ulduzları, qar çiçəkləri yağırdı ağ-ağ. Kim hay verəcəkdi Amma səs gəldi. – Ha!.. Ha!.. Ha!..

Qanadını lopa-lopa, topa-topa qara çırpdı qaratoyuq. Qanadını kürək etdi qaratoyuq. Lakin torpağın üstünü aça bilmədi. Torpaq həsrəti daha da yandırdı qaratoyuğu. Haradasan, torpaq? Səs gəldi: – Ha!.. Ha!.. Ha!..

Torpağın səsindən cürətləndi qaratoyuq, qanadlandı qaratoyuq. Bir qalın kolluğa çırpdı özünü. Kolların, budaqların altında, dalda bir yerdə bir tikə torpaq tapdı, nəhayət. Həsrət-həsrət dimdiyini ona sürtdü qaratoyuq. Torpağın otunu, çör-çöpünü qımıldatdı qaratoyuq. Gərdi qanadlarını torpağın üstə. Bir tikə torpağın üstə. Bir tikə torpağı elə bil qucaqladı, ürəyi ilə, bir tikə varlığı ilə qucaqladı! ... – dedi.

**1. Hansı cümlə əsas ideyanı birbaşa müəyyənləşdirir?**

a) Torpağın otunu, çör-çöpünü qımıldatdı qaratoyuq.
b) İstər o yana bax, istər bu yana bax. Hər yan ağappaq.
c) Bir tikə torpağı qucaqladı, ürəyi ilə, bir tikə varlığı ilə qucaqladı!
d) Qaratoyuq yoruldu, budaqdan yellənib qar üstə düşdü.

**2. Hansı cümlə digərlərindən fərqlidir?**

a) Göydən xırda-xırda ulduzlar, çiçəklər, ləçəklər tökülürdü.
b) Daşlara, dərələrə, yollara çiçəklər, ləçəklər tökülürdü.
c) Qaratoyuq balasını maraq bürümüşdü.
d) Gördü, ağaclar, kollar lopa-lopa qar tutub.

**3. Hansı cümlə əsas fikirlə əlaqələndirilə bilər?**

a) Yağış görmüşdü, amma qar görməmişdi.
b) Qaratoyuğun ayaqları üşüyürdü.
c) Amma qaratoyuğun bundan xoşu gəlirdi.
d) Quşcuğaz bir parça torpaq üçün darıxırdı.

**4. "Hər yer ağappaq, bəs hanı torpaq, quşcuğaz darıxdı, bir parça torpaq üçün darıxdı, qucaqlayıb ucadan səsləndi, haradasan torpaq, kim hay verəcək?" Bunlardan biri yazıçının düşüncəsidir:**

a) Bəs hanı torpaq?
b) Quşcuğaz darıxdı.
c) Kim hay verəcək?
d) Haradasan torpaq?

**5. Mətndə danışılmır:**

a) Vətən həsrətindən
b) Torpaq sevgisindən
c) Qaratoyuğun həyat tərzindən
d) Ulduzların qar dənəciklərinə bənzəməsindən

**6. Mətn haqqında nəyi demək olmaz?**

1) Süjetli bədii nümunədir.
2) Essedir.
3) Torpaq əsas obrazdır.
4) Torpaq ideyanın müəyyənləşdirilməsi üçün əsas obyektdir.
5) Qaratoyuq obrazdır.

A) 1, 2, 3, 4 B) 2, 3, 4, 5 C) 2, 4, 5 D) 1, 3, 5

**7. Hansı fikir mətnə uyğun deyil?**

a) "Qorumaq istəyirəm öz torpağımı".
b) "Torpağım gözəldir".
c) "Torpağım üçün darıxmışam".
d) " Torpağım əzizdir".

**8. Mətn xarakterinə görə:**

a) nəqlidir
b) təsviridir
c) mühakiməedicidir
d) maarifləndiricidir

**9. Sonuncu abzasdakı cümlədə nöqtələrin yerinə hansı yazılsa, fikir tamamlana bilər?**

a) "Qorumaq istəyirəm öz torpağımı"
a) "Torpağım gözəldir"
b) "Torpağım üçün darıxmışam"
c) "Ah, nə ətirlidir!"
d) "Ah, necə də gözəldir"

**10. Mətndəki "Burnunun ucu göynəmək" ifadəsini bir sözlə necə əvəzləmək olar?**

a) darıxmaq
b) bezmək
c) ağrımaq
d) yorulmaq

**11. Aşağıdakı abzası mətnin hansı hissəsinə yerləşdirsəniz, ardıcıllıq pozulmaz?**

Qaratoyuq sevinib tez uçdu səsə. Amma nə qədər axtardısa, tapa bilmədi torpağı. Qar ulduzları, qar çiçəkləri, qar ləçəkləri yağırdı ağ-ağ. Tamam qar altında qalmışdı torpaq.

a) 1 b) 2 c) 3 d) 4

**12. Mətnlərdəki altından xətt çəkilmiş cümlələrdə durğu işarələrini bərpa edin.**

**Qeyd.** Müəllimin nəzərinə: Şagird həmin cümlələri mətndən seçib yazmalı, durğu işarələrini qeyd etməlidir.

**13. Mətnin ilk cümləsində "xırda-xırda" sözünü hansı sözlə əvəz etsəniz, məzmun dəyişməz?**

______________________________________________

**14. Mətnə istinadən "Havada buz ulduzlara toxundu. Amma nə üşüdü, nə də ki dondu" cümləsində gizlənən əsas fikri yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

**15. Mətndən bu qənaətə gəldim ki,**

______________________________________________

______________________________________________

______________________________________________

## TARİXİ ABİDƏLƏR – ABİDƏLƏRİN TARİXİ

- İçərişəhər məhv edilməkdən necə xilas oldu?
- Bakı–1501
- 20 Yanvar
- "Əbədi məşəl" abidəsi qəhrəmanlıq və rəşadətin əbədiləşən təsviridir
- Zivərbəy Əhmədbəyov
- Osmanlı dövlətinin ilk baş memarı – Təbrizli Memar Əli
- Fit qalası
- Tsin Şi Xuandinin məqbərəsi
- Büllur piramida

## Mövzu: İÇƏRİŞƏHƏR MƏHV EDİLMƏKDƏN NECƏ XİLAS OLDU? (I saat)

**Standartlar:** 2.1.4., 3.1.1., 4.1.1., 4.1.2.

**Məqsəd:** Mətnlə bağlı fikirlərini məntiqi ardıcıllıqla ifadə edir.

Verilmiş söz və ifadələrin kontekstə uyğun mənasını izah edir.

Mənbələr əsasında rabitəli mətnlər yazır.

Mətnə əlavələr etməklə başqasının yazısını təkmilləşdirir.

**İnteqrasiya:**

Azərbaycan tarixi – 1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir. 3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.

Ümumi tarix – 1.1.2. Oxşar tarixi faktların baş verdiyi tarixi şərait arasındakı fərqi müəyyən edir.

**İş forması:** qrupla və fərdi iş

**Üsullar:** beyin həmləsi, fasiləli oxu, müzakirə

**Resurslar:** "İçərişəhər Azərbaycan tarixində" kitabı, E.A.Paxomov, İ.M.Cəfərzadənin İçərişəhərə dair tədqiqatlarından nümunələr, iş vərəqləri, lüğət

**Motivasiya.** Dərsə başlamazdan əvvəl müəllimin 83-cü səhifədə verilmiş suallarla sinfə müraciət etməsi məqsədəmüvafiqdir. Müəllim dərsi Anarın "Gürcü familiyası" hekayəsi əsasında ekranlaşdırılmış, sonralar yazıçı tərəfindən "Gün keçdi" adı ilə ssenariləşdirilən filmdən bir epizodla davam etdirə bilər. Qocanın əsası ilə divarlara vuraraq evinə sarı yönəldiyi epizod nümayiş olunduqdan sonra beyin həmləsi üsulundan istifadə etməklə şagirdlərə su-

allarla müraciət edir. İçərişəhərin tarixi barədə məlumatlar dəqiqləşdirilir və mətn oxunur.

Oxudan sonra tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı.**

*Mətn İçərişəhərin Azərbaycan tarixindəki rolunu nə dərəcədə vurğulayır?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 4 qrupa bölünərək verilmiş tapşırıqları həll edirlər. I qrupa dərslikdəki 1–3-cü, II qrupa 4–6-cı, III qrupa 7–9-cu, IV qrupa 10, 13-cü tapşırıqlar verilə bilər. Müəllimin seçimindən asılı olaraq tapşırıqlar qruplar arasında fərqli şəkildə də paylaşdırıla bilər (yəni hər bir qrupa lüğət və məzmun üzərində iş aparmaq üçün tapşırıq verilə bilər).

**Məlumat mübadiləsi və müzakirə.**

Şagirdlər fikir mübadiləsi aparırlar. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün mətnin daxilində verilmiş suallardan istifadə edir. 11-ci tapşırıq icra olunur. Səhifə 85-də verilən sxem üzərində iş aparılır. Müzakirənin sonunda dərsin nəticəsi formalaşır.

**Nəticənin çıxarılması.**

Nəticədə müəyyən olunur ki, mətndə İçərişəhərin Azərbaycan tarixindəki yeri və dəyəri xüsusi vurğulanır. Buna mətnin həm məzmunu, həm də strukturu imkan yaradır. Mətn şagirdlərimizi milli-mənəvi dəyərlərin, irsimizin qorunmasına səsləyir.

**Yaradıcı tətbiqetmə** kimi şagirdlərə fərdi şəkildə 14-cü tapşırığı hazırlamaq tapşırılır.

**Ev tapşırığı:**

12-ci tapşırıq verilir. Şagirdlərə fikirlərini yığcam və yazılı şəkildə bildirmələri tövsiyə olunur.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Ardıcıl ifadəetmə, izahetmə, mətnqurma, mətni təkmilləşdirmə meyarları seçilə bilər.

| I | II | III | IV |
|---|---|---|---|
| Fikirlərini məntiqi cəhətdən ardıcıl ifadə etmir. | Fikirlərində məntiqi cəhətdən ardıcıllıq pozulur. | Fikirləri məntiqi cəhətdən ardıcıldır. | Fikirlərində məntiqi cəhətdən ardıcıllığa tam riayət edir. |
| Fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Mətndə fərqlən-dirilmiş sözlərin mənasını izah edir. | Mətndə fərqləndiril-miş ifadələrin mənasını izah edir. | Mətndə fərqləndiril-miş söz və ifadələrin kontekstə uyğun mənasını izah edir. |
| Topladığı material-lardan mətn qura bilmir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazmaqda çətinlik çəkir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazır. | Topladığı əlavə ma-teriallar əsasında rabitəli mətnlər yazır. |
| Mətnə dəyişiklik etməkdə çətinlik çəkir. | Mətnə dəyişikliklər zamanı qeyri-dəqiqliyə yol verir. | Mətnin abzaslarına dəyişikliklər edir. | Mətnin abzaslarına dəyişikliklər edərkən ardıcıllığı gözləyir. |

## Mövzu: İÇƏRİŞƏHƏR MƏHV EDİLMƏKDƏN NECƏ XİLAS OLDU? (II saat)

**Standartlar:** 2.1.1., 2.1.4., 3.1.3.

**Məqsəd:** Mətndən seçilmiş sözləri normalara uyğun tələffüz edir.

Fikirlərini məntiqi cəhətdən ardıcıl ifadə edir.

Münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır.

**İnteqrasiya:**

Azərbaycan tarixi – 1.2.1. Eyni hadisəyə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir.

Təsviri incəsənət – 3.1.2. Təsviri sənətin növ və janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir.

**İş forması:** fərdi və qrupla iş

**Üsullar:** Venn diaqramı, müzakirə

**Resurslar:** Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin strukturuna daxil olan Elmi-mədəni mərkəzin əsasnaməsi, audio və videolentlər, iş vərəqləri




**Motivasiya.** Müəllim dərsə ötən dərsdə verilmiş tapşırığın dinlənilməsi ilə başlayır. Şagirdlərin yazıları dinlənilir, müzakirə olunur. Onların fikirlərinin davamı kimi 87-ci səhifədə verilmiş şəkillər üzərində iş davam etdirilir. Verilmiş emblem şagirdlərə nümayiş olunur: Üzərindəki simvolların nə məna daşıması şagirdlərlə birlikdə müzakirə oluna bilər. Daha sonra verilmiş mətn 16-cı tapşırığa uyğun şəkildə oxudulur.

**Tədqiqat sualı.**

*Mətnin hansı xarakterik cəhətləri var?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 3 qrupa bölünür və onlara aşağıdakı iş vərəqləri paylanır: I qrupa mətnlə bağlı lüğəti işləmək, II qrupa 17-ci, III qrupa 18-ci tapşırıq verilir.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri lövhədən asılaraq fikir mübadiləsi və müzakirə aparılır. Müzakirə zamanı dövlət rəmzləri ilə bağlı verilmiş suallardan istifadə etmək tədqiqatın xarakterinin açılması üçün faydalı ola bilər.

**Nəticənin çıxarılması.**

Təqdimatlardan sonra məlum olur ki, mətn İçərişəhərin simvolikasından bəhs edir. Kifayət qədər məlumat almaq mümkündür. Tədqiqat işi üçün səmərəli mətndir.

**Yaradıcı tətbiqetmə.**

19-cu tapşırıq üzrə iş aparılır. Lüğət üzərində (səh. 89) iş fərdi qaydada və ya cütlər şəklində verilə bilər.

**Ev tapşırığı.**

Dərslikdəki 19-cu tapşırığa əsasən təqdimat hazırlamaq tapşırılır.

**Qiymətləndirmə** təlim məqsədlərinə uyğun olaraq sonda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Tələffüzetmə, ardıcıllıq, əsaslandırma meyarlarına əsaslanmaq olar.

| I | II | III | IV |
|---|---|---|---|
| Mətndən seçilmiş sözləri normalara uyğun tələffüz etmir. | Mətndən seçilmiş sözləri normalara uyğun tələffüz etməkdə çətinlik çəkir. | Seçilmiş sözləri tələffüz edərkən normalara uyğunlaşdırmağa çalışır. | Mətndən seçilmiş sözləri normalara tam uyğun şəkildə tələffüz edir. |
| Fikirlərini məntiqi cəhətdən ardıcıl ifadə etmir. | Fikirlərində məntiqi cəhətdən ardıcıllıq pozulur. | Fikirləri məntiqi cəhətdən ardıcıldır. | Fikirlərində məntiqi cəhətdən ardıcıllığa tam riayət edir. |
| Münasibətini çətinliklə əsaslandırır. | Münasibətini əlavə faktlarla əsaslandırır. | Münasibətini həyati nümunələrlə əsaslandırır. | Münasibətini əlavə fakt və mövzuya uyğun nümunələrlə əsaslandırır. |

## Mövzu: BAKI–1501 (I saat)

**Standartlar:** 2.1.2., 3.1.1., 4.1.1.

**Məqsəd:** Nitq etiketlərindən istifadə edir.

Mətndə fərqləndirilmiş söz və ifadələrin mənasını izah edir.

Topladığı materiallar əsasında rabitəli mətnlər yazır.

**İnteqrasiya:**

Ədəbiyyat – 1.2.2. Digər obrazların və müəllifin mühakimələrinə əsaslanmaqla ədəbi qəhrəmanları səciyyələndirir.

Coğrafiya – 3.2.1. Ölkələrin inkişafını tarixi-coğrafi baxımdan təhlil edir.

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** beyin həmləsi, debat, proqnozlaşdırılmış oxu

**Resurslar:** Əzizə Cəfərzadənin seçilmiş əsərləri, Şah İsmayıl Xətaiyə aid tarixi faktlar, Bakının tarixini əks etdirən şəkillər, lüğət, iş vərəqləri

**Motivasiya.** Dərsə aşağıda verilmiş əhvalatı danışmaqla başlamaq olar:

Dərsə "Fətəli xan" filmindən bir hissənin nümayişi ilə başlamaq olar (bu, filmin ilk 2 dəqiqəsi ola bilər). Filmdə səsləndirilmiş "Onun bir yolu var: mübarizə yolu", "Kim doğma yurdunu sevirsə, kim düşmən əsarətini qəbul etmirsə, arxamca gəlsin", əgər pərakəndə xanlıqlar əvəzinə vahid Azərbaycan yaranmasa, Bakı ürəyi, Quba təfəkkür mərkəzi olmasa, ..., hərgah biz birləşməsək, düşmənlər bizi məhv edəcək" fikirləri lövhəyə yazılır, fikirlər ətrafında müzakirə təşkil olunur.

Daha sonra mətn oxunur. Mətn oxunarkən 1-ci tapşırıq icra edilir.

Əsas diqqət mətnin son abzasına yönəldilir. Müəllim əvvəlcədən cütlər şəklində iki şagirdə mətnin sonluğunu bərpa etməyi tapşırır. Mətni proq-

nozlaşdırılmış oxu üsulu ilə oxumaq tövsiyə edilir. Mətndaxili suallar oxu prosesində icra edilir. Mətn son hissəyə qədər (Görək şəhərimizi necə müdafiə edirik) oxunduqdan sonra cüt sonluğu təqdim edir:

"Bir çox döyüşlərdə iştirak etdim. Qələbə qazandım. Çaldıran döyüşündən 10 il keçir (dərslikdə məqsədli şəkildə 14 yazılmışdır). Hələ bir dəfə üzüm gülməyib. Əziz-xələflərim! Ömrümün son günlərini yaşayıram. Bu az ömrümdə əlimdən gələni etdim. Parça-parça bölünmüş torpaqlarımızı qılınc gücünə birləşdirməyə çalışdım. Vətəni bir sıxma torpaqdan, bir ovuc qızıldan, dilimizin bir kiçicik sözünü ləl-cavahiratdan üstün bildim. Hər ikisinin: Vətənin və dilin əbədiyyəti üçün. Məni lənətlə yad etməyin. Yaxşı nə başlamışamsa, onu göyərdin! Səhvlərimi təkrar etməyin! Sizə üç əmanət qoyub babalar: dilimiz, qeyrətimiz, Vətənimiz! Əmanəti qoruyun!"

**Tədqiqat sualı.**

*Mətndə çaşdırılan əsas fikir nədir?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 5 qrupa bölünüb dərslikdə verilmiş tapşırıqlar əsasında işləyirlər. I qrupa 2, 9-cu, II qrupa 3, 12-ci, III qrupa 4, 6-cı, IV qrupa 5, 7-ci, V qrupa 10-cu tapşırıq verilir. V qrupun tapşırığı icra etməsi üçün aşağıdakı mətn təqdim olunur və şagirdlərə məzmun baxımından müqayisə aparmaq və nəticə çıxarmaları tapşırılır.

*"Şəhər divanxanasında bir qaraçının da işinə baxılacağını eşidən Şah Abbas vəzirdən təəccüblə soruşur: – Onun günahı nədir? Vəzir təzim edərək deyir: – Şah sağ olsun, onun günahı böyükdür. – Məsələn? – Dünən bazar meydanında o, əlahəzrət şahı söymüşdür. Onu ən ağır cəza gözləyir, şahım. Şah Abbas sanki ilk dəfə görürmüş kimi vəzirə diqqətlə baxır: – Vəzir, mən birdən-ikiyə qaraçı ilə oturub-duranam?.. Vəzir diz çökür: – Allah eləməsin, əlahəzrət? Şah Abbas yenə əvvəlki təmkinlə soruşur: – Bəs onda görməzəbilməzə qaraçı məni niyə söysün? Söydürən olmasaydı, onun başına hava gəlməmişdi ki?.. Vəzirin çaşıb qaldığını görən Şah Abbas qəzəblə əmr edir: – Həmin qaraçını bu saat açıb buraxın! Vəzir, sənə də iki gün vaxt verirəm, məni söydürəni tapıb cəzalandırmasan, özün başınla cavabdehsən!"*

4-cü və 5-ci tapşırıqlar alqış və qarğışların öyrədilməsi məqsədilə hazırlanmışdır. Alqış və qarğışlar haqqında nəzəri məlumat qəsdən verilməmişdir. Məqsəd müəllimin fasilitatorluğu nəticəsində həmin nəzəri məlumatın şagirdlər tərəfindən formalaşdırılmasıdır.

**Məlumat mübadiləsi və müzakirə.**

Müəllim mətnin xarakterik cəhətlərini vurğulamaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Müzakirə üçün 11-ci və 12-ci suallardan istifadə oluna bilər.

**Nəticənin çıxarılması.**

Mətndə qeyrətli, təəssübkeş bir Azərbaycan qadınının mərdanəliyindən bəhs olunur. Onun timsalında bu nəticəyə gəlmək olur ki, torpaq müqəddəsdir, torpağının, yurdunun şərəfini qorumaq hər bir azərbaycanlı üçün vacibdir.

**Yaradıcı tətbiqetmə.**

"Bakı–1501" mətnini oxuduqdan sonra bu qənaətə gəldim ki, ... . Bu cümlə şagirdlərə təqdim olunur və 4-5 cümlə ilə öz fikirlərini yazmaq tapşırığı verilir.

**Ev tapşırığı.** Mətnə 6-7 cümlədən ibarət sonluq yazmaq tapşırığı verilir. Mətni müxtəlif sonluqlarla bitirmək olar (Ş.İ.Xətaidən sonrakı hadisələrin təsviri, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, hadisələrin müasir dövrlə əlaqələndirilməsi və s.)

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. İstifadəetmə, izahetmə, mətnqurma meyarlarına əsaslanmaq olar.

| I | II | III | IV |
|---|---|---|---|
| Nitq etiketlərindən istifadə etməkdə çətinlik çəkir. | Nitq etiketlərindən istifadə edərkən səhvlərə yol verir. | Nitq etiketlərindən istifadə edir. | Nitq etiketlərindən məqamına uyğun şəkildə istifadə edir. |
| Fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Mətndə fərqləndirilmiş sözlərin mənasını izah edir. | Mətndə fərqləndirilmiş ifadələrin mənasını izah edir. | Mətndə fərqləndirilmiş söz və ifadələrin kontekstə uyğun mənasını izah edir. |
| Topladığı materiallardan mətn qura bilmir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazmaqda çətinlik çəkir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazır. | Topladığı əlavə materiallar əsasında rabitəli mətnlər yazır. |

## Mövzu: BAKI–1501 (II saat)

**Standartlar:** 3.1.2., 4.1.3.

**Məqsəd:** Məqsəd və intonasiya baxımından cümlələri düzgün oxuyur.
Mürəkkəb cümlədə durğu işarələrindən istifadə edir.

**İnteqrasiya:**
Azərbaycan dili – 4.1.1. Mürəkkəb cümlənin növlərini fərqləndirir. 3.1.2. Formalaşmış fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır.

**İş forması:** kollektiv, fərdi və qrupla iş

**Üsullar:** anlayışın çıxarılması, interaktiv mühazirə, müzakirə

**Resurslar:** tabeli mürəkkəb cümlələrin müxtəlif konstruksiyalarına aid sxemlər, iş vərəqləri

**Motivasiya.** Dərs ev tapşırığının oxudulması ilə başlanır. Fikirlər ümumiləşdirilir. 14-cü tapşırıq oxunur, mətnin məzmunu “Bakı–1501” mətninin uyğun hissəsi ilə əlaqələndirilir. 15-ci tapşırıq fərdi qaydada icra edilir (tapşırıq müəllimin seçimindən asılı olaraq yazılı və ya şifahi qaydada icra edilə bilər). Mətndəki cümlələrin (15-ci tapşırıq əsasında) quruluşu ilə bağlı şagirdlərin fikirləri öyrənilir. 16-cı tapşırıq icra edilir.



Diqqət tabeli mürəkkəb cümləyə yönəldilir və dərslikdəki qayda izah olunur. Tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**

*Tabeli mürəkkəb cümlələrin dilimizdə rolu nədən ibarətdir?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 4 qrupa bölünür və onlara iş vərəqləri paylanılır. İş vərəqlərində dərslikdə verilmiş tapşırıqlar əks olunub: I qrupa 17-ci, II qrupa 18-ci, III qrupa 19-cu, IV qrupa 20 və 21-ci tapşırıqlar verilir.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri lövhədən asılaraq mürəkkəb cümlənin dilimizdə praktik əhəmiyyəti barədə təqdimatlar dinlənilir. Mürəkkəb cümlə, tabesiz və tabeli mürəkkəb cümlələrin mətndə yeri, işlənmə qaydası, bağlama vasitələri haqqında fikirlər müzakirə edilir.

**Nəticənin çıxarılması.**

Tabeli mürəkkəb cümlələr dilimizdə böyük rol oynayır. Fikrin təfərrüatlı ifadəsinə xidmət edir. Əsas və asılı tərəflərin köməyi ilə fikri dolğun çatdırmaq mümkün olur.

**Yaradıcı tətbiqetmə** kimi dərslikdəki 22-ci tapşırıq verilə bilər.

**Ev tapşırığı.**

23-cü tapşırıq verilir.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Düzgünoxuma, durğu işarələrindən istifadəetmə meyarları diqqətdə saxlanmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Məqsəd və intonasiyaya görə cümlələri çətinliklə oxuyur. | Cümlələri məqsədinə görə düzgün oxuyur. | Cümlələri intonasiyaya görə düzgün oxuyur. | Cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyur. |
| Durğu işarələrindən istifadə etməyi bacarmır. | Durğu işarələrindən bəzən istifadə edir. | Durğu işarələrindən istifadə edir. | Məqsəd və intonasiyaya görə durğu işarələrindən istifadə edir. |

## Mövzu: 20 YANVAR

**Standartlar:** 1.1.1., 2.1.3.

**Məqsəd:** Şeirin məzmununu şərh edir.

Müzakirədəki ümumiləşmiş fikirlərə münasibətini bildirir.

**İnteqrasiya:**

Ədəbiyyat – 1.1.2. Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirləri, süjetli bədii nümunələri (hekayə, povest, roman, dram, poema) ideya-məzmununa uyğun ifadəli oxuyur.

Azərbaycan tarixi – 3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

Həyat bilgisi – 2.2.1. Əsas insan hüquqlarının beynəlxalq hüquq normalarında təsbit olunduğunu əsaslandırır.

Xarici dil – 4.1.2. Fakt və hadisələrə yazılı münasibət bildirir.

**İş forması:** fərdi iş

**Üsullar:** müzakirə

**Resurslar:** Qanlı 20 Yanvar faciəsinə həsr olunmuş sənədli film, şəkillər və məqalələrdən parçalar

**Motivasiya.** Dərsə 20 Yanvar şəhidlərinin 1 dəqiqəlik sükutla yad olunması ilə başlanmalıdır. Müəllim faktla bağlı aşağıdakı məlumatları verə bilər:

*"Azərbaycan xalqının tarixinə "Qanlı Yanvar" faciəsi kimi daxil olmuş 1990-cı il 20 Yanvar hadisələrindən xeyli vaxt keçir. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi bəşər tarixində qara səhifə olaraq qalacaqdır. Milli azadlığı, ölkəsinin*

*ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi.*

*Sovet ordusunun böyük kontingentinin, xüsusi təyinatlı bölmələrin və daxili qoşunların Bakıya yeridilməsi xüsusi qəddarlıq və görünməmiş vəhşiliklə müşayiət edildi. Bakıya yeridilmiş qoşun kontingentinə – onun sayı 60 min nəfərə çatırdı – "doyüş tapşırığını" yerinə yetirmək üçün möhkəm psixoloji hazırlıq keçmişdilər.*

*1990-cı il yanvarın 19-da Mixail Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozaraq yanvarın 20-dən Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında fərman imzaladı. Lakin SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. Qorbaçovun fərmanı qüvvəyə minənədək – yanvarın 19-da gecə saat 12-də artıq 9 nəfər öldürülmüşdü. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də, səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərə çatmışdı. Halbuki Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət elan olunmayacaqdır. Bax əli yüzlərlə insanın qanına batmış, sonralar Nobel sülh mükafatı (?!) almış Mixail Qorbaçov başda olmaqla, sovet imperiyası rəhbərliyinin rəzil siması bu idi…*

*Tanklar, zirehli transportyorlar Bakı küçələrində qarşılarına çıxan hər şeyi əzir, hərbçilər hər yanı amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Yaralıları aparmağa gələn "təcili yardım" maşınlarını və tibb işçilərini də atəşə tuturdular. Bir neçə gün ərzində 137 nəfər öldürüldü, 700-dək adam yaralandı, 800-dən çox adam qanunsuz həbs edildi".*

Qanlı Yanvar faciəsinə həsr olunmuş sənədli filmdən bir parçanın nümayişindən sonra dərslikdə verilmiş kəlamlar və şeir oxunur. Şagirdlərin hazırladıqları təqdimatlar müzakirə oluna bilər. Mövzuya uyğun olaraq tədqiqat sualı formalaşdırılmalıdır.

**Tədqiqat sualı.**

*Şeirin əsas ideyası nədən ibarətdir?*

**Tədqiqatın aparılması.**

Şagirdlərə fərdi qaydada təqdim olunan materiallar əsasında şeiri nəsrə çevirmək və ideyasını aydınlaşdırmaq tapşırığı verilə bilər.

**Məlumat mübadiləsi və müzakirə.**

Tapşırıqlar oxunaraq məlumat mübadiləsi aparılır, nəticə çıxarılır.

Şagirdlərə təqdim olunan materiallar əsasında hadisənin başvermə səbəbləri, 90-cı illərdəki ictimai-siyasi vəziyyət müəyyənləşdirilməklə bir daha belə hadisələrin baş verməməsi üçün "Nə etməli?" təklifləri irəli sürülməli, təkliflər müzakirə olunmalıdır.

**Nəticənin çıxarılması.**

Hər bir xalqın tarixində həm faciəli məqamlar, həm də qəhrəmanlıq səhifələri olur. Çox nadir hallarda bu iki məqam üst-üstə düşür. Azərbaycan xalqı 1990-cı ilin Qanlı Yanvarını həm faciə, həm də qəhrəmanlıq səhifəsi kimi yaşadı. O müdhiş gecə Azərbaycan xalqı sınağa çəkildi. Xalqın öz içində yetişdirdiyi qəhrəmanlar bəlli oldu. Biz onlara daim minnətdar olmalıyıq.

**Ev tapşırığı.**

20 Yanvar faciəsi ilə bağlı əlavə məlumat toplamaq və təqdimat hazırlamaq tapşırılır.

**Qeyd.** Dərslikdə verilmiş tapşırıq (səh. 97) (ssenari yazmaq, ədəbi-bədii kompozisiya hazırlamaq) yanvar ayının əvvəlindən şagirdlərə tapşırılmalıdır.

**Qiymətləndirmə.**

Özünüqiymətləndirmədən istifadə məqsədəuyğundur. Şagirdlər meyarlar əsasında özlərini qiymətləndirə bilərlər.

| Ballar / Meyarlar | 5 | 4 | 3 | 2 |
|---|---|---|---|---|
| Şeirin məzmununu şərh etdim. | | | | |
| Müzakirədəki ümumiləşmiş fikirlərə münasibətimi bildirdim. | | | | |
| Şagirdin adı, soyadı, ata adı: | | | | |

## Mövzu: “ƏBƏDİ MƏŞƏL” ABİDƏSİ QƏHRƏMANLIQ VƏ RƏŞADƏTİN ƏBƏDİLƏŞƏN TƏSVİRİDİR

**Standartlar:** 2.1.1., 2.1.4., 3.1.3.

**Məqsəd:** Mətndən seçilmiş sözləri normalara uyğun tələffüz edir.

Fikirlərini məntiqi cəhətdən ardıcıl ifadə edir.

Münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır.

**İnteqrasiya:**

Azərbaycan tarixi – 4.1.2. Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinə dair materiallar toplayır, təqdim edir. 5.1.3. Azərbaycan xalqının mədəni nailiyyətlərinə dair araşdırmalar aparır, nəticələrini təqdim edir.

Təsviri incəsənət – 3.1.1. Bədii sənət əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir və təqdimatlar edir. 3.1.2. Təsviri sənətin növ və janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir.

**İş forması:** cütlərlə iş

**Üsullar:** beyin həmləsi, müzakirə

**Resurslar:** Elbay Qasımzadənin sənət əsərləri toplusu, lüğət, iş vərəqləri, monumental abidələrə aid nümunələr

**Motivasiyaya** 20 Yanvar faciəsi ilə bağlı toplanılmış məlumatın və təqdimatın dinlənilməsi ilə başlanılır. 7-ci tapşırıq icra edilir. Şagirdlərin fikirləri ümumiləşdirilir, tezislər şəklində lövhəyə yazılır. Faciə qurbanlarının xatirəsinin əbədiləşdirilməsi ilə bağlı görülmüş işlərin müzakirəsi aparıla bilər.

Dərsin 12-ci tapşırığın icrası ilə davam etdirilməsi məqsədəuyğundur. Tarixi faciəni (20 Yanvar)  əks etdirən hər hansı sənədli və ya bədii filmdən müva-

fiq hissə nümayiş etdirilir və dərslikdə verilmiş meyarlara uyğun (səh. 100) film dəyərləndirilir. Bu, şagirdləri dinlədiklərini anlamağa, təhlil etməyə, ümumi fikirlərə münasibət bildirməyə sövq edir. Müəllim müzakirələrin uzadılmasına yol verməməli, şagirdləri konkret fikirlər söyləməyə istiqamətləndirməlidir.

Müzakirələrin ana xəttində "Nə üçün 20 Yanvar şəhidlərinə "Əbədi məşəl" abidəsi ucaldıldı?" sualı əsas götürülməlidir. Bu həm də tədqiqat sualı ola bilər. Məqsəd odur ki, şagird həmin hadisələrin və şəhidliyin mahiyyətini, onların şərəfinə nə üçün abidə ucaldılmasın səbəbini anlaya bilsin. Müəllim həmin abidənin görüntülərini əks etdirən sənədli filmlərdən də istifadə edə bilər.

Daha sonra dərslikdəki mətn (səh. 98) oxunur, məzmun müzakirə edilir, fikirlər ümumiləşdirilir.

**Tədqiqatın aparılması.**

8-ci tapşırıq icra olunur.

Mətnin lüğət tərkibi ilə tanış olmaq üçün 1–6-cı tapşırıqlar şifahi şəkildə yerinə yetirilir.

**Məlumat mübadiləsi və müzakirə.**

Müəllim tədqiqat işinin xarakterini açmaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər.

**Nəticənin çıxarılması.**

Şagirdlər müəyyənləşdirirlər ki, şəhidlər əbədiyyətin zirvəsidir. Onların ruhu daim uca tutulmalı, ehtiramla yad edilməlidir.

**Yaradıcı tətbiqetmə** kimi "Bir daha belə faciələrin baş verməməsi üçün ..." fikrini tamamlamaq tapşırılır (səh. 100). 9 və 10-cu tapşırıqlar fərdi şəklidə (yazılı və ya şifahi olması müəllim tərəfindən müəyyənləşdirilir) icra edilir.

**Ev tapşırığı.**

14-cü tapşırıq yerinə yetirilir.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Tələffüzetmə, ardıcıllıq, əsaslandırma meyarlarına əsaslanmaq olar.

| I | II | III | IV |
|---|---|---|---|
| Mətndən seçilmiş sözləri normalara uyğun tələffüz etmir. | Mətndən seçilmiş sözləri normalara uyğun tələffüz et-məkdə çətinlik çəkir. | Seçilmiş sözləri tələffüz edərkən normalara uyğunlaş-dırmağa çalışır. | Mətndən seçilmiş sözləri normalara tam uyğun şəkildə tələffüz edir. |
| Fikirlərini məntiqi cəhətdən ardıcıl ifadə etmir. | Fikirlərində məntiqi cəhətdən ardıcıllıq pozulur. | Fikirləri məntiqi cəhətdən ardıcıldır. | Fikirlərində məntiqi cəhətdən ardıcıllığa tam riayət edir. |
| Münasibətini çətin-liklə əsaslandırır. | Münasibətini əlavə faktlarla əsaslandırır. | Münasibətini həyati nümunələrlə əsas-landırır. | Münasibətini əlavə fakt və mövzuya uyğun nümunələrlə əsaslandırır. |

## Mövzu: ZİVƏRBƏY ƏHMƏDBƏYOV (I saat)

**Standartlar:** 1.1.1., 1.1.2., 3.1.1.

**Məqsəd:** Mətnin məzmununu şərh edir.
Mətndəki fikirlərlə əlaqədar olaraq öz mühakimələrini yürüdür.
Mətndə fərqləndirilmiş söz və ifadələrin mənasını izah edir.

**İnteqrasiya:**

Azərbaycan tarixi – 1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.

Həyat bilgisi – 2.2.2. Bəşəriyyət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir. 3.2.1. Mədəniyyətlərarası münasibətlərdə əxlaq və davranış normalarının ümumbəşəri əhəmiyyətini dəyərləndirir.

Təsviri incəsənət – 1.1.1. Müasir Azərbaycan və dünya incəsənətinin cəmiyyət həyatındakı rolu və əhəmiyyətinə dair təqdimatlar edir.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** səsli oxu, BİBÖ, auksion

**Resurslar:** Zivərbəy Əhmədbəyovun sənət əsərlərindən nümunələr, Aşurbəyovlar şəcərəsi barədə məlumat, lüğət, iş vərəqləri

**Motivasiya.** Müəllimin dərsə məktubun oxunması ilə (səh. 101) başlaması məqsədəuyğundur. Daha sonra BİBÖ cədvəlinin ilk xanası doldurula bilər. Dərslikdə verilmiş mətn fasiləli oxu ilə oxudulduqdan sonra cədvəlin ikinci xanasına uyğun olaraq tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı.**

*Zivərbəy Əhmədbəyovun memarlıq tariximizdə rolu nədən ibarət olmuşdur?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 3 qrupa bölünür. I qrupa dərslikdəki 1, 7-ci, II qrupa 2, 8-ci, III qrupa 3, 9-cu tapşırıqlar verilə bilər. Hər qrupdan bir nəfər seçilməklə 3 nəfərdən ibarət qrup yaradılır və 6-cı tapşırığın icrası həmin qrupa tapşırılır.

*8-ci tapşırığa nümunə:*

H.Zərdabi 1875-ci ildə "Əkinçi" qəzetini nəşr etdirmişdir. (Məlumat) 1875-ci ildə "Əkinçi" qəzetini nəşr etdirmiş H.Zərdabi Z.Əhmədbəyova tövsiyələr vermişdir.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri lövhədən asılaraq təqdimata başlanılır. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. 5-ci tapşırıq icra edilir.

**Nəticənin çıxarılması.**

Şagirdlər müəyyənləşdirirlər ki, Zivərbəy Əhmədbəyovun memarlıq tarixində rolu böyükdür. İlk milli memarımız olan Zivərbəy milli-mənəvi dəyərlərin qorunmasında öncül insan kimi tarixə düşmüşdür. Nəticəyə əsasən BİBÖ cədvəlinin son xanası doldurulur.

**Yaradıcı tətbiqetmə** kimi 4-cü tapşırıq verilə bilər. Ən çox sual hazırlayan şagird auksion üsulu ilə qiymətləndirilir.

**Ev tapşırığı** kimi 10-cu tapşırıq verilir.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Şərhetmə, mühakiməyürütmə, izahetmə meyarları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Məzmunun şərhində çətinlik çəkir. | Məzmunu ətrafın köməkliyi ilə şərh edir. | Məzmunu şərh edir. | Məzmunu öz konteks-tindən yanaşaraq şərh edir. |
| Mühakimə yürüt-məkdə çətinlik çəkir. | Mühakimələrində qeyri-dəqiqliyə yol verir. | Mətndəki fikirlərlə əlaqəli mühakimə bildirir. | Mətndəki fikirlərlə əlaqəli şəkildə şəxsi mühakimələr yürüdür. |
| Fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Fərqləndirilmiş sözlərin mənasını lüğətin köməyi ilə izah edir. | Fərqləndirilmiş sözlərin mənasını cümlə qurmaqla izah edir. | Fərqləndirilmiş sözlərin kontekstə uyğun mənasını izah edir. |

## Mövzu: ZİVƏRBƏY ƏHMƏDBƏYOV (II saat)

**Standartlar:** 2.1.1., 4.1.1., 4.1.3.

**Məqsəd:** Mürəkkəb cümlələri qrammatik normalara uyğun tələffüz edir.

Müxtəlif mənbələrdən istifadə əsasında mətn qurur.

Mürəkkəb cümlələrdə durğu işarələrindən istifadə edir.

**İnteqrasiya:**

Azərbaycan dili – 1.1.1. Danışanın mövzuya münasibətini müəyyən etmək üçün tədqiqat xarakterli suallar verir.

İnformatika – 3.3.3. Multimedia təqdimatları hazırlayır.

**İş forması:** qrupla, cütlərlə və fərdi iş

**Üsullar:** Venn diaqramı, klaster

**Resurslar:** mürəkkəb cümlələrin müxtəlif konstruksiyalarına aid sxemlər, iş vərəqləri

**Motivasiya.** Şagirdlərin ötən dərsdən hazırladıqları təqdimatlar dinlənilir. Daha sonra 11-ci tapşırıq icra olunur. Hər iki şəxsin Bakı haqqında fikirləri ilə N.Aşurbəyovanın doğma şəhərinə olan sevgisi, şəhərinə olan sevgisinin nədən qaynaqlanması ilə bağlı fikirlər müzakirə və müqayisə olunur. Təqdimatlarda işlənmiş cümlə növlərinə diqqət yönəldilir. Mürəkkəb cümlələrin növlərinə aid tədqiqat sualı verilir.

**Tədqiqat sualı.**

*Mürəkkəb cümlələr bir-birindən nə ilə fərqlənir?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 3 qrupa bölünür və onlara iş vərəqləri paylanılır. İş vərəqlərində dərslikdə verilmiş tapşırıqlar əks olunub: **I–III** qruplara müvafiq olaraq 12, 13 və 15-ci tapşırıqlar verilir.

11-ci tapşırıq fərdi qaydada verilə bilər.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri lövhədən asılaraq mürəkkəb cümlələrin növləri, onun yaranma yolları barədə təqdimatlar dinlənilir. 14-cü tapşırıq Venn diaqramı əsasında aparılır və cütlər vasitəsilə yerinə yetirilir. Yekun müzakirədən sonra nəticəyə gəlinir. 16-cı tapşırıq icra edilir.

**Nəticənin çıxarılması.**

Mürəkkəb cümlələrin iki növü var – tabesiz və tabeli mürəkkəb cümlələr. Tabesiz mürəkkəb cümlələr tabesizlik bağlayıcıları və intonasiyanın köməyi ilə yaranır. Tabeli mürəkkəb cümlələrdə isə əsas və asılı tərəflər olur.

**Yaradıcı tətbiqetmə** kimi 17-ci tapşırıq verilə bilər.

**Ev tapşırığı** kimi 18-ci tapşırıq verilir.

**Qiymətləndirmə.**

Meyar cədvəlinə əsaslanmaq olar. Tələffüzetmə, istifadəetmə, mətnqurma meyarlarının səviyyələri üzrə qiymətləndirmə aparıla bilər.

| I | II | III | IV |
|---|---|---|---|
| Mürəkkəb cümlələri düzgün tələffüz etmir. | Mürəkkəb cümlələri normalara uyğun tələffüz etməkdə çətinlik çəkir. | Mürəkkəb cümlələri tələffüz edərkən normalara riayət etməyə çalışır. | Mürəkkəb cümlələri normalara uyğun tələffüz edir. |
| Topladığı materiallardan mətn qura bilmir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazmaqda çətinlik çəkir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazır. | Topladığı əlavə materiallar əsasında rabitəli mətnlər yazır. |
| Mürəkkəb cümlələrdə durğu işarələrindən istifadə etməyi bacarmır. | Mürəkkəb cümlələrdə durğu işarələrindən bəzən istifadə edir. | Mürəkkəb cümlələrdə durğu işarələrindən istifadə edir. | Mürəkkəb cümlələrdə məqsəd və intonasiyaya görə durğu işarələrindən istifadə edir. |

**Mövzu:** **OSMANLI DÖVLƏTİNİN İLK BAŞ MEMARI – TƏBRİZLİ MEMAR ƏLİ (I saat)**

**Standartlar:** 1.1.1., 3.1.2., 3.1.3.

**Məqsəd:** Mətnin məzmununu şərh edir.

Cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyur.

Mətnə münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır.

**İnteqrasiya:**

Ədəbiyyat – 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

Təsviri incəsənət – 1.3.1. Azərbaycanın və dünyanın görkəmli təsviri incəsənət nümayəndələri, onların əsərləri haqqında təqdimatlar edir.

**İş forması:** qrupla iş

**Üsullar:** klaster, auksion, müzakirə, anlayışın çıxarılması

**Resurslar:** B.Dədəyevin memarlarımız barədə qeydləri, Türkiyə memarlığına dair nümunələr

**Motivasiya.** Müəllim dərsə anlayışın çıxarılması üsulu ilə başlaya bilər. Aşağıdakı sxemin göstərilməsi məqsədəuyğundur:



“Memarlıq” adı alındıqdan sonra mətnin oxudulması məqsədəuyğundur. Mətnin oxusundan sonra müəllim şagirdlərdən ümumi şəkildə bu sahə ilə bağlı biliklərinin nə dərəcədə olması ilə maraqlanır.

Mətnin dərsliyə salınmasında əsas məqsəd şagirdləri memarlıq sənəti ilə tanış etmək, həmin sahəyə maraqlarını artırmaq, hər dövrün, hər xalqın özünəməxsus memarlıq ənənələrinə malik olmasını, dünya şöhrətli memarların olması ilə bağlı məlumatı onlara çatdırmaqdır.

Mətn həm məzmun, həm də struktur baxımından “Zivərbəy Əhmədbəyov” mətni ilə tutuşdurularaq şagirdlərdə dünya xalqlarının memarlıq sənətinin ortaq xüsusiyyətləri ilə bağlı təəssürat oyatmaq faydalı olar.

**Tədqiqat sualı.**

*Nə üçün məhz Əli Sinan Təbrizin baş memarı seçilmişdir?*

**Tədqiqatın aparılması.**

Mətn abzaslar şəklində 4 qrup arasında bölünür. Qruplar hər abzasdan Memar Əli ilə bağlı faktları toplayır, həmin faktların təqdimi ilə sualı cavablandırmağa çalışır.

Şagirdlər karusel üsulu ilə qruplarda lüğət üzrə iş aparmaq məqsədilə suallar tərtib edirlər (səh. 106, tapşırıq 1). Bir qrupun sualları digər qrup tərəfindən cavablandırılır. Karusel bitdikdən sonra auksion üsulu ilə şagirdlərə fərdi şəkildə mətnə sual yazmaq tapşırılır. Ən çox sual yazan şagirdin qalib olacağı elan olunur.

Müəllim işləmək üçün şagirdlərə aşağıdakı formada cədvəl təqdim edə bilər:

| Fakt | Əldə olunan məlumat |
|---|---|
| *Memar Əlinin Osmanlı dövlətinə aparılması* | *memarlıqda xüsusi istedadının olması* |

**Məlumat mübadiləsi və müzakirə.**

Tapşırıqlar əsasında təqdimat başlayır. 2-ci və 3-cü tapşırıqlar müzakirə olunur.

**Nəticənin çıxarılması.**

Təbrizli Əlinin fəaliyyətini izləyən Sultan Səlim memarlıq sahəsində onu yüksək bacarıq və istedad nümayiş etdirdiyinə görə sarayın baş memarı təyin edilmişdir.

**Ev tapşırığı** “Qalalar tariximizdir” adlı inşa yazmaq tapşırılır.

**Qiymətləndirmə** şagirdin özünüqiymətləndirməsi ilə aparıla bilər. Şagird uyğun xanada qeyd işarəsini qoymalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Məzmunun şərhində çətinlik çəkirəm. | Məzmunu ətrafımdakıların köməkliyi ilə şərh edirəm. | Məzmunu şərh edirəm. | Məzmuna öz kontekstimdən yanaşaraq şərh edirəm. |
| | | | ★ |
| Cümlələri məqsəd və intonasiyaya görə düzgün oxumaqda çətinlik çəkirəm. | Cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyarkən müəllimin köməyindən istifadə edirəm. | Cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyarkən müəyyən səhvlərə yol verirəm. | Cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyuram. |
| | | | ★ |
| Mətnə münasibətimi əlavə fakt və nümunələrlə zənginləşdirə bilmirəm. | Mətnə münasibətimi əlavə fakt və nümunələrlə əsaslandırmaqda çətinlik çəkirəm. | Mətnə münasibətimi əlavə fakt və nümunələrlə əsaslandırarkən müəllimin köməyindən istifadə edirəm. | Mətnə münasibətimi əlavə fakt və nümunələrlə əsaslandırıram. |
| | | | ★ |
| Şagirdin adı, soyadı, ata adı: ***Fateh Şahbazlı Uğur oğlu*** | | | |

## Mövzu: OSMANLI DÖVLƏTİNİN İLK BAŞ MEMARI – TƏBRİZLİ MEMAR ƏLİ (II saat)

**Standartlar:** 2.1.4., 3.1.2., 4.1.3.

**Məqsəd:** Fikirlərini məntiqi cəhətdən ardıcıl ifadə edir.
Məqsəd və intonasiya baxımından cümlələri düzgün oxuyur.
Mürəkkəb cümlədə durğu işarələrindən istifadə edir.

**İnteqrasiya:**

Azərbaycan dili – 4.1.1. Mürəkkəb cümlənin növlərini fərqləndirir. 3.1.2. Formalaşmış fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** anlayışın çıxarılması, interaktiv mühazirə, müzakirə

**Resurslar:** tabeli mürəkkəb cümlələrin tərkib hissələrinə aid müxtəlif sxemlər, iş vərəqləri

**Motivasiya.** Müəllim dərsə ötən dərsdə verilmiş tapşırığın yoxlanması ilə başlayır. Durğu işarələrinin cümlələrdə hansı dəyişikliklərə səbəb olmasını aydınlaşdırır. Dərslikdəki 9-cu tapşırıq üzərində iş aparılır. Mətn oxudulur. 9.1–9.5 nömrəli tapşırıqlar üzərində iş (kollektivlə) aparılır. 9.5 nömrəli tapşırıq tabeli mürəkkəb cümlələrin tərkib hissələrinin bağlanma vasitələrini müəyyənləşdirmək üçün bir istiqamətdir.

**Tədqiqat sualı.**
*Tabeli mürəkkəb cümlənin tərkib hissələri hansı yollarla bağlanır?*

**Tədqiqatın aparılması.**
Şagirdlər qruplara bölünür və onlara iş vərəqləri paylanılır. İş vərəqlərində dərslikdə verilmiş tapşırıqlar əks olunub: I qrupa 5-ci, II qrupa 6-cı, III qrupa 8-ci tapşırıq verilir.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri lövhədən asılaraq mürəkkəb cümlənin dilimizdə oynadığı rol barədə təqdimatlar dinlənilir.

**Nəticənin çıxarılması.**

Tabeli mürəkkəb cümlələr dilimizdə böyük rol oynayır. Fikrin təfərrüatlı ifadəsinə xidmət edir. Əsas və asılı tərəflərin köməyi ilə fikri dolğun çatdırmaq mümkün olur.

**Yaradıcı tətbiqetmə.**

3-4 mürəkkəb cümlə yazmaq tapşırıla bilər. Yaradıcı şagirdlərə fərdi qaydada hər hansı mövzuda tabeli mürəkkəb cümlələrin də iştirak etdiyi yığcam mətn (hər hansı tarixi bir binanın təsviri və s.) yazmaq tapşırılır.

**Qeyd.** Səhifə 110-da pazlların birləşdirilməsi ardıcıllığı belə olmalıdır: 5, 1, 6, 7, 8, 3, 4, 2.

**Ev tapşırığı.**

Lüğət üzrə iş verilə bilər (səh. 110).

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Şərhetmə, mühakiməyürütmə, istifadəetmə, ardıcıllığı müəyyənetmə meyarları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Fikirlərini məntiqi cəhətdən ardıcıl ifadə etmir. | Fikirlərində məntiqi cəhətdən ardıcıllıq pozulur. | Fikirləri məntiqi cəhətdən ardıcıldır. | Fikirlərində məntiqi cəhətdən ardıcıllığa tam riayət edir. |
| Məqsəd və intonasiyaya görə cümləleri çətinliklə oxuyur. | Cümlələri məqsədinə görə düzgün oxuyur. | Cümlələri intonasiyaya görə düzgün oxuyur. | Cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyur. |
| Durğu işarələrindən istifadə etməyi bacarmır. | Durğu işarələrindən bəzən istifadə edir. | Durğu işarələrindən istifadə edir. | Məqsəd və intonasiyaya görə durğu işarələrindən istifadə edir. |

## Mövzu: FİT QALASI (I saat)

**Standartlar:** 1.1.1., 1.1.2., 2.1.4.

**Məqsəd:** Mətnin məzmununu şərh edir.

Mətndəki fikirlərlə əlaqədar olaraq öz mühakimələrini yürüdür.

Fikirlərini məntiqi cəhətdən ardıcıl ifadə edir.

**İnteqrasiya:**

Coğrafiya – 2.1.8. Yaşadığı ərazinin təbii komponentlərinə dair topladığı məlumatları təqdim edir. 3.2.2. Tarixi-coğrafi regionları kontur xəritədə qeyd edir.

Azərbaycan tarixi – 3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati və sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

Riyaziyyat – 4.1.1. Törəmə ölçü vahidlərinin birindən digərinə keçir.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** anlayışın çıxarılması, müzakirə, diskussiyalı oxu

**Resurslar:** xəritə, lüğət, iş vərəqləri, müstəmləkə siyasətinin nəticələrini əks etdirən şəkillər, sənədli film

**Motivasiya.** Müəllim dərsə anlayışın çıxarılması üsulu ilə başlaya bilər. Aşağıdakı sxemin göstərilməsi məqsədəuyğundur:




"Qala" adı alındıqdan sonra mətnin oxudulması fayda verə bilər. Mətnin oxusundan sonra müəllim şagirdlərin ümumi şəkildə bu barədə biliklərinin nə

dərəcədə olması ilə maraqlanır. Xəritədə qalanın ərazisi şagirdlərə nümayiş etdirilir və tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı.**

*"Fit qalası"nın tarixi əhəmiyyəti nədən ibarətdir?*

**Tədqiqatın aparılması.**

Tədqiqat (səh. 112) sinfin 2 böyük qrupa bölünməsi ilə "müzakirə" əsasında aparılır. Daha sonra şagirdlər 4 qrupa bölünür. I qrupa dərslikdəki 5, 7-ci, II qrupa 2, 8-ci, III qrupa 3, 10-cu, IV qrupa 9-cu tapşırıq verilir.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri lövhədən asılaraq təqdimata başlanılır. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Müzakirə üçün 4-cü tapşırıq verilə bilər.

**Nəticənin çıxarılması.**

Şagirdlər müəyyənləşdirirlər ki, "Fit qalası"nın tarixi əhəmiyyəti böyükdür. Böyük istilalara sinə gərmişdir. Mətndən kifayət qədər yeni anlayışlar öyrənmək mümkündür.

**Ev tapşırığı** kimi 16-cı tapşırıq verilir.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Şərhetmə, mühakiməyürütmə, ifadəetmə meyarları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Məzmunun şərhində çətinlik çəkir. | Məzmunu ətrafın köməkliyi ilə şərh edir. | Məzmunu şərh edir. | Məzmunu öz kontekstindən yanaşaraq şərh edir. |
| Mühakimə yürütməkdə çətinlik çəkir. | Mühakimələrində qeyri-dəqiqliyə yol verir. | Mətndəki fikirlərlə əlaqəli mühakimə bildirir. | Verilmiş mətndəki fikirlərlə əlaqəli sərbəst şəkildə şəxsi mühakimələrini yürüdür. |
| Fikirlərini məntiqi cəhətdən ardıcıl ifadə etmir. | Fikirlərində məntiqi cəhətdən ardıcıllıq pozulur. | Fikirləri məntiqi cəhətdən ardıcıldır. | Fikirlərində məntiqi cəhətdən ardıcıllığa tam riayət edir. |

## Mövzu: FİT QALASI (II saat)

**Standartlar:** 2.1.2., 3.1.2., 4.1.3.

**Məqsəd:** Dialoq qurarkən nitq etiketlərindən istifadə edir.

Cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyur.

Mürəkkəb cümlədə durğu işarələrindən istifadə edir.

**İnteqrasiya:**

Azərbaycan dili – 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir. 4.1.2. Fakt və hadisələrə yazılı münasibət bildirir.

**İş forması:** kollektiv, kiçik qruplarla və cütlərlə iş

**Üsullar:** beyin həmləsi, müzakirə

**Resurslar:** dialoq nümunələri, tabeli mürəkkəb cümlələrin tərkib hissələrinin bağlanmasına aid sxemlər, iş vərəqləri

**Motivasiya.** Şagirdlərin ötən dərsdən hazırladıqları tədqiqatlar qrup şəklində dinlənilir. Diqqət təqdimatlarda şagirdlərin istifadə etdiyi cümlələrin quruluşuna və növünə yönəldilir. Şagirdlərin tabeli mürəkkəb cümlənin tərkib hissələrini bağlayan vasitələrlə bağlı əvvəlki dərslərdə öyrəndikləri soruşulur.

**Tədqiqat sualı.**

*Tabeli mürəkkəb cümlənin tərkib hissələri daha hansı vasitələrlə bağlanır?*

**Tədqiqatın aparılması.**

11, 12, 13 və 14-cü tapşırıqlar müəllimin seçimindən asılı olaraq kollektivlə və ya qrupla şifahi, yaxud yazılı şəkildə aparıla bilər. 15-ci tapşırıq fərdi qaydada aparılsa (və yaxud hər qrupdan bir şagirdə verilsə), daha məqsədəuyğun olar.

**Məlumat mübadiləsi və müzakirə.**

Şagirdlərin təqdimatından sonra mətn daxilindəki suallar müzakirə üçün verilir. 1-ci tapşırıq əsasında müzakirə aparılır. 2 və 3-cü tapşırıqlar icra olunur.

**Nəticənin çıxarılması.**

Tədqiqat nəticəsində müəyyənləşir ki, tabeli mürəkkəb cümlənin tərkib hissələri müxtəlif vasitələrlə bağlanır. Onlardan biri də şərt şəklinin şəkilçisidir.

**Ev tapşırığı.**

Seçilmiş tarixi abidə haqqında yığcam esse və ya inşa yazmağı tapşırmaq olar.

**Qiymətləndirmə** təlim məqsədlərinə uyğun olaraq sonda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. İstifadəetmə, düzgünoxuma, durğu işarələrini bilmək meyarlarına əsaslanmaq olar.

| I | II | III | IV |
|---|---|---|---|
| Dialoqlarda nitq etiketlərindən istifadə etməkdə çətinlik çəkir. | Dialoqlarda nitq etiketlərindən istifadə edərkən səhvlərə yol verir. | Dialoqlarda nitq etiketlərindən istifadə edir. | Dialoqlarda nitq etiketlərindən məqamına uyğun şəkildə istifadə edir. |
| Məqsəd və intonasiyaya görə cümləri çətinliklə oxuyur. | Cümlələri məqsədinə görə düzgün oxuyur. | Cümlələri intonasiyaya görə düzgün oxuyur. | Cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyur. |
| Durğu işarələrindən istifadə etməyi bacarmır. | Durğu işarələrindən bəzən istifadə edir. | Durğu işarələrindən istifadə edir. | Məqsəd və intonasiyaya görə durğu işarələrindən istifadə edir. |

## Mövzu: TSİN Şİ XUANDİNİN MƏQBƏRƏSİ (I saat)

**Standartlar:** 1.1.1., 1.1.2., 2.1.3.

**Məqsəd:** Mətnin məzmununu şərh edir.

Mətndəki fikirlərlə əlaqədar olaraq öz mühakimələrini yürüdür.

Müzakirədəki ümumiləşmiş fikirlərə münasibətini bildirir.

**İnteqrasiya:**

Coğrafiya – 3.2.1. Ölkələrin inkişafını tarixi-coğrafi baxımdan təhlil edir.

Ümumi tarix – 1.1.2. Oxşar tarixi faktların baş verdiyi tarixi şərait arasındakı fərqi müəyyən edir.

Təsviri incəsənət – 3.1.1. Bədii sənət əsərlərində milli-üslubi cəhətlərin estetik təsir xüsusiyyətlərini bədii ifadə vasitələrinə görə dəyərləndirir.

**İş forması:** kollektiv, qrupla iş

**Üsullar:** İnsert, klaster, qərarlar ağacı

**Resurslar:** Tsin Şi Xuandinin həyat və fəaliyyətinə, qəbul etdiyi qanunlara aid məlumatlar, heykəltəraşlıqda gil ilə işə dair məlumatlar, gil fiqurlardan nümunələr

**Motivasiya.** Müəllim dərsə "Çinin birinci imperatoru" sənədli filmindən epizodla başlaya bilər. Hökmdarın adı alındıqdan sonra mövzu İnsert üsulu ilə oxunaraq tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı.**

*Tsin Şi Xuandinin tarixdə rolu nədən ibarətdir?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 3 qrupa bölünür. I qrupa dərslikdəki 1, 5-ci, II qrupa 2, 6-cı, III qrupa 3 və 4-cü tapşırıqlar verilir.

**Məlumat mübadiləsi və müzakirə.**

Şagirdlər fikir mübadiləsi aparır. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün mətndaxili suallardan istifadə edə bilər. 7-ci tapşırıq icra edilir. Müzakirənin sonunda dərsin nəticəsi formalaşır.

**Nəticənin çıxarılması.**

Nəticədə müəyyən olunur ki, Tsin Şi Xuandinin Çin tarixində əvəzsiz rolu olmuşdur. İlk imperiyanın banisidir. Lövhədə çəkilmiş klasterlə hökmdar haqqındakı fikirlər ümumiləşdirilir.

**Yaradıcı tətbiqetmə.**

Qərarlar ağacı üsulu ilə hökmdarın mənfi, yoxsa müsbət olması barədə qərar çıxarılır. 8-ci tapşırıq icra olunur.

**Ev tapşırığı** kimi şagirdlərə qadın hökmdarlarımız haqqında məlumat toplamaq tapşırılır.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Şərhetmə, mühakiməyürütmə, münasibətbildirmə meyarları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Məzmunun şərhində çətinlik çəkir. | Məzmunu ətrafın köməkliyi ilə şərh edir. | Məzmunu şərh edir. | Məzmunu öz kontekstindən yanaşaraq şərh edir. |
| Mühakimə yürütməkdə çətinlik çəkir. | Mühakimələrində qeyri-dəqiqliyə yol verir. | Mətndəki fikirlərlə əlaqəli mühakimə bildirir. | Verilmiş mətndəki fikirlərlə əlaqəli sərbəst şəkildə şəxsi mühakimələrini yürüdür. |
| Müzakirədə iştirakda çətinlik çəkir. | Müzakirədə ətrafın dəstəyi ilə fikir bildirir. | Müzakirədə fikir bildirir. | Müzakirədəki ümumiləşmiş fikirlərə sərbəst münasibət bildirir. |

## Mövzu: TSİN Şİ XUANDİNİN MƏQBƏRƏSİ (II saat)

**Standartlar:** 3.1.1., 4.1.1., 4.1.3.

**Məqsəd:** Mətndə fərqləndirilmiş söz və ifadələrin mənasını izah edir.

Topladığı materiallar əsasında mətnlər yazır.

Mətndə durğu işarələrindən istifadə edir.

**İnteqrasiya:**

Ədəbiyyat – 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

**İş forması:** qrupla və fərdi iş

**Üsullar:** müzakirə, klaster, Venn diaqramı, təqdimat

**Resurslar:** lüğət, iş vərəqləri, sual ədatı ilə bağlanan tabeli mürəkkəb cümlə ilə bağlı sxemlər

**Motivasiya.** Dərsə qabaqlayıcı tapşırıq əsasında başlamaq mümkündür. Şagirdlər qadın hökmdarlarımızla bağlı topladıqları materialları təqdim edirlər. Məlumatlarda daha çox hansı cümlə növlərindən istifadə olunması şagirdlərdən soruşulur. 9-cu tapşırıq icra olunur. Dərslikdəki qrammatik qayda izah olunur və tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı.**

*Tabeli mürəkkəb cümlənin formalaşmasında sual ədatının rolu nədən ibarətdir?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 4 qrupa bölünərək verilmiş tapşırıqları həll edirlər. I qrupa dərslikdəki 10-cu, II qrupa 11-ci, III qrupa 12-ci, IV qrupa 13-cü tapşırıq verilə bilər. 13-cü tapşırığın cavabı *B* variantıdır.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri lövhədən asılaraq təqdimata başlanılır. Nəticəni asan çıxarmaq üçün klasterdən istifadə məqsədəuyğundur.

**Nəticənin çıxarılması.**

Mətndə cümlənin müxtəlif növlərindən istifadə olunmuşdur. Bu isə şagirdlərin söz ehtiyatının artırılması baxımından əlverişlidir. Sinonim və antonimlərin işlənməsi mətni daha da zənginləşdirir. Mətn orfoqrafiya lüğəti ilə işləməyə geniş imkanlar yaradır.

**Yaradıcı tətbiqetmə** kimi sual ədatı və sual əvəzlikləri ilə bağlanan tabeli mürəkkəb cümlələrin oxşar və fərqli cəhətlərini Venn diaqramına əsasən müəyyənləşdirmək verilir.

**Ev tapşırığı** kimi "Ritorik sual" anlayışını araşdırmaq və nümunələr toplamaq tapşırılır.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. İzahetmə, mətnqurma, durğu işarələrini bilmək meyarları nəzərə alınmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Mətndə fərqləndirilmiş sözlərin mənasını izah edir. | Mətndə fərqləndirilmiş ifadələrin mənasını izah edir. | Mətndə fərqləndirilmiş söz və ifadələrin kontekstə uyğun mənasını izah edir. |
| Topladığı materiallardan mətn qura bilmir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazmaqda çətinlik çəkir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazır. | Topladığı əlavə materiallar əsasında rabitəli mətnlər yazır. |
| Durğu işarələrindən istifadə etməyi bacarmır. | Durğu işarələrindən bəzən istifadə edir. | Durğu işarələrindən istifadə edir. | Məqsəd və intonasiyaya görə durğu işarələrindən istifadə edir. |

**Qeyd.** Qiymətləndirmə fərdi qaydada – şagirdin özünüqiymətləndirməsi ilə də aparıla bilər. Şagird uyğun xanada qeyd işarəsini qoymalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Topladığım materiallardan mətn qura bilmirəm. | Topladığım materiallar əsasında rabitəli mətnlər yazmaqda çətinlik çəkirəm. | Topladığım materiallar əsasında rabitəli mətnlər yazıram. | Topladığım əlavə materiallar əsasında rabitəli mətnlər yazıram. |
| | | | ★ |
| Durğu işarələrindən istifadə etməyi bacarmıram. | Durğu işarələrindən bəzən düzgün istifadə edirəm. | Durğu işarələrindən istifadə edirəm. | Məqsəd və intonasiyaya görə durğu işarələrindən düzgün istifadə edirəm. |
| | | | ★ |
| Şagirdin adı, soyadı, ata adı: | | | |

## Mövzu: **BÜLLUR PİRAMİDA**

**Standartlar:** 2.1.1., 2.1.4., 3.1.3., 4.1.1.

**Məqsəd:**
Mətndən seçilmiş sözləri normalara uyğun tələffüz edir.
Fikirlərini məntiqi cəhətdən ardıcıl ifadə edir.
Münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır.
Müxtəlif mənbələrdən istifadə əsasında mətn qurur.

**İnteqrasiya:**

Riyaziyyat – 3.2.1. Müstəvi üzərində paralelköçürmə anlayışını bilir və fiqurların çevrilməsinə onu tətbiq edir. 3.2.2. Hərəkət çevrilməsi anlayışını bilir və iki konqruyent fiqurdan birini digərindən hərəkət çevirməsi ilə alır.

Azərbaycan tarixi – 1.2.1. Eyni hadisəyə aid yazılı mənbələrdəki fərqli yanaşmaları müqayisə edir.

Təsviri incəsənət – 3.1.2. Təsviri sənətin növ və janrlarının xarakterik xüsusiyyətlərinin emosional təsirini dəyərləndirir və təqdimatlar edir.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** beyin həmləsi, auksion

**Resurslar:** həndəsi fiqurlardan nümunələr, Luvr muzeyi haqqında məlumat, videolent, lüğət, iş vərəqləri

**Motivasiya.** Müəllim dərsə müstəvidə fiqurun çevrilməsinə aid videonun nümayişi ilə başlayır. Daha sonra şagirdlərdən piramida ilə haralarda rastlaşdıqlarını soruşur. Mətn oxunur və tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı.**

*“Büllur piramida” mətnində nədən bəhs olunur?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 3 qrupa bölünür və onlara aşağıdakı iş vərəqləri paylanır: I qrupa 1, 4, 10-cu, II qrupa 2, 5, 11-ci, III qrupa 3, 6, 12-ci tapşırıqlar verilir.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri lövhədən asılaraq fikir mübadiləsi və müzakirə aparılır. Yekunda 9-cu tapşırıq müzakirə edilir.

**Nəticənin çıxarılması.**

Təqdimatlardan sonra məlum olur ki, mətn orijinal memarlıq abidəsinə həsr olunub. Ölkəmizdəki abidələrlə əlaqələndirilir, 13-cü tapşırıq icra olunur. Daha sonra müəllim şagirdlərin bölmə ilə bağlı fikirlərini ümumiləşdirir (tapşırıq 14).

**Yaradıcı tətbiqetmə.**

7-ci tapşırığa əsasən aparılır.

**Ev tapşırığı** kimi dərslikdəki 8-ci tapşırığa əsasən təqdimat hazırlamaq tapşırılır.

**Qiymətləndirmə** təlim məqsədlərinə uyğun olaraq sonda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. Tələffüzetmə, ardıcıllıq, əsaslandırma, mətnqurma meyarlarına əsaslanmaq olar.

| I | II | III | IV |
|---|---|---|---|
| Mətndən seçilmiş sözləri normalara uyğun tələffüz etmir. | Mətndən seçilmiş sözləri normalara uyğun tələffüz etməkdə çətinlik çəkir. | Seçilmiş sözləri tələffüz edərkən normalara uyğunlaşmağa çalışır. | Mətndən seçilmiş sözləri normalara tam uyğun şəkildə tələffüz edir. |
| Fikirlərini məntiqi cəhətdən ardıcıl ifadə etmir. | Fikirlərində məntiqi cəhətdən ardıcıllıq pozulur. | Fikirləri məntiqi cəhətdən ardıcıldır. | Fikirlərində məntiqi cəhətdən ardıcıllığa tam riayət edir. |
| Münasibətini çətinliklə əsaslandırır. | Münasibətini əlavə faktlarla əsaslandırır. | Münasibətini həyati nümunələrlə əsaslandırır. | Münasibətini əlavə fakt və mövzuya uyğun nümunələrlə əsaslandırır. |
| Topladığı materiallardan mətn qura bilmir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazmaqda çətinlik çəkir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazır. | Topladığı əlavə materiallar əsasında rabitəli mətnlər yazır. |

## Kiçik Summativ Qiymətləndirməyə nümunə

Şagirdin soyadı və adı:___________________________

Tarix:_____________ Sinif: __________________

## Qədim dövrlər və orta əsrlərin təsviri sənəti

Azərbaycan ərazisində ən qədim maddi mədəniyyət nümunələri e.ə. VIII minilliyə təsadüf edir. Qədim meqalitik abidələr, menhirlər, dolmenlər, mağaralar, müdafiə tikililəri, kurqanlar, metal alətlər, dulusçuluq, zərgərlik sənəti Azərbaycan yaşayış məskəni üçün xarakterik olmuşdur. Monumental qaya rəsmlərində xalqın mədəniyyəti və estetik təsəvvürləri öz **(ifadəsini, həllini)** tapmışdır. Füzuli şəhərinin yaxınlığındakı Azıx mağarası (uz. 215–220 m) Azərbaycanın dünyada ən qədim insan məskənlərindən biri olduğunu sübut edir.

Təsviri sənətin ən **(qədim, antik)** nümunələri arasında e.ə. VIII–V əsrlərdən qalmış Qobustan qaya təsvirləri, Kəlbəcər rayonunun Zalxa gölü ətrafında Ayıçınqılı və Pəriçınqıl dağlarındakı Tunc dövrünün başlanğıcına (e.ə. III minillik) aid rəsmlər, Ordubad şəhərindən şimalda Gəmiqaya dağlarındakı qayaüstü təsvirlər müstəsna əhəmiyyətə malikdir. Qobustanın “Böyükdaş”, “Kiçikdaş”, “Cingirdağ”, “Şonqardağ” və digər qayalarında **(həkk olunmuş, çəkilmiş)** rəsmlərdə, orada yaşamış qədim insanların həyat tərzi, məişəti, əməyi ilə əlaqədar təsvirlər xüsusi maraq doğurur. Burada ovçuluq, maldarlıq, əkinçilik və məişətin digər sahələri ilə bağlı müxtəlif süjetlər, səhnələr, insan və heyvan təsvirləri dinamik tərzdə həkk olunmuşdur. Qobustan qaya rəsmləri – piktoqramlar ibtidai icma quruluşundan feodalizm **(mərhələsinə, quruluşuna)** kimi çoxəsrlik, uzun tarixi dövrü əhatə edir.

Bədii metal məmulatlarının (torevtika) tərtibində də plastik formalara tez-tez təsadüf olunur. Mingəçevir, Torpaqqala və s. yerlərdən tapılmış gümüş camların, tuncdan hazırlanmış su qablarının üzərində maral, şir, tovuz quşu, buta təsvirləri verilmişdir. Bu dövrün dairəvi və qabartma heykəltəraşlıq nümunələrindən (tuncdan və daşdan) insan və heyvan təsvirləri, məişət, ov və dini ayinlərlə bağlı səhnələr üstün yer tutur. Şirvan-Abşeron memarlıq məktəbinə mənsub olan binalarda daş üzərində oyma sənəti nümunələri, həndəsi və nəbati naxışlar, Naxçıvan memarlıq məktəbini təmsil edən binaların dekorativ bəzəklərində isə şirli kərpicdən və kaşı bəzəklərindən ibarət ornament motivləri başlıca yer tutur.

Heykəltəraşlıq sənətinin ən **(məşhur, tanınmış)** nümunələri arasında XIII əsrdə Bakı limanında tikilmiş Şirvanşahların “Bayıl qəsri”, yaxud “Səbayıl” adlanan memarlıq abidəsi üzərindəki yazı və qabartma təsvirləri binanın dekorativ tərtibində həlledici rol oynamışdır. “Bayıl daşlarında” yazılarla birlikdə insan və heyvan (pələng, dəvə, at, öküz, quş) təsvirləri dərin oyma üslubunda işlənmişdir. Friz xarakteri daşıyan “Bayıl daşları” vaxtilə quruda yerləşən möhtəşəm memarlıq abidəsinin dekorativ elementini təşkil etmişdir.

**1. 1, 2 və 4-cü abzaslardakı mötərizələrdə verilmiş sözlərdən uyğun olanını seçin.**

a) ______________________
b) ______________________
c) ______________________
d) ______________________

**2. Mətnə əsasən Azərbaycan ərazisində ən qədim maddi mədəniyyət nümunələrinin tarixini müəyyənləşdirin?**

a) VIII minillik
b) e.ə. VIII minillik
c) VIII əsrin I yarısı
d) IX əsrin I yarısı

**3. Mətndə belə bir fakt yoxdur:**

a) Azərbaycan dünyada ən qədim insan məskənlərindən biridir.
b) Orta əsrlərdə Azərbaycan təsviri sənəti dekorativ tətbiqi sənətlə vəhdət təşkil etmişdir.
c) Qaya rəsmlərində xalqın mədəniyyəti və estetik təsəvvürləri öz ifadəsini tapmışdır.
d) “Azərbaycan memarlığı” jurnalı oxucuları milli memarlıqla tanış edir.

**4. Mətn haqqında nəyi demək olmaz?**

a) Tədqiqat əsasında yazılıb.
b) Maraqlı məlumatlar verilib.
c) Təsviri sənət haqqında təsəvvür oyadır.
d) Nümunələrə əsaslanmır.

**5. Mətn müəllifinin əsas məqsədidir:**

a) Təsviri sənətimizin tarixi barədə oxucunu məlumatlandırmaq
b) Bu sahədəki çatışmazlıqları qeyd etmək
c) İncəsənətin maddi və mənəvi dəyər olduğunu aşılamaq
d) Memarların düşüncələrini təbliğ etmək

**6. Mətnə əsasən Şirvan-Abşeron və Naxçıvan memarlıq məktəbləri arasındakı fərq hansı cavabda düzgün göstərilmişdir?**

a) I-də daş üzərində həndəsi və nəbati naxışlar, II-də kaşı bəzəklərindən istifadə olunurdu.
b) I-də daş üzərində oyma sənəti, həndəsi və nəbati naxış, II-də şirli kərpic və kaşı bəzəklərdən istifadə olunurdu.
c) I-də daş üzərində oyma sənəti, II-də şirli kərpic və kaşı bəzəklərindən istifadə olunurdu.
d) I-də daş üzərində qabartma sənəti və nəbati naxışlar, II-də kərpic və kaşı bəzəklərindən istifadə olunurdu.

**7. Mətn barədə deyilən fikirlərdən hansı düzdür?**

a) Məlumatlandırıcıdır
b) İstiqamətləndiricidir
c) İzahedicidir
d) Təsviridir

**8. Sadalananlardan hansı Azərbaycan yaşayış məskəni üçün xarakterik deyil?**

a) Dolmenlər b) Mağaralar c) Ehramlar d) Kurqanlar

**9. Mətndə mötərizədə tünd şriftlə verilmiş sözlərdən hansı işlənsə, daha düzgün olar?**

**10. 1-ci abzasda altından xətt çəkilmiş cümləni tabeli mürəkkəb cümlə şəklində yazın və bağlanma vasitəsini qeyd edin.**

**11. Cümlədə nöqtələrin yerinə uyğun olanını yazın və fikrinizi əsaslandırın.**

*Mətndə qırmızı rəngdə verilmiş cümlə quruluşuna görə ... cümlədir, çünki ... .*

**12. Bunlardan biri tabeli mürəkkəb cümlənin tərkib hissələrini bağlamır:**

a) *-sa*$^2$ şərt şəkilçisi
b) *ki* bağlayıcısı
c) *ilə* bağlayıcısı
d) intonasiya

**13. Mətndə göy rəngdə verilmiş sözlərin leksik mənasını yazın.**

**14. Fikri təxəyyülünüzə əsasən tamamlayın.**

*Mətndən bu qənaətə gəldim ki, ... .*

## MƏNƏVİYYAT CƏMİYYƏTİN TƏMƏLİDİR

- ❑ Konfutsinin əxlaq nəzəriyyəsi
- ❑ Nəsihət
- ❑ Dünyanı yandıran ah
- ❑ Yenə bir arzu qaldı…
- ❑ Mətn
- ❑ Düzgün qərar
- ❑ Peçenye oğrusu
- ❑ Körpü

## Mövzu: KONFUTSİNİN ƏXLAQ NƏZƏRİYYƏSİ (I saat)

**Standartlar:** 1.1.1., 1.1.2., 2.1.3.

**Məqsəd:** Mətnin məzmununu şərh edir.

Mətndəki fikirlərlə əlaqədar olaraq öz mühakimələrini yürüdür.

Müzakirədəki ümumiləşmiş fikirlərə münasibətini bildirir.

**İnteqrasiya:**

Həyat bilgisi – 2.1.1. İnsanın sosial proseslərdə iştirakını dəyərləndirir.

Ədəbiyyat – 2.2.1. Müzakirələrdə mövzuya, problemə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** İnsert, müzakirə

**Resurslar:** Konfutsi nəzəriyyəsi, "Ulu ata" Çin hikmətləri kitabı, iş vərəqləri və dövrə aid şəkillər

**Motivasiya.** Müəllim dərsə söz assosiasiyası ilə başlaya bilər. Aşağıdakı sualın verilməsi məqsədəuyğundur: İnsanın yaşadığı cəmiyyət və bu cəmiyyəti təşkil edən insanlarla rəftarı, özünüaparma qaydası necə adlanır? "Əxlaq" anlayışı alındıqdan sonra mətnin İnsert üsulu əsasında oxudulması fayda verə bilər. Mətnin oxusundan sonra (oxu zamanı 1-ci tapşırıq icra olunur) müəllim şagirdlərlə ümumi şəkildə tarixə aid biliklərinin nə dərəcədə olması ilə bağlı sorğu keçirməlidir. Bu həm də fənlərarası inteqrasiyanın uğurla reallaşmasına şərait yaradacaq. 2–4-cü tapşırıqlar şifahi şəkildə icra olunur. Müəllim tədqiqatı istiqamətləndirmək üçün sual formalaşdırmalıdır.

**Qeyd.** 16-cı tapşırıq motivasiya məqsədilə istifadə oluna bilər.

**Tədqiqat sualı.**

*Konfutsi nə üçün əxlaq nəzəriyyəsinin banisi sayılır?*

**Tədqiqatın aparılması:**

Şagirdlər 4 qrupa bölünərək verilmiş tapşırıqları həll edirlər. I qrupa dərslikdəki 5, 6-cı, II qrupa 7, 8 və 15-ci, III qrupa 9, 11-ci, IV qrupa 10, 12-ci tapşırıqlar verilə bilər.

**Məlumat mübadiləsi və müzakirə.**

Şagirdlər fikir mübadiləsi aparırlar. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün yönəldici suallardan istifadə edə bilər. Müzakirənin sonunda dərsin nəticəsi formalaşır.

**Nəticənin çıxarılması.**

Konfutsi Çin fəlsəfi sisteminə böyük təsir göstərmiş filosofdur. Konfutsiçilik e.ə. II əsrdə Çində rəsmi ideologiya kimi qəbul olunmuş, dövlət dini rolunu oynamış, çinlilərin dünyagörüşünə və həyat tərzinə əsaslı təsir göstərmiş və indi də göstərməkdədir.

**Yaradıcı tətbiqetmə** kimi 13-cü tapşırıq verilir.

**Ev tapşırığı.**

Şagirdlərə cütlər şəklində 15-ci tapşırığı hazırlamaq tapşırılır.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Şərhetmə, mühakiməyürütmə, münasibətbildirmə meyarları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Məzmunun şərhində çətinlik çəkir. | Məzmunu ətrafın köməkliyi ilə şərh edir. | Məzmunu şərh edir. | Məzmunu öz kontekstindən yanaşaraq şərh edir. |
| Mühakimə yürütməkdə çətinlik çəkir. | Mühakimələrində qeyri-dəqiqliyə yol verir. | Mətndəki fikirlərlə əlaqəli mühakimə bildirir. | Mətndəki fikirlərlə əlaqəli sərbəst şəkildə şəxsi mühakimələrini yürüdür. |
| Müzakirədə iştirakda çətinlik çəkir. | Müzakirədə ətrafın dəstəyi ilə fikir bildirir. | Müzakirədə fikir bildirir. | Müzakirədəki ümumiləşmiş fikirlərə sərbəst münasibət bildirir. |

## Mövzu: KONFUTSİNİN ƏXLAQ NƏZƏRİYYƏSİ (II saat)

**Standartlar:** 3.1.1., 4.1.2., 4.1.3.

**Məqsəd:** Mətndə fərqləndirilmiş söz və ifadələrin mənasını izah edir.
Ardıcıllığı gözləməklə dəyişikliklər edərək mətni təkmilləşdirir.
Mürəkkəb cümlələrdə durğu işarələrindən istifadə edir.

**İnteqrasiya:**

Azərbaycan dili – 3.1.2. Formalaşmış fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır.

İnformatika – 3.3.3. Multimedia təqdimatları hazırlayır.

**İş forması:** qrupla iş

**Üsullar:** müzakirə, təqdimat

**Resurslar:** lüğət, iş vərəqləri, vasitəsiz nitqlə bağlı sxemlər

**Motivasiya.** Dərsə qabaqlayıcı tapşırıq əsasında başlamaq mümkündür. Şagirdlər evdə hazırladıqları 15-ci tapşırığı oxuyurlar. Cümlələrin quruluşuna diqqət yetirilir. Fikirlərin birbaşa, yaxud dolayı yolla deyilməsinə fikir yönəldilir. Dərslikdəki qayda izah olunur və tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı.**

*Vasitəsiz nitqin hansı xüsusiyyətləri var?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 4 qrupa bölünərək verilmiş tapşırıqları həll edirlər. I qrupa dərslikdəki 17-ci, II qrupa 18-ci, III qrupa 19-cu, IV qrupa 20-ci tapşırıq verilə bilər.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri lövhədən asılaraq təqdimata başlanılır. Müəllim mətnin xarakterik cəhətlərini vurğulamaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Nəticəni asan çıxarmaq üçün klasterdən istifadə məqsədəuyğundur.

**Nəticənin çıxarılması.**

Başqasının nitqinin heç bir dəyişiklik edilmədən verilməsi vasitəsiz nitqdir. Müəllif nitqi ilə növbəli şəkildə verilə bilər. 14-cü tapşırığın bu mərhələdə yerinə yetirilməsi məqsədəuyğundur.

**Yaradıcı tətbiqetmə.**

21-ci tapşırıq əsasında aparılır.

**Ev tapşırığı** kimi inşa yazmaq (səh. 132, 22-ci tapşırıq) tapşırılır.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. İzahetmə, mətnqurma, mətni təkmilləşdirmə meyarları nəzərə alınmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Mətndə fərqləndirilmiş sözlərin mənasını izah edir. | Mətndə fərqləndirilmiş ifadələrin mənasını izah edir. | Mətndə fərqləndirilmiş söz və ifadələrin kontekstə uyğun mənasını izah edir. |
| Abzaslara dəyişiklik etməkdə çətinlik çəkir. | Dəyişikliklər zamanı qeyri-dəqiqliyə yol verir. | Mətnin abzaslarına dəyişikliklər edir. | Mətnin abzaslarına dəyişikliklər edərkən ardıcıllığı gözləyir. |
| Mürəkkəb cümlələrdə durğu işarələrindən istifadə etməyi bacarmır. | Mürəkkəb cümlələrdə durğu işarələrindən bəzən istifadə edir. | Mürəkkəb cümlələrdə durğu işarələrindən istifadə edir. | Mürəkkəb cümlələrdə məqsəd və intonasiyaya görə durğu işarələrindən istifadə edir. |

## **Mövzu:** **NƏSİHƏT (I saat)**

**Standartlar:** 2.1.2., 3.1.3., 4.1.3.

**Məqsəd:** Nitq etiketlərindən istifadə edir.

Mətnə münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır.

Durğu işarələrindən düzgün istifadə edir.

**İnteqrasiya:**

Həyat bilgisi – 2.2.1. Əsas insan hüquqlarının beynəlxalq hüquq normalarında təsbit olunduğunu əsaslandırır. 3.2.2. Bəşəriyyət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir.

Azərbaycan dili – 1.2.4. Ümumiləşmiş fikirləri yığcam şəkildə təqdim edir.

Ədəbiyyat – 3.1.3. 2,5–3 səhifə həcmində mühakimə, təsvir, müqayisə xarakterli mətnlər (inşa, esse, məruzə) yazır.

**İş forması:** cütlərlə və qrupla iş

**Üsullar:** beyin həmləsi, auksion, tənqidi oxu

**Resurslar:** "Mehman" filmi, vicdan azadlığını tərənnüm edən beynəlxalq konvensiyalar və qanunlarımız, lüğət, iş vərəqləri

**Motivasiya.** "İnsan hansı səhvlərə yol verə bilər" sualı ətrafında şagirdlərlə müzakirə aparılır. Fikirlər lövhəyə qeyd olunur. Süleyman Rəhimovun "Mehman" povestinin motivləri əsasında ekranlaşdırılmış "Mehman" filmindən müvafiq epizod nümayiş olunur. Daha sonra şifahi şəkildə yazıçının yaradıcılığı ilə bağlı auksion keçirilir. Mətnin epiqrafı üzərində iş aparılır (tapşırıq 18). Mətn oxunaraq tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı.**

*Əsərin əsas ideyası nədən ibarətdir?*

**Tədqiqatın aparılması.**

Şagirdlər cütlərə bölünürlər və onlara iş vərəqləri paylanılır. İş vərəqlərində qruplara dərslikdən tapşırıqlar verilir. I qrup 1, 2, 8, II qrup 3, 9, 13, III qrup 4, 7, 10, IV qrup 5, 12, 14-cü tapşırıqlar üzərində iş aparır.

7-ci tapşırığın cavabı “təbrik etiketləri”dir.

6-cı tapşırıq fərdi qaydada verilə bilər.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri lövhədən asılaraq fikir mübadiləsi və müzakirə aparılır. 15, 16 və 17-ci tapşırıqlar müzakirə üçün istifadə edilir.

**Nəticənin çıxarılması.**

Təqdimatlardan sonra məlum olur ki, mətndən oxunulmuş hissədə müəllim-şagird münasibətinin bariz nümunəsindən bəhs olunur. Bu epizod mənəvi saflığın, müəllim sadəliyinin, təvazökarlığının vurğulanması üçün tam uyğundur.

**Yaradıcı tətbiqetmə** kimi 11-ci tapşırıq verilir.

**Ev tapşırığı.**

“Məlikə xanımın nəsihətlərinə münasibət” mövzusunda esse yazmaq tapşırılır.

**Qiymətləndirmə** təlim məqsədlərinə uyğun olaraq cütlərlə aparıla bilər. Nitq etiketini bilmək, əsaslandırma, istifadəetmə meyarlarına əsaslanmaq olar.

| Cütlər / Meyarlar | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Nitq etiketlərindən istifadə edir. | | | | | | | | | | | | |
| Mətnə münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır. | | | | | | | | | | | | |
| Durğu işarələrindən düzgün istifadə edir. | | | | | | | | | | | | |
| Cəmi: | | | | | | | | | | | | |

## Mövzu: NƏSİHƏT (II saat)

**Standartlar:** 2.1.1., 4.1.1., 4.1.3.

**Məqsəd:** Mürəkkəb cümlələri qrammatik normalara uyğun tələffüz edir.
Müxtəlif mənbələrdən istifadə əsasında mətn qurur.
Mürəkkəb cümlələrdə durğu işarələrindən istifadə edir.

**İnteqrasiya:**

Azərbaycan dili – 1.1.1. Danışanın mövzuya münasibətini müəyyən etmək üçün tədqiqat xarakterli suallar verir.

**İş forması:** qrupla iş

**Üsullar:** interaktiv mühazirə, klaster

**Resurslar:** vasitəsiz nitqin müxtəlif konstruksiyalarına aid sxemlər, iş vərəqləri

**Motivasiya.** Şagirdlərə ötən dərsdə verilmiş tapşırıq dinlənilir və mətnlər cümlə quruluşu baxımından təhlil olunur. Diqqət vasitəsiz nitqlə bağlı olan cümlələrə yönəldilir və dərslikdə bununla bağlı qayda izah olunur. 19-cu tapşırıq oxunur. Mətndə işlənmiş durğu işarələrinin işlənilməsinə diqqət yetirilir. 20-ci tapşırıq üzərində müzakirə davam etdirilir. Sxem üzərində iş aparılır. Tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**

*Vasitəsiz nitq hansı hissələrdən ibarətdir? Onun dilimizdə əhəmiyyəti nədir?*

**Tədqiqatın aparılması.**

I qrupa 21-ci, II qrupa 22-ci, III qrupa 23-cü, IV qrupa 24-cü tapşırıq verilir.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri lövhədən asılaraq vasitəsiz nitqlə bağlı olan tapşırıqlar dinlənilir. Yekun müzakirədən sonra nəticəyə gəlinir.

**Nəticənin çıxarılması.**

Vasitəsiz nitq iki hissədən ibarət olur: müəllifin nitqi və vasitəsiz nitq. Vasitəsiz nitq müəllifin nitqindən əvvəl və sonra işlənə bilər.

**Yaradıcı tətbiqetmə** kimi 24-cü tapşırıqdakı hər hansı bir atalar sözünü seçib ifadə etdiyi məna haqqında kiçik mətn tərtib etmək tapşırılır.

**Ev tapşırığı.** Lüğət üzərində iş (səh. 138) tapşırılır.

**Qiymətləndirmə.**

Meyar cədvəlinə əsaslanmaq olar. Tələffüzetmə, istifadəetmə, mətnqurma meyarlarının səviyyələri üzrə qiymətləndirmə aparıla bilər.

| I | II | III | IV |
|---|---|---|---|
| Mürəkkəb cümlələri düzgün tələffüz etmir. | Mürəkkəb cümlələri qrammatik normalara uyğun tələffüz etməkdə çətinlik çəkir. | Mürəkkəb cümlələri tələffüz edərkən qrammatik normalara riayət etməyə çalışır. | Mürəkkəb cümlələri qrammatik normalara uyğun tələffüz edir. |
| Topladığı materiallardan mətn qura bilmir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazmaqda çətinlik çəkir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazır. | Topladığı əlavə materiallar əsasında rabitəli mətnlər yazır. |
| Mürəkkəb cümlələrdə durğu işarələrindən istifadə etməyi bacarmır. | Mürəkkəb cümlələrdə durğu işarələrindən bəzən istifadə edir. | Mürəkkəb cümlələrdə durğu işarələrindən istifadə edir. | Mürəkkəb cümlələrdə məqsəd və intonasiyaya görə durğu işarələrindən istifadə edir. |

## Mövzu: DÜNYANI YANDIRAN AH (I saat)

**Standartlar:** 1.1.1., 1.1.2., 2.1.3., 3.1.3.

**Məqsəd:** Mətnin məzmununu şərh edir.
Mətndəki fikirlərlə əlaqədar olaraq öz mühakimələrini yürüdür.
Müzakirədəki ümumiləşmiş fikirlərə münasibətini bildirir.
Mətndəki fikirlərə münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır.

**İnteqrasiya:**

Azərbaycan dili – 1.2.4. Ümumiləşmiş fikirləri yığcam şəkildə təqdim edir. 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.

Azərbaycan tarixi – 1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** beyin həmləsi, klaster, problemli vəziyyət

**Resurslar:** “Fəryad”, “Xoca” bədii filmləri, müqayisəli cədvəl, iş vərəqləri, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən faktlar, şəkillər

**Motivasiya.** “Xoca” və ya “Dolu” filmindən müvafiq fraqment nümayiş olunur. Beyin həmləsi ilə fərziyyələr alınır və mətn oxudulur. Daha sonra tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**

*Nə üçün mətn “Dünyanı yandıran ah” adlanır?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 3 qrupa bölünüb dərslikdə verilmiş tapşırıqlar əsasında işləyirlər. I qrupa 7, 8-ci, II qrupa 9, 10-cu, III qrupa 11, 12-ci tapşırıqlar verilir.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri lövhədən asılaraq təqdimata başlanılır. Təqdimatların xarakterinin açılması üçün əlavə suallar verilə bilər.

**Nəticənin çıxarılması.**

Şagirdlər müəyyənləşdirirlər ki, mətn illərdir davam edən, anaların göz yaşlarını səngiməyə qoymayan qanlı döyüşlərin dəhşətli nəticələrinə həsr olunub. Dərsdə klasterlə ümumiləşdirmə aparılır.

**Yaradıcı tətbiqetmə** 15-ci tapşırığa əsasən aparılır. Problemli vəziyyət yaradılır və şagirdlərə müqayisə aparmaq tapşırılır.

**Ev tapşırığı** kimi 13-cü və 14-cü tapşırığa əsasən təqdimat hazırlamaq, "qan yaddaşımız" haqqında faktlar öyrənmək tapşırılır.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Şərhetmə, mühakiməyürütmə, münasibətbildirmə, əsaslandırma meyarları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Məzmunun şərhində çətinlik çəkir. | Məzmunu ətrafın köməkliyi ilə şərh edir. | Məzmunu şərh edir. | Məzmunu öz kontekstindən yanaşaraq şərh edir. |
| Mühakimə yürütməkdə çətinlik çəkir. | Mühakimələrində qeyri-dəqiqliyə yol verir. | Mətndəki fikirlərlə əlaqəli mühakimə bildirir. | Verilmiş mətndəki fikirlərlə əlaqəli sərbəst şəkildə şəxsi mühakimələrini yürüdür. |
| Müzakirədə iştirakda çətinlik çəkir. | Müzakirədə ətrafın dəstəyi ilə fikir bildirir. | Müzakirədə fikir bildirir. | Müzakirədəki ümumiləşmiş fikirlərə sərbəst münasibət bildirir. |
| Münasibətini çətinliklə əsaslandırır. | Münasibətini əlavə faktlarla əsaslandırır. | Münasibətini həyati nümunələrlə əsaslandırır. | Münasibətini əlavə fakt və mövzuya uyğun nümunələrlə əsaslandırır. |

## Mövzu: DÜNYANI YANDIRAN AH (II saat)

**Standartlar:** 3.1.1., 3.1.2., 3.1.3., 4.1.3.

**Məqsəd:** Mətndə fərqləndirilmiş söz və ifadələrin mənasını izah edir.
Məqsəd və intonasiya baxımından cümlələri düzgün oxuyur.
Münasibətini əlavə fakt və nümunələrlə əsaslandırır.
Vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir.

**İnteqrasiya:**

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir. 4.1.2. Fakt və hadisələrə yazılı münasibət bildirir.

**İş forması:** qrupla iş

**Üsullar:** BİBÖ, müzakirə, təqdimat

**Resurslar:** lüğət, iş vərəqləri, tarixi faktlardan nümunələr

**Motivasiya.** Dərsə qabaqlayıcı tapşırıq əsasında başlamaq mümkündür. Mövzunun sonunda verilmiş tarixi faktlar müzakirə olunur. Şagirdlər ev tapşırığına əsasən topladıqları faktları təqdim edirlər. Təqdimatlarda daha çox hansı tip cümlələrdən istifadə olunması şagirdlərdən soruşulur. Diqqət müəllifin nitqinə və vasitəsiz nitqə yönəldilir. Dərslikdəki qayda izah olunur və BİBÖ cədvəli doldurulur. "İstəyirəm bilim" xanasına uyğun olaraq tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**

*Vasitəsiz nitq cümlənin hansı hissəsində işlənə bilər?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 4 qrupa bölünərək verilmiş tapşırıqları həll edirlər. I qrupa dərslikdəki 1–3-cü, II qrupa 4–6-cı, III qrupa 16, 17-ci, IV qrupa 18, 19-cu tapşırıqlar verilə bilər.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri lövhədən asılaraq təqdimata başlanılır. Müəllim mətnin xarakterik cəhətlərini vurğulamaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər.

**Nəticənin çıxarılması.**

Vasitəsiz nitq cümlənin müxtəlif hissəsində işlənə bilər. Müəllifin nitqindən əvvəl, sonra və ortada gələ bilər. BİBÖ cədvəlinin sonuncu xanası doldurulur.

**Yaradıcı tətbiqetmə** kimi 20-ci tapşırıq verilə bilər.

**Ev tapşırığı** kimi 21-ci tapşırıq verilə bilər.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. İzahetmə, düzgünoxuma, əsaslandırma, durğu işarələrindən istifadəetmə diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Mətndə fərqləndirilmiş sözlərin mənasını izah edir. | Mətndə fərqləndirilmiş ifadələrin mənasını izah edir. | Mətndə fərqləndirilmiş söz və ifadələrin kontekstə uyğun mənasını izah edir. |
| Məqsəd və intonasiyaya görə cümlələri çətinliklə oxuyur. | Cümlələri məqsədinə görə düzgün oxuyur. | Cümlələri intonasiyaya görə düzgün oxuyur. | Cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyur. |
| Münasibətini çətinliklə əsaslandırır. | Münasibətini əlavə faktlarla əsaslandırır. | Münasibətini həyati nümunələrlə əsaslandırır. | Münasibətini əlavə fakt və mövzuya uyğun nümunələrlə əsaslandırır. |
| Durğu işarələrindən istifadə etməyi bacarmır. | Durğu işarələrindən bəzən istifadə edir. | Durğu işarələrindən istifadə edir. | Məqsəd və intonasiyaya görə durğu işarələrindən istifadə edir. |

## **Mövzu:** YENƏ BİR ARZU QALDI

**Standartlar:** 1.1.1., 2.1.3., 4.1.1.

**Məqsəd:** Şeirin məzmununu şərh edir.

Müzakirədəki ümumiləşmiş fikirlərə münasibətini bildirir.

Müxtəlif mənbələrdən istifadə əsasında mətn qurur.

**İnteqrasiya:**

Ədəbiyyat – 2.1.2. Mövzuya, problemə müqayisələr, ümumiləşdirmələr aparmaqla münasibət bildirir.

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** anlayışın çıxarılması, auksion, müzakirə

**Resurslar:** lüğət, iş vərəqləri, Mikayıl Müşfiq, Bəxtiyar Vahabzadə, Cabir Novruzun seçilmiş əsərləri

**Motivasiya.** Müəllim dərsə anlayışın çıxarılması üsulu ilə başlaya bilər. Şagirdlərə Mikayıl Müşfiqin “Yenə o bağ olaydı” şeirində nöqtələrin yerinə lazım olan sözün tapılması tapşırıla bilər:

*Yenə o bağ olaydı, səni tez-tez görəydim,*
*Qələmə söz verəydim.*
*Hər gün bir yeni nəğmə, hər gün bir yeni ilham,*
*Yazaydım səhər, axşam.*
*...ya bax sevgilim, tellərindən incəmi?*
*Söylə, ürəyincəmi?*

“Arzu” sözünü ümumi və xüsusi isim kimi işlədən müəllim daha sonra şeirin oxusuna keçid ala bilər. Şeir oxunduqdan və Bəxtiyar Vahabzadənin yaradıcılığı şifahi auksionla soruşulduqdan sonra məzmunla bağlı tədqiqat sualı formalaşdırıla bilər.

**Tədqiqat sualı.**

*Şeirin əsas ideyası nədən ibarətdir?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 5 qrupa bölünür. I qrupa dərslikdəki 1–4-cü, II qrupa 5–8-ci, III qrupa 10–12-ci, IV qrupa 13 və 14-cü, V qrupa 17-ci tapşırıq verilə bilər.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri lövhədən asılaraq təqdimata başlanılır. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Müzakirə üçün şeirlərin müqayisəsi tapşırıla bilər.

**Nəticənin çıxarılması.**

Şagirdlər müəyyənləşdirirlər ki, anaların arzuları tükənməzdir. Milliyyətindən, irqindən asılı olmayaraq analar hamısı müqəddəs və əzizdir. Onları arzularına çatdırmaq bizim borcumuzdur.

**Yaradıcı tətbiqetmə** kimi 15-ci tapşırıq verilə bilər.

**Ev tapşırığı.**

9 və 16-cı tapşırıqlar yerinə yetirilir.
16-cı tapşırığın cavabı: *“Cənnət anaların ayaqları altındadır”.*

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır.
Şərhetmə, münasibətbildirmə, mətnqurma meyarları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Məzmunun şərhində çətinlik çəkir. | Məzmunu ətrafın köməkliyi ilə şərh edir. | Məzmunu şərh edir. | Məzmunu öz kontekstindən yanaşaraq şərh edir. |
| Müzakirədə iştirakda çətinlik çəkir. | Müzakirədə ətrafın dəstəyi ilə fikir bildirir. | Müzakirədə fikir bildirir. | Müzakirədəki ümumiləşmiş fikirlərə sərbəst münasibət bildirir. |
| Topladığı materiallardan mətn qura bilmir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazmaqda çətinlik çəkir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazır. | Topladığı əlavə materiallar əsasında rabitəli mətnlər yazır. |

## Mövzu: MƏTN (I saat)

**Standartlar:** 1.1.1., 1.1.2., 3.1.1.

**Məqsəd:** Mətnin məzmununu şərh edir.

Mətndəki fikirlərlə bağlı mühakimə yürüdür.

Mətndə fərqləndirilmiş ifadələrin mənasını izah edir.

**İnteqrasiya:**

Həyat bilgisi – 3.2.1. Mədəniyyətlərarası münasibətlərdə əxlaq və davranış normalarının ümumbəşəri əhəmiyyətini dəyərləndirir.

Azərbaycan dili – 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.

Ümumi tarix – 4.1.2. Topladığı materiallar əsasında tarixi şəxslərə dair esse və hekayələr yazır.

**İş forması:** fərdi və qrupla iş

**Üsullar:** anlayışın çıxarılması, Venn diaqramı, auksion, müzakirə

**Resurslar:** Vinston Çörçill və atası haqqında faktlar, “Nobel mükafatçıları” kitabı, Vinston Çörçillin seçilmiş əsərləri, lüğət, iş vərəqləri

**Motivasiya:** Müəllim dərsə anlayışın çıxarılması üsulu ilə başlaya bilər. 174-cü səhifədəki sxemin göstərilməsi məqsədəuyğundur:




Anlayış alındıqdan sonra tarixdən Çörçill haqqındakı fikirlər ümumiləşdirilərək belə bir məlumat vermək olar: "Vinston Leonard Spenser Çörçill ədəbiyyat sahəsində Nobel mükafatı alan ilk və yeganə hökumət başçısıdır. Yarım əsr ərzində Böyük Britaniya dövlətinə sədaqətlə xidmət edən, onun bir çox uğurlarına imzasını atan Çörçill təkcə böyük siyasətçi deyil, həm də zəmanəsinin görkəmli yaradıcı şəxsiyyətlərindən biri olmuşdur". Mətn hissələrlə oxudulub tərcümə edilir. Auksionla 1-ci tapşırığa əsasən "kim daha çox sual tərtib edər" oyunu keçirilir. Müəllim tədqiqatı istiqamətləndirmək üçün sual formalaşdırır.

**Tədqiqat sualı.**

*Mətni oxuduqdan sonra nə nəticəyə gəldiniz?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 3 qrupa bölünür. I qrupa dərslikdəki 2–4-cü, II qrupa 5–8-ci, III qrupa 9, 10, 12-ci tapşırıqlar verilə bilər.

**Məlumat mübadiləsi və müzakirə.**

İşlər təqdim olunduqdan sonra müzakirə aparıla bilər. Müzakirə üçün arqumentlər dərslikdə verilmişdir. 11-ci tapşırığın işlənməsi məqsədəuyğundur.

**Nəticənin çıxarılması.**

Əsərin mövzu və ideyasının aktuallığı təsdiqlənir. Müzakirənin sonunda müxtəlif fikirlər ortaya çıxır. Lakin mənəvi azadlığın labüdlüyü hər iki qrup tərəfindən təsdiqlənir.

**Yaradıcı tətbiqetmə** kimi 13-cü tapşırıq verilə bilər.

**Ev tapşırığı.**

Vinston Çörçillin sitatı əsasında (səh. 152) mətn qurmaq tapşırılır.

**Qeyd.** Səhifə 152-dəki pazlın ardıcıllığı: 5, 1, 3, 2, 6, 4.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Şərhetmə, mühakiməyürütmə, izahetmə meyarları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Məzmunun şərhində çətinlik çəkir. | Məzmunu ətrafın köməkliyi ilə şərh edir. | Məzmunu şərh edir. | Məzmunu öz kontekstindən yanaşaraq şərh edir. |
| Mühakimə yürütməkdə çətinlik çəkir. | Mühakimələrində qeyri-dəqiqliyə yol verir. | Mətndəki fikirlərlə əlaqəli mühakimə bildirir. | Verilmiş mətndəki fikirlərlə əlaqəli sərbəst şəkildə şəxsi mühakimələrini yürüdür. |
| Fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Mətndə fərqləndirilmiş sözlərin mənasını izah edir. | Mətndə fərqləndirilmiş ifadələrin mənasını izah edir. | Mətndə fərqləndirilmiş söz və ifadələrin kontekstə uyğun mənasını izah edir. |

## Mövzu: MƏTN (II saat)

**Standartlar:** 2.1.1., 4.1.1., 4.1.3.

**Məqsəd:** Mürəkkəb cümlələri qrammatik normalara uyğun tələffüz edir.

Müxtəlif mənbələrdən istifadə əsasında mətn qurur.

Vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir.

**İnteqrasiya:**

Azərbaycan dili – 1.1.1. Danışanın mövzuya münasibətini müəyyən etmək üçün tədqiqat xarakterli suallar verir. 4.1.4. Dialoqlarda və vasitəsiz nitqdə sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl edir.

**İş forması:** qrupla və fərdi iş

**Üsullar:** interaktiv mühazirə, klaster

**Resurslar:** vasitəsiz nitqin müxtəlif konstruksiyalarına aid sxemlər, dialoq nümunələri, iş vərəqləri

**Motivasiya.** Şagirdlər ötən dərsdə evə verilmiş Vinston Çörçillin sitatları əsasında hazırladıqları mətni təqdim edirlər. Mətndə işlənən sitat cümlə quruluşu baxımından təhlil olunur. Diqqət durğu işarələrinə yönəldilir və dərslikdəki qayda izah olunur. Tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**

*Vasitəsiz nitqin hansı özünəməxsus cəhətləri var?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 3 qrupa bölünür və onlara iş vərəqləri paylanılır. İş vərəqlərində dərslikdə verilmiş tapşırıqlar əks olunub: I qrupa 14, 15-ci, II qrupa 16-cı, III qrupa 17-ci tapşırıq verilir.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri lövhədən asılaraq təqdimatlar dinlənilir. Yekun müzakirədən sonra klaster əsasında nəticəyə gəlinir.

**Nəticənin çıxarılması.**

Vasitəsiz nitqdən dialoqlarda istifadə olunur. Yeni sətirdən yazılaraq qarşısında tire işarəsi qoyulur.

**Yaradıcı tətbiqetmədə** "Düzgün qərar vermək üçün ..." cümləsini tamamlamaq kimi tapşırıq verilə bilər.

**Ev tapşırığı** kimi 18-ci tapşırıq verilir.

**Qeyd.** Dərslikdə təqdim olunmuş layihənin növbəti mərhələsinin yerinə yetirilməsinə də diqqət edilməlidir.

**Qiymətləndirmə** zamanı meyar cədvəlinə əsaslanmaq olar. Tələffüzetmə, mətnqurma, istifadəetmə meyarlarının səviyyələri üzrə qiymətləndirmə aparıla bilər.

| I | II | III | IV |
|---|---|---|---|
| Mürəkkəb cümlələri düzgün tələffüz etmir. | Mürəkkəb cümlələri qrammatik normalara uyğun tələffüz etməkdə çətinlik çəkir. | Mürəkkəb cümlələri tələffüz edərkən qrammatik normalara riayət etməyə çalışır. | Mürəkkəb cümlələri qrammatik normalara uyğun tələffüz edir. |
| Topladığı materiallardan mətn qura bilmir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazmaqda çətinlik çəkir. | Topladığı materiallar əsasında rabitəli mətnlər yazır. | Topladığı əlavə materiallar əsasında rabitəli mətnlər yazır. |
| Vasitəsiz nitqdə durğu işarələrindən istifadə etməyi bacarmır. | Vasitəsiz nitqdə durğu işarələrindən bəzən istifadə edir. | Vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir. | Vasitəsiz nitqdə məqsəd və intonasiyaya görə durğu işarələrindən istifadə edir. |

## Mövzu: DÜZGÜN QƏRAR (I saat)

**Standartlar:** 1.1.1., 1.1.2., 2.1.4.

**Məqsəd:** Mətnin məzmununu şərh edir.

Mətndəki fikirlərlə əlaqədar olaraq öz mühakimələrini yürüdür.

Fikirlərini ardıcıl ifadə edir.

**İnteqrasiya:**

Həyat bilgisi – 2.1.1. İnsanın sosial proseslərdə iştirakını dəyərləndirir.

Ədəbiyyat – 1.1.2. Müxtəlif vəznli, süjetli bədii nümunələri ideya-məzmununa uyğun ifadəli oxuyur.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** suallar, beyin həmləsi, müzakirə

**Resurslar:** "Molla Nəsrəddin" jurnalından seçmələr, "Lətifələr" kitabı, lüğət, iş vərəqləri

**Motivasiya.** Müəllim dərsə açıq suallarla başlaya bilər. İlk jurnalımızın adını soruşmaq və təsisçisi haqqında məlumat vermək olar. Jurnalın nə üçün belə adlanması növbəti sual və müzakirə mövzusu ola bilər. Sonra mətn oxunaraq tədqiqat sualı çıxarıla bilər.

**Tədqiqat sualı.**

*Müəllif oxucuya hansı fikirləri çatdırmaq istəyir?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 3 qrupa bölünür. I qrupa dərslikdəki 1, 2-ci, II qrupa 3, 4-cü, III qrupa 5, 6, 7-ci tapşırıqlar verilir.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri lövhədən asılaraq təqdimata başlanılır. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Müzakirə üçün 8-ci tapşırıq verilə bilər.

**Nəticənin çıxarılması.**

Şagirdlər müəyyənləşdirirlər ki, müəllif mətndə insanlara düzgün qərar verməyin vacibliyini çatdırmaq istəyir. Səhv qərar səhv hökmlə nəticələnə bilər. Bu isə sonra vicdan əzabına düçar olmağımıza gətirib çıxarar.

**Yaradıcı tətbiqetmə** kimi 10-cu tapşırıq verilə bilər.

**Ev tapşırığı.**

9-cu tapşırığa əsasən sorğuların keçirilməsi və nəticəsinin ümumiləşdirilməsi tapşırılır.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Şərhetmə, mühakiməyürütmə, məntiqi ardıcıllıq meyarları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Məzmunun şərhində çətinlik çəkir. | Məzmunu ətrafın köməkliyi ilə şərh edir. | Məzmunu şərh edir. | Məzmunu öz kontekstindən yanaşaraq şərh edir. |
| Mühakimə yürütməkdə çətinlik çəkir. | Mühakimələrində qeyri-dəqiqliyə yol verir. | Mətndəki fikirlərlə əlaqəli mühakimə bildirir. | Verilmiş mətndəki fikirlərlə əlaqəli sərbəst şəkildə şəxsi mühakimələrini yürüdür. |
| Fikirlərini məntiqi cəhətdən ardıcıl ifadə etmir. | Fikirlərində məntiqi cəhətdən ardıcıllıq pozulur. | Fikirləri məntiqi cəhətdən ardıcıldır. | Fikirlərində məntiqi cəhətdən ardıcıllığa tam riayət edir. |

## Mövzu: DÜZGÜN QƏRAR (II saat)

**Standartlar:** 3.1.1., 3.1.2., 4.1.3.

**Məqsəd:** Mətndən seçilmiş sözlərin kontekstə uyğun mənasını izah edir.
Cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyur.
Vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir.

**İnteqrasiya:**

Azərbaycan dili – 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir. 4.1.4. Dialoqlarda və vasitəsiz nitqdə sözlərin böyük və kiçik hərflərlə yazılış qaydalarına əməl edir.

**İş forması:** qrupla iş

**Üsullar:** beyin həmləsi, müzakirə

**Resurslar:** sorğu, iş vərəqləri, lüğət

**Motivasiya.** Ötən dərsdə verilmiş sorğuların keçirilməsi və nəticəsinin ümumiləşdirilməsi tapşırığının hesabatı dinlənilir. Sorğular ümumiləşən zaman vasitəsiz nitqin vasitəli nitqə çevrilməsi hadisəsinə diqqət yönəldilir. Dərslikdə bununla bağlı verilən qrammatik qayda oxunur və tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı.**

*Vasitəli nitqin xarakterik cəhətləri hansılardır?*

**Tədqiqatın aparılması.**

Şagirdlər 3 qrupa bölünür. I qrupa dərslikdəki 11-ci, II qrupa 13-cü, III qrupa 14, 15 və 16-cı tapşırıqlar verilir.

**Məlumat mübadiləsi və müzakirə.**

Qrupların təqdimatından sonra müzakirə mövzusu üçün mətnə suallar verilir. Sualları sinfin səviyyəsinə uyğun olaraq müəllim özü də hazırlaya bilər.

**Nəticənin çıxarılması.**

Tədqiqat nəticəsində müəyyənləşir ki, mətndə çağırış və üsyanların vəhdəti duyulur. Dil və üslub baxımından zəngin mətndir. Müəllifin dəstxəti aydın sezilir.

**Yaradıcı tətbiqetmə.**

17-ci tapşırığa əsasən mətnin verilmiş meyarlara uyğun olub-olmaması yoxlanılır.

**Ev tapşırığı** kimi 12-ci tapşırığın icra edilməsi tapşırılır.

**Qiymətləndirmə** təlim məqsədlərinə uyğun olaraq sonda və ya müəyyən intervallarla mərhələli şəkildə aparıla bilər. İzahetmə, düzgünoxuma meyarlarına əsaslanmaq olar.

| I | II | III | IV |
|---|---|---|---|
| Fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Mətndə fərqləndirilmiş sözlərin mənasını izah edir. | Mətndə fərqləndirilmiş ifadələrin mənasını izah edir. | Mətndə fərqləndirilmiş söz və ifadələrin kontekstə uyğun mənasını izah edir. |
| Məqsəd və intonasiyaya görə cümlələri çətinliklə oxuyur. | Cümlələri məqsədinə görə düzgün oxuyur. | Cümlələri intonasiyaya görə düzgün oxuyur. | Cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyur. |
| Vasitəsiz nitqdə durğu işarələrindən istifadə etməyi bacarmır. | Vasitəsiz nitqdə durğu işarələrindən bəzən istifadə edir. | Vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir. | Vasitəsiz nitqdə məqsəd və intonasiyaya görə durğu işarələrindən istifadə edir. |

## Mövzu: PEÇENYE OĞRUSU (I saat)

**Standartlar:** 2.1.1., 3.1.1.

**Məqsəd:** Cümlələri qrammatik normalara uyğun tələffüz edir.

Mətndə fərqləndirilmiş söz və ifadələrin mənasını izah edir.

**İnteqrasiya:**

Həyat bilgisi – 3.2.1. Mədəniyyətlərarası münasibətlərdə əxlaq və davranış normalarının ümumbəşəri əhəmiyyətini dəyərləndirir.

Azərbaycan dili – 2.2.3. Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir.

Xarici dil – 3.1.1. Söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** beyin həmləsi, fasiləli oxu

**Resurslar:** Valeri Koksun seçilmiş əsərləri, nitq etiketinə dair nümunələr, lüğət, iş vərəqləri

**Motivasiya.** Dərsə aşağıda verilmiş suallarla başlamaq olar:

*"İnsan niyə bəzən kobud olur? Niyə bilmədən, istəmədən kiminsə xətrinə dəyir? Ürəyini qırır? Kobudluq nədən irəli gəlir? Bu, həmişəmi insanın özündən asılıdır? Kobudluq insanın zəifliyindən, yoxsa ətraf mühitə nifrətindən yaranır? Nə etmək olar ki, insan kobudluğundan əl çəksin?"*

Suallar ətrafında müzakirə apardıqdan sonra mətn oxunur və tədqiqat sualı çıxarılır.

**Tədqiqat sualı.**

*Mətndə əsas fikir nədən ibarətdir?*

**Tədqiqatın aparılması.**

Şagirdlər əvvəlcə kollektiv şəkildə mətndən əvvəl verilmiş tapşırığı icra edirlər. Daha sonra 3 qrupa bölünüb dərslikdə verilmiş tapşırıqlar əsasında işləyirlər. I qrupa 1–3-cü, II qrupa 4–6-cı, III qrupa 7, 9 və 10-cu tapşırıqlar verilir.

**Məlumat mübadiləsi və müzakirə.**

Müəllim mətnin xarakterik cəhətlərini vurğulamaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Müzakirə üçün 8-ci sual istifadə oluna bilər.

**Nəticənin çıxarılması.**

Mətndə səhv anlaşılma nəticəsində baş verən kobudluqdan bəhs olunur. Müəllif oxucuları öz hərəkətlərini götür-qoy etməyə, düşünüb-daşınmağa səsləyir.

**Yaradıcı tətbiqetmə.**

11-ci tapşırıq yerinə yetirilir.

**Ev tapşırığı.**

15-ci tapşırıq verilir.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Tələffüzetmə, izahetmə meyarlarına əsaslanmaq mümkündür.

| I | II | III | IV |
|---|---|---|---|
| Mətndən seçilmiş sözləri normalara uyğun tələffüz etmir. | Mətndən seçilmiş sözləri normalara uyğun tələffüz etməkdə çətinlik çəkir. | Seçilmiş sözləri tələffüz edərkən normalara uyğunlaşdırmağa çalışır. | Mətndən seçilmiş sözləri normalara tam uyğun şəkildə tələffüz edir. |
| Fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Mətndə fərqləndirilmiş sözlərin mənasını izah edir. | Mətndə fərqləndirilmiş ifadələrin mənasını izah edir. | Mətndə fərqləndirilmiş söz və ifadələrin kontekstə uyğun mənasını izah edir. |

## Mövzu: PEÇENYE OĞRUSU (II saat)

**Standartlar:** 3.1.2., 4.1.3.

**Məqsəd:** Məqsəd və intonasiya baxımından cümlələri düzgün oxuyur.
Vasitəsiz nitqdə durğu işarələrindən istifadə edir.

**İnteqrasiya:**
Azərbaycan dili – 3.1.2. Formalaşmış fikir və mülahizələrini həyat hadisələri ilə əlaqələndirərək əsaslandırır.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** klaster, Venn diaqramı, müzakirə

**Resurslar:** vasitəli nitqə aid nümunələr, sxemlər, iş vərəqləri

**Motivasiya:** Dərsə 13-cü tapşırıqdan istifadə etməklə başlamaq olar. Mətn oxunur, məzmun üzərində iş aparılır, "Peçenye oğrusu" mətni ilə əlaqələndirilir. 16-cı tapşırıq yerinə yetirilir. Diqqət vasitəli və vasitəsiz nitqdə verilmiş cümlələrə yönəldilir və qrammatik qayda təkrar olunur. Tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**
*Vasitəli və vasitəsiz nitqin hansı oxşar və fərqli cəhətləri var?*

**Tədqiqatın aparılması.**
Şagirdlər 4 qrupa bölünürlər və onlara iş vərəqləri paylanılır. İş vərəqlərində dərslikdə 14-cü tapşırıqda verilmiş suallar karusel üsulundan istifadə etməklə cavablandırılır.

**Məlumat mübadiləsi və müzakirə.**
İş vərəqləri lövhədən asılaraq təqdimat dinlənilir.

**Nəticənin çıxarılması.**

Vasitəli nitqdə başqasının nitqinin yalnız məzmunu verildiyi halda, vasitəsiz nitq olduğu kimi verilir. Vasitəli nitqdə başqasının nitqinin fonetik, leksik, qrammatik xüsusiyyətlərində, hətta intonasiyasında da dəyişiklik edilir, onun yalnız məzmunu saxlanılır. Vasitəsiz nitqdə isə dəyişiklik edilmir.

**Yaradıcı tətbiqetmə.**

17 və 18-ci tapşırıqlar yerinə yetirilir.

**Ev tapşırığı** kimi 19-cu tapşırığa uyğun olaraq mətnqurma verilə bilər.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Düzgünoxuma, durğu işarələrindən istifadəetmə meyarları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Məqsəd və intonasiyaya görə cümlələri çətinliklə oxuyur. | Cümlələri məqsədinə görə düzgün oxuyur. | Cümlələri intonasiyaya görə düzgün oxuyur. | Cümlələri məqsəd və intonasiyaya görə düzgün oxuyur. |
| Durğu işarələrindən istifadə etməyi bacarmır. | Durğu işarələrindən bəzən istifadə edir. | Durğu işarələrindən istifadə edir. | Məqsəd və intonasiyaya görə durğu işarələrindən istifadə edir. |

## Mövzu: KÖRPÜ

**Standartlar:** 1.1.1., 1.1.2., 3.1.1.

**Məqsəd:** Mətnin məzmununu şərh edir.
Mətndəki fikirlərlə əlaqədar olaraq öz mühakimələrini yürüdür.
Mətndə fərqləndirilmiş söz və ifadələrin mənasını izah edir.

**İnteqrasiya:**

Həyat bilgisi – 2.2.2. Bəşəriyyət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir. 3.2.1. Mədəniyyətlərarası münasibətlərdə əxlaq və davranış normalarının ümumbəşəri əhəmiyyətini dəyərləndirir.

**İş forması:** kollektiv və qrupla iş

**Üsullar:** beyin həmləsi, müzakirə

**Resurslar:** "Füyuzat" jurnalından nümunələr, lüğət, iş vərəqləri

**Motivasiya.** Müəllim "körpü salmaq" ifadəsinin hansı mənalarda işləndiyini soruşmaqla dərsə başlaya bilər. Daha sonra mətn oxunur və tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı.**
*Müəllifin oxucuya çatdırmaq istədiyi əsas fikir nədir?*

**Tədqiqatın aparılması.**
Şagirdlər 5 qrupa bölünürlər. I qrupa dərslikdəki 1–3-cü, II qrupa 4–6-cı, III qrupa 7–9-cu, IV qrupa 10–12-ci, V qrupa 13, 15, 17-ci tapşırıqlar verilə bilər.

**Məlumat mübadiləsi və müzakirə.**

İş vərəqləri lövhədən asılaraq təqdimata başlanılır. Müəllim tədqiqat işinin xarakterini açmaq üçün əlavə yönəldici suallardan da istifadə edə bilər. Müzakirə üçün 17-ci tapşırıq verilə bilər.

**Nəticənin çıxarılması.**

Şagirdlər müəyyənləşdirirlər ki, insanlar arasında xoş münasibətə vəsilə olmaq çox vacibdir. Onları xoş niyyətə səsləmək olduqca önəmlidir.

**Yaradıcı tətbiqetmə** kimi 18-ci tapşırıq verilə bilər.

**Ev tapşırığı** kimi 16-cı tapşırıq verilir.

**Qiymətləndirmə** meyar cədvəlinə əsasən standartların səviyyələri üzrə aparılır. Şərhetmə, mühakiməyürütmə, izahetmə meyarları diqqətdə saxlanılmalıdır.

| I | II | III | IV |
|---|---|---|---|
| Məzmunun şərhində çətinlik çəkir. | Məzmunu ətrafın köməkliyi ilə şərh edir. | Məzmunu şərh edir. | Məzmunu öz kontekstindən yanaşaraq şərh edir. |
| Mühakimə yürütməkdə çətinlik çəkir. | Mühakimələrində qeyri-dəqiqliyə yol verir. | Mətndəki fikirlərlə əlaqəli mühakimə bildirir. | Mətndəki fikirlərlə əlaqəli şəkildə şəxsi mühakimələr yürüdür. |
| Fərqləndirilmiş sözlərin mənasını çətinliklə izah edir. | Fərqləndirilmiş sözlərin mənasını müəllimin köməyi ilə izah edir. | Fərqləndirilmiş sözlərin mənasını izah edərkən müəyyən səhvlərə yol verir. | Fərqləndirilmiş sözlərin mənasını əsaslandırılmış şəkildə izah edir. |

**Kiçik Summativ Qiymətləndirmə**

**Şagirdin soyadı və adı:___________________________**

**Tarix:____________ Sinif: ____________**

**Yazmaq haqqında 12 "qanun"**

**1.** Yazma saatınızı tənzimləyin. Əgər yazmağa hələ də nifrət edirsinizsə, sonrakı bir saat üçün azadsınız. Sonrakı saatı qurutma maşınına paltar atıb, özünüz üçün bir zamanlayıcı olaraq da tənzimləyə bilərsiniz. Davamlı olaraq fərqli işlər görməyiniz sizə hadisələri qurmaqda lazımi yeni fikirləri, mənaları, fərqli qavrama yollarını yaradacaq parçalar verəcəkdir. Əgər hekayədə növbədəki hadisəni bilmirsinizsə, yataq örtüyünü dəyişdirin, kompüterinizin tozunu alın. Ağlınıza mütləq yaxşı bir fikir gələcəkdir.

**2.** Fərqli hekayə formalarından istifadə edin: İzləyiciləriniz təxmin edə biləcəyinizdən daha ağıllıdırlar. Fərqli zaman seçmək və hekayə formalarından istifadə etməkdən çəkinməyin. Filmlər hekayə izahı haqqında bizi öyrətdi və buna görə də izləyicinizi təəccübləndirmək təxmin edə bilməyəcəyiniz qədər çətin bir hal aldı.

**3.** Hekayənin skeletini qurduqdan sonra yazmağa başlayın: Bir səhnəni yazmağa oturmamışdan əvvəl bu səhnənin sizin hekayənizdə nə kimi bir anlamı olduğunu düşünün. Öncə nəyi qursanız, səhnə yaxşı bir nəticə verəcək? Hansı səhnə daha sonra gəlməlidir? Qurduğunuz intriqanı hansı şəkildə daha çox uzada bilərsiniz? İşləyərkən, avtomobil sürərkən, bir şey sınayarkən ağlınızda, sadəcə, bu sual olsun. Fikirlərinizlə əlaqəli qeydlər aparın.

**4.** Özünüzü təəccübləndirin: Əgər hekayəni sizi heyrətə salacaq bir nöqtəyə gətirə bilsəniz, oxucularınızı da təəccübləndirə bilərsiniz. Yaxşı planlanmış təəccübləndirici bir səhnə sizin o çoxbilmiş oxucunuzun fikirlərini dəyişdirəcəkdir.

**5.** İlişdiyiniz zaman əvvəldə yazdığınız səhnələri təkrar oxuyun: Orada kənarda qalmış personajlardan birini təkrar canlandırın.

**6.** Yazmağı yığıncaq təşkil etmək üçün bəhanə olaraq istifadə edin: Canınızın istədiyi qədər zamanı yazmağınıza dəyər verən və sizi dəstəkləyən insanlarla keçirin. Bu yazarkən tək başınıza keçirtdiyiniz zamanı nizamlayacaq. Əgər bir gün yazdığınız şeyi satsanız, yalnız keçirtdiyiniz zamanları qarşılayacaq bir məbləğ almayacaqsınız.

**7.** Özünüzü bilməzliyə buraxın: Bu kiçik tövsiyə yüzlərcə məşhurdan Tom Spanbauera, ondan mənə, məndən sizə ötürülür. Bir hekayəni şəkilləndirməyə izn verməyiniz hekayənin sonunu şəkilləndirməyə icazə verər. Tələsməyin, bir hekayə və ya kitabı bitirmək üçün özünüzü məcbur etməyin. Tək bilməyinizin lazım olduğu

şey bir sonrakı səhnə və ya bir neçə səhnədir. Başdan sona qədər bütün səhnələri bilməyiniz lazım deyil.

**8.** Obrazların adını dəyişdirin: Əgər hekayədə daha çox sərbəstliyə ehtiyac görürsünüzsə, qaralamadan-qaralamaya personajların adlarını dəyişdirin. Obrazlar gerçək deyillər və bu obrazlar siz də deyilsiniz. Kefinizdən asılı olaraq adları dəyişdirmək bir obraza məsafə qoymağınıza səbəb olar və beləliklə, bu obraza hər cür əziyyət verə bilərsiniz və ya daha pisi, əgər hekayədə ölməyi lazım gördüyünüz bir obrazı yox edin, öldürün.

**9.** Üç tip izah şəklini də istifadə edin: Bundan əmin deyiləm, amma bir seminarda dinlədiyim zaman mənə məntiqli gəldi. Üç tip bunlardır: təyinedici, öyrədici və canlı izah. Təyinedici: Günəş yüksəlmişdi. Öyrədici: Get, qaçma. İzahedici: Off. Əksər roman yazarları bu formaların bir, ya da ikisindən istifadə edirlər. Siz üçündən də istifadə edin. Hamısını bir-birinə qarışdırın. Çünki insanlar belə danışır.

**10.** Oxumaq istəyəcəyiniz bir kitab yazın: Sizin belə oxumaq istəməyəcəyiniz şeyləri niyə başqası üstəlik pul verib oxumaq istəsin?

**11.** Həvəslənmək üçün kitab üzü şəkli çəkdirin: Kitab üzündə istifadə etmək üçün şəklinizi çəkdirin və bunların neqativlərini və müəlliflik haqlarını alın.

**12.** Sizi, həqiqətən, üzən mövzular haqqında yazın: Onlar yazmağa dəyəcək yeganə şeylərdir. Həyatın bizim özümüzdən heç bir şey qata bilməyəcəyimiz ənənəvi, maraqsız və sıxıcı şeyləri yazmağa xərclənməyəcək qədər dəyərli olduğunu yenidən xatırlayın.

**1. Mətn oxucunu:**

a) Yazmağa istiqamətləndirir.
b) Səbirli olmağa səsləyir.
c) Yazı texnikalarını aşılayır.
d) Düşünməyə vadar edir.

**2. Mətn haqqında nəyi demək olar?**

a) Süjet xəttinə malikdir.
b) Həyəcanlandırıcı epizodlar var.
c) Hadisələr maraqlıdır.
d) Fərdi taktikalar məcmusudur.

**3. Mətnə uyğun gələn fikir hansıdır?**

a) Hər şey insanın iradəsindən asılıdır.
b) Ruh düşkünlüyü uçuruma aparır.
c) Özümüz özümüzü təkrarlamamalıyıq.
d) Cəmiyyət dahilərsiz keçinə bilməz.

**4. Mətnin adında nə üçün "qanun" sözü dırnaqdadır?**

a) Xüsusi isimdir.
b) Ümumi isimdir.
c) Əslində, qanun deyil.
d) Yazıçı belə hesab edir.

**5. Mətndə nəyin oxucuya hekayə sonunu əvvəlcədən təxminetmə bacarığı verdiyi qeyd edilir?**

a) Əsərlərin
b) Filmlərin
c) Əyləncələrin
d) Detektivlərin

**6. Yazıçının məqbul saydığı 3 izah tipindən biri deyil:**

a) Təyinedici
b) Yoxlayıcı
c) Öyrədici
d) İzahedici

**7. "İlişdiyiniz zaman əvvəldə yazdığınız səhnələri təkrar oxuyun" məsləhətini müəllif nə üçün verirdi?**

a) Təkrar oxuyub səhvi ortaya çıxarmağa
b) Sonrakı gedişatı müəyyənləşdirməyə
c) Kənarda qalmış obrazı təkrarlamağa
d) Sizi çaşdıran obrazı tapmağa

**8. "Hekayənin skeletini qurun" nə deməkdir?**

a) Hadisələrin ardıcıllığını müəyyənləşdirin.
b) Finalı əvvəldən görməyi bacarın.
c) Yaxşı başlanğıc forması seçin.
d) Baş qəhrəmanı müəyyənləşdirin.

**9. "İzləyiciləriniz təxmin edə biləcəyinizdən daha ağıllıdırlar" dedikdə müəllif nəyi nəzərdə tutur?**

a) Özünü ağıllı sayır.
b) İzləyiciləri səfeh sayır.
c) Özünü səfeh sayır.
d) İzləyiciləri ağıllı sayır.

**10. Müəllifin kitab üzü üçün şəkil çəkdirməyi tövsiyə etməkdə məqsədi nədir?**

a) Sadəcə, məsləhət vermək
b) Dizaynı müəyyənləşdirmək
c) Stimullaşdırıcı tədbir görmək
d) Müəlliflik hüququnu qorumaq

**11. Düzgün çevirməni müəyyən edin:**

a) Çoban Mahmud dedi: – Xanım, mən çobanam, ev işi bacarmaram. (İ.Əfəndiyev)
b) Çoban Mahmud dedi: – Xanım, o, çobandır, ev işi bacarmaz.
c) Çoban Mahmud dedi ki, o, çobandır, ev işi bacarmaz.
d) Çoban Mahmud dedi ki, o, çobandır, xanım, o, ev işi bacarmaz.

**12. Venn diaqramında vasitəli və vasitəsiz nitqi müqayisə edib, oxşar və fərqli cəhətlərini müəyyənləşdirin.**

**13. Vasitəsiz nitqi vasitəli nitqə çevirin.**

Nümunə: *Murad soruşdu: – Sən ki sarayda məşhur adam idin, bu nə gündür düşmüsən? – Murad soruşdu ki, o, sarayda məşhur adam idi, bu nə gündür düşüb?*

– Mən bilirəm, – Cibo Səfər qorxa-qorxa dilləndi.
– Hara gedək? – Əbih Sultan sanki öz-özündən soruşdu.
– Məni Əlincə qalasına Bəysunqur göndərməmişdi.
– Əbih Sultan Cibo Səfərə dedi: – Sən bura məhrəm adamsan. (F.Kərimzadə)

## AZƏRBAYCAN DİLİNİN ORFOQRAFİYA NORMALARI

### 1. Azərbaycan mənşəli sözlərin yazılışı

1.1. Azərbaycan dilinin lüğət tərkibindəki Azərbaycan mənşəli sözlər, əsasən, tələffüz edildiyi kimi yazılır: *addım, dəniz, gəlin, günəş, qoşun, oğul, qaranquş* və s.

1.2. Son səsi **[x]**, bəzən də **[ğ]** kimi tələffüz olunan Azərbaycan mənşəli sözlər **q** hərfi ilə yazılır: *ayaq, barmaq, bulaq, dayanacaq, qatıq, qonaq, qorxaq* və s. Bu qəbildən olan sözlərə saitlə başlanan şəkilçi qoşulduqda **q~ğ** əvəzlənməsi baş verir: *otağa, bulağın, qonağımız* və s.

1.3. Son səsi **[x']** kimi tələffüz olunan çoxhecalı Azərbaycan mənşəli sözlər **k** hərfi ilə yazılır: *bilək, birlik, külək, ürək, üzərlik, üzük* və s. Bu qəbildən olan sözlərə saitlə başlanan şəkilçi qoşulduqda **k~y** əvəzlənməsi baş verir: *biləyi, birliyimiz, ürəyim, üzüyün* və s.

1.4. **Qeyd.** Son səsi **[k]** kimi tələffüz olunan alınma sözlərə saitlə başlanan şəkilçi qoşulduqda heç bir dəyişiklik baş vermir: *əmlak – əmlaka, iştirak – iştirakımız, şərik – şəriki* və s.

1.5. Son səsi **[t]**, bəzən də **[d]** kimi tələffüz olunan çoxhecalı Azərbaycan mənşəli sözlər **d** hərfi ilə yazılır: *bulud, palıd, söyüd* və s.

1.6. Son səsi **[ç]**, bəzən də **[c]** kimi tələffüz olunan sözlər **c** hərfi ilə yazılır: *qılınc, ülgüc, kərpic* və s.

### 2. Alınma sözlərdə saitlərin yazılışı

2.1. Tərkibində **o** hərfi olan alınma sözlər **[a]** və ya **[o]** ilə tələffüz edilməsindən asılı olmayaraq, **o** ilə yazılır: *avt**o**mat, k**o**llec, k**o**llektiv, lab**o**rant, M**o**skva, m**o**tor, **o**byekt, **O**dessa, p**o**ema, p**o**eziya, pr**o**blem, pr**o**fessor, s**o**list, vel**o**siped* və s.

2.2. İkinci hecasındakı saiti **[i]**, bəzən də **[ü]** kimi tələffüz olunan ərəb mənşəli sözlər tarixi-ənənəvi prinsipə əsasən ***i*** ilə yazılır: *külli, müdir, müdrik, müflis, müxbir, müxlis, münbit, münsif, mürid, mürşid, müsibət* və s.

**Qeyd.** *Mühüm, müşkül* və *üfüq* sözlərindəki ikinci heca ***ü*** hərfi ilə yazılır.

2.3. Mənbə dildə **[u]** saitli alınma sözlər **ü** hərfi ilə yazılır: *b**ü**lleten, b**ü**ro, j**ü**ri, karb**ü**rator, komp**ü**ter, paraş**ü**t, s**ü**jet, şl**ü**z* və s.

2.4. Mənbə dildə **a** hərfi ilə bitən alınma sözlər iki cür yazılır:

2.4.1. *aksiom, anket, aptek, atmosfer, diaqram, diaspor, fabrik, fonem, kaset, kayut, konfet, kontor, qəzet, qrafem, qravür, leksem, lent, maşın, perspektiv, planet, proqram, pyes, reklam, rezin, sistem, sistern, sitat, teorem, vitrin* və s. kimi sözlərin sonunda **a** hərfi yazılmır;

Mənbə dildə tərkibində qoşa **b, p, n** və **m** samitləri olan aşağıdakı sözlərin sonunda **a** ilə yanaşı, qoşa samitlərdən biri də atılır: *abreviatur, qrup, ton, diaqram, stenoqram* və s.

2.4.2. *botanika, doktrina, forma, kamera, qrammatika, norma, poetika, poeziya, respublika, taktika* və s. kimi sözlərin sonunda **a** yazılır.

2.5. Mənbə dildə birhecalı sözlər iki cür yazılır:

2.5.1. iki saitlə yazılanlar: *cisim, eyib, ətir, feil, fəsil, fikir, heyif, isim, izin, qəbir, qədir, qisim, meyil, nəsil, ömür, səbir, sətir, sinif, şeir, şəkil, zehin* və s.;

2.5.2. bir saitlə yazılanlar: *cəbr, əmr, həbs, həsr, hökm, hüsn, hüzn, kəsr, qəbz, qəhr, qəsr, nəbz, nəfs, nəsr, sehr, sədr, üzr, üzv, zülm* və s.

### 3. Alınma sözlərdə samitlərin yazılışı

3.1. Rus dilində tərkibində **ц** hərfi olan alınma sözlərin yazılışında aşağıdakı qaydalar əsas götürülür:

3.1.1. ümumi isimlər **s** hərfi ilə yazılır: *aseton, dosent, konsert, lisey, kulminasiya, aksiya, sement, sirk* və s.;

**Qeyd.** *Metso, vitse* morfemləri və *blits, ratsiya* və s. sözlər istisnadır.

3.1.2. xüsusi isimlərdə sözün əvvəlində **s** *(Setkin, Siolkovski* və s.), sözün ortasında və axırında isə **ts** *(Motsart, Muromets, Vorontsov* və s.) yazılır.

3.2. Rus dilində tərkibində **щ** hərfi olan alınma sözlərin yazılışında aşağıdakı qaydalar əsas götürülür:

3.2.1. sözün əvvəlində və sonunda işlənən **щ** hərfi əvəzinə **ş** yazılır: *Şedrin, Şerba, Şors, borş* və s.;

3.2.2. ortasında **щ** hərfi olan sözlər qoşa **ş** ilə yazılır: *meşşan, Vereşşagin* və s.

3.3. **H** samiti ilə başlanan alınma sözlər **h** ilə yazılır: *Haaqa, Hamburq, harmoniya, Havana, Hegel, hektar, Heyne, hidrogen, hippodrom, hospital, humanizm* və s.

3.4. Birinci və ikinci hecasındakı samiti həm **[m],** həm də **[n]** kimi tələffüz olunan alınma sözlər **n** ilə yazılır: *anbar, günbəz, İstanbul, qənbər, sünbül, şənbə, tənbəl, zanbaq, zənbil* və s.

3.5. **-iy, -skiy** ilə bitən xüsusi isimlərin sonundakı **y** yazılmır: *Qordlevski, Qorki, Mayakovski, Yaroslavski* və s.

3.6. Kimyəvi element adları əslinə uyğun olaraq yazılır: *kalium, maqnezium, natrium* və s.

3.7. Əsli **[c]** samitli alınma sözlər **c** ilə də yazılır: *Cek London, cemper, Siciliya* və s.

3.8. Əsli **[q]** samitli alınma sözlər incə saitli hecalarda **g** ilə yazılır: *biologiya, dialektologiya, general, genezis, geologiya, gigiyena, etimologiya, gitara* və s.

3.9. Əsli **w** samitli alınma sözlər **v** hərfi ilə yazılır: *veb-sayt, Vilyam, vörd* və s.

3.10. Son səsi **[k']** kimi tələffüz olunan bir qrup alınma sözlər **q** hərfi ilə yazılır: *filoloq, ittifaq, müstəntiq, natiq, şəfəq, üfüq, vərəq* və s. Bu qəbildən olan sözlərin sonuna saitlə başlanan şəkilçi qoşulduqda, yazıda heç bir dəyişiklik baş vermir: *filoloqa, şəfəqi, üfüqə* və s.

### 4. Qoşasaitli və qoşasamitli sözlərin yazılışı

4.1. Kökündə eynicinsli qoşa və müxtəlifcinsli sait işlənən alınma sözlər qoşa saitlə yazılır: *ailə, bədii, camaat, əcaib, əmtəə, ideal, maaş, müalicə, okean, saat, stadion, zəif* və s.

4.2. Hecalarından biri **[p]** samiti ilə bitən, sonrakı hecasının ilk samiti **[b]** kimi tələffüz olunan sözlər qoşa **p** ilə yazılır: *guppultu, hoppanmaq, şappıltı, tappıltı, toppuz* və s.

4.3. Hecalarından biri **[k]** samiti ilə bitən, sonrakı hecasının ilk samiti **[g]** kimi tələffüz olunan sözlər qoşa **k** ilə yazılır: *mürəkkəb, mütəkkə, səkkiz* və s.

4.4. Hecalarından biri **[t]** samiti ilə bitən, sonrakı hecasının ilk samiti **[d]** kimi tələffüz olunan sözlər qoşa **t** ilə yazılır: *əlbəttə, hətta, Səttar* və s.

4.5. Hecalarından biri **[k']** samiti ilə bitən, sonrakı hecasının ilk samiti **[q]** kimi tələffüz olunan sözlər qoşa **q** ilə yazılır: *diqqət, doqquz, nəqqaş, saqqal* və s.

4.6. Mənbə dildə tərkibində **qq, ll, mm, pp**, **tt** samitləri olan Avropa mənşəli aşağıdakı alınma sözlər bir samitlə yazılır: *aqlütinativ, paralel, teleqram, aparat, apelyasiya, vat* və s.

4.7. Təkhecalı sözlərin sonunda qoşa samitin hər ikisi yazılır: *fənn, haqq, hiss, xətt, küll, rədd, sirr, zənn, zidd* və s.

Belə sözlərə samitlə başlanan şəkilçi artırıldıqda, qoşa samitlərdən biri düşür: *fənn – fənlər, haqq – haqsız, xətt – xətdən, sirr – sirlər* və s.

**Qeyd.** *Hiss* və *küll* sözləri istisnadır. *Hiss* sözünə yalnız **-siz** şəkilçisi artırıldıqda, kökdəki **s** samitlərindən biri ixtisar olunur.

4.8. Mənbə dildə qoşa samitlə bitən iki və ya çoxhecalı sözlər bir samitlə yazılır: *hüsnxət, kilovat, mühüm, rəsmxət* və s.

4.9. Söz ortasında qoşa **s** samiti olan aşağıdakı alınma sözlər bir **s** ilə yazılır: *aksesuar, kaset, masaj, pasaj, şose.*

4.10. Söz sonunda qoşa **s** samitli aşağıdakı alınma sözlər bir **s** ilə yazılır: *ekspres, konqres, kros, bras, stres.*

**Qeyd.** *Press (mətbuat)* sözü istisnadır.

### 5. Şəkilçilərin yazılışı

5.1. Tərkibində **a-, anti-, ba-, bi-, na-, pre-** ön şəkilçiləri olan sözlər bitişik yazılır: *anormal, antivirus, baməzə, bisavad, nalayiq, prepozisiya* və s.

**Qeyd. Anti** şəkilçisindən sonra xüsusi isim gəldikdə, defis işarəsi qoyulur: *Anti-Azərbaycan, Anti-Rusiya* və s.

5.2. Sözdüzəldici şəkilçilər aşağıdakı üç qaydaya əsasən yazılır:

5.2.1. ahəng qanununa tabe olmayan və **bir cür** yazılan şəkilçilər:

**-i** şəkilçisi: samitlə bitən sözlərdə **-i;** *cənubi, daxili, elmi, həyati, Naxçıvani, şimali, Şirvani, tarixi* və s.*;* saitlə bitən sözlərdə isə şəkilçinin əvvəlinə **v** samiti artırılır: *ailəvi, dairəvi, Gəncəvi, kütləvi* və s.;

**-vari** şəkilçisi: *buynuzvari, qalxanvari, üzükvari, yüngülvari* və s.;

**-keş** şəkilçisi: *qayğıkeş, zəhmətkeş, cəfakeş;*

**-daş** şəkilçisi: *yoldaş, əməkdaş, yurddaş, soydaş;*

**-stan** şəkilçisi: samitlə bitən sözlərdə şəkilçinin əvvəlinə ahəng qanununa uyğun olaraq **ı, i, u, ü** saitlərindən biri artırılır: *Dağıstan, Türkmənistan, Monqolustan, Türküstan;* saitlə bitən sözlərdə isə şəkilçi olduğu kimi qalır: *Gürcüstan;*

**-gil** şəkilçisi: *bacımgil, xalamgil, Əhmədgil* və s.;

**-zadə** şəkilçisi: *xanzadə, bəyzadə, Axundzadə* və s.;

5.2.2. **iki cür** yazılan şəkilçilər:

kar samitlə bitən sözlərdə: **-qan, -kən;** cingiltili samitlə bitən sözlərdə **-ğan, -gən** şəkilçisi: *çalışqan, yapışqan, döyüşkən, sürüşkən, deyingən* və s.*;*

**-ağan, -əyən** şəkilçisi: *qaçağan, güləyən, küsəyən* və s.;

5.2.3. **dörd cür** yazılan şəkilçilər:

**-kı, -ki, -ku, -kü** şəkilçisi: *axşamkı, bildirki, səhərki, gündüzkü* və s.;

sifət və isim düzəldən **-ı, -i, -u, -ü** şəkilçisi: *darçını, badımcanı, narıncı, çərkəzi, armudu, gümüşü* və s.;

saitlə bitən sözlərdə bu şəkilçinin əvvəlinə **y** samiti artırılır: *bənövşəyi, buğdayı, xurmayı, sürməyi* və s.

5.3. Feil köklərindən isim və sifət düzəldən şəkilçilər:

5.3.1. kar samitlə bitən sözlərdə:

**-qı, -ki, -qu, -kü** şəkilçisi: *asqı, seçki, pusqu, sürtkü* və s.;

**-qın, -kin, -qun, -kün** şəkilçisi: *satqın, bitkin, tutqun, ötkün* və s.;

5.3.2. cingiltili samitlə bitən sözlərdə:

**-ğı, -gi, -ğu -gü** şəkilçisi: *çalğı, vergi, vurğu, bölgü* və s.;

**-ğın, -gin, -ğun, -gün** şəkilçisi: *qırğın, əzgin, yorğun, süzgün* və s.

5.4. Rəqəmlə yazılan miqdar saylarına mənsubiyyət və hal şəkilçiləri əlavə edildikdə, şəkilçidən əvvəl defis qoyulur: *2-yə, 3-də, 5-i, 6-nın, 17-si, 20-dən.* Rəqəmlərdən sonra ahəng qanununa görə sıra sayının şəkilçisi ixtisarla **(-cı, -ci, -cu, -cü**) yazılır: *2-ci, 3-cü, 6-cı, 10-cu.*

5.5. Roma rəqəmlərindən sonra şəkilçi yazılmır: *beşinci – V, onuncu – X* və s.

## 6. Mürəkkəb sözlərin yazılışı

6.1. Aşağıdakı hallarda sözlər bitişik yazılır:

6.1.1. bir vurğu ilə deyilən müxtəlifmənalı sözlər: *arabir, balacaboy, beşillik, beşmərtəbəli, bugünkü, dilucu, əmioğlu, bacıoğlu, xalaoğlu, gülərüz, günəbaxan, hərgecəki, köhnəfikirli, qalxanabənzər, qanunvericilik, qarasaçlı, qurultayqabağı, müxtəliftərəfli, özbaşınalıq, soyuqqanlı, ucdantutma, ümumbəşəri, yenifikirli* və s.;

6.1.2. eyni feil kökünün təkrarı və **a, ə, ha** bitişdiriciləri vasitəsilə yaranan mürəkkəb isimlər: *qaçaqaç, kəsəkəs, gəlhagəl, tutatut, vurhavur* və s.;

**Qeyd.** Sözün kökü kar samitlə bitdikdə, ahəng qanununa görə **a, ə,** cingiltili samitlə bitdikdə isə **ha** bitişdiricisi yazılır. *Gethaget* sözü istisnadır.

6.1.3. eyni sözün təkrarı və ***ba, bə*** bitişdiriciləri vasitəsilə yaranan mürəkkəb zərflər: *addımbaaddım, aybaay, günbəgün, ilbəil* və s.

6.2. Tərkibində ***aero-, aqro-, audio-, avia-, avto-, ekzo-, endo-, elektro-, foto-, makro-, mikro-, mini-, mono-, multi-, nano-, neo-, oksi-, oliqo-, paleo-, para-, post-, proto-, psevdo-, psixo-, stereo-, super-, tele-, termo-, trans-, ultra-, ümum-*** morfemləri olan mürəkkəb sözlər bitişik yazılır: *aeroklub, aqromüxtəliflik, audioəlaqə, aviasalon,*

*avtopark, endoplazma, mikrocərrahiyyə, elektromaqnit, fotoçəkiliş, miniavtobus, monopredikativ, monokristal, multimilyonçu, nanotexnologiya, nanohissəcik, neofaşizm, neorealizm, oksitetrasiklin, oliqofreniya, paleoxəritə, paramaqnetizm, postsovet, psixonevroloji, postmodernizm, prototürk, stereotəsvir, superdövlət, supermarket, teletamaşa, termoaçar, transmilli, ultrasəs, ümumbəşəri* və s.

**Qeyd.** Bu morfemlərin bəziləri xüsusi isimlərə qoşulduqda defislə yazılır: *trans-Asiya, trans-Avropa, trans-Avrasiya, trans-Qafqaz, paleo-Azərbaycan, proto-Azərbaycan, ümum-Azərbaycan, ümum-Avropa* və s.

6.3. Tərkibindəki sözlərin səciyyəsindən asılı olaraq aşağıdakı mürəkkəb sözlər defislə yazılır:

6.3.1. qoşa sözlər: *adda-budda, aşıq-aşıq, az-maz, dedi-qodu, əzik-üzük, hələm-qələm, kağız-kuğuz, qara-qura, qonaq-qara, sür- sümük* və s.;

6.3.2. tərkibində **art-, eks-, əks-, kontr-, qeyri-, ober-, veb-, vitse-** morfemləri olan mürəkkəb sözlər: *art-obyekt, eks- prezident*, *əks-səda*, *kontr-admiral, qeyri-adi, qeyri-iradi, ober- leytenant, veb-dizayner*, *veb-səhifə, vitse-admiral;*

6.3.3. izafət birləşmələri: *həddi-büluğ, külli-aləm, külli-ixtiyar, nöqteyi-nəzər, tərcümeyi-hal, tərzi-hərəkət* və s.;

6.3.4. mürəkkəb coğrafi sözlər: *cənub-qərb, şərq-qərb, şimal-şərq* və s.;

6.3.5. tərkibində mənaca bir-birinə yaxın və ya əks anlayışları bildirən sözlər: *ab-hava, adlı-sanlı, ağıllı-kamallı, az-çox, baş-ayaq, dərə-təpə, dinməz-söyləməz, elə-belə, gec-tez, iki-üç, naz-qəmzə, nəvə-nəticə, ölüm-itim, pis-yaxşı, söz-söhbət, təhvil-təslim, ucsuz- bucaqsız* və s.;

6.3.6. ölçü vahidlərini bildirən isimlər: *kiloelektron-volt, kilovat- saat, qram-kalori* və s.;

6.3.7. birinci tərəfi sifətin dərəcə əlaməti kimi işlənən **açıq** və **tünd** sözlərinin, eləcə də müəyyən məna çaları bildirən **ala** sözünün iştirakı ilə yaranan mürəkkəb sifətlər: *açıq-sarı, tünd-göy, ala-seyrək* və s.

**Qeyd.** Tərkibində **təhər** morfemi olan sifətlər istisnadır: bu cür sözlər bitişik yazılır: *göytəhər, sarıtəhər* və s.

### 7. Köməkçi sözlərin yazılışı

7.1. **İdi, imiş, ikən** köməkçi sözləri adlardan (isim, sifət, say, əvəzlik), saitlə bitən zərflərdən və feillərdən sonra ayrı, samitlə bitən feillərdən sonra həm ayrı, həm də ilk saiti buraxılaraq, şəkilçiləşmiş variantlarda bitişik yazılır: *uşaq idi, uşaq ikən, uşaq imiş, gəlirkən, gəlirmiş, gəlməli idi, gəlməli ikən, gecə idi, gecə ikən, gəlməli imiş, gəlmiş imiş, gəlmişdi* və s.

**Qeyd.** Saitlə bitən feillərdən sonra gələn bu köməkçi sözlər ilk saiti buraxılaraq, **y** bitişdiricisinin əlavəsi ilə bitişik də yazıla bilər: *almalıydı, gəlməliymiş, alaydı, alasıydı, gəlməliydi* və s.

7.2. Qoşmalar iki cür yazılır:

7.2.1. təkhecalı qoşmalar **(-can, -cən, -dək, -tək)** aid olduqları sözə bitişik yazılır: *dağacan, evəcən, küçəyədək, quştək* və s.;

7.2.2. ikihecalı qoşmalar **(ilə, kimi, qədər, ötrü, təki, üçün)** aid olduqları sözdən ayrı yazılır: *gəmi ilə, adam kimi, ondan ötrü, sənin təki, şagird üçün* və s.

**Qeyd.** 1. **İlə** qoşması samitlə bitən sözlərdə ahəng qanununa uyğun olaraq **-la, -lə** şəklində bitişik yazıla bilər: *qatar**la**, qələm**lə*** və s.

2. *Etibarilə, məqsədilə, münasibətilə, vasitəsilə* sözləri bitişik yazılır.

7.3. Mənşəcə mürəkkəb olan bağlayıcılar bitişik yazılır: *çünki, habelə, halbuki, həmçinin, hərçənd, hərgah, nəinki, yaxud, yainki* və s.

7.4. Tərkibi bağlayıcılar və bağlayıcı sözlər ayrı yazılır: *belə ki, buna görə, buna görə də, bunun üçün, bununla da, daha da, guya ki, həm də, odur ki, ona görə də, ona görə, onun üçün də, tutaq ki, və ya, və yaxud, kim ki, o zaman ki, onda ki* və s.

7.5. Ədatlar aid olduqları sözlərdən ayrı yazılır: *daha gözəl, dedim də, di get, ən yaxşı, gör ha, lap pis, sən ki* və s.

**-mı, -mi, -mu, -mü; -sana, -sənə, -ca, -cə** ədatları aid olduqları sözlərə bitişik yazılır: *Qəşəngdir**mi**? Oxudu**mu**? A kos- kosa, gəl**sənə**, torbanı doldur**sana**! Yaxşı**ca** dincəldim. İndi**cə** gəlmişik* və s.

7.6. Eyni nidanın təkrarından əmələ gələn nidalar defislə yazılır: *bəh-bəh, ha-ha-ha, pəh-pəh, uy-uy, vay-vay* və s.

7.7. Müxtəlif sözlərdən əmələ gələn nidalar ayrı yazılır: *ay aman, ay haray.*

## 8. Birinci hərfi böyük yazılan sözlər

8.1. Ad, soyad, təxəllüs və ləqəb bildirən sözlərin (*bəy*, *oğlu* və *qızı* sözlərindən başqa) birinci hərfi böyük yazılır: *Nizami Gəncəvi, İmadəddin Nəsimi, Uzun Həsən, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə, Xan qızı Natəvan, Süleyman Sani Axundov, Üzeyir bəy Əbdülhüseyn oğlu Hacıbəyli, Mehdi Hüseynzadə, Səməd Vurğun, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə* və s.

**Qeyd.** Xüsusi isimlər cəm şəkilçisi qəbul etdikdə də böyük hərflə yazılır: *Nizamilər, Füzulilər, Hacı Qaralar, Həzi Aslanovlar, Mehdi Hüseynzadələr* və s.

8.2. Bədii əsərlərdə heyvanlara və cansız əşyalara verilən adlar böyük hərflə yazılır: *Alapaça, Badə, Bəng, Bozdar, Qırat, Məstan* və s.

8.3. Tarixi hadisələrin, dövrlərin, sülalələrin, eləcə də qədim yazılı abidələrin və s. adlarının birinci sözünün ilk hərfi böyük yazılır: *Azadlıq meydanı, Çaldıran döyüşü, Dəmir dövrü, Orxon-Yenisey abidələri, Sasanilər dövrü, Səfəvilər sülaləsi, Şuşa qalası, Versal sülhü, Vətən müharibəsi, Yeddiillik müharibə* və s. Belə mürəkkəb adlara fərqləndirici söz əlavə olunduqda, onun da birinci hərfi böyük yazılır: *Orta Paleolit dövrü, Son Paleolit dövrü.*

8.4. Ölkələrin, muxtar respublikaların, vilayət və diyarların rəsmi adlarının tərkibindəki bütün sözlərin ilk hərfi böyük yazılır: *Azərbaycan Respublikası, Birləşmiş Ərəb Əmirlikləri, İran İslam Respublikası, Naxçıvan Muxtar Respublikası* və s.

8.5. Səmavi kitabların, fəza cisimlərinin adları böyük hərflə yazılır: *Quran, Bibliya, Əhdi-cədid, Əhdi-ətiq, İncil, Tövrat, Zəbur, Ülkər, Günəş, Ay, Yupiter, Saturn, Venera* və s.

8.6. Yüksək dövlət vəzifələri *(Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Baş Naziri, Azərbaycan Respublikası Milli Məclisinin Sədri),* nazirlik, komitə, birlik, cəmiyyət, qurum, akademiya, universitet, texnikum, teatr, filarmoniya, siyasi partiya, eləcə də tarixi günlərin və s. mürəkkəb adların tərkibindəki bütün sözlərin *(adına, üzrə, yanında, qarşı* kimi yardımçı sözlərdən başqa) birinci hərfi böyük yazılır: *Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Yeni Azərbaycan Partiyası, Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı Şəhər İcra Hakimiyyəti, Ağstafa Rayon Təhsil Şöbəsi* və s.

**Qeyd.** 1. Tərkibində *gün* sözü olan və təqvimə düşən əlamətdar günlərin adlarında bütün sözlər böyük hərflə yazılır: *Beynəlxalq Ana Dili Günü, Beynəlxalq Qadınlar Günü, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü* və s.

2. Məşhur tarixi gün və bayram adlarında yalnız birinci sözün ilk hərfi böyük yazılır: *İyirmi yanvar, İyirmi səkkiz may, Səkkiz mart, Qurban bayramı, Novruz bayramı* və s. Həmin günlər rəqəmlə göstərilərsə, 20 Yanvar, 28 May, 8 Mart və s. rəqəmdən sonrakı birinci sözün ilk hərfi böyük yazılır.

3. *Azərbaycan Respublikasının Səhiyyə naziri, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri* tipli mürəkkəb adlarda sahə bildirən söz (*Səhiyyə*) böyük, vəzifə bildirən söz *(nazir)* kiçik hərflə yazılır.

4. Tərkibində *lisey, gimnaziya, vəqf, məktəb, fakültə, şöbə* sözləri olan mürəkkəb adlarda ilk söz böyük, sonrakı sözlər kiçik hərflə yazılır: *Avropa liseyi, Dəyanət vəqfi, Humanitar fənlər gimnaziyası, Humanitar siyasət məsələləri şöbəsi, Uşaq-gənclər şahmat məktəbi, BDU-nun Filologiya fakültəsi, Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsi* və s.

5. Tərkibində *okean, dəniz, çay, göl, şəhər, rayon, qəsəbə, kənd, prospekt, meydan, küçə, xiyaban, saray, qala, türbə, qoruq, boğaz, düz, ada, burun, körpü, düzənlik, dağ, səhra, dərə* sözləri olan adlarda ilk söz böyük hərflə yazılır: *Sakit okean, Xəzər dənizi, Qara dəniz, Kür çayı, Baykal gölü, Bakı şəhəri, Salyan rayonu, Şüvəlan qəsəbəsi, Hökməli kəndi, Neftçilər prospekti, Azadlıq meydanı, Əhməd Cavad küçəsi, Şəhidlər xiyabanı, Səadət sarayı, Ramana qalası, Möminə xatun türbəsi, Şirvan qoruğu, Dardanel boğazı, Mil düzü, Nargin adası, Xudafərin körpüsü, Culfa düzənliyi, Kəpəz dağı, Qaraqum səhrası, İynə burnu.*

8.7. Fəxri adların özək hissəsini təşkil edən ilk söz böyük hərflə, sonrakı sözlər kiçik hərflə yazılır: *Əməkdar müəllim, Əməkdar incəsənət xadimi, Xalq şairi* və s.

**Qeyd.** *Azərbaycanın Milli Qəhrəmanı, Sovet İttifaqı Qəhrəmanı* mürəkkəb adlarında hər üç söz böyük hərflə yazılır.

8.8. *Orden, medal, bədii əsər, opera, balet, kinofilm, qəzet, jurnal, kinoteatr, mehmanxana, nəşriyyat, kafe, restoran* və s. adları dırnaqda və böyük hərflə yazılır: *"İstiqlal" ordeni, "Azərbaycan Bayrağı" ordeni, "Ata və oğul" povesti, "Yeddi gözəl" baleti, "Uzaq sahillərdə" filmi, "Azərbaycan" qəzeti, "Cücələrim" kafesi, "Bahar" mağazası, "Badamlı" mineral suyu* və s.

**Qeyd.** Dırnaqda yazılan belə adlara artırılan şəkilçi dırnaqdan kənarda yazılır: *"Xalq qəzeti"nin bugünkü nömrəsi, "Yeddi gözəl"in ilk tamaşası* və s.

8.9. *Mirzə, hacı, şeyx, seyid, şah, sultan, bəyim* və s. sözlər *rütbə, ləqəb* və *titul* bildirib, aid olduğu sözlərdən əvvəl gəldikdə böyük hərflə, sonra gəldikdə isə kiçik hərflə yazılır: *Hacı Qara, Mirzə Fətəli, Nadir şah, Seyid Əzim, Sultan Süleyman, Şah İsmayıl, Şeyx Nəsrullah* və s.

**Qeyd.** *Ağa, bəy, xan, xanım* sözləri insan adlarının tərkib hissəsi kimi işləndikdə bitişik yazılır: *Ağacavad, Ağabəy, Əlibəy, Xanoğlan, Böyükxanım* və s. Həmin sözlər adlara qoşularaq titul kimi və ya hörmət məqsədilə işləndikdə isə ayrı yazılır: *Abbasqulu ağa Bakıxanov, Nəcəf bəy Vəzirov, Fətəli xan Xoyski, Fatma xanım Kəminə* və s.

## 9. İxtisar və qısaltmalar

9.1. İxtisar və qısaltmalar aşağıdakı kimi yazılır:

9.1.1. tam ixtisarlar və qısaltmalar aid olduqları sözlərə uyğun olaraq böyük hərflə yazılır: *Azərbaycan Respublikası – AR, Birləşmiş Millətlər Təşkilatı – BMT, Milli Məclis – MM* və s.;

9.1.2. tam ixtisarlar ümumi isimlərə aid olduqda kiçik hərflə yazılır: *metr – m, cild – c, və sairə – və s., və başqaları – və b.;*

9.1.3. yarımçıq ixtisarlar aid olduqları sözlərə uyğun olaraq, böyük və kiçik hərflərlə, mürəkkəb adların tərkib hissələri isə bitişik yazılır: *akademik – akad., doktor – dok., dosent – dos., professor – prof., Azərbaycan Nəşriyyatı – Azərnəşr* və s.

9.2. İxtisarlara əlavə edilən şəkilçilər son səsin tələffüzünə uyğun olaraq yazılır: *AMEA-dan, MDB-nin, UNESKO-nun, İSESKO-da, BDU-ya* və s.

## 10. Sözün sətirdən sətrə keçirilməsi

10.1. Sözlər sətirdən sətrə hecalarla keçirilir: *və-tən, mək-təb-li-lər* və s.

10.2. Sözün bir saitdən ibarət olan hecasını sətrin sonunda saxlamaq və ya yeni sətrə keçirmək olmaz: *a-ilə, a-zadlıq, iddi-a* və s. Bu qəbildən olan sözlər sətirdən sətrə bu şəkildə keçirilir: *ai-lə, azad-lıq, id-dia* və s.

10.3. Saylar rəqəmlə yazıldıqda, onlara artırılan şəkilçilər sətirdən sətrə keçirilmir: *5-cilər, 7-ci, 9-da* və s.

10.4. Mürəkkəb ixtisarlar və onlara artırılan şəkilçilər sətirdən sətrə keçirilmir.

10.5. Ad və ata adlarının bir hərfdən ibarət qısaltmalarını *(M.F.Axundzadə, M.S.Ordubadi, Y.V.Çəmənzəminli* və s.) sətrin sonunda saxlamaq olmaz.

10.6. Durğu işarələri yeni sətrə keçirilmir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. A.Bəylərova. Bədii dildə üslubi fiqurlar.
2. A.Dadaşov. Təhsil siyasəti. Açıq Cəmiyyət İnstitutu – Yardım fondu. Bakı, 2005.
3. A.Kazunov. Milli pedaqogika yollarında. Bakı, “Ağrıdağ”, 2001.
4. A.Mehrabov, İ.Cavadov. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı, 2007.
5. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2003.
6. “Azərbaycan Respublikasında ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası”. “Azərbaycan müəllimi ” qəzeti, 6 fevral 2009.
7. Azərbaycan Respublikası Təhsil Sahəsində İslahat Proqramı. Bakı, 1999.
8. Ə.A.Ağayev. Təlim prosesi: ənənə və müasirlik. Bakı, “Adiloğlu” nəşriyyatı, 2006.
9. Ə.Abbasov. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri.“Kurikulum” jurnalı, №1.
10. Ə.Ə.Əlizadə. İdrak prosesləri və hisslər. Bakı, ADPU, 2008.
11. Ə.Ə.Əlizadə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, “Pedaqogika”, 2004.
12. Ə.X.Paşayev, F.A.Rüstəmov. Pedaqogika (Yeni kurs), Bakı, “Nurlan”, 2007.
13. Ə.Qarabağlı. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı, 1968.
14. F.Kərimova, M.C.Əhmədova və b. İnteqrativ kurikulum: mahiyyəti və nümunələr. Bakı, “Adiloğlu”, 2005.
15. X.Qədimova. İnteraktiv təlim metodları, Bakı, 2005.
16. İ.İskəndərov. Azərbaycan Respublikasının təhsil sistemində islahatlar: fəaliyyət, nəticələr. “Kurikulum” jurnalı, 2008, №1.
17. 2009-cu il Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılması qaydaları. “Azərbaycan müəllimi” qəzeti, 11 sentyabr 2009 (layihə).
18. İnsan hüquqlarının tədrisi. Müəllimlər üçün vəsait. Norveç qaçqınlar şurası, 2003.
19. İnteqrativ kurikulum. Münhen, Niderland, Cito, yanvar, 2006. K.Quliyeva. İnteraktiv təlim ensiklopediyası. Bakı, 2010.
20. K.Quliyeva. İnteraktiv təlim ensiklopediyası. Bakı, 2010.
21. L.N.Qasımova. Pedaqogika (Mühazirə kursu). Bakı, 2003.
22. M.Əhmədova, M.Əliyev, M.Qasımlı və b. Müəllim hazırlığının və orta təhsilin yeni perspektivləri (Qərb təhsil sisteminin təcrübəsi əsasında). Bakı, “Adiloğlu”, 2005.
23. N.Abdullayev. Nitq mədəniyyəti.
24. S.Yusifova. “Ədəbiyyat fənn kurikulumunun təkmilləşdirilməsi”. Təhsilin müasir problemləri. 2010.
25. “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunu. “Azərbaycan müəllimi” qəzeti, 8 sentyabr 2009.
26. Ümumtəhsil məktəblərinin V–XI sinifləri üçün Azərbaycan dili proqramları. Bakı, 2015.
27. Ümumtəhsil məktəbləri üçün Azərbaycan dili dərslikləri.
28. Ümumi Təhsil Pilləsinin Dövlət Standartı və Proqramları (Kurikulumları). 2010.
29. Y.Kərimov. Seçilmiş əsərləri. Bakı, Pedaqogika, I–V cildlər, 2007.

## Buraxılış məlumatı

**AZƏRBAYCAN DİLİ 9**

*Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün*
*Azərbaycan dili (dövlət dili) fənni üzrə dərsliyin (qrif nömrəsi: 2020-049)*

**METODİK VƏSAİTİ**

**Tərtibçi heyət:**

Müəllif **Sevil Cavadova**

Buraxılışa məsul **Rafiq Kazımov**
Dizayner **Nurlan Nəhmətov**
Səhifələyici **Yeganə Rüstəmova**
Redaktor **Gültəkin Cəfərova**
Korrektor **Nübar Qarayeva**
Texniki redaktor **Sevinc Yusifova**
Baş redaktor **Nərgiz Cabbarlı**
Texniki direktor **Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru **Sevil İsmayılova**



**© Azərbaycan Respublikası Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və
yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi 10,4. Fiziki çap vərəqi 12,5. Formatı 70x100 $^{1}/_{16}$.
Kəsimdən sonra ölçüsü: 165x240. Səhifə sayı 200.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş_____. Tiraj 628. Pulsuz. Bakı – 2020

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 25.06.2020**

Nəşriyyat:
**“Şərq-Qərb” ASC**
**(Bakı, AZ1143, Hüseyn Cavid küç., 111)**

Çap məhsulunu istehsal edən:
**“Radius MMC” mətbəəsi**
**(Bakı şəhəri, Binəqədi şossesi, 53)**

Pulsuz